# AXİRƏT AZUQƏSİ

## BİRİNCİ CİLD

**MÜƏLLİF: DOKTOR MİSBAH YƏZDİ**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:..............................Axirət azuqəsi**
**Müəllif:..........................Doktor Misbah Yəzdi**
**Tərcümə edən:..........................Füzuli Şəfiyev**
**Nəşr edən:.....................................................Faiz**
**Çap tarixi:.....................................................2004**
**Çap növbəsi:..........................................Birinci**
**Tiraj:...............................................................3000**

# *PEYĞƏMBƏRİN (S) ƏBUZƏRƏ NƏSİHƏTLƏRİ*

## BİRİNCİ DƏRS

1. Bəndəlik və nicat yolu;
2. İbadət və Allah hüzurunun dərk edilməsi;
3. Allaha ibadət və bəndəlik, mö՚minlərin tərəqqi və yüksəliş vasitəsidir:
a) Allahı tanımaq;
b) Peyğəmbərə (s) iman gətirib, onun peyğəmbərliyini e՚tiraf etmək;
v) Peyğəmbərin (s) Əhli-beytinə məhəbbət;
4. Əhli-beytin Nuhun (ə) gəmisi və Bəni-İsrailin Hittə qapısına bənzədilməsi.

# *BƏNDƏLİK VƏ NİCAT YOLU*

Qarşınızdakı kitab, əziz peyğəmbərimiz həzrət Məhəmmədin (s) öz yaxın və uca məqamlı səhabələrindən biri olan Əbuzərə söylədiyi qısa və dərin məzmunlu nəsihətlərindən ibarətdir. Bu rəvayət cüz᾽i fərqlərlə «Məkarimul-əxlaq», «Əmaliyi Şeyx Tusi»,«Məcmueyi-vərram» və «Biharul-ənvar» kimi mö᾽təbər kitablarda qeyd olunmuşdur. Biz bu hədisin «Biharul-ənvar»da[1] olan nümunəsini seçib, bunun barəsində izah və təfsir verməyi qərara aldıq.

Əbul-əsvəd Duəli nəql edir: «Əbuzər, Rəbəzə adlı səhrada sürgündə olduğu zaman ona baş çəkməyə getmişdim. O, mənə belə bir əhvalat danışdı: «Bir gün sübh tezdən məscidə getmişdim. Peyğəmbərin (s) Əli (ə) ilə məsciddə tənha oturduqlarını gördüm. Salamlaşıb hal-əhval tutduqdan sonra fürsəti qənimət bilib həzrətə (s) yaxınlaşaraq, ərz etdim: «Atam-anam sənə qurban, mənə elə bir nəsihət et ki, bununla Allah-təala mənə xeyir və mənfəət yetirsin». Həzrət (s) buyurdu:

«Ey Əbuzər! Sən kəramətli bir insansan və biz Əhli-beytdən hesab olunursan»[2].

---

[1] Beyrut çapı, cild 74; İran çapı 77.

[2] Rağib İsfahani «Müfrədat» kitabında «kərəm» və «kəramət» kəlmələri barədə deyir: «Allah tərəfindən olan bütün xeyir və ne᾽mətlər «kərəm» adlandırılır. Bu söz insana aid edildikdə isə «xoşrəftar», «gözəl əxlaq» və «alicənablıq» mə᾽nalarını ifadə edir.

Bə᾽zi alimlərin fikrincə, «kərəm» sözü «hürriyyət» mə᾽nasınada da işlədilir. «Hürriyyət» sözündən həm kiçik, həm də böyük xeyirləri ifadə etmək üçün istifadə olunur. Lakin bundan fərqli olaraq, «kərəm» sözü yalnız «böyük xeyirlər» mə᾽nasınadır və ancaq «böyük yaxşılıqlar»a deyilir. Bütün mal-dövlətini İslam ordusunun təchiz edilməsinə sərf edən adam kimi» («Əl-müfrədat fi ğəribil-Qur᾽an»; «Darul-mə᾽rifət», səh. 428).

«Kəramət», qarşılığı çətin tapılan sözlərdəndir. «Əzəmət», «nəfasət», «şərafət», «izzət» və «səxavət» sözləri bu kəlmənin tam mə᾽nasını açıqlamır. Bu sözün geniş və dərin mə᾽nasını ifadə etmək üçün yalnız bunu qeyd etmək kifayətdir ki, bu sözdən Qur᾽ani-kərimdə yüksək dərəcədə və yuxarı mövqedə duran şəxs və əşyaların xüsusiyyətlərini

Ərəb dilində təəccüb və heyrət ifadə edərkən, «Əf`il bih» fe`l formasından istifadə olunur. Məsələn, birinin gözəlliyindən heyrətə gələn zaman «Əcmil bikə», yə`ni «nə qədər də gözəlsən!» deyirlər. «Əkrim bikə» sözü də «sən necə də kəramətlisən!» mə`nasını ifadə edir.

Peyğəmbərin (s) «kərim» sözünü Əbuzərə aid etməsi və onu Əhli-beytindən bilməsi, bu möhtərəm səhabənin o Həzrətin yanında olan yüksək izzət və hörmətinin əlamətidir. Peyğəmbər (s) bu sözü Salman Farsi barəsində də buyurmuşdur:

«Salman biz Əhli-beytdəndir».

Bundan sonra Peyğəmbər (s) nəsihətinə davam edərək buyurur: «Ümidvaram, sənə nəsihət olaraq dediyim bu sözləri yadda saxlayıb, əməl edəcəksən. Çünki bütün xeyir və xoşbəxtlik yolları, dediyim sözlərdə cəm olmuşdur. Əgər mənim bu vəsiyyətimə əməl etsən, dünya və axirət xeyrini əldə etmiş olacaqsan».

Yuxarıdakı cümlədə «vəsiyyət» sözü ölüm ayağında edilən vəsiyyətdən fərqli olaraq, «nəsihət», «öyüd» mə`nasında verilmişdir. Eləcə də, ərəbcə mətndə işlənilən «təriq», «səbil» sözlərinin hər ikisinin «yol» mə`nasında olmasına baxmayaraq, «təriq» «əsas və geniş yol», «səbil» isə «kiçik yol» mə`nasını ifadə edir.

Mətndə işlənilən «kiflan» sözü iki mə`na dayışır. Bu mə`nalardan biri «rəhmət» mə`nasındadır. Qur`anda gələn «كفلان» sözü də, bu mə`nada işlədilmişdir:

---

bəyan etmək üçün istifadə olunub. Biz bunlardan bir neçəsinə işarə edirik:

1. Allahın sifəti - «Nəhl» surəsi, ayə 40
2. Peyğəmbərin xüsusiyyəti - «Təkvir» surəsi, ayə 19
3. Ərşin xüsusiyyəti - «Mu`minin» surəsi, ayə 116
4. Mələklərin xüsusiyyəti - «İnfitar» surəsi, ayə 11
5. Həzrət Musanın (ə) xüsusiyyəti - «Duxan» surəsi, ayə 17
6. Həzrət Yusifin (ə) xüsusiyyəti - «Yusif» surəsi, ayə 31
7. Mö`minlərin behiştdə yerlərinin xüsusiyyəti - «Şüəra» surəsi, ayə 58
8. Mö`minlərin ruzisinin xüsusiyyəti – «Ənfal» surəsi, ayə 4.

«Ey iman gətirənlər, Allahdan qorxun və rəsuluna iman gətirin ki, Allah da sizə öz rəhmətini artıqlaması ilə inayət etsin»[1].

Əgər bunu nəzərə alsaq, Peyğəmbərin (s) sözünü aşağıdakı kimi mə͗nalandırmaq olar: «Əgər mənim nəsihətimə əməl etsən, ikiqat xeyrə qovuşacaqsan». Amma bu sözün ehtimal edilən digər mə͗nası, dünya və axirətdir. Belə olan halda, cümlənin mə͗nası bu cür olar: Əgər mən deyənə əməl etsən, dünya və axirət səadətini qazanmış olacaqsan.

## *İBADƏT VƏ ALLAH HÜZURUNUN DƏRKİ*

«Ey Əbuzər! Allaha, elə idabət et ki, sanki Onu görürsən. Çünki sən Onu görməsən də, O, səni görür».

Hədisin bu hissəsi mütəvatir[2] olmasa da, ən azı müstəfizdir[3]. Müxtəlif vasitələrlə Peyğəmbərdən (s) və əksərən də, müxtəlif tə͗birlərlə Əbuzərin özündən nəql olunmuşdur. Buna bənzər başqa bir hədisdə belə buyurulur: «Xeyir, Allaha sanki Onu görürmüş kimi ibadət etməkdədir».

Bəlkə də, Allaha bəndəçilik yolunda uzun illər qədəm götürmüş və səadətə qovuşmaq üçün Peyğəmbərin (s) göstərişlərindən bəhrələnmək istəyən Əbuzərə ən yaxşı nəsihət, ona ibadətdən faydalanmağın yolunu göstərmək olardı. O, qarşısında elə bir yolun açılmasını gözləyirdi ki, ibadətin şirinliyini ona dadızdırsın və bu da, ancaq bütün qəlblə, vücudla ibadətə sarıldıqda mümkündür. Buna, qəlbin ibadətə hazır olması, başqa sözlə desək, «hüzuri-qəlb» deyilir.

İnsanın ibadət zamanı hüzuri-qəlb tapması üçün davamlı olaraq çalışıb, sə͗y göstərməsi və Allah hüzurunda olmasını dərk etməsi lazımdır. İnsan daim özünü Allah hüzurunda bilməli və Onunla əlaqədə görməlidir. Çünki bir kəs Allahla ünsiyyət tapsa, heç vaxt Onunla danışmaqdan, sözünü eşitməkdən yorulmaz. Çünki aşiq öz mə͗şuqu ilə nə qədər çox ünsiyyətdə olarsa, ona daha çox bağlanar.

Bizim ibadət zamanı tez yorulmağımız və namazı tələsik qılıb öz işimizin dalınca getməyimiz namazı düzgün dərk etməməyimizdən

---

[1] «Hədid» surəsi, ayə 28.

[2] Müxtəlif məzhəblərdən olan ravilər tərəfindən müştərək halda qəbul olunur.

[3] Həddən artıq geniş yayılmışdır.

irəli gəlir. Əgər namaz bir az uzun çəkərsə, nəinki namazdan ləzzət almır, əksinə özümüzü dar bir qəfəsdə hiss edirik. Bütün bunlar kimin hüzurunda dayanmağımızı və kiminlə söhbət etdiyimizi dərk etməməyimizdən irəli gəlir. Mümkündür, adi elmi yolla bəndəlik və Allah dərgahında dayanmağın nə dərəcədə əhəmiyyətli olduğunu bilib, Allahın əzəmətinə diqqətimizi yönəldək. Lakin bu cür zehni məfhumlar bizim qəlbimizə tə᾽sir etmir və Allahla həqiqi rabitə qurmağımıza səbəb olmur.

Allahla həqiqi və düzgün rabitə yaratmağa səbəb olan amil, ibadət zamanı hüzuri-qəlb tapmaqdır. Bizim yerinə yetirdiyimiz ibadətlər ancaq şər᾽i təklifin boynumuzdan götürülməsi üçün olub, lazımı bəhrə vermir. Çünki ibadətlərimizin ruhu yoxdur və qəlbimiz ibadət zamanı qaib olur (hüzuri-qəlb tapmır). Dünya işləri ilə məşğuliyyət, bizləri Allahla ünsiyyət yaratmaqdan və qəlbi hazır görməkdən saxlayır. Bu, bizim üzləşdiyimiz əsas problemlərdəndir. Həmişə belə bir sual meydana çıxır: Namazda hüzuri-qəlb tapmaq üçün nə etmək lazımdır? Bunun üçün zəhmət və ruhi məşğələlər tələb olunur.

İlk öncə insan xəlvət bir guşəyə çəkilib, Allahın hər zaman ona nəzər salması və onu görməsi barədə düşünməlidir. Bə᾽zi əxlaq ustadları, bu işdə təxəyyül qüvvəsindən istifadə etməyi tövsiyə edirlər. Məsələn, təsəvvür edin ki, əgər bir otaqda və ya xəlvət, sakit bir yerdə oturmusunuz və bir nəfər də gizli bir yerdən sizin rəftarınıza diqqət edir, amma siz onu görmürsünüz. Sizi daim müşahidə edən şəxsin nəzarəti altında etdiyiniz rəftarla, adi halda olan rəftarınız bir olacaqdırmı? Xüsusən də, sizə nəzarət edən şəxsin adi bir insandan fərqli olaraq həddən artıq əhəmiyyət verdiyiniz, həyat müqəddəratınıza dəxalət edən, yanında əziz olmağa çalışdığınız və onun da sizi sevməsini arzu etdiyiniz biri olduğu halda, ona qarşı laqeyid ola bilərsinizmi? Ona e᾽tinasızlıq edib, başqa işlə məşğul ola bilərsinizmi?

Əgər insan davamlı olaraq Allah hüzurunda olduğunu, Allahın daim ona nəzər saldığını və onun Allahı görmədiyi təqdirdə belə, hər zaman Allahın onu gördüyünü özünə aşılaya bilsə, getdikcə ibadətində ruh əmələ gələcək və hüzuri-qəlb tapacaqdır. Belə olan halda ibadət ancaq təklifin götürülməsi üçün olmayıb, insanın mə᾽nəvi və ali tərəqqisinə, Allaha yaxınlaşmasına səbəb olacaqdır. Həzrət Əlinin (ə) bu kəlamı yuxarıdakı mətləbi bir daha sübut edir:

«Heç kəsin olmadığı xəlvət yerlərdə günah etməkdən çəkinin. Çünki sizin əməllərinizi müşahidə edən kəs, eyni zamanda əməllərinizin hökmünü verəcək hakimdir. (Çünki bu gün sizin əməllərinizin şahidi olan kəs, sabah (qiyamət günü) həmin əməllərin hökmünü verəcək hakimdir)»[1].

Deməli, indiyə qədər namazlarında hüzuri-qəlb tapa bilməyən şəxs, gün ərzində müəyyən bir vaxtı belə işlərə ayırmalı, xəlvət bir məkanda oturub Allahın onu hər zaman müşahidə etməsi barədə düşünməlidir. Əlbəttə, bizim hər zaman Allah məhzərində olmağımıza və Allahın bizi görməsinə şəkkimiz yoxdur. Necə ki, Qur᾿ani-kərimdə bir neçə yerdə bu məsələyə toxunulmuşdur. O cümlədən buyurulur:

«O (Allah), insanların xəyanətkar baxışları və ürəklərindən keçənlərə agahdır»[2].

Tələbələrdən biri danışırdı ki, ölüm ayağında can verən ustadımın başı üstünə getdim. Son nəfəsində ondan son dəfə olaraq mənə nəsihət etməsini xahiş etdim. Ustad çox çətinliklə dodaqlarını tərpədib buyurdu: «Məgər o bilmir ki, Allah onu görür?!»[3].

Həzrət Əli (ə) buyurur:

«Ey camaat! O Allahdan qorxun ki, siz danışanda eşidir, gizlətdiyinizi də bilir»[4].

Bu hədisin əvvəlində Həzrət (s) ibadəti, «insan səadətinin açarı» adlandırmış, daha sonra isə Allaha ibadətin mərhələləri barədə izahlar vermişdir. Əlavə olaraq, birinci mərhələdə ibadətin keyfiyyətinə tə`kid olunur və bildirilir ki, ibadətin də öz ruhu vardır və onun ruhu, ibadətdə hüzuri-qəlbin olmasıdır. Ümumiyyətlə, hədisdə ibadətin yerinə yetirilmə qaydasına deyil, yalnız keyfiyyət və mə᾿nəvi məsələlərinə işarə edilmişdir.

## *ALLAHA İBADƏT VƏ BƏNDƏLİK, MÖ᾿MİNLƏRİN YÜKSƏLİŞ VƏ TƏRƏQQİ VASİTƏSİDİR*

Qeyd edək ki, insanlığın həqiqəti, özünü Allaha ibadət və bəndəlikdə büruzə verir. İnsan, ibadəti olmadan digər canlılardan

---

1 «Nəhcül-bəlağə», Feyzül-islam, səh. 1240, hikmət 316.

2 «Ğafir» surəsi, ayə 19.

3 «Ələq» surəsi, ayə 14.

4 «Nəhcül-bəlağə», Feyzül-islam, səh. 1178, hikmət 194.

heç bir üstünlüyə malik deyil. Belə olan halda, ancaq təkvini dərəcələrdən faydalanacaq və heç bir şeyin haqqını lazımınca ödəməyəcəkdir. Allaha ibadətdən üz döndərən şəxs, həqiqətdə, insanlığın kamal yollarını öz üzünə bağlamış olur. Çünki insanlığın zirvəsinə qalxmaq, yalnız bu yolla müyəssər olur.

Böyük insanların həyat tərzinə nəzər salsaq görərik ki, Allaha bəndəlik onların yaşayış qanunlarının ayrılmaz hissəsidir. «Kəlimullah», «xəlilullah» və «həbibullah» dərəcəsinə yüksələnlərin hamısı, məhz bu yolu başa vurmaq və bu yolun çətin, əzab-əziyyətli imtahanlarına sinə gərməklə yüksək məqamlara yüksəlmişlər. Hətta elə bir insan tapmaq olmaz ki, Allaha bəndəçilik etmədən, ixtiyari kamal dərəcələrindən birinə yüksəlmiş olsun. Yuxarıda deyilənlərdən başqa, «riza məqamı» və «yəqin» kimi dərəcələrə yüksəlişin sirrini Allaha bəndəçilikdə axtarmaq lazımdır. Allah-təala Qur᾽anda buyurur:

«Pərvərdigarına ibadət et ki, yəqin dərəcəsinə çatasan»[1].

Və riza məqamı haqqında buyurur:

«Günəşin çıxmasından və batmasından əvvəl, qaranlıq gecənin müəyyən saatında və günorta yarısında Allahı zikr et ki, riza məqamına çatasan»[2].

Xalqı Allaha doğru yönəltmək, onları ibadətə səsləmək və haqdan qeyrisinə pərəstiş etməkdən çəkindirmək bütün peyğəmbərlərin vəzifəsi olmuşdur:

«Hər ümmətə bir peyğəmbər göndərdik ki, onlara tək olan Allaha ibadət etməyi və qeyri-haqqa pərəstişdən çəkinməyi çatdırsınlar»[3].

Qur᾽anın tə᾽kidlə vurğuladığı məsələlərdən biri də, bütün varlıqların istər-istəməz Allaha ibadət, bəndəçiliklə məşğul olmasıdır:

«**Yerdə və göydə olan hər şey Allahı təsbih etməklə məşğuldurlar**»[4]. Lakin bu cür bəndəçilik təkvini olub, insanın kamala çatmasında rol oynamır. İnsanın kamala çatması, onun öz ixtiyarı ilə Allaha bəndəçilik etməsindədir. Əgər belə olmasaydı,

---

1 «Hicr» surəsi, ayə 99.

2 «Taha» surəsi, ayə 130.

3 «Nəhl» surəsi, ayə 36.

4 «Cüm᾽ə» surəsi, ayə 1.

təkvini bəndəçilik yolu ilə, hətta dağlar, daşlar belə son kamal nöqtəsinə yüksələrdilər.

Allaha ibadətin əhəmiyyət və dəyərini bildirmək üçün Allah-təala Qur᾽anda insan və cinləri yaratmaqda son hədəfinin ibadət olduğunu bəyan etmişdir:

«Mən cinləri və insanları ancaq Mənə ibadət etsinlər deyə yaratdım»[1].

Bunlardan əlavə, pərəstiş hissi insanın fitri xüsusiyyətlərindəndir. Yə᾽ni ibadətə ehtiyac hissi insanın fitri istəyidir və biz millətlərin, dinlərin tarixinə nəzər yetirsək görəcəyik ki, tarix boyu elə bir millət, cəmiyyət tapmaq olmaz ki, onların arasında müəyyən bir ibadət və pərəstiş növü olmasın.

## *ALLAHA BƏNDƏÇİLİYİN MƏRHƏLƏLƏRİ*

### *a) ALLAHI TANIMAQ*

Hədisin davamında, Həzrət (s) ibadətin mərhələlərini bəyan edərək buyurur:

«Ey Əbuzər, bil ki, Allaha ibadətin birinci mərhələsi Onu tanımaqdır. O, hər şeydən əvvəldir. Ondan əvvəl heç bir şey yoxdur, yeganə və təkdir, bənzərsizdir, əbədidir, sonu yoxdur. Yeri və göyləri, onlarda və onların arasında olan hər şeyi O yaradıb. Allah mehriban olub, hər şeyi biləndir və hər bir işə qadirdir»[2].

Hədisin bu hissəsində ibadət və Allahı tanımağın ilkin mərhələsi haqqında söhbət edilir. Allaha mə᾽rifətin müxtəlif mərhələləri vardır, lakin Allaha bəndəçilikdə zəruri hesab olunan ilkin şey, Allahı icmali olaraq tanımaqdır. İnsan bilməlidir ki, Allah vardır və O, dünyanın və insanın yaradıcısıdır. Əgər insan bu tanışlığı əldə edə bilməsə, Allaha ibadət mərhələsinə yüksələ bilməz. Başqa sözlə desək, Allaha tərəf gedən yolda Allahı tanımaq ibadətdən öndə durur. Əlbəttə, son təkamül nöqtəsinə yetişmək istəyən insan, özünün bu seyrində mə᾽rifətin ən yüksək dərəcələrinə nail olur. Allahı tanımağın bu həddi Allah övliyalarına məxsus olub, böyük imtahanlar tələb edir. Bizim həmin həqiqətə yol tapmaq imkanımız yoxdur. İcmali olaraq bilirik ki, son mə᾽rifət nöqtəsi olduqca dəyərli

---

[1] «Zariyat» surəsi, ayə 56.

[2] Nüsxənin belə bir şəkildə olması da ehtimal verilir: «O kəs ki, yeri və göyləri heç bir şeydən istifadə etmədən yaratdı».

və ali bir məqamdır və Allah övliyaları, mə᾽rifətə aparan yolun sonunda həmin dayanacağa çatırlar. Bu, Allaha ibadətin son mərhələsidir.

İbadətin ilkin mərhələsinə qədəm qoyumuş insan üçün Allahın varlığı sabit olduqdan sonra Onun sifətləri və yaratdıqları barədə təfəkkür edilməlidir ki, həmin tanışlıq onun ürəyində möhkəm yer tutub, ancaq zehni tanışlıq həddində qalmasın. Daha doğrusu, həmin zehni tanışlıq canlı və fəal tanışlığa çevrilib, insanın rəftarına tə᾽sir göstərməlidir. Təfəkkürlə yanaşı olan tanışlığın bu mərhələsi «orta mə᾽rifət» adlandırılır. Orta mə᾽rifət öz növbəsində müxtəlif dərəcələrə və geniş üfüqlərə malikdir. İnsan ilahi ayələr üzərində təhlil aparıb təfəkkür etməklə və həmçinin, əməli ibadət yolu ilə bu mərtəbələrə yüksələ bilər.

Deyilənlərdən belə aydın oldu ki, Allahın sifətləri və yaratdıqları üzərində dərindən düşünmək və həmçinin, Onu daha dəqiq tanımağa sə᾽y göstərmək, insanın ixtiyari ibadət və işlərindən sayılır. Bu gedişlə insanın əldə etdiyi tanışlıq, ibadətin müqəddimə və başlanğıcı hesab olunur. (İnsanın ilahi ayələr üzərində təfəkkür edib düşünməsi Allahı tanımağın «yaxın müqəddimə»si, bu barədə kitabları mütaliə edib dərs almaq isə «uzaq müqəddimə» adlanır).

## *b) PEYĞƏMBƏRƏ (S) İMAN GƏTİRİB, ONUN NÜBÜVVƏTİNİ E᾽TİRAF ETMƏK*

«(İkinci mərhələdə) mənə iman gətirib, Allahın məni Öz izni ilə bütün insanlara behişt müjdəsi və᾽d edib, cəhənnəm əzabı ilə qorxudub, onları haqqa də᾽vət edən bir peyğəmbər olaraq göndərdiyini və insanlar üçün hidayət çırağı qərar verdiyini e᾽tiraf etməlisən».

Qur᾽ani-kərimdə və rəvayətlərdə Peyğəmbər (s) haqqında zikr edilən sifətlərin hər birinin təfsirə və izaha ehtiyacı vardır. Əgər Peyğəmbərin (s) həqiqətən Allahın elçisi olduğu barədə imanımız güclü və kamil olarsa, içimizdə baş qaldıran bir çox şübhələr aradan gedər. İmanı süst olan müsəlmanların əksəriyyətinin Peyğəmbər (s) barəsində şəkk-şübhəyə düşmələrinin əsas səbəbi, ona olan iman və mə᾽rifətin zəifliyindən və yetərli olmamasından irəli gəlir. Bu şübhələr getdikcə dərinləşir və onların düz yoldan azması və küfrə sürüklənməsi üçün zəmin yaradır. Çünki onların Peyğəmbərin (s)

sözünün doğruluğunu qəbul edəcək qədər imanları yoxdur. Bunlardan bə᾽zilərinin əqidələrinə görə, Peyğəmbərin (s) gətirdiyi şəriət bizim zamanın tələblərinə cavab vermir. Bu hökm və qanunlar o zamanlar Ərəbistan yarmadasında yaşayan vəhşi ərəblər üçün gəlmişdir və müasir dövrdə həmin qanunlara ehtiyac duyulmur!.

Bu sözlər Allah Rəsuluna (s) yanlış e᾽tiqadın nəticəsidir. Əgər Peyğəmbərin (s) buyurduğu «ərsələni ila kaffətin-nas» (məni bütün insanlar üçün göndərdi) kəlamını yə᾽qinliklə qəbul etsəydilər, heç vaxt onun peyğəmbərliyini məxsus bir zaman və millət üçün məhdudlaşdırmazdılar. Həqiqətdə demək olar ki, dində yaranan əksər şübhələr, Allahın Rəsuluna (s) və onun gətirdiyi şəriətə imanın zəifliyindən irəli gəlir.

## *v) PEYĞƏMBƏRİN (S) ƏHLİ-BEYTİNƏ MƏHƏBBƏT*

«(Üçüncü mərhələdə) sənə, Əhli-beytimə məhəbbətli olmağı nəsihət edirəm. Allah-təala onları hər cür nöqsan və pisliklərdən uzaq edib, pak qərar vermişdir».

Əhli-beytin əzəmətini dərk etmək və onların uca məqamlarına çatmaq, həqiqətdə, çətin bir məsələdir. Təsadüfi deyil ki, onlara olan məhəbbətin əhəmiyyətini göstərmək üçün mərhum imam Xomeyni (r.ə.) öz siyasi və ictimai vəsiyyətnaməsini bu hədislə başlayır: «Özümdən sonra sizə iki böyük əmanət qoyub gedirəm: biri Allahın kitabı (Qur᾽an), digəri Əhli-beytim…».

Bəlkə də, inqilab rəhbərinin bu sözləri dünya millətlərinə qəribə görünə bilər. Lakin rəhbər Əhli-beytə tabe olmağı ilə fəxr edirdi.

Biz Əhli-beytə olan bu bağlılıq və məhəbbətin sirrini bilmirik. Bəlkə də, belə təsəvvür edirik ki, onlar Peyğəmbər (s) övliyaları olduğu üçün onları sevməliyik! Əgər belə olsaydı, onların dərəcə və məqamları Qur᾽anla yanaşı tutulmazdı. Əhli-beytə məhəbbətin bu dərəcədə tə᾽kid olunması, onların Peyğəmbərlə (s) qohum olmaları səbəbindən deyil. Belə olsaydı, Peyğəmbərin (s) bir neçə həyat yoldaşı var idi ki, onlar barəsində də Əhli-beyt üçün buyurulan tə`kidlər olunardı. Lakin mə᾽lumdur ki, onlar haqqında heç bir xüsusi göstəriş verilməmişdir. Əhli-beyt barəsində olan tə᾽kidlər, Allahın onları hər cür eyib və çirkinliklərdən pak qərar verməsi səbəbindəndir.

## *ƏHLİ-BEYTİN NUHUN (Ə) GƏMİSİ VƏ BƏNİ-İSRAİLİN HİTTƏ QAPISINA BƏNZƏDİLMƏSİ*

«Ey Əbuzər, əziz olan Allah mənim Əhli-beytimi ümmətim üçün Nuhun (ə) gəmisinə bənzətmişdir. Bu gəmiyə minən nicat tapar. Hər kəs ondan üz döndərsə, batıb qərq olar. Həmçinin, Əhli-beyt Bəni-İsrail arasında olan Hittə qapısı kimidir. Bu qapıdan daxil olan Allahın əzabından amanda qalar».

Peyğəmbərin (s), Əhli-beytə məhəbbət bəsləməyə tə᾿kid etməsi və onları «nicat gəmisi» və «Hittə qapısı»na bənzətməsi, aralarındakı qohumluq əlaqələrinə görə deyil. Kimsə elə düşünməsin ki, Peyğəmbər (s) öz övladlarını sevdiyi və onların halına yandığı üçün davamlı olaraq camaatdan onlara hörmət göstərmələrini tə`kid edirdi.

Peyğəmbərin (s) Əhli-beyt barəsində xalqa etdiyi tövsiyələr qohumluq əlaqələrindən, doğmalıqdan irəli gələn məhəbbətdən daha üstün olub, Əhli-beytin xalqı uçurumdan, fəlakət dəryasında batmaqdan qurtara biləcək yeganə nicat yolu olduğu üçün idi. Peyğəmbər (s) bilirdi və inanırdı ki, Əhli-beyt ümmət üçün nicat gəmisidir. Çünki Nuhun (ə) ümməti onun nicat gəmisinə minməklə ilahi əzabdan yaxa qurtardılar. Boyun qaçıranlar, o cümlədən də Nuhun (ə) öz oğlu batıb, həlak oldular.

İslamın ilk illərində müsəlmanlar arasında ayrılıq və ixtilaf yox idi. Məhz belə bir zamanda Peyğəmbər (s) Əbuzərə, Əhli-beytinin Nuhun (ə) gəmisi kimi olduğunu nəsihət edir. Onlarla əlaqəni üzüb yollarını azan hər kəs, Nuhun (ə) qövmü kimi həlak olacaqdır. Həqiqətdə, bu nəsihət Peyğəmbərin (s) müsəlmanlara etdiyi xəbərdarlıq idi. Sanki Peyğəmbər (s) öz ölümündən sonra bir dəstə adamın təəssübkeşlik üzündən müsəlmanlar arasında nifaq salacağını görür, indidən onun həllinə çalışırdı. Belə bir şəraitdə ümmətin yeganə nicat yolunu Əli (ə) başda olmaqla, Əhli-beytə sarılmaqda görürdü. Fəqət bu yolun yolçuları zəlalət girdabına yuvarlanıb məhv olmaqdan nicat tapa bilərdilər. Əhli-beytin yolundan çıxanlar isə həqiqət yolunu itirib, dünyanın qarışıq cığırlarında sərgərdan dolaşanlardır.

Daha sonra Peyğəmbər (s) Əhli-beyti Bəni-İsrailin Hittə qapısına bənzədir. Bu iki bənzətmə əksər rəvayətlərdə həm sünni, həm də şiə

alimləri tərəfindən Peyğəmbərin (s) dilindən rəvayət edilmişdir. Hətta, rəvayətlər mö᾿təbərliyi e᾿tibarı ilə təvatör[1] həddinə çatmışlar.

Bəni-İsrail bir vaxtlar törətdiyi saysız-hesabsız günah və zülmlər üzündən Allahın qəzəbinə düçar olmuş, Allah tərəfindən qırx il «Tih» səhrasında avara-sərgərdan dolaşmağa məhkum edilmişdilər. Qırx ildən sonra axıtdıqları göz yaşları və tövbələrini Allah-təala qəbul etmiş, yenidən onlara lütf və mehribanlıq göstərərək, tövbə qapısını onların üzünə açmışdı. Bu barədə Qur᾿an buyurur:

«...Və onlara dedik ki, dizi üstə, səcdə halında kəndin qapısından daxil olun və «İlahi, bizim günahlarımızdan keç» deyin ki, biz də sizin günahınızı bağışlayaq və yaxşı əməl sahiblərinin savabını bir az da artıraq»[2].

Hittə qapısından keçənlər, nəinki izzət və şərəfə nail olurdular, hətta bütün günahları da bağışlanırdı. Peyğəmbər (s) bu iki təşbihi yad etməklə müsəlmanlara anlatmaq istəyirdi ki, Bəni-İsrailin mö᾿minləri Hittə qapısından daxil olub hər iki dünya səadətinə çatdıqları kimi, onlar da Əhli-beytin elm və mə`rifət qapısından daxil olmaqla, dünya və axirət xoşbəxtliyinə nail ola bilərlər.

«Hittə» kəlməsi lüğətdə tökülmək, çırpılmaq, bir şeyi yox etmək və bir növ təmizlənmək mə᾿nasındadır. Bəni-İsrail bu kəlməni deməklə Allahdan bağışlanmaq diləyib, etdikləri günahların silinməsini istəyirdi. Allah-təala bu qapını onlar üçün tövbə vasitəsi seçmişdir. Lakin Allahı danan bir sıra imansızlar, Onun sözünü məsxərəyə qoyub, bə᾿zi rəvayətlərdə deyildiyinə görə, «Hittə» kəlməsinin yerinə «Həntə» (buğda mə᾿nasındadır) sözünü işlədirlər. Allah onları törətdikləri pozğun işlər və tövbə qapısından üz döndərdiklərinə görə, əzaba düçar etdi:

«Zülmkarlar Allahın sözünü dəyişdirdilər (onlara deyilən sözü başqa sözlə əvəz etdilər). Biz də pis əməlləri və fərmandan boyun qaçırdıqları üçün onlara göydən şiddətli əzab nazil etdik»[3].

Peyğəmbər (s) öz Əhli-beytini insanlara Hittə qapısı kimi dünya və axirət səadətini bəxş edə biləcək bir vasitə kimi tanıtdırır. Lakin

---

[1] Müxtəlif məzhəblərdən olan ravilər tərəfindən müştərək halda qəbul olunma.

[2] «Bəqərə» surəsi, ayə 58.

[3] «Bəqərə» surəsi, ayə 59.

camaat onun sözünə e᾽tina etməyib, Əhli-beyt yerinə başqalarını seçdilər. Onlar Əli (ə) ilə başqaları arasında olan fərqi görmürdülər. Onların düşüncəsində Əli (ə) Peyğəmbərin (s) kürəkəni olduğu kimi, Osman da Peyğəmbərin (s) kürəkəni və Peyğəmbər (s) özü də birinci xəlifənin – Əbu Bəkrin kürəkəni idi!

Nəsihətin bura qədərki hissəsində, əsasən, ibadətin mühüm mərhələləri barəsində olan məsələlərə toxunulur. Qeyd edək ki, ibadətin insanın qəlbi və batini ilə əlaqədar olan mərhələsi ən mühüm və əsas mərhələ hesab olunur. Yə᾽ni hər kəs Allaha və Onun Peyğəmbərinə iman gətirmədən, bu barədə zəruri mə᾽lumata malik olmadan və Əhli-beytə məhəbbət bəsləmədən ibadətdən lazımınca bəhrələnə bilməz. İbadət yalnız zahiri əməllərin məcmusu kimi başa düşülməməlidir. Həqiqətdə, ibadətin kökü, insanın qəlbinin dərinliklərindən su içir və bütün bəndəçilik yolları öz cığırlarını ürəkdən açır.

## İKİNCİ DƏRS

### *ALLAHIN NE'MƏTLƏRİNDƏN DÜZGÜN FAYDALANMAĞIN YOLLARI*

1. Sağlamlıq və asudəlik, insanların qafil olduğu iki böyük ne᾽mətdir;
2. Cavanlıq və ömrün şən çağları;
3. Sağlamlığın əhəmiyyəti;
4. Dünya həyatı, insanın seçim, inkişaf və kamala çatma yeridir.

## *ALLAHIN NE͗MƏTLƏRİNDƏN DÜZGÜN BƏHRƏLƏNMƏYİN YOLLARI*

«Ey Əbuzər, nəsihətlərimə lazımınca əməl et ki, hər iki dünyanın xoşbəxtliyini əldə edə biləsən. Ey Əbuzər! Camaatın əksəriyyəti iki böyük ne͗mətdən qafildirlər, onların qədrini bilmirlər; biri sağlamlıq, digəri isə asudəlikdir. Ey Əbuzər! Beş şey gəlib səni yaxalamamış, beş şeyi özün üçün qənimət bil: cavanlığı qocalıqdan, sağlamlığı xəstəlikdən, güc və qüvvəti zəiflikdən, asudəliyi giriftarçılıqdan və həyatı isə ölümdən əvvəl».

İnsan daim öz səadətini əldə etmək üçün çalışır və ona qovuşmaq üçün özünü oda-közə vurur. Başqa tə͗birlə desək, səadətə çatmaq, xoşbəxtlik insanın zati istəyi olub, onun əsas hədəfi sayılır. Ona görə də bu səadətə çatmaq üçün vurnuxur, onu səadətə aparacaq yolları arayır. Peyğəmbər (s) bunu nəzərə alaraq buyurur ki, əgər mənim dediklərimə qulaq asıb onlara əməl etsən, öz fitri istəyinə - dünya və axirət səadətinə qovuşacaq, əgər üz döndərsən, həmin səadətdən məhrum olacaqsan. Peyğəmbərin (s) bu ifadəni işlətməsinin səbəbi, Əbuzərin deyilənləri daha yaxşı qavrayıb, qəbul etməsi üçün idi. Necə ki, hər hansı bir insan sağlamlığını yenidən bərpa etmək üçün həkimə müraciət edir; həkim isə onun üçün müəyyən nüsxə yazır və yalnız buna əməl edəcəyi təqdirdə sağlamlığını yenidən əldə edə biləcəyini bildirir. Bu tə͗kidin ardınca Peyğəmbər (s) buyurur:

«Ey Əbuzər! Camaatın əksəriyyəti iki böyük ne͗mətdən qafildirlər, onların qədrini bilmirlər; biri sağlamlıq, digəri isə asudəlikdir».

## *SAĞLAMLIQ VƏ ASUDƏLİK, İNSANLARIN QAFİL OLDUĞU İKİ BÖYÜK NE͗MƏTDİR*

Sağlamlıq və asudəlik, Allah-təalanın insanlara bəxş etdiyi iki qiymətli ne͗mətdir. Lakin insanların əksəriyyəti onun qədrini bilmirlər və çox asanlıqla əldən verirlər. Bu cəhətdən Peyğəmbər (s) öz nəsihətində Əbuzərə, başqaları kimi bu ne͗mətləri ucuz satmamasını, onların qədrini bilməsini tapşırır.

Allah-təala insanın ixtiyarında saysız-hesabsız dəyərli, son dərəcə qiymətli ne͗mətlər qoymuşdur. Lakin insan bu ne͗mətləri çox

asanlıqla və heç bir qarşılığı olmadan, müftə əldən verir. Bəlkə də, insan bu ne᾽mətlərin qazanılmasında heç bir zəhmət çəkmədiyi üçün belə edir. İnsan nəinki özündə olan ne᾽mətlərin haqqını ödəmir, üstəlik bu ne᾽mətləri özünə heç bir faydası olmayan günah işlərdə sərf edir.

Belə dəyərli ne᾽mətlərdən biri də sağlamlıqdır ki, sağlam insan ona heç vaxt diqqət yetirmir. Onun qədrini ancaq xəstələnəndən sonra bilir. Balıq nə qədər ki, sudadır, suyun qədrini bilmir, elə ki, sudan qırağa atıldı, onda suyun əhəmiyyətini başa düşür.

Bu yaxınlarda mənim dostlarımdan birinin başına qəribə bir əhvalat gəlmişdi. O, belə deyir: «Bir gün tribunada çıxış edərkən, qəfildən səsim batdı. Nə qədər çalışdımsa ki, sözümü tamamlayım, bir şey çıxmadı. Axırda məcbur olub aşağı endim, oradan birbaşa xəstəxanaya yollandım. Xoşbəxtlikdən, Allahın lütf və inayəti sayəsində müalicə olunub, sağaldım».

İnsan çox az hallarda ona əta olunan ne᾽mətlər, o cümlədən danışıq qabiliyyəti barədə düşünür və həmin ne᾽mətlərə görə Allaha şükr edir. Onun əhəmiyyətini ancaq səsi batandan sonra dərk edir. Fərqinə varmadığı həmin ne᾽mətin yenidən geri qayıtması üçün bütün varını-yoxunu belə xərcləməyə razı olur.

Bir an öz sağlamlığımız haqqında düşünək. Minlərlə xəstəliyin, bəlanın cismimizi təhdid etdiyi bir vaxtda sağ-salamat ömür sürürüksə, bundan böyük ne᾽mət nə ola bilər?! Biz həyatımızın hər bir anında böyük ne᾽mətlərin daşıyıcısıyıq. Halbuki, bu ne᾽mətlər həmişəlik deyil və hər an onu itirə bilərik.

Buna oxşar sözü Peyğəmbər (s) başqa bir yerdə də buyurmuşdur:

«İki böyük ne᾽mət vardır ki, heç vaxt onun qədrini bilmirik: Sağlamlıq və əmniyyət (təhlükəsizlik və sabitlik)»[1].

Peyğəmbərin (s) işarə etdiyi ikinci ne᾽mət fərağət olub rahatlıq, asudəlik mə᾽nasındadır.

İnsan həyatı boyu müxtəlif hadisələrlə üzləşir. O, həyatının bə᾽zi vaxtlarını rahat və sakit yaşayır. Belə anlarda onun özü və gələcəyi haqqında düşünmək imkanı olur. İnsan bu anları fürsət bilib, öz əxlaqını saflaşdırmalı, ruhi vəziyyətini düzəltməyə çalışmalıdır. Öz

---

[1] «Biharul-ənvar», cild 81, fəsil 1, səh. 170.

taleyi haqqında düşünüb, təfəkkür etməlidir. Sakit bir guşəyə çəkilib ibadətlə məşğul olmalı və ya xatircəmliklə mütaliə etməlidir. Hər halda insan, ömrünün müəyyən anlarını cismi və ruhi cəhətdən sağlam və sakit yaşayır. İnsan ömrünün bu anları həddən artıq qiymətli hesab olunur; kamala yetişmək və düşünüb-daşınmaq üçün əlverişli fürsət yaradır. Ola bilər ki, insan həyatı boyu müxtəlif problemlərlə üzləşsin və bu səbəbdən də, başı həmişə dünyəvi işlərə qarışsın. Ömrü boyu rahatlığın nə olduğunu bilməsin. Bir an asudə nəfəs almağın, dərddən, problemdən uzaq olmağın həsrətini çəksin. Amma nə etmək olar ki, zaman geri qayıtmır. Ələ düşən fürsətlərdən lazımınca istifadə etmək barədə Əmirəl-mö′minin həzrət Əlinin (ə) belə bir sözü var:

«İnsan ömrü (və ələ düşən fürsətlər) bulud kimi keçib gedir. Əlverişli fürsətləri əldən buraxmayın»[1].

İnsanın qarşılaşdığı problemlər, əsasən ailədə baş vermiş anlaşılmazlıqlar üzündən və ya ailənin ağır məs᾽uliyyətləri səbəbindən, bə᾽zən də cəmiyyətdə bağlı olduğu məşğuliyyətlər üzündən ortaya çıxır. Bu problemlər insanın bütün fikrini özünə məşğul edir. Bir an da olsun ona özü, keçmişi və gələcəyi barədə düşünməyə imkan vermir. Əksinə, bə᾽zi insanlar da vaxt boşluğundan şikayətlənirlər, həmişə başlarını qarışdırmağa əyləncə, məşğuliyyət axtarırlar. Öz qiymətli vaxtlarından necə istifadə etməyi bilmirlər. Krossvord həll edir, saatlarla televizorun qabağında oturub o kanala-bu kanala baxır, ya da qabaqlarına bir torba tum qoyub çırtlayırlar. Beləlləri həmin o dövlətliyə bənzəyirlər ki, əlində olan hesabsız sərvəti, pulu xərcləməyə, məsrəf etməyə yer tapa bilmir və belə fürsət əlinə düşəndə də pulunu havaya sovuraraq, bu hərəkətindən ləzzət alır. Əgər belə adama rast gəlsək, onun dəli olduğunu güman edərik. Daha xəbərimiz yoxdur ki, bizim əksəriyyətimiz elə bu cür divanələrdənik. Dünya sərvətləri ilə müqayisəolunmaz ömür sərmayəmizi orda-burda nəfsimizin atəşinə qurban veririk.

Həqiqətdə, belə insanlara müflis və məğbun deyilməlidir. Məğbun o kəsdir ki, əlində olan bahalı malını satıb, əvəzində qiymətsiz, dəyərsiz şeylər alır. İnsan ömrünün sərmayəsi ilə bərabər tutulacaq dünya malı tapmaq olmaz və əgər onun üçün qiymət

---

[1] «Vəsailüş-şiə», cild 16, səh. 84, fəsil 91.

müəyyənləşdirməli olsaq, ən azı bu alış-verişdə əvəzi cənnət olmalıdır. Onda nə qədər ki, rahatlığınız əldən çıxmayıb, onun qədrini bilin. Bir işə qol qoymazdan əvvəl həmin işin xeyir və zərəri haqqında düşünüb, sonra işə başlayın. Hər zaman sizə faydası və əhəmiyyəti olan işlərdən yapışın.

## *CAVANLIQ– ÖMRÜN ŞƏN ÇAĞLARI*

«Ey Əbuzər! Beş şey səni haqlamamış, beş şeyi qənimət bil: Birincisi budur ki, qocalıq başının üstünü almamış cavanlığını qənimət bil…».

Şən və çılğın əhval-ruhiyyə ilə müşahidə olunan cavanlıq illəri insan ömrünün ən gözəl dövrü hesab olunur. Düzdür, insan ömrü əvvəldən axıra qədər böyük ne҆mətdir, lakin cavanlıq illəri bu ne҆mətin ən şirin çağlarıdır. Bu cəhətdən də, Həzrət (s) əvvəl cavanlıq dövranını yad edir və axırda həyatın əsl əhəmiyyətinə toxunur.

İmam Xomeyni (r.ə.) də tez-tez çıxışlarında deyirdi: «Ey cavanlar! Cavanlığınızın qədrini bilin». Çünki bu elə bir ne҆mətdir ki, ondan düzgün bəhrələnməklə insan kamala çatıb, ilahi tərəqqiyə nail ola bilər. Halbuki, qocalıq çağlarında bu məqamlara yetişmək ehtimalı çox zəif olur. Elə bu səbəbdən də imamlarımız öz çıxışlarında bu həqiqətə işarə etmişlər. İmam Sadiq (ə) bu barədə belə buyurur:

«Hər cavan mö҆min Qur҆an oxuyarsa, Qur҆an onun ətinə, qanına qarışıb, cisminə və ruhuna nüfuz edər».

Cavan adam yaş çubuq kimidir; hansı tərəfə əysən, o tərəfə də əyilər. Bu baxımdan onu haqqa tərəf yönəltsən, haqqı tez qəbul edər. Bu dövrdə insanın özünü islah etməsi, çirkin adətlərdən təmizləməsi daha asandır. Məhz bu dövrdə insan:

- Başqa dəyərlərə nisbətən, haqqı daha tez qəbul edir;
- Sağlam bədənə malik olduğu üçün öz ictimai vəzifələrini həyata keçirməkdə daha fəal hərəkət edir;
- Güclü cismə və ruha malik olduğu üçün öz ilahi təkliflərinə daha yaxşı əməl edə bilir;
- Əxlaqi rəzilətlərlə mübarizədə güclü olur;
- Güclü iradə və zehni sayəsində elmin dərin üfüqlərinə gedib çıxa bilir;
- Yorulmadan düşünüb, təfəkkür edə bilir;

- Fəzilətli sifətləri özündə cəmləşdirib, sabit hala gətirə bilir.

Əksinə, qocalıq illəri ömrün cismi cəhətdən zəif, əldən düşdüyü dövrdür. Bu illərdə insanın şəxsiyyəti formalaşma dövrünün sonuna çatır və onu dəyişmək, adətən, qeyri-mümkün olur. Bir sözlə, qocalıq, insanın cismi və ruhi cəhətdən süstülüyə qədəm qoyduğu bir dövrdür.

Qur᾽ani-kərimdə üç yerdə qocalıq «şəyb» və «şəybə» tə᾽biri ilə verilmiş, dörd yerdə isə «şeyx» və «şuyux» kimi işlədilmişdir. Həmin misalların əksəriyyətində bu dövr, insan ömrünün təbii cəhətdən zəif illəri kimi göstərilir. Məsələn, həzrət Zəkəriyyə (ə) barəsində buyurulur:

«Dedi: «Pərvərdigara! Qocalıq sümüklərimi süst etmiş, saçlarımı ağartmışdır»[1]. Və həmçinin, insan həyatının mərhələləri barəsində buyurur:

«Allah (Şadlıq və cavanlıq dövranından) sonra zəifləmək və qocalıq dövranını qərar verdi»[2].

Bunlardan əlavə, qocalıq dövrünün acizliyinə Qur᾽anın bir çox yerlərində, müxtəlif tə᾽birlərlə işarə olunmuşdur.

Cavanlıq dövrü ixtiyarımızda olan son dərəcədə qiymətli bir fürsətdir. Bu fürsətdən istifadə edib, əxlaqi rəzilətlərin təmizlənməsi ilə məşğul olmalıyıq. Çünki qocalıq illərində bu iş olduqca çətin olur. Təəssüflər olsun ki, insan bir şeyi hiss etmədən, təcrübə etmədən həmin şeyə inanmır. Yə᾽ni qocalıb beli bükülməyincə, qocalığın ağrı-acılarını dərk edə bilmir. Doğrudur, qocalıq haqqında deyilənlər və özünün şəxsi müşahidələri vasitəsi ilə kifayət qədər mə᾽lumatlı olur. Lakin bu məsələni lazımınca dərk edib, inana bilmir. Elm və mə᾽rifətin uca dərəcələrinə yüksələn böyük şəxsiyyətlər olub ki, hələ də onlarda cavanlıq dövründən qalma zəif əxlaqi nöqtələr müşahidə edilir. Onlar bu zəif cəhətlərini ya cavan olanda başa düşməyiblər, ya da başa düşdükləri halda, onu düzəltməyə sə᾽y göstərməyiblər. Hər halda həmin zəif nöqtə sağalmaz xəstəlik kimi köhnəlib, əlacsız qalmışdır.

---

1 «Məryəm» surəsi, ayə 4.

2 «Rum» surəsi, ayə 54.

## *SAĞLAMLIĞIN ƏHƏMİYYƏTİ*

«Sağlamlığı xəstəlikdən, imkanı, gücü kasıblıqdan və pərişanlıqdan qabaq qənimət bil».

Sadə həyatınızda maddi ehtiyaclarınız üzündən başqalarına möhtac olmamış, Allah eləməmiş, kasıbçılıq kimi ağır bir müsibətə düçar olub, bir tikə çörəkdən ötrü ona-buna əl açmamış əlinizdə olan ne᾿mətin qədrini bilin. Əgər hal-hazırda sadə imkanlara maliksinizsə və qənaətlə axşamı səhərə çıxara bilir, həyatınızı davam etdirməyə gücünüz çatırsa, bunları özünüz üçün qənimət bilməlisiniz. O gündən qorxun ki, həmin bu sadə yaşayış da əlinizdən çıxsın və məcbur olub hər şeyi atıb, iş axtarmaq üçün qapı-qapı gəzəsiniz. Əgər zahidcəsinə ömrü başa vurmağa gücün çatırsa, bu fürsətdən istifadə et. Səndə olmayan və çatışmayan şeylərin fikrini etməkdənsə, əlində olanlar barəsində düşün və onların qədrini bil. Əgər imkanlı bir şəxssənsə, bu sənin başqalarına kömək etmək üçün əlində olan yaxşı bir fürsətdir. Fürsət əlindən çıxmamış, fəqirlik, pulsuzluq başının üstünü almamış ehtiyaclı olanların əlindən tut.

Diqqət yetirilməsi zəruri olan bir məsələ də budur ki, insan şəxsiyyətini alçaldan, onun şərəfini aradan aparan kasıbçılıq, insanlıq şə᾿ninə yaraşmayan pis bir sifət kimi tənqid edilir. Allah-təala Öz bəndəsinə bu cür zilləti rəva bilmir, əksinə bəndəsini həmişə vüqarlı, izzətli görmək istəyir. İnsan mümkün qədər çalışıb, ələbaxımlıqdan qurtulmalıdır. Bunun üçün insanın özü də bə᾿zi şeylərə əməl etməlidir. Məsələn, qənaət, imkana uyğun xərcləmək, şöhrətpərəstlikdən uzaq olmaq, israfa yol verməmək və s. əməlləri özündə cəm etməlidir.

«Dördüncü, fərağət və rahatlığı, cürbəcür problemlərə giriftar olmamışdan əvvəl qənimət bil».

Əvvəldə bu barədə müəyyən qədər söhbət oldu. Lakin bunu da xatırlatmaq yerinə düşərdi ki, Həzrətin (s) «rahatlığın qədrini bil» deməkdə məqsədi, insanın məs᾿uliyyətdən yaxasını kənara çəkib, hər cür yükü boynundan atması deyildir. Yə᾿ni insan «rahatlıq qənimətdir» deyib, işdən boyun qaçırmamalıdır. Bu yanlış fikir və səhv nəzərdir. Həzrətin (s) bu nəsihətləri söyləməkdə məqsədi, insanı firavan və rahat həyat sürüb, əlində xeyir və savab işlər

görməkdən ötrü lazımi fürsət və imkan olduğu müddətdə onun öz istək və arzusundan asılı olmayaraq, başının üzərini ala biləcək qəfil müsibətlər və problemlərdən xəbərdar etməkdir. Zamanın cövrü-cəfası öz növbəmizdə bizi də məcburən bə`zi işlərə vadar etməmiş, əlimizdə ixtiyar varkən, sə`y və iradəmizin vasitəsi ilə əlimizdə olan fürsətlərdən lazımınca istifadə edib, faydalanmalıyıq.

## *DÜNYA HƏYATI İNSANIN SEÇİM, İNKİŞAF VƏ KAMALA ÇATMA YERİDİR*

«Həyatı, ölüm başının üstünü almamış qənimət bil».

Həyat, ümumi və geniş ne᾿mət olub, digər ne᾿mətlərdən sonra zikr edilmişdir. Həqiqətdə, digər ne᾿mətlər həyatla əlaqədardır. Həyat olmazsa, başqa ne᾿mətlərin də heç bir faydası yoxdur. Deməli, digər ne᾿mətlərin əsası və kökü həyat olub, Allah tərəfindən insanların ixtiyarında qoyulmuşdur. İnsanın ölümündən sonra axirət həyatına qədəm qoyub yeni ne᾿mətlərlə üzləşməsinə baxmayaraq, artıq o dünyada insanın seçmək və azad qərar qəbul etmək ixtiyarı əlindən alınmış olur. Həmin səbəbdəndir ki, axirətdə insan bu dünyada münasib fürsətləri əlindən çıxardığı və imkanlarından düzgün istifadə etmədiyi üçün öz keçmişinə həsrətlə baxır və öz keçmiş səhvlərini düzəltmək üçün Allahdan yenidən onu dünyaya qaytarılmasını istəyir. Lakin onun xahişi qəbul olunmur. Qur´anda bu mövzu barədə belə buyurulur:

«Elə ki, onlardan birinin ölümü gəlib yetişdi, deyər: «Pərvərdigara! Məni yenidən dünyaya qaytar, bəlkə, yaxşı bir iş görüm». Onun bu xahişi heç vaxt yerinə yetməz və bu həsrətlə deyilmiş (faydası olmayan) sözlərdir. Qiyamət gününə qədər gözlədikləri yer bərzəx (dünyası) olacaq»[1].

Alimlərdən bə᾿ziləri tövsiyə edirlər ki, hərdən yatanda elə təsəvvür edin ki, bir də ayılmayacaqsınız və həmin halda ölüm mələyi ruhunuzu bədəninizdən ayıracaq. Çünki Qur᾿an buyurur:

«Ölüm vaxtı bəndələrin ruhunu alan Allahdır. Ölümü çatmamış adamın ruhunu isə yatdığı zaman alar»[2].

İnsan yuxuda olduğu müddətdə ruhu müəyyən dərəcədə bədənindən ayrılır və əgər əcəli sona yetmiş olsa, ruhun rabitəsi bədəndən tamamilə üzülür. Bu cəhətdən də, Allah-təala ayənin davamında buyurur:

«Sonra ölümünə hökm verdiyi kəsin ruhunu öz yanında saxlayar və əcəli çatmamış adamın ruhunu ölüm vaxtı gəlib çatanacan bədəninə qaytarar».

---

[1] «Mu᾿minun» surəsi, ayə 99-100.

[2] «Zümər» surəsi, ayə 42.

İnsan yuxuda olarkən ölüm yolunun yarısını getmiş olur. Buna görə də tövsiyə edirlər ki, yatdığınız zaman belə fərz edin ki, ruhunuz bədəninizdən ayrılandan sonra bir daha geri qayıtmayacaq. Elə ki, yuxudan ayılıb özünüzü diri gördünüz, ruhunuzu yenidən bədəninizə qaytarıb sonra sizə ikinci bir həyat bəxş edən Allaha şükürlər edin. Başqa sözlə desək, fərz edin ki, bərzəx aləminə düşmüsünüz və sizin bütün naqis və günah əməlləriniz aşkara çıxmışdır və bu əməllərinizə görə sizi sorğu-suala hazırlayırlar. Bu vaxt Allahın yaxın mələklərindən, sizi yenidən dünyaya qaytarmalarını xahiş edirsiniz və onlar da bu icazəni sizə verirlər. İndi ki, dünyaya qayıtmısınız və sizə ikinci bir fürsət verilmişdir. Nə edəcəksiniz? Necə olacaqsınız?

Gəlin bizə verilmiş ikinci fürsətin qədrini bilək və onun hər anını qənimət sayaq. Çünki elə bir vaxt yetişəcək ki, bircə «la ilahə illəllah» kəlməsi demək həsrəti dodaqlarda qalacaq. Həzrət Əlinin (ə) sözləri ilə desək, «Xeyirli işlərdə əskiklik göstərən hər kəs dərdə-qəmə düçar olacaqdır. Canından, malından Allah yolunda xərcləməyən bir adamla Allahın da işi yoxdur»[1].

---

[1] «Nəhcül-bəlağə», Feyzül-islam, «qisar» kəlməsi, №122, səh. 1146.

## ÜÇÜNCÜ DƏRS

### *HƏYATIN DÜZGÜN DƏRKİ VƏ ÖMÜRDƏN SƏMƏRƏLİ İSTİFADƏ*

1. Fürsətdən yerində istifadə və uzun-uzadı arzuların tərk olunması;
2. Səhlənkarlığın mərhələləri;
3. Dünyadan üz çevirmək və yanlış təfsirlər;
4. Dünyadan üz çevirmək və axirəti əsas tutmaq;
5. Təklif və vəzifələrin vaxtında yerinə yetirilməsi;
6. Ölümü düşünməklə uzun-uzadı arzulara son qoymaq;
7. Dünyanın vasitəçi rolu.

## *FÜRSƏTDƏN YERİNDƏ İSTİFADƏ VƏ UZUN-UZADI ARZULARIN TƏRK OLUNMASI*

«Ey Əbuzər! Məbada uzun-uzadı arzulara qapılmaqla, görüləsi mühüm olan işlərini tə᾿xirə salasan».

Həzrətin (s) bu sözləri öncə dediklərinin davamıdır. O, burada da vaxtın hədər verilməməsi və əldə olan əlverişli fürsətlərdən səmərəli istifadə olunmasına tə᾿kid edir.

«Təsvif», insanın xeyir və savab işlər görməsinə maneçilik törədən mənfi xüsusiyyətlərdən biridir ki, rəvayətlərdə də pislənmişdir və mə᾿nası «bu günün işini sabaha qoymaq» deməkdir. Bu hal bir çox səbəblər üzündən baş verə bilər. Lakin təsvifin rəvayətdə işarə edilən əsas səbəbi uzun-uzadı arzulardır. Yə᾿ni insan sabaha ümidvar olub bu gün görməli olduğu işi, sonraya saxlayır. Belə fikirləşir ki, əgər bu gün varamsa, yəqin sabah da olaram və bu işi sabah görərəm. Elə ki, sabah yetişir, yenə də o biri günün öhdəsinə qoyur. Beləliklə, ay keçir, il dolanır. Həzrət (s) buyurur:

«Bu xüsusiyyətin qəlbindən silinməsini istəyirsənsə, həmişə elə təsəvvür et ki, əlində olan imkan ancaq bu gündür, bu saatdır, bu andır və bundan sonra həyat sənə heç bir fürsət verməyəcəkdir».

Təsvif məfhumu əxlaq sahəsində işlədilən digər məfhumlar kimi, şiddət və zəiflik baxımından müxtəlif dərəcələrə malikdir. Müxtəlif insanlar – mö᾿mindən tutmuş qeyri-mö᾿minə qədər, hətta imanın səviyyəsi baxımından – bu məfhuma əsasən müxtəlif dərəcələrə bölünürlər. Onun bə᾿zi dərəcələri adi, bə᾿ziləri tə᾿kid olunmuş, bə᾿ziləri adi müstəhəb və bə᾿ziləri də tə᾿kidli müstəhəbdir. Hərdən bu məfhumun dərəcələri elə dəqiq olur ki, adi insanlar üçün onun təsəvvürü qeyri-mümkün olur.

## *SƏHLƏNKARLIĞIN MƏRHƏLƏLƏRİ*

Təsvifin birinci mərhələsi dünya işlərində tənbəllik etməkdir. Bu hal insanın öz işlərini tə᾿xirə salmasına səbəb olur. Bu xüsusiyyətin insanın e᾿tiqadı ilə heç bir əlaqəsi yoxdur. Mö᾿min bu xüsusiyyətə mübtəla olduğu kimi, kafir də mübtəla olur. Çünki kafirlər dünyanı sevmələrinə baxmayaraq, hərdən dünya işlərində də tənbəllik edirlər. İnsan üçün – istər mö᾿min olsun, istərsə də kafir – öz

işlərini tə᾽xirə salması pis bir xüsusiyyət hesab olunur. Əlbəttə, mö᾽min insanda bu xüsusiyyət yavaş-yavaş adət halına keçib adiləşərsə, sonradan onun digər işlərinə də sirayət edər və öz dini vəzifələrini yerinə yetirməsi üçün ciddi maneə törədə bilər. Bu baxımdan sözügedən xüsusiyyətin yaratdığı mənfi tə᾽sirlər mö᾽min üçün daha pisdir və rəvayətlərdə bu xüsusiyyətlə mübarizənin tə᾽kid olunması da, məhz səhlənkarlığın adət halına keçib, insanın axirət işlərinə də sirayət etməməsi üçündür.

«Təsvif»in ikinci mərhələsi vacibatla əlaqədar olan səhlənkarlıqdır. Vacibatın üç hissəyə bölünməsi ilə əlaqədar olaraq, səhlənkarlığın bu növü də öz növbəsində üç yerə ayrılır:

1. Müəyyən vacib əməllərin vaxtında yerinə yetirilməsi zamanı yol verilən səhlənkarlıq;

Məsələn, gün ərzində qılınmalı olan beş vacib namazın hərəsinin öz məxsus və müəyyən vaxtı var. Bə᾽zi adamlar vaxtında səhlənkarlığa yol verib namazlarını tə′xirə salırlar və o qədər gecikdirirlər ki, lap axır anlarda qılırlar. Baxmayaraq ki, bu səhlənkarlıq haram deyil, amma xoşagəlməz hal hesab olunur.

2. Tə᾽cili surətdə yerinə yetirilməli olan vacibatlarda yol verilən səhlənkarlıq;

Doğrudur, bu vacibatlar üçün müəyyən zaman məhdudiyyəti nəzərdə tutulmamışdır, lakin ilk fürsətdə imkan olmadığı halda, ikinci fürsətdə mütləq yerinə yetirilməlidir. Çünki bu minvalla digər fürsətlər də əldən çıxa bilər. Tövbənin vacibliyini buna misal göstərmək olar. Tövbə ilk fürsətdə edilməlidir və onu sonraya saxlamaq haramdır, amma tə᾽xirə salınarsa, bu onun hökmünün qüvvədən düşməsi demək deyil.

3. Məhdud zamanla əlaqədar olan vacibatlarda edilən səhlənkarlıq.

Məsələn, orucluğun məhdud vaxtı var. Bə᾽ziləri bu vacib əməli vaxtında yerinə yetirmirlər və sonradan qəzasını tutmağı qərara alırlar. Belə adamların günahı, orucu ümumiyyətlə tutmaq istəməyən adamın günahından az olsa da, tutduğu əməl haramdır.

## *DÜNYADAN ÜZ ÇEVİRMƏK VƏ YERSİZ TƏFSİRLƏR*

Xatırlanması lazım olan məsələlərdən biri də, bə᾽zi ayə və rəvayətlərdə işarə olunan mövzular barəsində müxtəlif təfsir və hətta ziddiyyətli fikirlərin mövcud olmasıdır. Belə mövzuların din sahəsində mütəxəssis olmadan təfsir edilməsi, səhv nəticələrə

gətirib çıxarır. Çünki belə məsələlərdə insanın səhv etmə ehtimalı daha çoxdur. Nümunə olaraq, dünya və onun məzəmməti, dünyadan çəkinmək, tənhalığın mədhi barədə bir sıra ayə və rəvayətləri qeyd etmək olar. Bu mövzuda olan ayə və rəvayətlərə əsaslanaraq, bəʾzi təfsirçilər səhv nəticələrə gəlmişlər. Bunlardan biri də, İslamın qəti hökm, e`tiqad və digər cəhətlərini nəzərə almadan fikir formalaşdıran sufilik nəzəriyyəsidir. Bu nəzəriyyəyə əsasən, insan dünya həyatını tərk edib cəmiyyətdən uzaq bir guşədə Allaha ibadətlə məşğul olmalıdır. Bu cür təfəkkür tərzi İslam dininin əsasları ilə ziddiyyət təşkil edir.

Əgər tərkidünyalıq, bir kənara çəkilib guşənişin olmaq dinin əsaslarındandırsa, onda bəs ictimai təkliflər – qarşılıqlı həmkarlıq, zülm və sitəmlə mübarizə, əmr be məʾruf və nəhy əz münkər, İslam hökumətinin tə`sis və qorunması üçün edilən səʾylər kim və nə üçündür? Harada biz bunları həyata keçirməliyik? Təklik və xəlvətdə bu vəzifələri yerinə yetirə bilərikmi? Əlbəttə ki, xeyr! Deməli, hər hansı bir məsələdə dini hökm vermək üçün kifayət qədər dini maarif sahəsində biliklərə yiyələnmək və onun bütün sahələrini nəzərdə tutaraq fikir söyləmək lazımdır.

Belə səhv fikirlərin qarşısında demək lazımdır: əgər dünyəvi işlərə qapılıb, ona bağlanmaq həyatın məʾnası və əsas hədəfi sayılarsa, bu görüş pislənilir. Lakin dünya insanın ilahi kamala yetməsində bir vasitə olarsa, nəinki pis deyil, hətta mədhə və təʾrifə layiqdir.

Dünyanı vasitə olaraq seçməyin müəyyən dərəcələri vardır ki, onlardan bəʾziləri lazımlı, bəʾziləri isə kamalatdan hesab olunur. İslamda dünya ləzzətlərindən istifadə etməyin həddi belə, müəyyənləşdirilir ki, onlardan istifadə vacibatın tərkinə və ya harama düşməyə səbəb olmasın. İnsanı günaha sürükləyən və ya vacib əməllərin tərkinə səbəb olan maddiyyat haram, belə maddi bağlılıq insanın xarakterində xoşagəlməz halların yaranmasına səbəb olarsa, onunla mübarizə vacibdir.

İslam nöqteyi-nəzərindən nümunəvi insan o kəsdir ki, heç vaxt dünyanı özünün əsas hədəfi bilməsin. Hətta mübah sayılan dünyəvi işləri görəndə belə, onu dünya ləzzətlərinə çatmaq xatirinə etməsin. Uzaqgörən və məntiqli kəslər vardır ki, insanlığın ən ali mərtəbəsi olan bu mərhələyə yetişmişlər. Onlar rəftar və əməllərini elə tənzim edirlər ki, gördükləri hər bir iş ibadət sayılır. Onların bütün cismi,

fiziki rəftarları – qidalanmaları, yatmaları, idman etmələri və hətta halal olan cinsi ləzzətləri – axirətə qovuşmaq üçün bir müqəddimədir və buna görə də ibadət sayılır.

## *DÜNYADAN ÜZ ÇEVİRMƏK VƏ AXİRƏTİ ƏSAS TUTMAQ*

Hər halda insanın dünyanı əsas tutub-tutmamasını müəyyənləşdirmək sözlə, danışıqla aydınlaşmır. Bu insanların daxili niyyətlərinə bağlıdır. Məsələn, əgər insan ləzzət almaq xatirinə çörək yeyirsə, zahirən inkar etsə belə, maddiyyata üstünlük vermişdir. Lakin onun bu ləzzətdən istifadə etməkdə məqsədi Allahın şükrünü yerinə yetirməkdirsə, axirəti üstün tutmuşdur. Bu cəhətdən Qur᾽anda Allahın insanlara əta etdiyi bə᾽zi ne᾽mətlər yad edilir və bu ne΄mətlər Allah dərgahına şükr etmək üçün bir vasitə olaraq göstərilmişdir. Deməli, hədəf şükr etməkdir. Bunun üçün insanın bütün rəftar və əməlləri özünə Allah rəngini götürməlidir. İnsanların əksəriyyəti mə᾽nəvi dəyərlərə diqqət yetirmirlər. Maddi ləzzətlərə o qədər bağlanıblar ki, ondan başqa hədəf görə bilmirlər.

Şübhəsiz ki, insanın mə᾽nəvi mərhələyə yetişməsi, axirət işlərini irəli çəkməsi üçün müəllimə ehtiyacı vardır. Çünki mümkündür ki, orta mövqedən xaric olub, ifrat və təfritə düşsün. Nəfsinin paklanması və təkamülü yolunda qədəm götürmək istəyən kəslər, maddiyyata olan meyllərinin azalması və dünyəvi ehtiraslarının zəiflədilməsi üçün Allah tərəfindən insanlara verilən izzəti öz zehinlərində möhkəmləndirməlidirlər. Dünyəvi ləzzətlərə göz yummaq üçün maddi və axirət ləzzətləri arasında olan fərqə diqqət yetirməli, axirət ləzzətlərinin hər cəhətdən üstün və əbədi olması fikrini özlərinə təlqin etməlidirlər. Bu cəhəti nəzərə alaraq, Peyğəmbər (s) və imamlarımız (ə) öz buyuruqlarında insanları həmişə ilahi ləzzətləri dünya ləzzətlərindən üstün tutmağa sövq etmişlər. Lakin onlar heç vaxt insanları bir dəfəlik dünyanı tərk etməyə və tərkidünya olmağa çağırmamışlar. Əgər insan dünyanı axirətə çatmaq üçün vasitə bilsə, nəinki dünyapərəst sayılmaz, əksinə, belə insan axirətaxtaran bir şəxs sayılar. Əksər vaxtlarda mübah işlərin istifadəsi harama düçar olmamaq üçün müqəddimə hesab olunur və bu cəhətinə görə ibadət sayılır. Əlavə olaraq, bə᾽zən mübah işlərdən bəhrələnmək insanda ali vəzifələrin icrasına hazırlıq yaradır və onun inkişafına səbəb olur.

İmam Musa ibni Cəˈfər (ə) günün saatlarının bölümü barəsində belə buyurur: «Günün bir saatını da halal ləzzətlərdən istifadə etməyə ayır. Çünki halaldan istifadə etməklə, sair vəzifələrini də yerinə yetirmək üçün güc taparsan».

Əvvəldə qeyd etdiyimiz kimi, Peyğəmbər (s) «sənə təsvifdən çəkinməyi tapşırıram…» cümləsində səhlənkarlığın yaranma səbəbini, insanın ləzzətlərə çatmaq üçün uzun-uzadı arzulara qapılmalarında görür. Yəˈni insan həmişə öz dünyəvi ləzzətlərinin təˈmini barədə düşünür və bu da, insanın dini vəzifələrini təˈxirə salmasına səbəb olur. Başqa sözlə desək, insan həmişə iki yol arasında qalır: əlində olan fürsəti dünyəvi ləzzətlərin ələ gətirilməsi yolunda sərf etsin, yoxsa axirəti üçün bir şey qazanmaqdan ötrü…Hansını seçsin? Hansı üstündür? Dünyanın nəqd olduğunu, hal-hazırda dünyadan faydalandığını görən insan, vaxtını dünyanın ixtiyarında qoymaq qərarına gəlir. Əslində insanın dünyaya olan meyli axirətdən daha çoxdur. O, dünyanın nəqd ləzzətlərini axirətin sonradan çatacaq neˈmətlərindən üstün sayır. Təəccüblü olan budur ki, bizim əksəriyyətimiz də, özümüz bilmədən bir növ şirkə mübtəla oluruq. Çünki axirətin dünyadan üstün olmasına imanımız yoxdur:

«İnsanların əksəriyyəti Allaha iman gətirməzlər, üstəlik şirk də edərlər»[1].

İnsanın Allahdan qeyrisi üçün gördüyü iş, hətta axirət savabını qazanmaq üçün olsa belə, şirk sayılır. Xalis tövhiddə Allahdan başqa heç bir hədəf nəzərdə tutulmur. Hətta cəhənnəm qorxusu və cənnət şövqü də hədəf ola bilməz. Əlinin (ə) buyurduğu kimi: «Ya Rəbbim! Mənim ibadətim nə Sənin cəhənnəminin qorxusundandır, nə də cənnətinə olan tamahdan. Səni ibadətə layiq gördüm deyə, Sənə ibadət edirəm»[2].

Uzun-uzadı arzular insan səadətini təhdid edir. Bu səbəbdən Əlinin (ə) insanlar üçün ən çox qorxduğu şey, onların bu dərdə mübtəla olmaları idi. O, qorxurdu ki, insanlar dini vəzifələrini öz nəfsani meyllərinin qurbanı etsinlər: «Sizin üçün daha çox iki şeydən qorxuram: biri nəfsinizin istəklərinə uymağınız, o birisi isə uzun-uzadı arzulara qapılmağınız. Çünki həvəsə uymağınız sizi

---

[1] «Yusif» surəsi, ayə 106.

[2] «Biharul-ənvar», cild 41, səh. 14.

haqdan uzaqlaşdırar, uzun arzularınız isə axirəti sizin yadınızdan çıxardar»[1].

## TƏKLİF VƏ VƏZİFƏLƏRİN VAXTINDA YERİNƏ YETİRİLMƏSİ

Peyğəmbər (s) səhlənkarlıqdan çəkinmək haqqında etdiyi nəsihətin ardınca buyurur:

«Çünki bu günkü gün sənin əlindədir, sabah isə səninlə deyil».

Peyğəmbər (s) Əbuzərə nəsihətində bu günün işini sabaha saxlamamasını tapşırır. Çünki sabahın gələcəyinə bel bağlamaq olmaz. Sabahın gələcəyini fərz etsək belə, onun da öz işləri vardır. Əgər sən bu günkü vəzifələrinə əməl etmiş olsan, sabahın olmaması səndə peşmançılıq doğurmaz. Amma əgər bu günün vəzifəsini tə᾽xirə salsan və sabah da gəlməsə, bu həsrəti əbədi olaraq o dünyaya aparacaqsan.

Deməli, indiki an üçün düşünməli və əlimizdə olan hər anı qənimət bilib, işlərimizi sabahın ümidi ilə sonraya saxlamaqdan, səhlənkarlıqdan pəhriz etməliyik. Mütaliə və təhqiq zamanı özümüzə «vaxt çoxdur, sabah mütaliə edərəm» deməməliyik. Gələcəyin də öz işləri var.

«Əgər yeni bir sabahın olarsa, onda da hər gün olduğu kimi, öz gündəlik işlərinlə məşğul ol və əgər sabahın olmayacaqsa, bu günün üçün də (öz gündəlik vəzifəni yerinə yetirmədiyin üçün) peşman olmayacaqsan».

Ola bilər ki, insan gündəlik vəzifələrini yerinə yetirməsinə baxmayaraq, əksər işlərində müvəffəqiyyət əldə edə bilmədiyi üçün mə᾽yus olsun. Lakin insan gücünün məhdudluğunu, hər kəsin öz gücü və imkanları daxilində iş görə biləcəyini nəzərə almaqla, ümidini kəsib, peşman olmamalıdır.

Peyğəmbər (s) əvvəlki sözünün tə᾽kidi və davamı olaraq buyurur:

«Ey Əbuzər! O qədər adamlar var ki, səhərlərini axşama çıxara bilmirlər və o qədər adamlar da var ki, sabahın gəlməsini gözləyərlər, lakin sabaha çıxmırlar».

Görün, Peyğəmbər (s) öz tə`limləri ilə insanların zehnini ömrünün hər anından düzgün bəhrələnə bilməsi üçün necə hazırlayır. Əvvəl onu sabahı və bu sabaha nə qədər bel bağlaya biləcəyi haqqında

---

[1] «Biharul-ənvar», cild 77, səh. 419.

düşünməyə vadar edir. Əgər öz gələcəyinə güvənə bilmirsə, niyə işlərini sonraya saxlamalıdır? Zöhr namazının vaxtı günortanın əvvəlidirsə, bir saat sonra ölməyib diri qalacağını haradan bilir ki, namazını sonraya saxlayır? Aydındır ki, əgər namazını ilkin vaxtda qılsa, sonraya peşmançılıq da qalmayacaq və əlavə olaraq, başqa işlərini görməyə də vaxtı olacaqdır.

## *ÖLÜMÜ DÜŞÜNMƏKLƏ UZUN-UZADI ARZULARA SON QOYMAQ*

«Ey Əbuzər! Əgər əcələ baxıb, sənə tərəf necə tələsik yüyürdüyünü görsən, arzuların və onların aldadıcı təsəvvürlərinin sənə düşmən olduğunu görəcəksən».

Arzu və onun hiylələrinə uymamaq üçün ən yaxşı mübarizə yolu ölüm haqqında fikirləşməkdir. Əcəl uzun-uzadı arzuları öz kamına çəkib, insanı o biri dünyaya ümidsiz halda aparır. Əmirəl-mö᾿minin Əli əleyhissəlamın sözləri ilə desək, «Ürəyində dünya məhəbbətinə yer verən kəsin qəlbi qəm-kədərlə dolu olar və bu kədərlər daim onun qəlbində hərəkət edər. İnsanı hüznlü edən bu qəmlər onun nəfəsi sona yetib əldən düşənə qədər davam edər və nəhayət, həyat nişanələri onda sönüb, qə᾿t olar»[1].

Əli (ə) başqa bir yerdə belə buyurur: «Dünyanın insana verdiyi ibrətlərdən biri də budur ki, insan təzə-təzə öz arzularına çatmaq istəyir, amma ölüm başının üstünü alıb, istəyini gözündə qoyur. Nə arzusuna çatır, nə də ölümün çəngindən qurtula bilir»[2].

## *DÜNYANIN VASİTƏÇİ ROLU*

Hədisin davamında Peyğəmbər (s) buyurur:

«Ey Əbuzər! Dünyada qəriblər və ya müvəqqəti qonaqlar kimi yaşamağa çalış və özünü dünyadan getmiş insanların sırasında hesab et».

Peyğəmbər (s) nəsihətində qəriblər kimi dolanmağı buyurur. Qərib bir insanın tanımadığı bir şəhərə daxil olanda onun dostu, tanışı olmadığı üçün necə yaşamasına diqqət et. Heç kəslə ünsiyyət tapa bilmədiyi halda, eyş-işrətə baş qoşa bilərmi? Mö᾿minin vətəni

---

[1] «Nəhcül-bəlağə», Feyzül-islam, hikmət 359, səh. 1256.

[2] «Nəhcül-bəlağə», Feyzül-islam, xəbər 113, səh. 353.

axirətdir və dünyada bir yolçu, müsafir kimidir. Heç vaxt da düşünmür ki, özünə cah-cəlal düzəldib eyş-işrətə qapılsın. Həmçinin, Peyğəmbər (s) səfər zamanı dayanmağa fürsəti olmayan yolçu kimi olmağı tapşırır.

Mümkündür, yuxarıdakı cümlələrin zahirinə diqqət edərkən insan səhv nəticə çıxartsın ki, cəmiyyətdən kənarlaşıb, dünya ne՚mətlərindən əlini üzməli, insanın əbədi mənzili olan axirət barəsində düşünməlidir. Şübhəsiz, bu cür yanlış fikirlər İslamın əsasları ilə uzlaşmır. Mümkündür, insanın özünə dost seçməsi, ailə qurması, mülk alıb, mal toplaması – hamısı axirət mehvəri əsasında olsun və dünya məhəbbətinin bu arada heç bir rolu olmasın. Əksinə, insanı bu işə təşviq edən əsas amil, axirətə diqqət və Allaha itaət olsun. Əslində insanın ruhi kamala çatması və Allaha yaxınlaşması yolu bu dünyadan keçib onun ləzzətlərindən, imkanlarından düzgün bəhrələndiyi halda mümkün olur. Həqiqətdə, axirəti özünə əsas hədəf seçmiş insan dünyanı, onu öz hədəfinə qovuşduracaq vasitə qərar verir. Əgər insan dünyadan gözünü çəkmir və onu axirət üçün vəsilə qərar verə bilmirsə, heç olmasa, yoldan ötüb keçən yolçunun öz yorğunluğunu çıxartmaq və mənzil başında istirahət edərək, öz gücünün bərpası üçün dayandığı kimi bu dünyada yaşasın. Düzdür, belə şəxsin nəzərində dünya işləri önəmli yer tutur və birdəfəlik ondan gözünü çəkə bilmir. Lakin dünyadan istifadə edəndə də, heç olmasa ehtiyaclarını tə՚min edəcək qədər, ona zəruri olacaq qədər istifadə etməlidir. İmam Musa ibni Cə՚fər (ə) göstərişlərinin birində diqqəti bu məsələyə yönəldərək buyurur: «Gündəlik saatlarınızın bir hissəsini də halal ləzzətlərə ayırın».

Peyğəmbərin (s) **«özünü ölülər sırasında gör»** cümləsi, mə՚na dərinliyinə görə buyurduğu ən ali tə՚birlərdən biridir. Lakin mümkündür, bə՚ziləri bu cümlənin mə՚nasını da səhv anlasınlar. Onun zahirindən belə anlaşılır ki, ölülər hərəkətsiz olub dünyanın zahiri mə՚nalarından məhrum və xəbərsiz olduqları kimi, sən də özünü dünya ləzzətlərindən məhrum et. Halbuki, Peyğəmbərin (s) bu sözü söyləməkdən məqsədi, insanın diqqətini onun əbədi mənzilinə yönəltməkdir. Dünya keçid yeri olub axirətə aparan bir körpüdürsə, sənin də diqqətin əsas məqsədə - əbədi mənzilə olmalıdır və sə՚y edib özünü o gün üçün hazırlamalısan; keçidləri, dayanacaqları çətin və qorxulu olan bu yolda kifayət qədər azuqən olmalıdır ki, sabah üzüqara olmayasan. Deməli, Peyğəmbər (s) heç

də demək istəmir ki, əlini birdəfəlik dünyadan üz, öz məişətin və gələcək asayişinin tə᾽mini barədə düşünmə.

Ayə və rəvayətlərin mə᾽nasından səhv çıxarışlar hələ qədimdən müsəlmanlar arasında mövcud olmuşdur. Peyğəmbərin (s) zamanında «əzab ayəsi» nazil olan kimi, bə᾽zi səhabələr ev-eşiklərini, arvad-uşaqlarını, yeyib-içməyi buraxıb, ibadətlə məşğul olmağa başladılar. Bu xəbər Peyğəmbərə (s) çatanda, onları çağırıb buyurdu: «Bu nə işdir görürsünüz? Mən sizin peyğəmbəriniz ola-ola ibadət edib oruc tutmaqla yanaşı, ailə işlərimlə də məşğul oluram, dünya ləzzətlərindən də istifadə edirəm. Siz də mənim yolumu tutun və həyatdan, ailədən üz döndərməyin».

Yuxarıda dediklərimizi nəzərə alaraq bunu əlavə etmək lazımdır ki, mümkündür, insan dünyada bütün maddi imkanlarla tə᾽min edilmiş olduğu halda dünyaya bağlı olmasın. Çünki insan bütün maddi işlərini haqqa aparan yolda vasitə kimi istifadə edə bilər. Həmçinin, diqqət etmək lazımdır ki, söhbət dünyanın mənfi cəhətlərindən, pislənilməsindən gedəndə, bu təbii və maddi ne᾽məti dəyərsiz bilib, lazımsız saymaq kimi başa düşülməməlidir. Çünki onların hamısı Allahın yaratdıqları və ayətlərindəndir. Əslində, pislənilən şey, insanın dünyaya və onun ne᾽mətlərinə niyyət və baxışından asılıdır. Yə᾽ni pislənilən ne᾽mət deyil, bu ne᾽mətə insanın səhv baxışıdır ki, dünyanı özünün əsas hədəfi seçir və onun vasitə rolu olmasından qafil olur. Deməli, həqiqətdə, insan və onun maddi vasitələrdən səhv istifadəsi məzəmmət olunur.

Əli (ə) Peyğəmbərin (s) vəsfində buyurur: «Peyğəmbərin (s) qəlbi dünyaya uymadı. Onun adı və yadını öz nəfsindən uzaqlaşdırmışdı»[1].

Rəsuləllah nəsihətlərinin davamında buyurur:

«Ey Əbuzər! Səhərə salamat çıxdınsa «axşama da salamat qalaram», axşam vaxtı da «səhərə salamat çıxaram» demə».

Nəsihətin bu hissəsi əvvəldə işarə olunan mətləblərə tə᾽kid olub, insanın öz gələcəyinə bel bağlaya bilməyəcəyini anladır:

«Elə indi bir xəstəliyə düçar olmamış sağlamlığından və ölüm səni yaxalamamış, həyatından bəhrələnməyə çalış. Çünki sabah başına nə gələcəyini bilmirsən».

---

[1] «Nəhcül-bəlağə», Feyzül-islam, cild 108, səh. 294.

Hədisin bu hissəsində Peyğəmbər (s) tövsiyə edib buyurur:

«Fürsətdən istifadə et və bu gününü qənimət say, çünki sabah sağ olub-olmayacağından xəbərdar deyilsən. Həmçinin, xəstələnməmiş sağlamlığının qayğısına qal».

## DÖRDÜNCÜ DƏRS

### *PEYĞƏMBƏRİN (S) ƏLDƏ OLAN İMKANLARDAN LAYİQİNCƏ İSTİFADƏ ETMƏK BARƏSİNDƏ BUYURDUĞU TÖVSİYƏLƏR*

1. Ölüm haqqında düşünməyin rolu və günahın nəticələri;
2. Ömrün qədrini bilməyin əhəmiyyəti;
3. Vəzifələrin vaxtında yerinə yetirilməsi və sabaha arxayın olmamaq haqqında.

## PEYĞƏMBƏRİN (S) ƏLDƏ OLAN İMKANLARDAN LAYİQİNCƏ İSTİFADƏ ETMƏK BARƏSİNDƏ BUYURDUĞU TÖVSİYƏSİ

Əvvəlki söhbətlərimizdə Əbuzərin söylədiyi hədisin müəyyən qismi təhlil edildi. Bu hissələrdə imanın gücləndirilməsi, fürsətin əldən verilməməsi və Allah ne᾽mətlərinin və ömrün qədrinin bilinməsi haqqında danışıldı. İndi həmin deyilənləri başqa bir tərzdə açıqlayacağıq ki, mö᾽minlərin qəlbinə daha artıq tə᾽sir göstərsin. İnsan Allah-təalaya, qiyamət gününə, ilahi dəyərlərə inandıqdan sonra Allah yanında üzüağ olub, qiyamət günü Onun mərhəmətinə sığınmağa can atır. Lakin insanın əsas hədəfi olan əbədi səadətə qovuşması, onun öz ömrünü düzgün qiymətləndirib qədrini bilməsindən və onu necə başa vurmasından asılıdır. Hədisin davamında Peyğəmbər (s) belə bir təhlükənin mümkünlüyünü də xatırladır ki, günaha aludə olub, azğınlığa mübtəla olmuş insanın başının üstünü əcəl ala bilər və həmin halda da bədbəxt, üzüqara əbədiyyət diyarına yola düşər.

## ÖLÜM HAQQINDA DÜŞÜNMƏYİN ROLU VƏ GÜNAHIN NƏTİCƏLƏRİ

«Ey Əbuzər! Ölümün səni günah halında yaxalamasından qorx! Bu halda artıq nə tövbə edib günahlarını yumağa vaxtın qalacaq, nə də ikinci dəfə dünyaya qayıtmaq imkanın. Nə varislərin onlara qoyduğun miras üçün sənə təşəkkür edəcəklər, nə də Allah-təala qabaqcadan axirətə göndərdiklərin üçün sənin üzrünü qəbul edəcək».

Əvvəldə deyildiyi kimi, Həzrət (s) bə᾽zi əxlaqi məfhumları müxtəlif ifadələrlə bəyan etmişdir. Bu məfhumları təkrarlamaqda Həzrətin (s) əsas hədəfi, mö᾽minlərin qəlbinə daha artıq tə᾽sir etmək olmuşdur. Necə ki, Qur᾽anın mübarək ayələrinə azacıq diqqət yetirməklə görəcəyik ki, müxtəlif məsələlər barəsində olan əksər ayələr təkrar olunmuş və hətta bə᾽zi yerlərdə kəlmələr olduğu kimi verilmişdir. Məsələn, «Rəhman» surəsində olan bu ayənin – «İndi Rəbbinizin hansı ne᾽mətlərini təkzib edəcəksiniz?!» 31 dəfə təkrar edilməsinə baxmayaraq, hər təkrar olunan ayənin özünəməxsus mə᾽nası vardır. Lakin hər dəfə bu

təkrarlanmanın insan qəlbinə etdiyi tə᾽sirin daha güclü və artıq olması inkarolunmazdır. Biz gündəlik həyatımızda da öz əməllərimizin yaxşı və ya pis istiqamətdə formalaşmasında, adət və rəftarlarımızın dəyişilməsində təkrarın xüsusi rolunu müşahidə edə bilərik.

Rəvayətə görə «öz əhlini namaza əmr et»[1] ayəsi nazil olanda, həzrət Peyğəmbər (s) düz səkkiz ay davamlı olaraq Əlinin (ə) evinə gələr və buyurardı: «Namaz! Allahın rəhməti olsun sizlərə. Allah iradə etmişdir ki, siz Əhli-beyti hər cür pislikdən uzaqlaşdırsın və bütün eyiblərdən pak qərar versin»[2]. Həzrət (s) bu işi hər gün beş dəfə yerinə yetirmişdir. Halbuki, əgər Peyğəmbərin gün ərzində ən azı bir dəfə Əlinin (ə) evinə getdiyini fərz etsək, bu iş iki yüz qırx dəfə təkrarlanmış olur.

Həzrətin (s) bəyanının xülasəsi budur ki, əgər insan onu səadətə çatdıracaq əməlin nə olduğunu bilməsə və həmçinin, hansı əməlin onu bədbəxtliyə sürüklədiyini aydınlaşdırmasa, günaha və uçruma yuvarlanacaqdır. Əgər bu əsnada əcəli yetişib ölsə, həqiqətən də, ən pis zərəri görmüşdür. Çünki həyat gövhərini, cavanlığı və ilahi ne᾽mətləri günahda uduzmuş, əvəzində bədbəxtçilikdən başqa bir qazancı olmamışdır. Bu cəhətdən Həzrət (s) buyurur:

«O gündən qorx ki, günah üstündə əcəlin çatsın və həmin halda da canını əlindən alsınlar. Belə olan surətdə nə günahlarını düzəltməyə fürsətin olacaq, nə də yenidən sənə bu dünyaya qayıtmağa icazə veriləcək».

Bu barədə Qur᾽ani-kərim belə buyurur:

«Elə ki, ölüm günahkarın başının üstünü aldı, deyər: «İlahi məni yenidən dünyaya qaytar, bəlkə, yaxşı işlər görüb əvvəlki günahlarımı yuya bildim. (Cavab verərlər) Heç vaxt! Belə iş ola bilməz! Və bu, onun gündə təkrarladığı sözdür»[3].

Əgər insan ölümün günah əsnasında onu yaxalayacağını ehtimal verib dərk edə bilsə, günah işlərdən əl çəkər. Fərz edək ki, insan haram yolla ticarət edib çoxlu pul qazanır və varislərinə

---

1 «Taha» surəsi, ayə 132.

2 «Əhzab» surəsi, ayə 33; «Əl-Mizan», cild 14 səh. 242.

3 «Mu᾽minun» surəsi, ayə 99-100.

də çoxlu miras saxlayır. Bunun onun özünə bir xeyri olacaqmı? Qoyub getdiyi mirasdan bəhrələnən varisləri çəkdiyi zəhmətlərə görə Allahdan onun bağışlanmasını diləyəcəklərmi? Bu mal-dövlətdən istifadə edib ləzzət çəkən varislər onu yada salacaqlarmı? Hətta onu düşünsələr, ona rəhmət oxusalar belə, ona bir xeyri olmayacaqdır. Belə olan halda, Allah yanında üzrü qəbul olacaqmı? Görən, Allah onu bağışlayacaqmı? O ki, gördüyü əməllərin haram olduğunu və Allahın əmrindən boyun qaçırdığını bilirdi. Allah yanında deməyə bir sözü olacaqmı? Öz canını özü oda yaxıbsa, nə deyə bilər?

«Ey Əbuzər! Nə cəhənnəm odundan qaçıb qurtulmaq istəyəni, nə də cənnət istəyəni yuxuya qalıb yatan görmədim».

## *ÖMRÜN QƏDRİNİ BİLMƏYİN ƏHƏMİYYƏTİ*

«Ey Əbuzər! Öz ömrün üçün dinar və dirhəmindən daha artıq xəsislik et».

Böyük zəhmətlə çoxlu pul toplamış adam onu asanlıqla başqasına verə bilərmi? Yığdığı pulu böyük zəhmətlə qazandığı üçün müftə əldən çıxarmaz və onun qədrini bilər. Əksinə olaraq, bə᾽zən mümkündür, insan azacıq zərər hiss etmədən saatlarla ömrünü batil yolda xərcləsin. Başqa ifadə ilə desək, mümkündür, biz malımızı xərcləməkdə xəsislik edək, lakin ömrümüzü xərcləməkdə xəsis olmayaq. Halbuki, malın dəyəri ömrün dəyərinə bərabər ola bilməz.

Əgər bir nəfərin həyatı təhlükə altına düşsə, sağ qalması üçün öz malından da neçə dəfə artıq pul xərcləməyə razı olur. Fərz edin, bir nəfər dünyanın bütün qızıl, gümüş, neft mə᾽dənlərinə sahibdir. Əgər ona «Sağ qalman üçün bütün bu sərvətlərdən keçməlisən» desələr, sərvətini verməzmi?

İnsan dünya imkanlarını özünün istifadəsi üçün istəyir. Əgər sağ qalmayacaqsa, onun üçün bu sərvətlərin nə faydası vardır? Deməli, onun ömrü yer üzündə olan sərvətlərdən daha dəyərlidir. Bəs nə üçün bu cür qiymətli sərvəti havayı əldən verir? Nəinki təkcə havayı əldən verir, üstəlik bə᾽zən onun yerinə əbədi əzabı da qazanır. Bir halda ki, pulu, sərvəti havaya sovurmaq ağıllı bir

iş deyil. Təbii ki, ötəri həvəslərdən ötrü ömrü bərbad etmək də ağıllı iş hesab olunmaz!

Ömür kimi qiymətli bir sərmayəni ucuz və müftə dostun, həyat yoldaşının, övladın ixtiyarında qoymayın. Başqaları şad olsun deyə, onu lazımsız yerlərdə sərf etməyin. O ki, qalmışdı, günah işlərdə sərf edəsiniz.

Bəli, əgər insan Allahın razılığını qazanmaq niyyəti ilə ömrünü başqalarını sevindirmək, ailəsini şad etmək və mö᾿min qardaşına kömək etmək üçün sərf edərsə, nəinki ömrünü uduzmamışdır, əksinə, dəyəri dünyadan daha artıq olan Allahın razılığını da qazanmışdır. Lakin hər anı bütün dünyaya dəyəcək ömrü onun-bunun xoşuna gəlmək, baş qarışdırmaq üçün mə᾿nasız söhbətlərdə, əyləncələrdə sərf etmək, doğrudan da, ağıllı iş deyil, çünki bu halda ömrünü havayı əldən vermiş olur.

## *VƏZİFƏLƏRİN VAXTINDA YERİNƏ YETİRİLMƏSİ VƏ SABAHA ARXAYIN OLMAMAQ HAQQINDA*

«Ey Əbuzər! Məgər sizlərdən hər hansı biriniz sonu tüğyana aparıb çıxaran sərvət, Allahı yaddan çıxarmağa səbəb olan kasıbçılıq, insanın canını əldən salan xəstəlik, onu fəaliyyətdən saxlayan qocalıq, tələsik gəlib çatan ölüm, fitnələr törədəcək Dəccal və ya qorxulu və acı olan qiyamət gününün yetişməsindən başqa bir şeyin intizarındasınızmı?».

Yuxarıda deyilənlər insanın əlində olan fürsətləri qənimət bilib, öz öhdəsində olan vəzifə və borclarını yerinə yetirməsindən ötrü edilən növbəti tə᾿kiddir. Əgər insan ixtiyarında olan imkan və qüdrətdən vəzifələrini yerinə yetirmək üçün istifadə etmirsə, bu vəzifələri həyata keçirmək üçün daha hansı fürsətin əlinə düşməsini gözləyir? Bu cümlələr – «Hələlik vaxt çoxdur, sonra görərəm» xam xəyallar ilə yaşayanlara xəbərdarlıqdır.

Hal-hazırda tənbəllik edir, işlərini sonraya saxlayır və ya bihudə işlərlə məşğul olur. Allah eləməmiş, başı günaha qatışıbsa, bütün bunları düzəltmək və ya vəzifələrini yerinə yetirmək üçün daha hansı günü gözləyir? Məsələn, kasıb olanda deyirsiniz ki, inşallah problemlərim düzələr, əlimə yaxşı pul düşər varlanaram, onda vəzifələrimə də əməl edərəm. Amma, bəlkə, elə varlanmağın özü sizə kasıbçılıqdan daha artıq dərd

gətirsin və sizi tüğyana vadar etsin. Çünki insan özünü ehtiyacsız görəndə üsyan edib, özündən çıxır:

«Doğurdan da, insan özünü ehtiyacsız gördüyü zaman Allaha üsyan edəndir»[1].

Deməli, varlanıb ehtiyacsız olanda da deyəcəksən: «Gözləyirəm pullarımı yerbəyer edim, başım bu işlərdən açılsın və kasıblığın dövranı gəlsin. Onda vəzifələrimə əməl edərəm». Elə xəyal edirsən ki, pulun əlindən çıxandan sonra problemlərin də azalacaq və rahatlıqla təklifinə əməl edəcəksən? Haradan biləsən ki, kasıbçılığın da öz problemləri var, kasıbçılıq da insanın başını başqa cür qatır və öz əsas hədəfini yaddan çıxarmasına səbəb olur. Kasıbçılıq insanı elə giriftar edir ki, insan mə᾿nəviyyatı da yaddan çıxarır.

Eləcə də, sağlam birisi düşünür ki, insan xəstə olanda daha çox Allahı yad edir. Əlbəttə, bu əsassız bir fikirdir. Bu o demək deyil ki, hər adam xəstələnəndə daha çox dua, zikr edir. Bə᾿zən insan elə dərdə mübtəla olur ki, ibadət etməyə halı belə olmur.

Cavanlıq zamanında özünə deyirsən: «Qoy cavanlıq dövrünü, onun çılğınlığını, qürurunu, əyləncələrini başa vurum, yaşlaşandan sonra ibadətə başlayaram. Daha xəbərin yoxdur ki, qocalıq sənin belini elə bükəcək ki, nə gücün qalacaq, nə yerindən tərpənməyə halın, nə də ibadət etməyə qüdrətin. Bəs nə vaxt vəzifələrini yerinə yetirəcəksən? Ölüm gəlib çatanda? Ya fitnələr törədən Dəccal gələndə?

«Dəccal» sözünün mə᾿nası, lüğətdə «qızıl suyu» mə᾿nasındadır və həmçinin, həddindən artıq yalan danışan adama da «dəccal» deyirlər. Qızıl suyu həqiqi qızıl olmadığı kimi, yə᾿ni əşyaların üstünə çəkildikdə onları zahirdə qızıla oxşatdığı kimi, yalançı insan da zahirdə cəzbedici və hiyləgər olur və başqalarını öz zahiri görkəmi ilə özünə cəlb edir.

Rəvayətlərdə «dəccal» şər və fitnə törədən adam kimi göstərilmişdir. Hər halda, həzrət Peyğəmbərin (s) bu sözü işlətməkdə məqsədi, aşağıdakı iki mə᾿nadan biri olmalıdır:

---

[1] «Ələq» surəsi, ayə 6-7.

1. Axirəz-zəmanda zühur edib, fitnələr törədəcək bir şəxs olan Dəccal;
2. Məqsəd konkret şəxs olmayıb, hər cür hoqqa və hiyləgərlik simvoludur.

Zahirini zinətləndirib, gözəl qiyafəyə bürünərək başqalarını bu yolla özünə cəzb edib, onları aldadan hər kəsə dəccal demək olar. Həmçinin, batilə haqq don geyindirməklə xalqı yoldan çıxaran adamlar da dəccal adlandırılır. Dəccal haqq və batili bir-birinə elə qarışdırar ki, onları seçib ayırmaq çox çətin olar. Ona görə də Həzrət (s) tə'kid edir ki, nə qədər ki, haqq və batil bir-birinə qarışmayıb və haqq sənin üçün aydındır, fürsəti qənimət bil və haqqa əməl et. Bu yoldakı vəzifələrini yerinə yetir. Məbada yolundan azasan və hidayət yolları üzünə bağlansın. Çünki bu insanın düşə biləcəyi ən pis vəziyyətdir. Bu vəziyyətə düşən insan üçün bundan da çətin və acı olanı isə, qiyamətin gəlib çatmasıdır.

Bununla, Peyğəmbər (s) insanı qarşıdan gələn təhlükələrdən agah edib, bu xətərləri onun gözü qarşısında canlandırmağa çalışır və gələcəkdə üzləşə biləcəyimiz problemlərin hazırkı problemlərdən daha çətin olmaq ehtimalını açıqlayır. Buna görə də heç kəs bu günü qoyub, sabaha arxayın olmamalıdır.

## BEŞİNCİ DƏRS

### *DÜNYƏVİ HƏDƏFLƏR XATİRİNƏ ELM ÖYRƏNMƏYİN PİSLƏNİLMƏSİ*

1. Əməlsiz elmin nəticələri və bu yolla ictimai mövqe əldə etmək;
2. Xalqı aldatmaq xatirinə elm öyrənməyin aqibəti;
3. Bilmədiyini e`tiraf etmək , ilahi alimlərin əsas xüsusiyyətlərindəndir;
4. Qiyamətdə alimin ən böyük həsrət və peşmançılığı;
5. Əlinin (ə) bəyanında alimlərin dərəcə bölgüsü.

## *ƏMƏLSİZ ELMİN NƏTİCƏLƏRİ VƏ BU YOLLA İCTİMAİ MÖVQE ƏLDƏ ETMƏK*

Bu hissədə Həzrət (s) alimlərə müraciət edir. Həzrət (s) alimləri öz elmlərinə əməl etməyə təşviq edir və əməlsiz elmin acı nəticələrini xatırladır.

Doğrudur, Həzrətin bəyanları çox aydındır və izaha ehtiyacı yoxdur, lakin deyilənlərin daha artıq aydınlaşması üçün məzmunca Peyğəmbərin (s) buyurduqları ilə eyni olan bə᾿zi rəvayətlərə də işarə edəcəyik. Lakin əvvəlcədən xatırladaq ki, İslamın nəzərində heç bir aqil insan məs᾿uliyyətsiz ola bilməz. Həmçinin, məs᾿uliyyətlərin ölçü və dərəcələri də bir-birindən fərqlənir. Məsələn, alimin məs᾿uliyyəti cahilin məs᾿uliyyətindən çox olsa da, hər ikisi məs᾿uliyyət daşımaq baxımından müştərəkdirlər.

Bu səbəbdən, cahil də məs᾿uliyyət daşıdığı üçün ilahi təklif və ehtiyacı olduğu dini məsələləri öyrənməyə borcludur. Dini məsələləri bilməməsi heç də onun məs᾿uliyyətdən kənar olması demək deyil. Buna görə də, imam Sadiq (ə) «**De: «Yetərli höccət yalnız Allaha məxsusdur**» ayəsinin ardınca buyurur: «(Qiyamət günündə bəndə öz vəzifələrinə əməl etmədiyi üçün sorğu-suala çəkiləndə) Allah-təala ona buyurar: «Öz üzərinə düşən vəzifə və təkliflərini bilirdinmi?». Əgər bəndə desə «bəli, bilirdim», onda Allah-təala soruşar: «Bəs bildiyinə niyə əməl etmədin?». Və əgər bəndə «yox, bilmirdim» desə, Allah-təala yenə buyurar: «Niyə gedib öyrənmədin?»[1].

Alimlə cahil arasında olan əsas fərq, alimin öz vəzifələrindən agah olmasıdır. Höccət ona tamam olmuşdur. Vəzifəsini tərk edərsə, heç bir üzrü qəbul olunmayacaq və onunla daha çətin davranılacaqdır. Bu barədə imam Sadiq (ə) buyurur: «Alimin bir günahı bağışlanana qədər cahilin yetmiş günahı bağışlanar»[2].

Əlbəttə, insan elə düşünməsin ki, belə olan halda elmdən üz döndərək, bəlkə, yükümüz azaldı və cahildən daha pis vəziyyətə

---

1 «Biharul-ənvar», cild 7, səh. 285.

2 «Biharul-ənvar», cild 2, səh. 27.

düşmədik. Çünki cahildən də elm dalınca getmədiyi üçün sual olunacaq. Elmdən qaçmaqla, insan məsʾuliyyətdən yaxasını kənara çəkə bilməz. Bir də, biz niyə o alimlərdən olmayaq ki, elmlərinə əməl edirlər və bu dünyada başqaları onların elmlərinə həsrət apardığı kimi, o dünyada da məqamlarına qibtə edirlər.

Bizim elm öyrənməyin fəziləti haqqında çoxlu sayda rəvayətlərimiz mövcuddur. Hətta bəʾzi rəvayətlərdə gətirilir ki, ilahi elmlərin təhsili ilə məşğul olan adam üçün yerin-göyün quşları, heyvanlar və dəryadakı balıqlar Allahdan bağışlanma diləyərlər.

Hər necə olsa da, Həzrət (s) bu bənddə buyurur: «Elminə əməl etməyən alimin qiyamət günü yeri və dərəcəsi hamıdan alçaq olar və cənnətin qoxusunu ala bilməz». Çox vaxt insan elm dalınca gedəndə əvvəldə niyyət xalqa, dinə xidmət olur, amma yolun yarısında bəʾzi maneələrlə üzləşir və bu çətinliklər onu öz əsas hədəfindən dönməyə vadar edir. Bəʾzilərinin elə əvvəldən elm öyrənməkdən məqsədləri, Allahdan qeyri hədəflər üçün olur. Nəinki təhsildə ixlasları olmur, hətta alçaq niyyətlər xatirinə elmə üz tuturlar. Məsələn, xalqın diqqətini cəlb etmək, vəzifəyə, şöhrətə çatmaq xatirinə elm öyrənirlər. Təbiidir ki, belə adamlar elə əvvəldən yanlış yola üz tuturlar və son mənzilləri də uçurumdur. Nəticədə bədbəxtlik, rəzillik, zillət girdabına yuvarlanırlar və qiyamətdə də behişt qoxusunu heç vaxt hiss etməyəcəklər.

Bəlkə də, vəzifəyə və ağ günə çıxmaq üçün dünyəvi elmlərə üz tutan adam, bir o qədər də məzəmmət edilməsin. Məqsədi axirət səadəti və bu yolları işıqlandırmaq olan, lakin ilahi elmlərdən dünya mənfəəti üçün istifadə edən adamın aqibəti çox pis olacaqdır. Həqiqətdə, belə adam dünyanın dərəcə və şəʾnini axirətdən üstün tutur. Başqa təʾbirlə desək, üstünlüyü dinə yox, dünyaya verir. Bu düşüncə insanın dini əsaslara, məʾnəvi dəyərlərə eʾtiqadsızlığından irəli gəlir və sonda insanı Allahdan uzaqlaşmağa aparıb çıxarır. Necə ki, Peyğəmbər (s) buyurur: «Məʾlumatının və elminin artmasına baxmayaraq dünyadan üz çevirməyən adam, həqiqətdə, Allahdan uzaq düşmüşdür».

## *XALQI ALDATMAQ XATİRİNƏ ELM ÖYRƏNMƏYİN AQİBƏTİ*

«Xalqı aldatmaq xatirinə elm öyrənən kəsin burnuna cənnət qoxusu dəyməz».

Şöhrət və sərvət üçün elm dalınca gedənlər bir tərəfə qalsın, hətta elmi xalqı aldatmaq və başqalarını əyri yola çəkmək xatirinə öyrənənlər də vardır.

Hədisin bu hissəsinə qədər elmə əməl etməyin əhəmiyyəti və elm öyrənməkdə niyyətin təmizliyindən söhbət açıldı. Belə ki, elm dalınca gedən insan diqqət edib hansı niyyətlə bu yola qədəm qoyduğunu özü üçün aydınlaşdırmalıdır. Bəlkə, Allah eləməmiş, qəlbində şeytani niyyətlər baş qaldırıb və «Hüccətül-islam», «Ayətullah», «filosof», «alim» və s. kimi ad-san qazanmağın dalınca gedir?!

Şöhrət xatirinə elmin zəhmətinə qatlaşanlar, bəlkə də, elə fikirləşirlər ki, xalq arasında məşhur olub tanınan adamlar, Allah yanında da əziz tutulurlar. Bu batil bir fikirdir. Məgər camaat arasında şöhrət qazanmış adam öz ilahi təkliflərinə əməl etmişdir ki, Allah yanında da əziz olsun və səadətə çatsın? Düzdür, onun xalq arasında hörməti, ad-sanı vardır. Lakin Allah yanında hər kəsdən daha başaşağı və üzüqaradır. Çünki insanın üstünlük meʾyarı onun elmi, əməli və təqvası vasitəsilə ölçülür. Şərt budur ki, insan Allah yanında hörmətli və izzətli olsun, xalq arasında yox.

## *BİLMƏDİYİNİ EʾTİRAF ETMƏK ALİMLƏRİN ƏSAS XÜSUSİYYƏTLƏRİNDƏNDİR*

Peyğəmbər (s) bir rəvayətdə belə buyurur: «Allah üçün öyrənilməli olan elmi dünyəvi şöhrətə, hədəflərə çatmaq üçün öyrənən adamın burnuna cənnət qoxusu dəyməyəcək»[1].

«Ey Əbuzər! Hər vaxt səndən bilmədiyin bir şey haqqında soruşanda, bilmədiyini eʾtiraf et və bilmədiyin bir şey barəsində hökm vermə ki, qiyamət günü Allahın əzabından amanda olasan».

---

[1] «Biharul-ənvar», cild 2, səh. 37.

İnsanın bilmədiyi şey barəsində fikir söyləməsi rəva deyildir. Bə᾿zən düşünülmədən deyilən fikir digərlərinin yoldan çıxmasına, azğınlığa düçar olmasına səbəb olur.

Alim şəxsin mübtəla ola biləcəyi eyiblərdən biri də budur ki, bir məsələni bilmir. Lakin həmin şeyi bilmədiyini e᾿tiraf etməyə xəcalət çəkir. Savadsız şəxslər üçün hər hansı bir mə`lumatsızlığı e`tiraf etmək asandır, lakin alim ünvanı ilə tanınan şəxs «bilmirəm» deməkdən xəcalət çəkir, bir növ bundan yayınmağa çalışır. Belə şəxsdən bilmədiyi bir şey haqqında soruşulduqda sualı cavabsız qoymağa, «bilmirəm» deməyə çətinlik çəkir və xalqın ona, «sən necə alimsən ki, bu məsələni bilmədin!» deyəcəyindən qorxur.

Sualının cavabında «bilmirəm» deməyin nə qəbahəti vardır? Məgər hər kəsə hər şeyi bilmək vacib edilmişdir? Hər şeyi bilən Allahdır və başqalarını da öz işindən damla qədər bəhrələndirən də Odur! Necə ki, Qur᾿anda buyurur:

«Sizə verilən elmin miqdarı çox azdır»[1].

Mərhum Əllamə Təbatəbai cümə axşamları və cümə günləri məclis təşkil edərdi. Bu məclislərdə müxtəlif elm adamları, tələbələr yığışaraq, fəlsəfi və digər mövzular ətrafında elmi bəhslərə qatılardırlar. Əgər sualımız olsaydı, məclis başlamamışdan əvvəl və ya yolda gələrkən ona söyləyərdik. Bir gün birlikdə yol getdiyimiz vaxt ondan fəlsəfi bir sual soruşdum və o, «bilmirəm» deyə cavab verdi. İkinci dəfə başqa bir sual soruşdum. Bu dəfə də, sualımı çox rahat halda «bilmirəm»lə cavablandırdı. Sonra bir müddət nə düşündüsə, buyurdu: «Baxın, görün, belə cavab vermək olarmı?». Sonra ürəyəyatan və qənaətbəxş bir cavab verdi. Həmin gecə məclisdə buyurdu: «Biz gərək öz məchulatımızı Allahın mə᾿lumatı ilə müqayisə edək. Belə olan surətdə görəcəyik ki, heç nə bilmirik və bizim bilmədiklərimiz, Allahın mə᾿lumatı sonsuz olduğu qədər nəhayətsizdir».

Bu yol, peyğəmbər və övliyalar məktəbində tərbiyə olunmuşların yoludur. Bir şeyə yəqinləri olmayanda, tərəddüdlə

---

[1] «İsra» surəsi, ayə 85.

cavab verirdilər. Bəlkə də, Əllamənin verdiyi cavab, bizim gözlədiyimizdən daha qanaətbəxş idi, lakin bir elmə yəqini olmadığı halda «bilmirəm» deməyə adət etmişdi. Həqiqətdə, onun bu üsulu, uzun zaman nəfs ilə mübarizə və nəfsinə qələbənin tə᾿sirindən yaranmışdı.

Bu yol altmış, yetmiş il bərəkətli ömürlərini nəfslərinin paklanmasına, öyrənib-öyrətməyə sərf edən kəslərin yoludur. İndi bizlər üç-dörd söz öyrənib öz şəhərimizə qayıdanda və bizdən bir məsələ haqqında bir şey soruşanda, «bilmirəm» deməyə çətinlik çəkirik! Bunun üçün məşq etmək, adət halını almaq lazımdır ki, birdən bir nəfər bizdən bilmədiyimiz bir sual soruşanda «bilmirəm» sözünü rahat deyə bilək. Əgər bir şeyə zənnimiz olsa, «belə olmaq ehtimalı da var» deməliyik. Belə edəriksə, özümüzü axirət giriftarçılığından xilas etmiş olarıq.

## *QİYAMƏTDƏ ALİMİN ƏN BÖYÜK PEŞMANÇILIĞI*

«Ey Əbuzər! Qiyamət günü bir dəstə cənnət əhli, cəhənnəm əhlindən bə᾿zilərini görüb soruşarlar: «Necə oldu ki, siz cəhənnəmə düşdünüz? Halbuki, biz sizin tərbiyənizin, elminizin bərəkəti sayəsində cənnətə düşmüşük». Cavabında deyərlər: «Biz başqalarını yaxşı əməllər görməyə də`vət edirdik, lakin özümüz öz dediklərimizə əməl etmirdik».

Qur᾿ani-kərimdə göstərilən qiyamət səhnələrindən biri də budur ki, cənnət əhlinin bir dəstəsini bir qrup cəhənnəm əhli ilə görüşdürərlər və bu iki dəstə bir-biri ilə söhbət edərlər. Qur᾿anda gəlmiş «işraf» sözünə əsasən belə demək olar ki, cənnət yuxarı, cəhənnəm isə alçaq məkanda qərar tutmuşdur. Bu cəhətdən də cənnət əhli onları yüksəkdən müşahidə edərlər. Qur᾿anın tə᾿biri belədir ki, bə᾿zən cənnət əhli cəhənnəm əhlindən söz soruşub cavab alar. Bə᾿zən də əksinə, cəhənnəm əhli cənnət əhlindən söz soruşub cavab alarlar:

«Behişt əhli cəhənnəm əhlini səsləyib deyərlər ki, bizə (Peyğəmbərdən) verilmiş və᾿də (cənnətdə olacağımız dərəcə) doğru çıxdı. Sizə necə? Allahın sizə verdiyi və᾿də də doğru çıxdımı? Onlar deyərlər: «Bəli (biz də öz haqqımıza çatdıq)». Bu

zaman onların arasından bir nəfər nida edər: «Allah zalımlərə lə᾽nət eləsin»[1].

Bəli, bu rəvayətdə göstərildiyi kimi, cənnət əhli cəhənnəm əhlindən bir dəstəyə deyər: «Biz, sizin hidayətiniz nəticəsində, sizin elminizin, tərbiyənizin bərəkəti sayəsində cənnəti qazandıq. Necə oldu ki, siz cəhənnəmə, ilahi əzaba düçar oldunuz?». Onlar həsrət və peşmançılıqla cavab verərlər: «Biz öz söylədiklərimizə əməl etmədik. Sizi yaxşı işlər görməyə də᾽vət edirdik, lakin özümüz ondan uzaq gəzirdik. Sizi müstəhəb əməllər görməyə təşviq edirdik, lakin özümüz əməl etmirdik. Sizi qeybətdən, günahdan çəkindirirdik, amma özümüz günaha batırdıq. Sizlər bizim dediklərimizə qulaq asıb əməl etdiniz və bu yerə gəlib çıxdınız. Lakin biz bu qədər elmə əməl etmədik, axırımız da bədbəxtlik və rəzillik oldu».

Bu həsrət və rüsvayçılıq öz elmlərinə əməl etməyənlərin aqibətidir. Aydındır ki, belə bir peşmançılıq onlar üçün ilahi əzabdan, yanmaqdan daha ağırdır. Çünki ruhi əzablar, cismani əzablardan daha yandırıcıdır. Düşmənin acı gülüşü qılınc yarasından daha yandırıcı olur.

İnsana başqalarının onun yol göstərməsi sayəsində behiştə nail olmaları, lakin özləri öz elmindən bəhrələnib və ən böyük məqamlara çata biləcəkləri halda cəhənnəmə düşmələri çox pis tə΄sir edir. Ən dəhşətlisi də odur ki, müridləri gəlib onun bu halına tamaşa etsinlər! Onlar cənnətdə ne᾽mət görsünlər, özü isə cəhənnəm əzabı. Onun üçün heç bir əzab olmasa belə, şagirdlərinin çatdığı ne᾽məti görmək, əzab olaraq ona kifayətdir.

Bu şərif hədisdə yad edilən nöqtələri nəzərə alaraq, biz əvvəl niyyətimizi düzgün müəyyənləşdirməli və elmi Allah xatirinə, vəzifələrimizin düzgün icrası üçün öyrənməliyik. İlk addımda öyrəndiyimiz hər bir şeyə əməl etməyə çalışmalıyıq ki, bu xüsusiyyəti özümüzdə adət şəklinə sala bilək. Elmimiz artdıqca, onu əməldə də tətbiq edə bilək. Əgər əvvəldə hər şeyə səthi yanaşsaq, səhlənkarlıq etsək, əvvəl bir vəzifəni tərk etsək sonra yavaş-yavaş o biri vəzifələri də yüngül sayacağıq. Bu gedişlə

---

[1] «Ə᾽raf» surəsi, ayə 14.

içimizdə böyük bir üsyan baş qaldıracaq və artıq nəfslə mübarizə çox çətin olacaqdır.

### *HƏZRƏT ƏLİNİN (Ə) BƏYANINDA ALİMLƏRİN BÖLGÜSÜ*

Əli (ə) alimləri dərəcələrə ayırıb, dəstələrə bölərkən belə buyurur: «Alimlər iki dəstədirlər: Birinci dəstə öz bildiklərinə əməl edib nicat taparlar. İkinci dəstə isə elmlərinə əməl etmədikləri üçün həlak olarlar və şübhəsiz, cəhənnəm əhli əməlsiz alimin pis iyindən əzab çəkər. Bilin ki, cəhənnəmdə ən peşman, ən həsrət çəkən şəxs o şəxsdir ki, başqalarını Allah yoluna də`vət edər və onlar da bu də`vəti qəbul edib, Allaha itaət edərlər. Sonra Allah onları cənnətə daxil edər, amma də`vət edəni – öz elminə əməl etmədiyi üçün – cəhənnəmə salar»[1].

Hədisi-qüdsidə Allah-təala həzrət Davuda xitab edərək buyurur: «Əməlsiz alimə verəcəyimiz ən kiçik əzabımız, yetmiş əzabdan daha ağır olacaqdır. O da budur ki, münacatımın şirinliyini onun ürəyindən xaric edərəm. Bundan sonra bir də heç vaxt məni yad etməkdən ləzzət ala bilməz»[2].

---

[1] «Biharul-ənvar», cild 2, səh. 34.

[2] «Biharul-ənvar», cild 2, səh. 32.

## ALTINCI DƏRS

### *ALLAH NEʾMƏTLƏRİNİN ƏZƏMƏT VƏ GENİŞLİYİ*

### *VƏZİFƏLƏRƏ DİQQƏTLİ OLMAĞIN ZƏRURİLİYİ*

1. Allahın əzəmətli qanunları və ne᾽mətlərinin sonsuzluğu;
2. Ömrün qısalığı və insandan əbədi qalacaq yaxşı və pis əməllər:
a) İnsanın dünyadakı rəftarlarının qiyamətdə təcəssümü;
b) Qəfil ölüm insanın qəflətdən oyanması üçün mühüm amildir;
3. İnsanın ruzisinin Allah tərəfindən tə᾽yin olunub qorunması;
4. Tövhidi-əf᾽ali və Allahın xeyir mənşəyi olması.

## *ALLAHIN ƏZƏMƏTLİ QANUNLARI VƏ NE῾MƏTLƏRİNİN SONSUZLUĞU*

«Ey Əbuzər! Allahın haqqı, bəndələrin onu ödəyə biləcəklərindən çox böyük və ne῾mətləri bəndələrin onu sayıb qurtara biləcəklərindən daha çoxdur. Sizlər yalnız hər səhər-axşam tövbə edib, öz təqsirinizi e῾tiraf edin».

Hədisin bu hissəsində bəhsimizin mehvəri, insanda məs῾uliyyət hissinin yaranması və vəzifələrə əməl etməyin əhəmiyyəti barəsində olacaqdır.

İnsan öz ömründən kamil surətdə istifadə etməlidir və ondan bəhrələnməli olduğunu anladığı zaman vaxtını elm kəsb etməyə sərf etməlidir. Elmlə məşğul olmaqdan ötrü ilk növbədə insanın elmə marağı olmalıdır. İnsan bu marağı özündə necə yarada bilər? Bunun üçün insanın bu məsələyə diqqət etməsi lazımdır. Mə῾lum olduğu kimi, Allahın Öz bəndələri üzərində haqqı vardır. İnsan öz əqli və fitrəti sayəsində dərk edir ki, əgər bir nəfərin onun boynunda haqqı varsa, gərək həmin adamın haqqını özünə qaytarsın. Hər aqil insan bunu da bilir ki, Allah-təalanın onun öhdəsində böyük haqqı vardır. İnsan diqqət edib anlasa ki, bəhrələndiyi ne῾mətlərin – həyatından tutmuş, onu əhatə edən maddi və mə῾nəvi ne῾mətlərə qədər – hamısı Allah tərəfindəndir, heç vaxt bəndəçilik vəzifəsini yaddan çıxarmaz. İnsan ona ne῾mət bəxş edən Rəbbinə təşəkkür etməli olduğunu dərk edir və bu, insanda öz vəzifələrini yerinə yetirməyə qarşı məs῾uliyyət hissi oyadır. Ona görə də, Həzrət (s) hədisin bu hissəsinin ilk cümləsində Allahın insanlar üzərində olan hüququna işarə edir və buyurur: «**İnsanlar heç vaxt Allahın onlara bəxş etdiyi ne῾mətlərin şükrünü yerinə yetirib, onun insanlar üzərində olan haqqını ödəyə bilməzlər**».

İnsan anlayanda ki, bütün ömrünü bu işə sərf etsə də, Allahın ne῾mətlərinin əvəzini verə bilməyəcək, Allahın haqqını ödəyib öz vəzifəsini layiqincə yerinə yetirməyə müvəffəq olmayacaq, həmişə özünü borclu görəcəkdir. Hətta günah iş görməsə də, yenə Allahın haqqı onun boynunda qalacaqdır və o, bu haqqı geri qaytarmalıdır. Bə`zən şeytan insanı aldadıb qəlbində

vəsvəsə yaradır və o da elə xəyal edir ki, Allah ona borcludur. Bir adam əgər Allahın lütf və inayəti ilə özünü günahdan qoruyur və sonra da qürrələnib ürəyində özünə günah etmədiyi üçün «əl-həmdulillah» deyərsə, həqiqətdə, həmin şəxs qəflətə qapılaraq, xudpəsənd olmuşdur. İnsan həmişə diqqətli olub unutmamalıdır ki, heç vaxt Allahın ona lütf etdiklərinin qarşılığını qaytara bilməz. Allahın ona bəxş etdiklərinin əvəzi olacaq şükrün öhdəsindən gələ bilməz. Belə ki, Allah-təala buyurur:

«Allahın ne᾽mətlərini saymaq istəsəniz, bacarmayacaqsınız»[1].

Hətta fərz etsək ki, insan Allahın ne᾽mətlərini saya bildi. Lakin onlardan hər birinin haqqını ödəməyə qadir olmayacaqdır. Hətta həmin ne᾽mətin şükrü üçün bir «əl-həmdulillah»la kifayətlənərsə, yenə də onun şükrünü lazımınca yerinə yetirə bilməyəcəkdir. Çünki «əl-həmdulillah» deməyin özü də, Allah tərəfindən bəxş edilən bir ne᾽mət və müvəffəqiyyətdir; bu kəlam hər kəsin yadına düşəcəyi, deyə biləcəyi bir söz deyil. Allahın inayət edib, tofiq əta etdiyi kəs bu sözü deməyə nail olur və bunun özünün də başqa bir şükrə ehtiyacı var. Deməli, hər şükrü edə bildiyin üçün başqa bir şükr də vacib olur. Yə᾽ni qiyamətə qədər «əl-həmdulillah» desək, bir «əl-həmdulillah»ın şükrünün öhdəsindən gələ bilməyəcəyik. Bəs belə olan surətdə, sayı bəndə tərəfindən qeyri-mümkün olan bu qədər ne᾽mətin şükrünü necə ödəmək olar?!

Allahın ne᾽mətlərinin hədsiz-hüdudsuz olduğunu və insanlar üzərindəki haqqını nəzərdə tutmaqla, insan özünün olduqca kiçik və gücsüz olduğunu dərk edəcək və hətta günah etməsə belə, yenə də özünü Allaha borclu biləcəkdir.

Əgər insan Allah ne᾽mətlərinin şükrünü ödəyə və haqqı əda edə bilmirsə, onun görə biləcəyi ən böyük iş bu ola bilər ki, heç olmasa tövbə və üzürxahlıq halını qoruyub saxlasın. Vəzifəsi olan işlərdəki naqisliyini və günahlarını e᾽tiraf etsin. Bunun özü insanı qürrələnməkdən, təkəbbürlülükdən saxlayır. Çünki insan ayağını doğru yoldan qırağa qoyan kimi dünyapərəstliyə,

---

[1] Nəhl surəsi-18.

rahatlığa mübtəla olacaqdır. İnsan doğru yola hidayət olanda və təkliflərinə əməl edəndə belə, qürura mübtəla olur; özünü başqaları ilə müqayisə edir və öz-özlüyündə fikirləşir ki, insanlar Allah ne᾽mətlərinin qədr-qiymətini bilmir, günah işlərlə məşğuldurlar, lakin mən Allaha şükr vəzifəmi yerinə yetirirəm, Onun ne᾽mətlərinin qədrini bilirəm!

Deməli, iman əhli olmaqla yanaşı, həm də çalışmalıyıq ki, məğrurluq kimi mənfi xüsusiyyətə mübtəla olmayaq. Bu, Əhli-beyt məktəbindən alacağımız böyük tərbiyə dərsidir.

Hədisin bu bölümündə Peyğəmbər (s) bizi öz təkliflərimizə əməl etməyə sövq etməklə yanaşı, həm də qürur və xudpəsəndlik kimi mənfi sifətlərə mübtəla olmaqdan çəkindirir.

## *ÖMRÜN QISALIĞI VƏ İNSANDAN ƏBƏDİ QALACAQ YAXŞI VƏ PİS ƏMƏLLƏR*

«Ey Əbuzər! Sizə verilən ömür gecə və gündüzün keçməsi ilə əlaqədar daim azalmaqdadır. Bu ömürdən isə sizin yalnız əməliniz qorunub saxlanılır. Qəfil ölüm gəlib çatdığı zaman yaxşı əməl sahibləri öz xeyirli əməllərinin nəticəsini alarlar. Pis əməl sahiblərinin ələ gətirdikləri isə, ancaq peşmançılıq olar. Hər kəs əkdiyini biçər».

İnsanı iş və fəaliyyətə sövq etdirən, onda ilahi təkliflərə qarşı maraq oyadan məsələlərdən biri də, ömrün keçici olmasına edilən diqqətdir. İstəsək də, istəməsək də alıb-verdiyimiz hər nəfəsdə ömrümüz bir miqdar azalır. Fələyin çarxını öz gərdişindən saxlamaq olmaz. Əli ibni Əbi Talibin (ə) sözləri ilə desək, «İnsanın çəkdiyi hər nəfəs, onun ölümünə qarşı atdığı bir addımdır»[1].

Diqqətli olmaq lazımdır ki, ixtiyarımızda olan bu sərmayə əlimizdən çıxmasın. Bu elə bir sərmayədir ki, daim azalıb, solmağa doğru irəliləyir və son nöqtəsi insanın əlindən qurtara bilməyəcəyi ölümdür. Əli (ə) buyurur: «Ölümdən qorxan kəs (bilsin ki,) ondan qurtula bilməyəcək, yaşayıb sağ qalmağı sevən kəs də (bilsin ki,) həmişəlik sağ qalmayacaqdır»[2].

---

[1] «Nəhcül-bəlağə», Feyzül-islam, səh. 1117.

[2] «Nəhcül-bəlağə», Feyzül-islam, xütbə 38, səh. 122.

Ömrün hədər getməməsi üçün tənha çıxış yolu faydalı müamilədir. Bundan daha yaxşı müamilə nə ola bilər ki, insan ömrünün müqabilində behişti qazansın. Çünki behişt insan ömrünün qiyməti olacaq yeganə sərvətdir. Əli (ə) buyurur: «Hanı elə bir azad insan ki, çeynənilib tüpürülmüş bu artığı (bu dünyanı) dünya əhli üçün saxlasın? Cənnət, sizin canınızın yeganə qiymətidir. Elə isə onu (ömrünüzü) ondan başqa heç nəyə satmayın»[1].

Ömrün böyük sərmayəsini Allahın qəzəb atəşi ilə müamilə edənlər necə də ziyankar insanlardır! Ömürlərini batil yolda sərf edənlər, bəlkə də, fikirləşirlər ki, ömür getdikcə onların əməlləri də itib batır. Necə də batil bir xəyal! Düzdür ki, bu həyat keçicidir, əbədi qalan isə axirət həyatıdır. Lakin insanın bu həyatdakı əməlləri əbədi qalacaqdır, çünki əməlin insan ruhu və Allah-təala ilə əlaqəsi vardır. Bizim keçici və fani olan bir zamanda yaşamağımıza baxmayaraq, həm də əbədiyyət aləmi ilə rabitəmiz vardır və əməllərimiz orada əbədi qalır.

### *a) İNSANIN DÜNYADAKI RƏFTARLARININ QİYAMƏTDƏ TƏCƏSSÜMÜ*

Qiyamətə aid edilən və qəbul olunan məsələlərdən biri də, insan əməlinin qorunub-saxlanılması və qiyamətdə təcəssüm olunmasıdır. Allah-təala Qur᾽anda bu məsələyə işarə edərək buyurur:

«…Və o gündə (qiyamətdə) camaatın yaxşı və pis əməllərinin (toplandığı) kitabı onların qarşısına qoyarlar. Günah əhlini əməl dəftərlərinə görə həyəcanlı və hürkək görərsən, onlar özlərinə deyərlər: «Vay olsun bizə! Bu necə kitabdır ki, bizim bütün böyük və kiçik əməllərimizi, iynə ucu qədər belə yer ötürmədən bir-bir qələmə almışdır». (Bu kitabda) bütün əməllər qorunub saxlanılmışdır və hər kəs öz əməlini orada hazır görəcəkdir və sənin Allahın heç kimə haqsızlıq etməyəcəkdir»[2].

Başqa bir yerdə buyurur:

---

1 «Nəhcül-bəlağə», Feyzül-islam, hikmət 448, səh. 1295.

2 «Kəhf» surəsi, ayə 49.

«Qiyamət günü zərrə qədər yaxşı iş görən hər kəs, onun xeyrini görəcəkdir və zərrə qədər pis iş görən hər kəs də onun zərərini görəcəkdir»[1].

## *b) QƏFİL ÖLÜM, İNSANIN QƏFLƏTDƏN OYANMASI ÜÇÜN MÜHÜM AMİLDİR*

Heç kim nə qədər yaşayacağı və nə zaman öləcəyini bilmir. Qur᾽anın buyurduğu kimi:

«Heç kim sabah nə olacağını və əcəlinin harada yetişəcəyini də bilmir»[2].

Allahın insana olan lütflərindən biri də insanın öz ölümünün nə zaman olacağını bilməməsidir. Əgər öz əcəlimizin vaxtını bilsəydik, daha çox qəflətə və qürura mübtəla olardıq. Əlbəttə, ruhi cəhətdən kamala çatmış insanlar fəqət Allah qarşısında müt᾽i olub, öz bəndəlik vəzifələrini icra etmək fikrində olduqları üçün ölüm vaxtının nə zaman yetişib-yetişməyəcəyi onları maraqlandırmır. Mümkündür, Allah onlara ölümlərinin nə zaman yetişəcəyini xəbər versin. Lakin bizim kimi adamların əcəlini qabaqcadan bilməsi səhlənkarlığa səbəb ola biləcəyi üçün Allah belə bir xəbəri bizlərə verməyi məsləhət bilmir. Bizim əcəlimizin nə vaxt yetişəcəyindən xəbərsiz olub, bu barədə nigaran qalmağımız Allahın hikmətindəndir. Çünki belə olan surətdə, biz ömrümüzdən daha yaxşı istifadə edə bilərik.

«Vəmən yəzrə`» xəyrən cümləsində dünya əkin yerinə bənzədilir. Ora nə səpsən, onu da biçəcəksən. Səpdiyin yaxşı əməldirsə biçdiyin yaxşı, pis əməldirsə məhsulun da pis olacaq. »

## *İNSANIN RUZİSİNİN ALLAH TƏRƏFİNDƏN TƏ᾽YİN OLUNMASI VƏ YAD ƏLLƏRDƏN QORUNMASI*

«Ey Əbuzər! Heç kəs öz ruzisini ələ gətirməkdən ötrü gecikmiş bir kəsin payını mənimsəyə bilməz və hər kəs özü üçün tə᾽yin olunmamış ruziyə tamah göstərsə, ona nəsib olmaz».

---

[1] «Zəlzələ» surəsi, ayə 7-8.

[2] «Loğman» surəsi, ayə 34.

İnsan öz həyatında həmişə iki mühüm problemlə qarşı-qarşıya durur: Birincisi, öz həyatı üçün lazım olan ehtiyacları ələ gətirmək məcburiyyəti insanı ilahi vəzifələri icra etməkdən yayındırır.

İkincisi, Allaha itaət zamanı insan qürur və xudpəsəndlik kimi mənfi hisslərə mübtəla olur. Qürur əməlləri məhv edən bir atəşə bənzəyir. Bu bəladan yaxa qurtarmaqdan ötrü çarə düşünülməlidir.

Bə᾽ziləri belə təsəvvür edirlər ki, ilahi təkliflər onların ictimai həyatlarına mane olur. Düşünürlər ki, dünya işləri, tərk olunması mümkün olmayan bir zərurətdir və bunun özü dini və ilahi məsələlərə maneəçilik törədir. Bu üzr və bəhanələr şeytani vəsvəsələrdəndir. Bu vəsvəsələrin qarşısını almaq üçün diqqət edilməsi lazım olan məsələlərdən biri də budur ki, Allah-təala hər kəs üçün müəyyən bir ruzi tə᾽yin etmişdir və insan nə qədər çalışıb-vuruşsa da, onun üçün tə᾽yin edilmiş ruzidən artığına nail ola bilməyəcəkdir.

Qur᾽anda və hədislərdə öz əksini tapmış və insan üçün diqqət yetirilməsi zəruri olan öyüdlərdən biri də, tə᾽yin edilmiş ruzi məsələsidir. Biz hələlik ruzinin tə᾽yin edilməsi məfhumunu və ruzinin ələ gətirilməsi üçün insanın nə dərəcədə çalışıb-çalışmaması məsələsini açıqlamaq fikrində deyilik. Qısa olaraq yalnız bunu deyə bilərik ki, dində bu məsələyə xüsusi əhəmiyyət verilmişdir.

«Nəhcül-bəlağə»nin müxtəlif yerlərində ruzinin təqdiri mövzusuna işarə edilmişdir. Bu rəvayətdə də qeyd olunur ki, əgər bir kəs öz ruzisini qazanmaqda süstlük etsə, başqası onun ruzisini yeməyəcəkdir və əgər bir nəfər mal toplamağa həddən artıq tamah göstərsə və onun üçün tə᾽yin edilmiş paydan daha artıq götürmək istəsə də, tə᾽yin edilmiş miqdardan artığı ona qismət olmayacaqdır. Bu məsələyə diqqət yetirmək şeytani vəsvəsələrin qarşısını alır.

Şeytan insanı Allaha ibadətdən yayındırmaq istəyir. İbadət zamanı ona «indi çörək qazanmaq vaxtıdır, ev-eşiyinin fikrində ol» və s. vəsvəsələr edəndə, şeytana «Sakit ol, mənim ruzim tə᾽yin edilmişdir və başqasına da çatmayacaqdır» deməklə, onun

ağzından vurmalıdır. Əlbəttə, bu e᾽tiqad insanın Allah-təala tərəfindən ruzinin tə᾽yin edildiyinə xatircəm olduğu zaman hasil olur.

Allahın hər bir insanın ruzisini tə᾽yin etməsi o demək deyil ki, insan ruzi əldə etmək üçün hərəkət etməsin və «onsuz da Allah ruzimi göndərəcək» fikri ilə yaşasın. Artıq bu barədə söhbət etdikdə qeyd olundu ki, insan öz ehtiyaclarını tə᾽min etmək üçün çalışmalıdır və Allahın əsla tənbəl insandan xoşu gəlmir.

Ruzinin təqdiri məsələsini açıqlamaqda məqsəd, şeytani vəsvəsələrə uyan kəsləri işin mahiyyətindən xəbərdar etməkdir. Belə adamlar xəyal edirlər ki, dini vəzifələr üçün çalışmaq istəsələr özü və ailəsi çıxılmaz, çətin vəziyyətdə qalacaqlar.

### *TÖVHİD-ƏF᾽ALİ VƏ ALLAHIN XEYİR MƏNŞƏYİ OLMASI*

«Hər kəsə bir xeyir yetişsə (bilsin ki,) onu Allah ona vermişdir və hər kəs bir şərdən amanda olsa (bilsin ki,) Allah onu qoruyub saxlamışdır».

Bunu da xatırladaq ki, əgər insan Allaha itaət və günahdan uzaq olmaqda müvəffəqiyyət əldə edərsə, xəyalında özünü ləyaqətli bir şəxs zənn edib, qürrələnməməlidir. Bizim tərəfimizdən görülən hər bir xeyir işin əsli Allah tərəfindəndir. Bizə xeyir işləri görməkdə və günahdan çəkinməkdə müvəffəqiyyət əta edib, inayət göstərən Odur.

Təkvini olaraq istər çalışmaqla, istərsə də çalışmadan dünya xeyrindən bizə nəsib olanlar Allah tərəfindəndir və bəlaları bizdən dəf edən də Odur. Bu nəzər və inancın kökləri «tövhidi-əf᾽ali»yə e᾽tiqadda öz əksini tapır. Bu e᾽tiqada əsasən, insan bütün xeyir və yaxşı əməlləri Allah tərəfindən bilməli və həmçinin, Allahı aləmin qoruyucusu olaraq tanımalıdır.

Tövhidi-əf᾽ali bəhsi olduqca əhəmiyyətli məsələdir. Qəza və qədər və buna oxşar məsələlər ətrafında bütün deyilənlər, insanın tövhidi-əf᾽aliyə olan e᾽tiqadına bir müqəddimədir.

Bu məsələyə diqqət qürur, lovğalıq və təkəbbür kimi mənfi xüsusiyyətləri insanın qəlbindən silib təmizləyir. Həqiqətdə, tövhidi-əf᾽aliyə diqqət, əksər əxlaqi rəzilətlərin, tənbəlliyin, süstlüyün, həsadətin, həqarətin dərmanıdır. Tövhidi-əf᾽aliyə diqqət

edəndə insanda nə həsəd üçün və nə də kibr və həqarət üçün zəmin qalır; insan özünü Allahla rabitədə görəndə, artıq həqarət hissi keçirmir. Eləcə də, bir nəfər Allahın əzəmətinə nəzər saldıqda, artıq lovğalanmır. Çünki hər şeyi Allahdan bilir. Həmçinin, əgər insanın bütün qüdrətlərin Allahdan olduğuna imanı olsa və inansa ki, Onun icazəsi olmadan heç bir iş baş tutmaz, heç kimdən qorxmaz. Biləndə ki, Allah bütün xeyirlərin mənşəyidir və Onun izni olmadan heç kim xeyirə qovuşmaz, bu halda artıq başqasına bel bağlamaz və ümidi yalnız Allaha olar.

## YEDDİNCİ DƏRS

### *MÖ՚MİNİN AYIQLIĞI*

1. Alim və zahidlərlə həmsöhbət olmaq, mö᾽min və kafir nəzərində günah;
2. Ləyaqətli dost seçməyin lüzumu və günahı böyük bilmək;
3. Qafil alimlə nadan cahilin təhlükəsi;
4. Günahı yada salıb peşmançılıq hissi keçirmək Allahın lütfünün nəticəsidir;
5. Günahın kiçikliyinə yox, itaətdən çıxdığın kəsin əzəmətinə diqqətin lüzumu.

## *ALİM VƏ ZAHİDLƏRLƏ HƏMSÖHBƏT OLMAQ; MÖʾMİN VƏ KAFİRLƏRİN NƏZƏRİNDƏ GÜNAH*

«Ey Əbuzər! Zahidlər hörmətli və izzətlidirlər, alim və rəhbərlər isə başçı. Onlarla oturub-durmaq insanın elm və fəzilətinin artmasına səbəb olar. Möʾmin öz günahını böyük bir qayaya oxşadır və qorxur ki, onun üstünə aşsın. Kafir isə öz günahını burnunun üstündən uçub keçən bir milçəyə bənzədir».

Peyğəmbəri-əkrəm (s) buraya qədər olan nəsihətlərində insanı öz həssas mövqeyi, həyatın əhəmiyyəti və ömrün dəyərli anlarından agah edir. Ona tənbəllikdən çəkinmək, həyatına məsʾuliyyət hissi ilə yanaşmaq, əlində olan hər bir fürsəti qənimət bilmək, bu günün işini sabaha qoymamaq barədə xəbərdarlıq edir. Burada bir sual meydana çıxır: ömürdən istifadə etməyin ən yaxşı yolu və Allah dərgahına uzanan yolda atılacaq ilk addım nədir?

Ömrün qədrini bilməyin ilkin yolu və Allaha doğru atacağımız ilk addım günahdan qorunmaqdır. Çünki günaha aludə olmuş insan heç bir yerə gedib çıxa bilməz. İnsan ömrünün dəyəri, onun günahdan nə dərəcədə pak olmasındadır.

İmam Səccad (ə) «Məkarimul-əxlaq» duasında buyurur: «İlahi! Məhəmməd və Ali Məhəmmədə salavat göndər... və Sənə bəndəlikdə sərf olunacaq zamana qədər ömrümü uzun et. Elə ki, ömrümü şeytana otlaq yeri gördün, mənə acığın tutmasın, qəzəbinə düçar olmamış ruhumu canımdan al»[1].

Günah nə qədər kiçik olsa belə, insanı məhvə aparır. Hətta insan nə qədər ibadət etmiş olsa belə, bir günahla savabını atəşə çəkir. Bir kəs ibadət əhli olmaqla yanaşı həm də günah iş tutarsa, kisəsi deşik adam kimi olar; kisənin içinə bir tərəfdən pul, cəvahir qoyar, o biri tərəfdən çölə tökülər. Ya da xırman toplayan əkinçi kimi bütün zəhmətinə bir kibritlə od vurub, külə döndərər. Çünki günahlar əməl xırmanımıza düşən qığılcım kimidir.

Deməli, ilk addımda günahları tanımalı və onlara bulaşmaqdan özümüzü qorumalıyıq. Əgər Allah eləməmiş bir günaha

---

[1] «Məfatihul-cinan», səh. 1106.

mürtəkib olsaq tövbə etməli, daha sonra Allahdan yardım diləməli və Onun övliyalarına təvəssül etməklə çalışmalıyıq ki, bir daha günaha aludə olmayaq.

## *LƏYAQƏTLİ DOST SEÇMƏYİN LÜZUMU VƏ GÜNAHI BÖYÜK BİLMƏK*

Həzrət Peyğəmbərə (s) görə, kamala doğru qədəm götürmüş insanın bu yolda iki mühüm şeyə ehtiyacı var: birincisi ləyaqətli yoldaş, digəri günahı böyük bilib, ondan qorunmaq. Bu iki şərtin bir yerdə qeyd olunmasının məʾnası, bəlkə də budur ki, yaxşı dostun seçilməsi günahı böyük hesab edib ondan çəkinmək üçün bir müqəddimədir. Eyni zamanda pis yoldaşın seçilməsi insan üçün günaha doğru gedən ilk addımdır. Çünki yaxşı dost bir çox xeyir və bərəkətlərin mənbəyi ola bilər. Eləcə də pis dost əksər azğınlıq və fəsadların başlanğıcı ola bilər.

Yaxşı dost günahı insanın gözündə böyük göstərməyə çalışır. Belə bir halda əgər insan günaha mürtəkib olsa, özünü Haqq-təalanın yanında müqəssir bilir. Bunun əksinə olaraq, pis dost günahın insanın nəzərində yüngül görsənməsinə səbəb olur. Belə ki, insan heç bir günahına görə utanmır.

Bu hissədə Həzrət (s) yaxşı dostu tanıyıb seçmək üçün iki meʾyar göstərir:

1. Təqva;

2. Halal və haramdan agahlıq, başqa sözlə desək, dini məʾrifət.

Təqvası olmayan dostla get-gəl etmək və onun təqvasız hərəkətlərini müşahidə etmək, günahı insanın nəzərində yüngül və əhəmiyyətsiz cilvələndirir. Nəticədə əbədi peşmançılıq və bədbəxtçiliyə düçar olur. Necə ki, Qurʾan bəʾzi cəhənnəm əhlinin dilindən buyurur:

«(Bədbəxt oldum!) Vay olsun mənə! Ey kaş filankəsi özümə dost seçməyəydim. Məni Allahdan qafil edən o oldu. Şeytan insanı üzüqara edər»[1].

Təqvasız insan kimi, cahil və nadan insan dostluğa yaramır. O, hətta yaxşı iş görmək istəsə belə, cahilliyi üzündən azğınlığa düçar olur. Deməli, agahlıq və təqva insanı haqq yolunda

---

[1] «Fürqan» surəsi, ayə 28-29.

təkamül və inkişafa götürən iki qoşa qanad mənziləsində olduğu kimi, dostun seçilməsi üçün də mühüm me᾽yardır. Bu cəhətdən də, Peyğəmbər (s) Əbuzərə etdiyi nəsihətində təqva və biliyi ləyaqətli dostun əsas xüsusiyyətləri kimi göstərir. Əlbəttə, çalışmaq lazımdır ki, bu iki xüsusiyyətin hər ikisi də insanda cəm olsun. Çünki insan haqq yolda addımlayan zaman əgər dini mə᾽rifəti olmasa, hər nə qədər müqəddəs olsa belə, şeytan və insanların hiyləsinə uyacaqdır.

## *QAFİL ALİMLƏ NADAN CAHİLİN TƏHLÜKƏSİ*

Məşhur bir rəvayətdə Peyğəmbər (s) buyurur: «Mənim belimi qıran iki tayfa oldu: (Təqvasız) ipə-sapa yatmayan qafil alimlər və nadan cahillər»[1].

İmam Xomeyni (r.ə.) buyururdu ki, özünü müqəddəs kimi qələmə verənlər həmişə çalışırlar ki, dini vəzifələrinə əməl etsinlər. Lakin bilik qazanmaq və düzgün mə᾽lumat əldə etmək kimi əsas vəzifələrini yaddan çıxarırlar. Bu cür dayaz fikir və cəhalətləri ilə meydana çıxır, üstəlik bu fikirlərində israr edib, başqalarını da bəyənmirlər. Bu tayfanın İslama vurduğu zərər, fasiqlərin vurduğu zərbədən daha ağırdır. Bu dəstə nə özləri bir yerə çıxa bilir, nə də başqalarını tərəqqi etməyə qoyurlar. İmam Sadiqin (ə) tə᾽biri ilə desək, «Elmsiz və mə᾽lumatsız iş görmək istəyən, düzəltməkdən daha çox dağıdıb məhv edər»[2].

Şərəfsiz alim elminə əməl etməsə də, xalq elminə görə ona ehtiram göstərib sözlərinə aldanar. Təqvasız olduğuna görə belə alimin İslama vurduğu zərbəni heç bir cahil vura bilməz. Buna görə də, nə vaxt söhbət təqvadan getsə, elmlə yanaşı olan təqva nəzərdə tutulur. Elm və təqva bir-birindən ayrı olsa, nəinki faydası olmayacaq, əksinə zərəri olacaqdır. Eləcə də elm və bilikdən söhbət gedəndə, məqsəd əməllə yanaşı olan elmdir. Çünki islamşünasın elmi olub əməli olmasa, yol kəsən quldurdur.

Allah-təala həzrət Davuda (ə) xitab edərək buyurur: «Ey Davud! Mənimlə özün arasında dünyaya aldanmış bir alimi

---

1 «Biharul-ənvar», cild 2, səh. 111, rəvayət 25.

2 «Biharul-ənvar», cild 1, səh. 208.

vasitəçi seçmə ki, səni, Mənim məhəbbətim yolumdan xaric etməsin. (Bilirsənmi ki, onlar kimlərdir?) Onlar Allaha sığınmaq istəyən bəndələrin yolunda (pusquda) durmuş quldurlardır. Onların ən aşağı cəzası o olacaq ki, münacatlarımın şirinliyini ürəklərindən xaric edərəm»[1].

Əməlsiz və dünyapərəst alim, gündüz vaxtı karvana hücum edən quldur kimidir. O, elmi olduğuna görə xalqı aldatmağı hamıdan yaxşı bacarır. Belə alimin dinə xeyri dəyməz. Ona görə də ehtiyatlı olmalıyıq ki, onların hiyləsinə aldanmayaq. Buna görə də, təqva və bilik birlikdə olanda faydalı olur, ayrı-ayrı fərdlərin və cəmiyyətin səadətinə xidmət edir. O insanlarla oturub-durmaq rəvadır ki, onlar təqvanın köməyi ilə özlərində Allaha itaət və bəndəçilik ruhunu gücləndirmiş və digər tərəfdən də dini elmlərinin təkmilləşməsinə sə᾽y göstərərək, dini maarifə yiyələnmişlər. Bu cür insanlarla həmsöhbət olmaq insanın kamal və fəzilətinin artmasına səbəb olar.

Düzdür ki, «fəqih» kəlməsi dini terminologiyada şər᾽i hökmləri istinbat etmək qüdrəti olan alimlərə deyilir. Lakin Qur᾽anda və rəvayətlərdə göstərilən «fəqih» sözü dinşünas mə᾽nasındadır. «Fəqih» sözü dinşünas mə᾽nasından daha geniş mə᾽na kəsb edib həm şər᾽i, həm e᾽tiqadi, həm də əxlaqi zəmində alim olan kəslərə aid edilir. Bəlkə də, əxlaqi və e᾽tiqadi məsələlərdə alim olanla həmsöhbət olmaq daha münasibdir.

Peyğəmbər (s) buyurur: «Elə ki, Allah dərgahının yolçusu olmağı qərara aldın və özünə münasib yoldaş tapdın, ehtiyatlı ol ki, günaha batmayasan. Əgər günaha batmış olsan, sənin yolun uğursuz və nəticəsiz olacaq və bu yolda çəkdiyin əziyyətlər, etdiyin ibadətlər səmərəsiz qalacaqdır».

İnsan elə-belə, məqsədsiz günahın dalınca düşmür. Yəqin ki, günahda bir ləzzət, şirinlik, cazibə var ki, insan da ona bulaşır. Düzdür, bu cazibələr xəyali və şeytani vəsvəsələrdir, lakin necə olsa da, insan günahda bir cazibə, şirinlik görür ki, ona meyl edir.

---

1 «Kafi», cild 1, səh. 46.

İnsan nə etsin ki, Allahın inayəti ona şamil olsun və günahdan özünü saxlaya bilsin, günahla üzləşəndə müqavimət göstərə bilsin.

Özünü günahdan gözləməyin ən yaxşı yollarından biri, günahın zərər və böyüklüyünü dərk etməkdir. İnsan günahın ötəri ləzzətlərinin doğurduğu xətər və ziyanı qabaqcadan görməli, həmçinin, günahın həm bu dünya, həm də axirəti bərbad etdiyini bilməlidir.

Mö᾽minin xüsusiyyətlərindən biri də, günaha olan xüsusi baxışıdır və bu baxış ona günaha mürtəkib olmasına mane olur. Mö᾽min insan üçün günah hər zaman onun başına uça biləcək böyük bir daş kimidir. Bir balaca haqq yolunda ayağının büdrədiyini, günaha batdığını bilsə, nəticədə hansı cəzaya mə᾽ruz qalacağından dəhşətə gəlir. Bu baxış onun düşüncəsinə elə tə᾽sir edir ki, daim vicdanını günah əleyhinə üsyana təhrik edir və bir vaxt günaha batmış olsa, üzrxahlıq edib tövbəyə üz tutur. Başının üstündə böyük bir daşın sallandığını görən adam kimi, daim onun başına uçacağı qorxusu ilə yaşayır. Yə᾽ni bu insanın ruhu o qədər pak olur ki, hər günahın qarşısında əks-tə᾽sir göstərir və daim öz nəfsini danlayıb, onu öz yerində oturtmağa çalışır. Bu mübarizədə, hətta yuxusuna, rahatlığına belə acılar çəkdirir.

Əksinə, öz fitrətini günaha bulaşdırmış kafir insan əsla günah qarşısında narahatlıq hissi keçirmir. Onun nəzərində günah burnunun üstündən uçub-keçən milçək kimidir. (Kafir deyəndə, məqsəd ancaq Allahı, qiyaməti inkar edənlər, həm də dinin zəruri məsələlərindən birini danan şəxs nəzərdə tutulur).

Qur᾽anın və rəvayətlərin nəzəri bir tərəfə, həm də psixoloji cəhətdən bu mövzu bir həqiqətdir ki, hər hansı xoşagəlməz bir işin təkrarı, onun pis olması fikrini aradan aparır və nəticədə, bu insana zövq verən bir işə çevrilir. Bu cür insan artıq günah etməkdən utanıb çəkinmir. Əgər bir günah daimi təkrarlanarsa, ona qarşı olan mənfi münasibətlər aradan gedir və daha bu günahdan utanmağa bir yer qalmır.

Buradaca insanın daha çox iman, yoxsa küfr xəttinə yaxın olmasını aşağıdakı kimi müəyyən etmək olar. İnsan günahla

qarşılaşdığı zaman bunun müqabilində göstərdiyi əks-əməlin necə və hansı səviyyədə olmasını araşdırmalıdır. Əgər günahın (günaha batıb-batmamağın) onun üçün o qədər də əhəmiyyət daşımadığını və ona e᾿tina etmədiyini müşahidə edərsə, küfr yolunda addımladığını bilməlidir. Çünki günahdan peşmançılıq hissi duymaq, imandan gəlir və ona e᾿tinasız yanaşmaq isə küfrün məhsuludur. İmanın xarakterik cəhətlərindən biri budur ki, əgər şəhvət və qəzəb qüvvəsi üstələsə və insanı günaha batırsa, həmin şəxs fasiləsiz olaraq peşman olur. Əgər belə bir halı özümüzdə görməsək, qorxulu bir yolda addımladığımızı anlayıb, işin aqibətindən qorxmalıyıq.

## *GÜNAHI YADA SALIB PEŞMANÇILIQ HİSSİ KEÇİRMƏK, ALLAH LÜTFÜNÜN NƏTİCƏSİDİR*

«Ey Əbuzər! Əgər Allah-təala bəndələrindən birinə xeyir əta etmək istəsə, günahlarını onun nəzərində böyük göstərər və günahı onun üçün çətinləşdirər. Əgər birinin bədbəxtliyini istəsə, günahlarını ona unutdurar».

Allah-təala bütün insanlara lütf və məhəbbət göstərir. Əgər bir nəfərə məhəbbəti olmasaydı, onu yaratmazdı. Lakin Allahın övliyalara xüsusi inayəti vardır. Əgər bu dəstə qəflət üzündən günaha mürtəkib olarsa, onları məsələdən xəbərdar etmək üçün günahı nəzərlərində mücəssəm etdirər (yə᾿ni günahın sonrakı aqibətini onların gözündə canlandırar). Çünki günaha batıb bədbəxtlik çalasına düşməyin ilk addımı, günahı yaddan çıxarmaqla başlayır. Allahın bə᾿zi bəndələrinə xüsusi inayəti olduğunu və onları heç vaxt özbaşına buraxmadığını, eyni zamanda bə᾿zilərinə qarşı e᾿tinasız olub onları öz hallarına buraxdığını nəzərə alaraq, hər kəs öz üzərində yoxlama aparıb müəyyən edə bilər ki, Allahın ona lütf və inayəti vardır, ya yox. Əgər keçmiş günahlarını unutmayıb və günah ona ağır və çətin gəlirsə, bilsin ki, Allahın inayəti onunladır. Lakin əgər günahını yaddan çıxarır və onu yüngül hesab edirsə, Allahın ona inayəti olmadığını bilməlidir.

Aydındır ki, günahı yada salmaq günahın davamına mane olacağı təqdirdə faydalıdır. Əgər bir nəfər günahını yada salıb,

onu çiyinlərində ağır yük olaraq hiss etməzsə, mə᾽lumdur ki, ikinci dəfə günaha əl atmaqdan çəkinməyəcəkdir.

Əbu Həmzə Somali duasında deyilir: «Mən o adamam ki, günahdan dönmək və tövbə etmək üçün mənə möhlət vermişdin, (amma) mən günahdan əl çəkmədim. Günahlarımı (gizli saxlayıb) üzərini örtdün, (amma) mən həya etmədim. İkinci dəfə günaha əl atdım və həddimi aşdım. (bu səbəbdən) Sən də məni Öz gözündən saldın».

Mə᾽lum olur ki, Allah-təala bir nəfərin xeyirini istəyəndə, günahlarını onun gözündə mücəssəm etdirir və bu günahları ona böyük bir dağ kimi görünür. Əksinə olaraq, Allah inayətini kəsdiyi şəxsin əzaba düçar olmasını istəyirsə, onu öz başına buraxır və bundan sonra günah ona asan görünür və ona əhəmiyyət vermir.

Əlbəttə, ilk növbədə Allah inayətini heç kimdən əsirgəmir və heç kimin bədbəxtliyini istəmir. Lakin günahkar tərəf özünü alçaq işlərə bulaşdırandan və günahına israr edəndən sonra Allah da onu belə müsibətə giriftar edir.

Allah üçün bəndəlik göstərib Ona yaxınlaşmaq istəyən kəs əzizdir. O insan, Allah yanında alçaq hesab olunur ki, Allahdan uzaqlaşıb Onu unutmuş olsun. Elə ki, Allahı unutdu, Allah da onu öz halına buraxır. Bu barədə Quranda oxuyuruq:

«Siz mö᾽minlər o kəslərdən olmayın ki, Allahı unutdular, Allah da onları Özündən qafil etdi…»[1].

## *GÜNAHIN KİÇİKLİYİNƏ YOX, İTAƏTİNDƏN ÇIXDIĞIN KƏSİN ƏZƏMƏTİNƏ DİQQƏTİN LÜZUMU*

«Ey Əbuzər! Günahın kiçikliyinə baxma; itaətindən çıxıb, göstərişləri ilə müxalifətçilik etdiyin kəsin əzəmət və böyüklüyünü nəzərə al!».

Günaha üç yöndən baxmaq olar:

1. Böyük və kiçik olma cəhətindən;
2. Onu törətmiş kəsi nəzərə almaq cəhətindən;
3. İtaətindən çıxdığın kəsi nəzərdə tutmaq cəhətindən.

Qur᾽anda və hədislərdə günahlar iki qrupa ayrılır:

---

[1] «Həşr» surəsi, ayə 19.

1. Böyük (kəbirə) günahlar;
2. Kiçik (səğirə) günahlar.

Bu günahların hər birinin öz növbəsində xüsusi hökmü və cəzası vardır. Bu barədə Qur᾽anda buyururlur:

«Bir qrup insanın əməl dəftərləri onlara verilərkən belə deyəcəklər: «Vay olsun bizə! Bu necə dəftərdir ki, bizim heç bir böyük və kiçik günahımız nəzərdən qaçırılmadan hamısı yazılıb qeydə alınmışdır»[1].

Günahların iki qrupa bölünməsinin səbəbi budur ki, kəbirə günahlardan fərqli olaraq, səğirə günahlar üçün əzab və᾽d olunmayıb. Lakin buna baxmayaraq, bə᾽zi səğirə günahlar da vardır ki, onlar üçün müəyyən cəza tədbiri göstərilmişdir.

Bunu da demək yerinə düşərdi ki, mümkündür, bir adam öz nəzərində kiçik bildiyi bir günaha batsın. Lakin həmin şəxs unutmamalıdır ki, kiçik günahın təkrarı və günahı kiçik hesab etməyin özü böyük günahlardan sayılır və onun davamı, təkrarı insanı digər günah işlərə də təhrik edir. İkincisi, günahı kimin hüzurunda törətdiyini və kimin əmrindən boyun qaçırdığını yaddan çıxarmamalıdır.

Hədisin bu yerində əsas diqqət ikinci misalda qeyd olunan məsələyə yönəldilir. İnsan təkcə günahın kiçikliyinə baxmamalıdır. Eyni zamanda qarşısında günah etdiyi, əmrindən çıxdığı kəsi də nəzərə almalıdır. Bə᾽zən bir iş öz-özlüyündə kiçik nəzərə çarpır, lakin böyük şəxslə aidiyyəti olması səbəbinə görə böyük sayıla bilər.

Belə təsəvvür edin ki, mə᾽sum imamın hüzurundasınız və imam sizə kiçik bir iş buyurur. Məsələn deyir: «Bir az su gətir». Lakin siz özlüyünüzdə təsəvvür edirsiniz ki, bu elə də vacib bir iş deyil və bu təsəvvürlə də, itaətdən boyun qaçırırsınız. Sizcə belə təsəvvür nə qədər məntiqidir? Ədəb-ərkan bizə bunumu deyir? Belə müxalifət bəyənilərmi? Heç vaxt belə ola bilməz. Çünki işin kiçik olmasına baxmayaraq, işi buyuran kəs böyükdür. Kiçik iş böyük şəxsi nəzərdə tutmaqla, əzəmət tapır. İndi bu misalı Allahın müqəddəs zatı ilə müqayisə edin.

---

[1] «Kəhf» surəsi, ayə 49

Hərçənd, Allahla müxalifətçilik, imamla olan müxalifətçiliklə müqayisə edilə bilməz. Müxalifətçiliyin dərəcəsini, əmr edənin əzəmətinin dərəcəsi ilə ölçməliyik.

Günahın belə təhlili insanda şeytanla müxalifətdə güclü müqavimət hissi yarada bilər və nəfsi-əmmarənin hər cür bəhanələrinə son qoya bilər. Hərdən olur ki, insanın dostu ondan bir şey xahiş edir. Mümkündür, onun xahişini qəbul etməsin və «Sənin məndən bunu xahiş etməyə və ya mənə hansısa iş buyurmağa haqqın yoxdur» deyə ona e᾽tiraz etsin. Lakin insanın valideyn və ya ustadı ona bir iş buyurarkən, onların sözündən çıxması çox pis iş sayılır. Bə᾽zən buyuruq sahibi alim olur, bə᾽zən mə᾽sum imam, bə᾽zən də Allah. Belə olan surətdə buyuruq sahibinin məqamı nə qədər böyük olarsa, onun əmrindən boyun qaçırmağın qəbahəti də bir o qədər böyük olar.

Birdən şeytan vəsvəsə edib sizə deyər: «Naməhrəmə bir dəfə baxmaq nə olan şeydir? Haram musiqiyə qulaq asmaq bir şey deyil ki?». Lakin siz kimin əmrindən çıxdığınıza diqqət etməlisiniz. Bu yerdə Peyğəmbər (s) Əbuzərə deyir:

«Günahın kiçikliyinə baxma; bax, gör kiminlə müxalifətçilik edirsən. Ey Əbuzər! Mö᾽min insanın öz günahı üçün keçirdiyi iztirab və narahatçılıq, tələyə düşmüş quşun qorxu və həyəcanından daha çoxdur».

Burada Peyğəmbər (s) çox incə bir misal çəkməklə, mö᾽minin günah qarşısında göstərdiyi əks-əməli belə açıqlayır: «Sərçəni – bu çox hərəkət edən varlığı – tələyə salsanız, o qurtuluş üçün böyük bir əks-əməl nişan verəcək və qərarsız çırpınıb-vurnuxub azad olmağa çalışacaqdır. Bə᾽zən onun çırpınması ölümlə nəticələnir. Bu onun tələdə olduğu üçün keçirdiyi həyəcan və iztirabın şiddətindəndir. Mö᾽minin öz günahı qarşısındakı reaksiyası da belədir. Hiss edəndə ki, şeytanın toruna ilişibdir, həyəcan və iztirab onun bütün vücudunu bürüyür, hətta bütün rahatlığını – qidalanmasını, yatmasını, dincəlməsini əlindən alır. O həmişə şeytanın torundan xilas olmaq üçün çalışır».

Biz mə᾽sum deyilik və həmişə təhlükə və unutqanlıqla qarşı-qarşıya dayanmışıq. Heç zaman günah etməyəcəyimizə də zəmanət yoxdur. Mümkündür, hərdən şeytanın toruna düşək.[1] Hər halda bir günaha mübtəla olanda, imanımızın tələbinə görə daim nigaran olub tövbə etməklə, Allah dərgahına pənah aparıb ona tapınmaqla, bu fəlakətdən xilas olmağa çalışmalıyıq.

---

1 (Əlbəttə, mə᾽sum deyilik deyəndə bu o demək deyil ki, günah edək. Çünki elə insanlar var ki, mə᾽sum olmasalar belə, günah etmirlər. Onların mə᾽sumla fərqləri ondadır ki, mə᾽sumu günahdan saxlayan, Allahdan onlara xüsusi əta edilmiş inayətdir. Buna «ismət mələkəsi» deyilir. Adi insanlarda bu xüsusiyyətin olmamasına baxmayaraq, özlərini günahdan qoruya bilirlər).

## SƏKKİZİNCİ DƏRS

### *SÖZLƏ ƏMƏLİN BİRLİYİ VƏ DİLİN QORUNMASI*

1. Söz və əməldə sədaqət və xəyanət;
2. Ruzidən məhrum olmaqda günahın tə`siri;
3. Günah səbəblər halqasında;
4. Dilin qorunması və bihudə işlərdən uzaqlaşmaq.

## *SÖZ VƏ ƏMƏLDƏ SƏDAQƏT VƏ XƏYANƏT*

«Ey Əbuzər! Hər kəsin dediyi ilə etdiyi bir olsa, öz xoşbəxtlik payını almışdır və hər kəsin sözü ilə əməli bir-birinə zidd olarsa, mükafat verilən zaman özünü danlayacaqdır».

Əksər insanlar danışıqda yaxşı işləri sadalayıb deyirlər: «Bu iş görülməlidir, filan işin dəyəri və əhəmiyyəti bu qədərdir, insan kamalına tə᾽sir qoyur» və s. Lakin icra olunma məhrələsinə yetişdikdə, rəftarları dedikləri ilə düz gəlmir. Çox az adamın bütün danışdıqları əməldə öz əksini tapır.

Əgər bir adamın sözü ilə əməli arasındakı uyğunluğun onun imanının dərəcəsinə bağlı olduğunu desək, imanı kamil olanların daha sədaqətli olduqlarını görəcəyik. Onların söz və əməlləri daha çox üst-üstə düşür və həqiqətdə, gördükləri iş dediklərinə bir nümunədir.

«Onlardır; sədaqətlilər və təqvalılar da elə onlardır»[1] ayəsinin təfsirində mərhum Əllamə Təbatəbai buyurur: «Sədaqət, elm və əməldə mövcud olan bütün fəzilətləri özündə toplayan bir sifətdir. Çünki sədaqət bütün əxlaqi fəzilət və dəyərlərlə, məsələn iffət, şücaət, hikmət və ədalət kimi sifətlərlə yanaşı olan bir xislətdir; onu insanın e᾽tiqadından, sözündən və əməlindən ayırmaq olmaz. İnsanın sədaqətli olması, onun əqidə, söz və əməlində bir olması deməkdir.

İnsan fitrəti haqqı qəbul edib, daxilən ona tə᾽zim etmək istəyi ilə yoğrulmuşdur. Baxmayaraq ki, zahirdə düşündüyünün əksini deyir. Deməli, əgər haqqı e᾽tiraf edib ona sadiq qalırsa, e᾽tiqad etdiyi şeyi deyib dediyini əməldə də nümayiş etdirirsə, onun imanı xalisləşmişdir. Əxlaq və saleh əməlində tamamlayıcı mərhələyə çatmışdır».

Həmçinin buyurmuşdur:

«Allah-təalanın bə᾽zilərini «siddiq» (həddən artıq sadiq) adlandırması ona görədir ki, onların rəftarı dediklərini əməldə təsdiq edir».

---

[1] «Bəqərə» surəsi, ayə 177.

Danışığı e᾽tiqadına uyğun olan adam da sadiqdir, lakin siddiq daha yüksək mərhələdə durur. Siddiq bütün məsələlərdə danışığı e᾽tiqadına müvafiq olmaqdan əlavə, əməlində də müvafiq olan şəxslərə deyilir. Peyğəmbər (s) buyurur:

«Bir adamın danışığı ilə əməli uyğun olsa, səadətə çatar».

Əgər insan e᾽tiqadının, danışığının, əməlinin uyğun olmasına sə᾽y edərsə, siddiqlər məqamına nail olar. Əksinə, sözünə əməl etməyən insan münafiq və yalançıdır. Necə ki, Qur᾽ani-kərim dildə Peyğəmbərin (s) peyğəmbərliyinə şəhadət verib, ürəklərində e᾽tiqadı olmayan münafiqləri yalançı sayır və buyurur:

«Ey peyğəmbərimiz! Elə ki, münafiqlər sənin yanına gəlib dedilər: «Şəhadət veririk ki, sən Allahın elçisisən - aldanma! Allah bilir ki, sən Onun elçisisən və O şəhadət verir ki, münafiqlər yalan deyirlər»[1].

Münafiqlərin sözlərinin yalan olmasına dəlil budur ki:

«Dildə izhar etdikləri şeyin əksini ürəklərində gizlədərlər. Allah onların gizlətdiklərini onlardan daha yaxşı bilir…»[2].

Peyğəmbər (s) buyurur: «Bir adam öz dediyinə əməl etmirsə, ancaq özünü qınayıb məzəmmət etsin. Çünki danışığından aydın olur ki, haqqı və vəzifəsini yaxşı bilir və höccət onun üçün tamamlanmışdır».

Təbiidir ki, haqqı, doğru yolu tanıyıb, hətta başqalarını bu yola də᾽vət edən insan əməldə öz dediklərinə əməl etmirsə, ancaq özünü danlamalıdır.

Peyğəmbərin (s) bu sözü daha çox elm əhlinə və minbərə çıxıb xalqa nəsihət edən din xadimlərinə aiddir. Xalqı haqqa də᾽vət edən kəslər əvvəl özləri dedikləri sözün üstündə durmalıdırlar. Həmçinin, əməlləri e᾽tiqad və söylədiklərinin həyatda bir cilvəsi olmalıdır.

Allah Qur᾽anda bu dəstəni danlayaraq buyurur:

---

1 «Münafiqun» surəsi, ayə 1.

2 «Ali-imran» surəsi, ayə 167.

«Siz camaatı yaxşı işlər görməyə əmr edirsiniz və (amma) özünüz onu yaddan çıxarırsınız! (Özü də) Allahın kitabını oxuyursunuz. Niyə düşünüb fikirləşmirsiniz?»[1].

Burada «yaddan çıxarmaq» unutmaq mə͗nasında deyil. Qur͗anın çatdırmaq istədiyi mə͗na budur ki, öz dediklərinizə əməl etmirsiniz. Çünki mümkündür, öz sözü yadında olsun, lakin ona əməl etməsin.

Necə ola bilər ki, ürəyi yanan bir halda başqalarına «filan işi görün, filan işi tərk edin»-deyə nəsihət etsin, lakin özünü yadından çıxarsın! Başqalarına özündən çoxmu ürək yandırır? Belə şey inandırıcı deyil.

Əli (ə) buyurur:

«Allahdan qorxun! Allahdan qorxun! (Hətta) sizin üçün ən əziz adamlar barəsində olsa da belə»[2].

Həzrətin (s) yuxarıdakı sözü deməkdə məqsədi budur ki, siz özünüzü başqalarından daha çox sevirsiniz. Başqalarını da sevməyinizin səbəbi, onların sizin öz hədəfinizə çatmağınızdan ötrü bir vasitə olması, həyatdan zövq almanız, səadətə qovuşmanızdan ötrü sizin üçün yaratmalarıdır. Onlarla birlikdə oturub-durmanız, deyib-gülməyiniz sizin üçün xoşdur. Deməli, əsas siz özünüzsünüz və başqalarını da özünüzə görə sevirsiniz. İndi necə olur ki, başqalarına can yandırıb nəsihət edir, lakin özünüzü yaddan çıxarıb halınıza acımayasınız və dediklərinizə əməl etməyəsiniz?!

Allah-təala buyurur:

«Ey iman gətirənlər! Niyə bir şeyi söyləyib (sonra) əməl etmirsiniz. Deyilənə əməl etməmək Allah yanında çox pisdir»[3].

## *RUZİDƏN MƏHRUM OLMAQDA GÜNAHIN ROLU*

Peyğəmbər (s) hədisin davamında ruzidən məhrum olmaqda günahın göstərdiyi tə͗sir barəsində buyurur:

«Ey Əbuzər! Çox vaxt insan törətdiyi günah işə görə onun üçün nəzərdə tutulmuş ruzidən məhrum olur».

---

[1] «Bəqərə» surəsi, ayə 44.

[2] «Nəhcül-bəlağə» (Feyzül-islam), xütbə 156, səh. 494.

[3] «Səff» surəsi, ayə 2-3.

Hədisin bu hissəsi diqqəti, günahın bu dünyada insana qoyduğu mənfi tə᾿sir və ondan doğan məhrumiyyətlərə yönəldir.

Adətən, rəvayət və moizələrdə hər kəsin mə᾿rifətini nəzərə almaqla, onunla səviyyəsinə uyğun şəkildə danışılır. Məsələn, məhəbbət məqamında olan şəxsə bu tərzdə müraciət olunur: «Sən necə aşiqsən ki, öz mə᾿şuqunla müxalifətçilik edirsən? Aşiq adam həmişə çalışır ki, mə᾿şuqunun ondan nə istədiyini öyrənib, onu yerinə yetirsin və həmçinin, nədən acığı gəlirsə, onu tərk etsin. Necə ola bilər insanın məhbubu açıqcasına ona «Filan işi gör, filan işi tərk et» desin və o da müxalifətçilik etsin!». Bu, Allah-təalanın və Allah dostlarının məhəbbətindən bəhrəsi olan kəsləri günahdan çəkindirməyin ən yaxşı yoludur.

Əhli-beyt dostlarının diqqətini bu məsələyə yönəltmək lazımdır ki, günah Əhli-beytin narahatçılığına səbəb olur. İmamların (ə) ən çox nifrət etdiyi şey, günah işlərdir. Günah, iylənmiş cəmdək kimidir. Bəsirət gözü açıq olanlar və səfalı batinə malik insanlar, onun iyrənc iyini uzaqdan dərk edirlər. Belə olan halda, Əhli-beytə yaxınlaşmaq istəyən dostlar özlərini onların nifrətinə səbəb olacaq işlərə necə aludə edə bilərlər?!

Yaxın dostunun, məhbubunun görüşünə gedən şəxs öz üzərindən, bədənindən, ağzından gələn pis iyi dəf edir. Ətirlənib səliqə-səhmanla gedir ki, dostu ondan inciməsin. Günah bizim vücudumuzun üfunətinə səbəb olur. Biz Əhli-beyti seviriksə, onlarla bağlılıq yaratmağa çalışırıqsa, gərək ruhumuzu pisliklərdən paklayaq ki, onlar da bizimlə əlaqə qurmağa rəğbətli olsunlar. Deməli, Allahın və Əhli-beytin (ə) məhəbbətini qazanmış insanları günahdan çəkindirməyin ən yaxşı yolu, onlardakı məhəbbət hissinin oyadılmasıdır.

Bunu da deyək ki, Allahın vacib buyurduğu işləri yerinə yetirib, haram buyurduqlarını tərk edən bütün kəslərin qəlbində Allah məhəbbətindən bir ilmə vurulmuşdu. Lakin onların məhəbbəti Allah barəsində olan bilik və mə᾿rifətlərinin dərəcəsinə görə bir-birindən fərqlənir. Bə᾿zilərində bu məhəbbət şiddətli, bə᾿zilərində orta səviyyədə, bə᾿zilərində isə zəif olur. Hərdən məhəbbət o dərəcəyə çatır ki, mə᾿şuqa qovuşmaq üçün hər şeyə, hətta cənnətə belə göz yumurlar. O yerə qədər ki, deyir:

«Deyək ki, cəhənnəm atəşinə səbir etdim, bəs sənin ayrılığına da səbir edə biləcəyəmmi?»[1].

On beş münacatın doqquzuncusu olan «Məhəbbət yolçularının münacatı»nda oxuyuruq: «Allahım, hanı elə bir kəs ki, sənin məhəbbətinin şirinliyini dadsın, (lakin) səndən başqasına ürək bağlasın?».

Allaha və imamlara olan eşqin insanı günahdan saxlayacaq bu həddinə nail ola bilməyənlərə, günahın törədə biləcəyi mənfi nəticələrini anlatmaq lazımdır. O cümlədən, günahın insana yetirdiyi zərərlərini sadalamaq olar. əzablarını, səadətdən məhrum etməyini, eləcə də dünya və axirət məhrumiyyətlərini məsələn, əzablarını, səadətdən məhrum etməyini, dünya və axirət məhrumiyyətlərini və s. İnsanı, hansısa mənfəətə çatdıracağı və ya hansısa zərərdən amanda saxlayacağı şərtilə, müəyyən bir işə vadar edən və hər hansı bir işdən çəkindirən şey «qorxu və ümiddir».

İnsanın hidayəti üçün ən yaxın və yaxşı yol, onun diqqətini günahın dünya və axirətdə doğurduğu mənfi tə᾿sirlərə yönəltməkdir. Əgər bir nəfərin axirətə imanı zəif olarsa, bu halda onu günahdan çəkindirməyin ən yaxşı yolu, ona günahın bu dünyadakı tə᾿sirlərini xatırlatmaqdır. Necə ki, Peyğəmbər (s) hədisin bu bölümündə həmin üsulu tətbiq edir. Çünki bə᾿ziləri axirəti çox uzaq görürlər. Halbuki İslam dünyagörüşünə əsasən, axirət bizə yaxındır və onu əldə etmək özümüzdən asılıdır. Bu barədə Allah-təala buyurur: «Bu qafil və kafir camaat o günü (qiyaməti) uzaq bilirlər və biz (isə) onu yaxın görürük».

Günahın dünyada insana vurduğu zərərlərdən biri də, ruzidən məhrum olmaqdır. İnsana məxsus olan ruzilərdən nümunə olaraq, yemək və geyimi qeyd etmək olar.

Bir sıra rəvayətlərdə göstərilir ki, Allah-təala hər bir canlı üçün müəyyən ruzi tə᾿yin etmişdir. Nəzərdə tutulmuş bu təqdir bə᾿zən mütləq, bə᾿zən isə müəlləq və qeyri-dəqiqdir. Yə᾿ni insanın etdiyi əməllərin tə᾿sirindən asılı olaraq, az və ya çox olur. Bə᾿zi

---

[1] «Kumeyl» duası.

xeyir əməllər ruzinin artmasına, bə`zi şər əməllər isə onun azalmasına səbəb olur.

Əgər biz müqəddər edilmiş ruzinin – hansı ki, bə`zən bizim çalışmağımızla qazanılır və bə`zən də Allah öz mərhəməti ilə onu bizə zəhmətsiz əta edir – günah üzündən əlimizdən çıxmasını bilsək, çox az hallarda günahın arxasınca düşərik.

## *GÜNAH SƏBƏBLƏR HALQASINDA*

Günah formulları dəyişmək gücünə malik olub, zahiri səbəbləri tə`sirsiz edir. Qur`an bizə anladır ki, zahiri səbəblərdən başqa digər səbəblər də var ki, bu səbəblər həm onları doğuran səbəblərlə, həm də onlarla öz aralarında olan rabitələrlə birlikdə bizim üçün gizlidir. Qur`an buyurur:

«Başınıza gələn hər müsibət və işgəncələr sizin öz pis əməllərinizin məhsuludur»[1].

Həqiqətdə, «illət və mə`lul» səbəb və nəticə sisteminin hakim olduğu bir dünyada, heç bir görüntünü səbəbsiz saymaq olmaz və başqa bir tərəfdən müsibətləri, şər və bədbəxtlikləri də xeyrin özü olan Allah-təalaya aid etmək olmaz. Deməli bu, insandır ki, müsibətləri özünə cəlb edir.

«Nur» surəsinin 63-cü ayəsində buyurulur:

«Allahın əmri ilə müxalifətçilik edənlər (o gündən) qorxsunlar ki, böyük bir fitnəyə və ya dərdli bir əzaba düçar olmasınlar».

Qur`an belə bir həqiqəti bəyan etməkdədir ki, əksər bədbəxtlik və müsibətlərin mənbəyi günahdır. İnsanın savab və yaxşı əməlləri, bərəkətin onun başından yağmasına səbəb olur:

«Ölkələrin əhalisi əgər iman gətirib, təqvaya bağlansaydılar, yerin və göyün bərəkət qapılarını onların üzünə açardıq»[2].

Bə`zi vaxtlarda günahın insana üz verən bədbəxtliklə olan bağlılığı az-çox dərk edilir. Məsələn, bə`zi günahların özlərindən sonra müəyyən xəstəliklər törətməsi mə`lumdur. Ancaq bu əlaqə bütün hallarda hiss edilmir. Bə`zən günahın insana vurduğu

---

[1] «Şura» surəsi, ayə 30.

[2] «Ə`raf» surəsi, ayə 96.

təʾsir müxtəlif mərhələləri keçib sonra özünü biruzə verir ki, bu da insan üçün dərkedilməzdir. Necə ki, yemək hazırlanıb süfrəyə verilərkən, içərisinə murdar bir şey düşür və yeməyi korlayır. Ruzi insan üçün hazırlanır və birdən gözlənilmədən insan ondan məhrum olur. İndi ruzini qida maddələrindən digər şeylərə də aid edin; çünki bütün neʾmətlər ruzidir. Ev, maşın və insanın istifadə etdiyi hər bir şey ruzidir. Əksər hallarda bunlardan məhrum qalmaq, günaha mürtəkib olmaq səbəbi ilədir.

Məʾnəvi neʾmətləri də ruziyə əlavə etməklə, onu daha da genişləndirmək olar. Çünki bizim ruhi təkamülümüzə səbəb olacaq hər bir şey ruzidir. Elm və iman, eləcə də ibadətə qalxa bilməyin özü də ruzidir.

Bəʾzən günaha bulaşmaq insanı hansısa ibadətdən məhrum edir. Rəvayətlərin birində insanın günahın təʾsiri nəticəsində gecə namazına dura bilməməsinin mümkünlüyü də qeyd olunmuşdur. Baxmayaraq ki, gecə namazı qılmaq istəyən şəxs səʾy edir və vaxtında yuxudan dura bilmək üçün əvvəlcədən hazırlıq işləri görür. Lakin ya yuxudan durur tənbəllik mane olur, ya da heç yuxudan belə ayılmır və yatıb qalır.

Deməli, ibadətdəki müvəffəqiyyətsizlik də günahın doğurduğu bədbəxtçiliklərdəndir.

Günahın qalmaqalla nəticələnən sonluğuna diqqət yetirmək bütün cəhətləri ilə insanı günahdan saxlaya biləcək amillərdən ola bilər. İnsan fikirləşməlidir ki, etdiyi günah onun iqtisadi səʾylərini təʾsirsiz edib, ruzidən məhrum qoyur.

Günah və müsibətlər arasında olan bağlılığı dərk edən bəʾzi böyük alimlər, onlara bir müsibət üz verdikdə fikirləşirdilər ki, görəsən hansı günahları onları bu müsibətə düçar etmişdir. Nəql edirlər ki, böyük əxlaq ustadlarından biri Tehranın küçələrindən birində yol gedərkən, kənarından ötüb keçmək istədiyi at ona bir təpik atır. Həmin şəxs oradaca oturub fikrə dalır ki, mən nə iş tutdum ki, bu heyvanın əziyyətinə düçar oldum!

## *DİLİN QORUNMASI VƏ BİHUDƏ İŞLƏRDƏN UZAQLAŞMAQ*

«Ey Əbuzər! Faydası olmayan şeyi tərk et və sənə faydası olmayan sözü danışma. Dilini, pulunu qorumağa çalışdığın kimi qoru».

Hədisin bu hissəsində qeyd olunan məsələ əvvəlki mövzunun davamı olub, insanı günahdan çəkindirmək barədədir. Günahdan qorunmaq istəyən şəxs bunun üçün özünə müəyyən hədd, çərçivə tə᾽yin etməlidir: «Uçuruma tərəf hərəkətdə olan adam, bir gün oraya düşəcəyini də bilməlidir».

Günahdan özünü gözləmək istəyən şəxs günah üçün zəmin və müqəddimə olacaq şeylərdən çəkinməli və bə᾽zi mübah işləri tərk etməlidir ki, sonda günah uçurumuna yuvarlanmasın. Misal üçün əgər özünü naməhrəmə və ona haram olan şeylərə baxmaqdan gözləmək istəyir və bu işi tərk etməyə çalışırsa, özünün bə᾽zi məhrəmlərinə baxmasın. Haram musiqiyə qulaq asmaq istəmir və bu adəti tərk etmək istəyirsə, bunun üçün əvvəldə halal musiqilərdən də uzaqlaşmalıdır. Əgər yalanı, qeybəti tərk etmək istəyirsə, qeybət və yalan ehtimal verdiyi söhbətlərə qatışmamalıdır. Əlbəttə, insanın onu günah işlərə sövq etməsi mümkün olan bütün mübah işlərdən özünü gözləməsi, xüsusən də bu yolda təzə qədəm götürmüş adam üçün çox çətin bir işdir. Amma təkamül mərhələsinə qədəm qoymuş kəslər, istəsələr də, istəməsələr də bu mərhələni keçməlidirlər.

Peyğəmbər (s) Əbuzərə mə᾽nasız və bihudə şeylərdən uzaq olmağı tapşırır. Necə ki, Qur᾽an insanın nicatını bihudə işlərdən uzaqlaşmaqda görür:

«**Mö᾽minlər nicat tapdılar. O kəslər ki, namazlarında qüsursuzdurlar və o kəslər ki, mə᾽nasız və bihudə işlərdən uzaq gəzərlər**»[1]. Nicat tapmaq istəyən bir kəs mə᾽nasız və ona faydası olmayan işlərdən özünü gözləməlidir. Ona faydası olmayan sözü deməməli, öz güc və enerjisini faydalı və səmərəli işlərə sərf etməlidir.

---

[1] «Mu᾽minun» surəsi, ayə 1-3.

Peyğəmbərin (s) Əbuzərə başqa bir öyüdü, ona faydası olmayan söhbətlərdən pəhriz etməsidir. İnsan öz danışığına, dilinə diqqət etməli, ona nə xeyir, nə də zərəri olan adi söhbətlərdən çəkinməyə sə᾽y göstərməlidir. Çünki bə᾽zən ağızdan çıxan bir söz, insanı dünya və axirətində ciddi problemlərlə üzləşdirir. Rəvayətlərdə insanın öz dilinə yiyələnməsi barədə edilən çoxlu sayda öyüd-nəsihətlər, lazımsız və ya heç bir aidiyyəti olmayan söhbətdən çəkinməyi insana tövsiyə etmək ona görədir ki, hərdən insan öz dilini idarə edə bilmir, yalan danışıb qeybət etməklə və ya başqalarını məsxərə etməklə, dilinin bəlasına düşür. Bu cəhəti nəzərə alaraq, bə᾽zi alimlər sə᾽y göstərib, imkan daxilində sükut etməyə çalışmışlar.

Peyğəmbər (s) buyurur: «Öz pulunu, cəvahiratını qorumağa çalışdığın kimi, dilini də qorumağı çalış».

Öz pulunu sandığa qoyub ağzını möhkəm bağlayıb e᾽tibarlı bir yerdə necə saxlayırsansa, dəyəri qat-qat puldan artıq olan dilini də o cür saxla. Allah insanın dili üçün hasar və qoruyucu zireh tə᾽yin etmişdir. Belə olan surətdə sə᾽y et ki, onu azad buraxmayasan. Hətta faydası olmayan mübah sözdən belə uzaq ol. Çünki boş yerə öz enerjini xərcləmiş olursan və bu gedişlə yavaş-yavaş anlaşılmazlığa, məkruh işlərə və nəhayətdə, harama və kəbirə günahlara sürüklənirsən. Məgər, başqası haqqında söhbət etməklə, onun qeybətini etmək arasında nə qədər fasilə vardır?

Mübah söhbətlə, Kə᾽bə evində öz məhrəmi ilə yetmiş dəfə zinadan daha murdar iş olan qeybət arasında elə də fasilə yoxdur. Biz yavaş-yavaş bu fasiləni aradan qaldırır və kəbirə günaha mübtəla oluruq.

## DOQQUZUNCU DƏRS

### *NAMAZIN DƏYƏR VƏ ƏHƏMİYYƏTİ*

### *CƏNNƏT ƏHLİNİN DƏRƏCƏ FƏRQLƏRİ*

1. Peyğəmbərin (s) bə᾽zi nəsihətlərinin bölgüsü;
2. Abid və gecəni ibadətdə keçirənlərin məqamı;
3. Cənnətin dərəcələri və cənnət əhli arasındakı fərq;
4. Peyğəmbərin (s) namaza şiddətli bağlılığı;
5. Namaz xoşbəxtlik açarıdır;
6. İbadətin davamlılığının sirri, onun şirinliyinin dərkindədir.

## *PEYĞƏMBƏRİN (S) BƏ᾽Zİ NƏSİHƏTLƏRİNİN BÖLGÜSÜ*

Peyğəmbər (s) bura qədər təhlil edilən moizələri üç hissəyə bölür:

**Birinci bölüm:** Bu bölüm insanın qəflətdən oyanması barəsində idi. Çünki insan heyvani təbiətinə əsasən, dünyəvi fəaliyyətlərə, maddi istəklərinin tə᾽minatına daha çox meyl edir. Buna görə də, ilkin aid olduğu yeri və axirəti yaddan çıxarır.

Düzdür, bə᾽ziləri öz yaradılış səbəbi və hədəflərini dərk edirlər. Lakin insanların əksəriyyəti öz yaradılışlarının əsas hədəfindən xəbərsizdirlər. Nə üçün yaradıldıqlarını, sonda hara gedəcəklərini, hal-hazırda nə etməli olduqlarını bilmirlər. Buna görə də, onları ayıltmaq lazımdır. Peyğəmbərin (s) moizələrinin birinci hissəsi qəflət pərdəsini insanın gözü qarşısından götürməyə yönəlib, onu məs᾽uliyyət daşımağa səsləyir və diqqətini ixtiyarında olan qiymətli sərvətlərdən bəhrələnməyə cəlb edir.

**İkinci bölüm:** Bu bölüm isə insanın öz yaradılış hədəfini anlayıb yolunu tə᾽yin etdikdən sonra atacağı ikinci addım, agahlıq əldə etmək üçün elm öyrənməsi barəsində idi. Bu cəhətinə görə də, ikinci bölümdə elm öyrənmək və alimlərin vəzifələrinə işarə edildi. Həmçinin, qeyd olundu ki, ən zəruri bilinən elm, yaradılış hədəfini və ona aparan yolları öyrədən elmdir və bu elm ilahi maarifdən ibarətdir.

**Üçüncü bölüm:** Bu bölümdə insanın öz elminə, vəzifələrinə əməl etməsinin lazımlı bir məsələ olması haqqında söhbət açıldı və əməllərin iki növ olmasına işarə edildi:

1. Vacib və müsbət fəaliyyətlər, yə᾽ni görülməsi lazım olan işlər.
2. Qadağan olunmuş fəaliyyətlər, yə᾽ni çəkinilməsi vacib olan haramlar işlər.

Bu bölümün vurğuladığı əsas mətləb günahın və onun doğurduğu acı nəticələrin dərk olunmasının əhəmiyyəti idi.

Bu üç bölümdən sonra Peyğəmbərin (s) moizə və nəsihətlərinin dördüncü bölümü barəsində bəhs edəcəyik.

**Dördüncü bölüm:** İnsan ona vacib buyurulanları yerinə yetirmək və günahı tərk etməklə elə düşünməməlidir ki, artıq bütün vəzifələrini yerinə yetirmişdir.

Düzdür, bu mərhələyə çatmağın əhəmiyyəti böyükdür. Lakin bu, hələ hədəfə aparan yolda atılan ilk addımdır. Aydındır ki, günahlardan çəkinmədən, vacib əməlləri yerinə yetirmədən, bir sözlə, ilk addımı atmadan insan sonrakı addımı da ata bilməz. Lakin bu mərhələ yerdə qalan mərhələlərlə müqayisədə qısa yoldur və bundan sonra insanı hələ qabaqda gediləsi uzun yol gözləyir. Bunun üçün insanı fəaliyyət göstərməyə daha çox təşviq etmək, onda vacib əməlləri yerinə yetirib, haramlardan çəkinməklə kifayətlənməmək hissini oyatmaq lazımdır.

## *ABİD VƏ GECƏNİ İBADƏTDƏ KEÇİRƏNLƏRİN MƏQAMI*

«Ey Əbuzər! Allah bir dəstə insanı behiştə daxil edər və onlara o qədər ne᾽mət verər ki, yorularlar. Lakin cənnətin yuxarı dərəcəsində qərar tutmuş başqa bir dəstəyə baxanda onları tanıyıb deyərlər: «Pərvərdigara! Bunlar bizim qardaşlarımızdır. Dünyada (onlarla) birlikdə yaşayırdıq. Onları niyə bizdən üstün dərəcədə yerləşdirmisən? Cavabında buyurular: «Heyhat, heyhat… Siz tox olduğunuz vaxt onlar aclıq çəkirdilər və sizlər sirab olduğunuz vaxt, onların susuzluğundan ciyəri yanırdı (oruc tuturdular). Sizlər yuxuda ikən, onlar ayaq üstə (namaza məşğul) idilər. Sizlər evlərinizdə istirahətdə olanda, onlar Allaha görə çölə tələsirdilər».

Bu cümlələrdə Həzrət (s) qiyamət səhnələrini – insanın haramları tərk edib vacibləri yerinə yetirməklə, behiştə daxil olması səhnəsini təsvir edir. Onun üçün cəhənnəmdən danışmağın lüzumu yoxdur. Çünki o, artıq cəhənnəm təhlükəsindən qurtulub cənnətlik olmuşdur. Lakin cənnətin aşağı dərəcəsi ilə kifayətlənən bu şəxs, cənnətin ali dərəcələrinə nail olmaq üçün iri addımlar atmağa sə᾽y etməmişdir. İndi onun üçün bu səhnələr mücəssəm edilir və anladılır ki, doğrudur, sən vacibata əməl etməklə cənnətə yol tapmısan, lakin cənnətdə səndən də yuxarı məqamda olanlar var və sə᾽y et, sən də onların dərəcəsinə nail olasan. «Allah bir çox insanı cənnətə daxil edəcək və onlara saysız-hesabsız ne᾽mətlər əta edəcəkdir. Belə

ki, bir müddət həmin ne᾽mətlərdən bəhrələnib ləzzət çəkməklə, başları qarışıq olacaq». Bunu söyləməklə Həzrət (s) bildirmək istəyir ki, ne᾽mətlərin çoxluğundan təngə gələrlər. Əlbəttə, bu el arasında deyilən tə᾽birdir. Həqiqətdə isə, cənnətdə kimsə cana doymaz və yorulmaz. Allahın buyurduğu kimi:

«Cənnətdə bizə əzab-əziyyət yetişməz və heç vaxt yorğunluq və zəiflik bilməyəcəyik»[1].

Deməli, bunu söyləməkdə Həzrətin (s) məqsədi budur ki, istədikləri qədər onlara ne᾽mət verərlər.

Həmin cənnət əhli baxıb, birdən öz dostlarını cənnətin ali məqamında görər və təəccüblə deyərlər: «Pərvərdigara! Bunlar ki, bizim dostlarımızdır. Biz ki, dünyada bir yerdəydik; bir sırada namaz qılardıq, bir səngərdə vuruşardıq. Necə oldu ki, onlara bizdən yuxarıda yer verdin? Onlara bizdən yüksək dərəcələr bəxş etdin?». Onlara cavab verilər: «Sizin onlarla fərqiniz çoxdur. Siz tox olanda, onlar ac, siz sirab olanda onlar susuz və siz halal ne᾽mətlərdən dadıb ləzzət apararkən, onlar oruc idilər. Hərçənd ki, siz günaha bulaşmamısınız, lakin onlar yayın istisində qarınlarını boş saxlayıb, yeyib-içməkdən gözlərini çəkərdilər. Siz öz vacib əməllərinizlə kifayətləndiniz və qalan vaxtınızı istirahətlə keçirdiniz. Lakin onlar yatmayıb Allahla dərdlərini bölüşər, ibadətə məşğul olardılar. Qur᾽anın buyurduğu kimi, onlar o kəslərdirlər ki, «**Gecənin az bir hissəsini yatar və Allah dərgahından tövbə və bağışlanmaq diləyərlər**»[2].

## *CƏNNƏT DƏRƏCƏLƏRİNDƏN BƏHRƏLƏNMƏKDƏ CƏNNƏT ƏHLİNİN FƏRQLƏRİ*

Bu cümlələrdə Rəsuləllah (s) cənnətin dərəcələrini xatırladır. Bir çox ayə və rəvayətlərdə cəhənnəmin qatlarına aydın şəkildə işarə edildiyi kimi, cənnətin də müxtəlif dərəcələrə malik olduğu bildirilir. Cənnətin ən aşağı dərəcəsi vacib əməllərinə əməl etmiş şəxslər üçün nəzərdə tutulmuşdur və ən yüksək dərəcəəsi

---

1 «Fatir» surəsi, ayə 35.

2 «Zariyat» surəsi, ayə 17-18.

«Rizvan məqamı» olub, Allahın xas övliyaları, ixlas sahibləri üçün təʾyin edilmişdir. Allah-təala buyurur:

«Allah möʾmin və möʾminələri ağacları altından çaylar axan əbədi behiştə daxil edəcəyinə vəʾdə vermişdir. (Orada onlara) Ədn cənnətlərində – gözəl saraylarda yer verərlər. Bütün neʾmətlərdən daha böyük olan isə budur ki, Allah Öz riza və məmnunluq məqamını onlara əta edər. Həqiqətən, bu, böyük bir nicatdır»[1].

Bütün neʾmətlərdən daha böyük olan Allahın «riza və məmnunluq məqamı» cümləsi barədə rəhmətlik Əllamə Təbatəbai buyurardı: «İlahinin razılıq və rizvanı cənnət neʾmətlərinin hamısından üstün və məqam baxımından ən yüksəkdə olanıdır. Bu cəhətinə görə də, «rizvan» kəlməsi «qeyri-müəyyən» formada göstərilmişdir ki, onun üçün hansısa bir hədd, dərəcə nəzərdə tutulmur, ya da Allahın razılıq və rizvanı nə qədər az olsa belə, yenə də bütün neʾmətlərdən böyükdür. Ona görə yox ki, o neʾmətlər Allahın razılığı ilə vücuda gəlir. Hərçənd, Qurʾanın nəzərindən Allaha həqiqi bəndəlik cənnət tamahı və cəhənnəm qorxusu ilə yox, məhəbbətlə Ona edilən ibadətdir. Aşiq və sevgili üçün ən böyük səadət və nicat odur ki, özünü razı salmaq üçün deyil, məhbubunun razılığını cəlb etməyə çalışsın»[2].

Eşq və məhəbbət üzündən olan bəndəlik əksər rəvayətlərdə də göstərildiyi kimi ən üstün bəndəlik olub, maddi bağlılıqlardan ruhunu azad etmiş azadruhlu, saleh insanlara məxsusdur. Buna görə də iddia edə bilərik ki, «Rizvan» məqamı cənnətin ən üstün məqamlarındandır və Allaha ibadətdə xalis olan saleh və hürriyyətli insanlara məxsusdur.

Axirətin dərəcə və mərtəbələri ilə əlaqədar olaraq Allah-təala buyurur:

---

[1] «Tövbə» surəsi, ayə 72.

[2] «Əl-Mizan», cild 9, səh. 354.

«Bax gör camaatın bə᾽zisini bə᾽zisindən necə üstün və fəzilətli etmişik. Axirətdə isə (dünyadakından) daha yüksək dərəcə, daha böyük üstünlüklər vardır»[1].

Bu ayə insanlar arasındakı fərq və dərəcələrin onların əməl və çalışmaqlarına bağlı olduğunu göstərir. Əməli az olanla əməli çox olan adam heç vaxt bir dərəcədə tutulmur. Bundan başqa, axirətdəki dərəcə və mərtəbə fərqləri dünyadakı kimi onun imkanlarından bəhrələnməkdə deyil. Çünki axirət, dünyadan ağılasığmaz dərəcədə vüs᾽ətlidir.

Dünya üstünlüyü onun malından, pulundan, cah-calalından nə dərəcədə bəhrələnməkdədir. Şübhəsiz ki, bu məhdud bir üstünlükdür. Lakin axirətdəki üstünlüyün səbəb və dərəcələri arasındakı fərq, insanların iman və ixlaslarının dərəcəsinə qayıdır. Bu, insan qəlbinin vəziyyətinə aiddir və şübhəsiz, dünyəvi dərəcə fərqləri ilə müqayisəyə gəlməz[2].

İşarə edildiyi kimi, Peyğəmbər (s) hədisin bu bölümündə insanlara xatırlatmaq istəyir ki, ancaq və ancaq vacib əməlləri yerinə yetirib, haramdan çəkinməklə kifayətlənməsinlər. Əlbəttə, cənnətin aşağı dərəcəsi ilə razılaşan şəxs, həmin hədlə də kifayətlənə bilər. Lakin bir gün baxıb görəndə ki, dostları ondan yuxarı dərəcədə qərar tutmuşlar, onda həsrət çəkəcəkdir. Bizim də həmin mərtəbəyə çatmağımız üçün bir az istirahətimizdən, gəzib-əylənməyimizdən azaldıb ibadətə daha çox yer verməyimiz lazımdır.

Bunu da deyək ki, istirahət zəruri həddində, öz yerində hökmən olmalıdır və hərdən vacib də olur. Çox vaxt istirahət vacib bir əməli yerinə yetirməkdən ötrü müqəddimə olur. Belə ki, əgər istirahət etməsə, namaz vaxtı yorğun və əzgin görünür, şövqü əldən gedir və ya istirahət etməsə, deyilən dərsi yaxşı qavramır. Sözün canı budur ki, yersiz və həddən ziyadə istirahət, insanın cəhənnəmə düşməsinə səbəb olmasa da, ən azı tərəqqidə insanı digərlərindən geridə qoyur.

---

1 «İsra» surəsi, ayə 21.

2 «Əl-Mizan», cild 13, səh. 72.

## *PEYĞƏMBƏRİN (S) NAMAZA HƏDSİZ DƏRƏCƏDƏ BAĞLILIĞI*

Hədisin davamında Peyğəmbər (s) namazı, ən ləyaqətli və ən yaxşı əməl ünvanı ilə tanıtdırır və tövsiyə edir ki, hər kəs asudə vaxtında ona üz tuta bilər:

«Ey Əbuzər! İzzət və cəlal sahibi olan Allah namazı mənim gözümün işığı qərar vermişdir. Ac adam çörəyi, susuzluqdan yanğısı olan suyu istədiyi kimi, onu da mənə sevdirmişdir. Ac adam çörək yediyi zaman doyur, susuz adam su içdiyi zaman susuzluğu yatır, lakin mən heç vaxt namazdan doymuram».

Peyğəmbərdən (s) öyüd götürmək istəyən, onu özünə nümunə seçmiş şəxs yaxşı olardı ki, Rəsuləllahın (s) həyat tərzi və keçdiyi haqq yoluna diqqət etsin. Bunun üçün də, o həzrət (s) özünü əməldə nümunəvi şəxs kimi tanıtdırır və bu, onun izində addımlamaq istəyən Peyğəmbər (s) aşiqləri üçün tərbiyənin ən gözəl üslubudur. Rəvayətlərin birində deyilir: «Sizin dünyanızda sevdiyim şey, gözəl qoxular və qadınlardır, lakin gözümün işığı namazdır». Həzrətin (s) «namaz mənim gözümün işığıdır» deməsi, insanın öz məhbubu və çox vurğunu olduğu şəxs haqqında deyə biləcəyi ən gözəl təʾbirdir. Qurʾanda Allah-təala həzrət Musanı (ə) anasının gözünün işığı kimi tanıtdırır və buyurur:

«Ey Musa! Anana vəhy etdik ki, körpəsini bir sandıqda yerləşdirib (sandığı) dəryaya atsın. O zaman dalğalar körpəni sahilə çatdırsınlar ki, Mənim və onun düşməni körpəni dəryadan götürsün. Mən öz lütfümlə sənə məhəbbət ilham etdim (sevimli olasan) ki, düşmən səni sevsin. (Bununla da) mənim gözümün qabağında (və mənim inayətimlə) (böyüyüb) boya-başa çatasan. Anadan ayrı düşdüyün zaman bacın səni axtarmağa başladı, nəhayət, Firʾonun yanında tapdı və dedi: «Bu körpəyə süd verə biləcək birisini sizə nişan verimmi? Və biz səni (yenidən) anana qaytardıq ki, gözləri aydın olsun və (ona dedik) qəm yemə»[1].

Biz insanlar yeyib-içməyə ehtiyaclıyıq. Əgər bir müddət yemək yeməsək, bərk acıyarıq və bu aclığı aradan aparan ən münasib vasitə yeməkdir. Eləcə də, susayanda su içməyə çox

---

[1] «Taha» surəsi, ayə 38-40.

meyilli oluruq və bu anda heç bir şeyi bir içim su qədər arzulamırıq. Peyğəmbər (s) buyurur: «Mənim namaza olan istəyim acın yeməyə və susuzun suya olan istəyi kimidir. Fərq bundadır ki, ac adam yemək yeməklə doyur və susuz adamın su içməklə susuzluğu yatır, lakin mən heç vaxt namazdan doymuram». Bu bəyanla namazın əhəmiyyəti mə`lum olur. Əgər insanın vacib əməlləri yerinə yetirəndən sonra boş vaxtı olarsa, müstəhəb əməllər arasında görəcəyi ən yaxşı iş yenə də namazın özüdür. Necə ki, Peyğəmbər (s) və imamların (ə) yolu belə olmuşdur və biz deyilənlərə aydınlıq gətirmək üçün bir neçə rəvayəti qeyd edirik:

İmam Sadiq (ə) buyurur: «Əli (ə) üçün əgər xoşagəlməz bir iş baş versəydi, tez namaza durar və deyərdi: «Allahdan səbir və namazla kömək istəyin»[1].

İmam Səccad (ə) buyurur: «Əliyə (ə) bir müsibət baş versəydi, həmin günü min rükət namaz qılar, altmış fəqirə sədəqə verər və üç gün oruc tutardı»[2].

Peyğəmbərin (s) namaza diqqəti və tə`kidi barədə «Biharul-ənvar»da deyilir: «Peyğəmbər (s) on il namaz üçün ayaq üstə durdu. Nəhayət, (davamlı ibadətin şiddətindən) ayaqları şişib, üzü saraldı»[3].

«Ey Əbuzər! Əgər bir nəfər bir gecə-gündüzdə ona vacib buyurulmuş namazlardan əlavə on iki rükət namaz qılsa, onun Allah üçün sabit haqqı odur ki, cənnətdə ona bir mənzil bağışlasın».

## *NAMAZ XOŞBƏXTLİYİN AÇARIDIR*

«Ey Əbuzər! İndi ki, namazda Cabbar padşahın evinin qapısını döyürsən, bil ki, hər kəs padşahın qapısını çox döysə, qapını onun üzünə açarlar».

Bu, insanı namaza təşviq edən daha bir bəyandır. Peyğəmbər (s) buyurur: «Namaz qılan adam Allahın qapısını döyür. Allahla işi olan kəs gərək Onun evinə getsin və namaz «insanın Allah

---

1 «Müstədrakül-vəsail», cild 2, səh. 481.

2 «Biharul-ənvar», cild 10, səh. 40.

3 «Biharul-ənvar», cild 41, səh. 132.

evinə yollanması»dır». Ola bilməz ki, bir nəfər israrla bir şəxsin qapısını döysün, amma qapını onun üzünə açmasınlar. O ki, qalsın Allahın qapısını. Əgər Allahın sizə nəzər yetirməsini, icabət və rəhmət qapılarının üzünüzə açılmasını istəyirsinizsə, onda o qapını çox döyün və davamlı namaz qılın. Mümkündür, ilk vaxtlarda – birinci, ikinci dəfədə insanın bulaşdığı günahlar səbəbi və ya ilahi hikmət üzündən qapı açılmasın, lakin nəhayət, bu qapılar insanın üzünə açılır. Şübhəsiz ki, ilahinin rəhmət qapıları həmişə insanların üzünə açıqdır. Çünki insanları bir tərəfdən özünə tərəf də᾽vət edib, başqa bir tərəfdən öz rəhmət qapılarını onların üzünə bağlamaq olmaz. Allahın rəhmət qapıları ancaq ilahi ayələri dananın və təkəbbür sahiblərinin üzünə bağlıdır ki, əlbəttə, onların da özləri rəhmət qapılarını öz üzlərinə bağlamışlar:

«Göyün qapıları heç vaxt Allahın ayələrini dananın və təkəbbür üzündən ona boyun əyməyənlərin üzünə açılmaz»[1].

Yeri gəlmişkən bunu da deyək ki, bə᾽zi ayə və rəvayətlərdə «göylərin qapısı» və ya bu rəvayətin özündə insanın namaz halında Allahın qapısını döyməsi deyildikdə, mə᾽nəvi və metafizik məfhumlar bizim üçün anlaşılan olsun deyə, mə᾽qulu (ağıla sığan məfhumları) məhsus (beş hiss edilən üzvü vasitəsilə hiss olunan məfhumlar) vasitəsilə ifadə etmişlər. Həqiqətdə, bəndə ilə Allah arasında heç bir pərdə və maneə yoxdur. İnsanın pis əməlləri onun diqqətinin Allaha yönəlməsinə mane olur. İnsan günah etməklə, ilahi feyzdən məhrum olur. Allahın rəhmət qapısının açarı və pərdələri aradan qaldıracaq vasitə, ibadət və Allaha bəndəçilikdir. Namaz isə ibadətlərin ən üstünüdür. Peyğəmbər (s) hədisin davamında namaz qılan şəxsin əldə etdiyi bəhrə barəsində buyurur:

«Ey Əbuzər! İmanlı insan namaz qılmağa başladığı zaman Allah-təalanın rəhməti ərşə qədər onu əhatə etmiş olur. Onun üçün bir mələk tə᾽yin edilir və (həmin) mələk nida edib deyir: «Ey Adəm övladı, əgər namazdan sənə nəsib olanı və kiminlə söhbət etdiyini bilsəydin, heç vaxt namazını dayandırmazdın».

---

[1] «Ə᾽raf» surəsi, ayə 40.

Mətndə verilən «tənasur» kəlməsi, ağacın yarpaqlarının və ya hər hansı bir şeyin topa halında yuxarıdan aşağıya tökülməsi məʾnasını daşıyır.

Peyğəmbər (s) buyurur: «Namaz qılan adam təpədən ərşə qədər ilahi rəhmətə bürünür». Təbiidir ki, bu məqam və mövqeni arzulayan şəxs namazını uzatmağa çalışar. Bundan əlavə, Allah bir mələyi məʾmur edir ki, daim namaz qılan şəxsi bu sözlərlə səsləsin: «Ey Adəm övladı! Əgər kiminlə dərdləşdiyini, kiminlə söhbətə oturduğunu bilsəydin, namazdan əl çəkməzdin və heç vaxt «yoruldum» deməzdin». Kimin qarşısında dayandığına və kiminlə rabitəyə girdiyinə diqqət yetir ki, bunun əhəmiyyətini dərk etməklə namazına da əhəmiyyət verəsən. Namazın sənə nə kimi mənfəət, fəzilət, savab bəxş etdiyini bilsəydin, namazdan əl çəkməzdin.

## *İBADƏTİN DAVAMLILIĞININ SİRRİ, ONUN ŞİRİNLİYİNİN DƏRKİNDƏDİR*

İbadətin davamlı olması üçün lazım olan mühüm şərtlərdən biri, insanın ondan ləzzət ala bilməsidir. İnsan hiss etməlidir ki, ibadətdən faydalanır. İnsan ləzzət ala bilmədiyi işdən tez bezir. İbadətin şirinliyi, insanın daha çox ona meyl salmasına səbəb olur, bu ləzzət və şirinlik, günahdan çəkinib onu tərk etməkdən başqa bir yolla hasil olmur. Günah ibadətin dadının insanın damağından getməsinə səbəb olur. Bəʾzi məʾsumların duasında oxuyuruq: «İlahi, öz ibadətinin şirinliyini bizə dadızdır».

Mümkündür, xəstə üçün ən ləziz bir yemək hazırlasınlar, lakin o, xəstəliyi üzündən bu ləzzəti dada bilməsin. Lakin sağlam və ac bir insan, hətta bir tikə quru çörəyi yeyəndə də, ləzzət alır. Deməli, mühüm olan budur ki, insanda ehtiyac və ibadətdən ləzzət almaq hissi dirçəlsin.

Əvvəlki cümlələrdə Peyğəmbərin (s) hədislərindən birinə işarə edildi ki, o həzrət buyurmuşdur: «Mənim namaza bağlılığım acın çörəyə, susuzun suya olan istəyindən daha çoxdur. Çünki onlar istəklərinə çatanda doyurlar, lakin mən namazdan doymuram».

İmam Sadiq (ə) Allah bəndəçiliyinə vurğun adamın damağında olan ibadətin şirinliyi ilə əlaqədar buyurur: «Əgər Allaha bəndəçiliyin şirinliyini dada, onun bərəkətini görə və onun nuru

ilə qəlbini işıqlandıra bilsən, səni tikə-tikə doğrasalar belə, bir an da olsun ondan əl çəkməzsən»[1].

Başqa bir rəvayətdə imam Sadiq (ə) buyurur: «İbadətin şirinliyini tələb etdim (soraqlaşdım, axtardım). nəhayət, onu günahın tərkində (günahdan çəkinməkdə) tapdım»[2].

---

[1] «Müstədrəkül-vəsail», cild 11, səh. 253.

[2] Həmin mənbə, cild 31, fəsil 101, səh. 173.

## ONUNCU DƏRS

### *BEHİŞTİN QABAQCILLARI VƏ ONUN BƏ᾽Zİ TƏKLİFLƏRİNİN MƏQAM VƏ DƏRƏCƏLƏRİ*

1. Behiştin qabaqcılları;
2. Fitrət və kamal axtarmaq:
a) Namazın məqam və dərəcələri;
b) Orucun məqam və dərəcələri;
v) Cihadın məqam və dərəcələri;
3. Mö᾿minlərin fərqi.

## *BEHİŞTİN QABAQCILLARI*

Cənnət öncülləri barədə Peyğəmbər (s) buyurur:

«Ey Əbuzər! Xoş o kəslərin halına ki, məhşər günü bayraqdardırlar. Bayrağı camaatın önündə tutaraq, cənnətə daxil olmaqda onlardan qabaqda gedərlər. Bunlar həmin o adamlardır ki, səhərlər və sair vaxtlarda məscidə getməkdə başqalarından qabağa düşərdilər».

Bütün insanlar yaş fərqindən asılı olmayaraq çalışırlar ki, hər bir işdə həmişə başqalarından qabağa düşsünlər. Əlbəttə, bu yarışma və rəqabət əgər sırf dünya işləri üçün olarsa, pislənilir. Lakin başqalarından qabağa düşmək axirətlə əlaqədar olarsa, nəinki pis deyil, əksinə inkişaf və səadətə can atmasına bir nişanədir. Çünki insanın səadəti onun Allaha yaxınlaşması və əməl dəftərinin pak olmasındadır. Mö᾽minlərin bu məsələdə bir-birindən qabağa düşməsi, özünü göstərmək üçün deyil, səadətə qovuşmaq xatirinədir.

Qur᾽anın bir yerində bu məsələyə tə᾽kid edilərək deyilir:

«Allahınızın məğfirətinə və təqvalılar üçün hazırlanmış genişliyi yeri və göyləri əhatə etmiş cənnətə doğru tələsin».

Həqiqətdə, bu ayə insan fitrətinin nidasına bir işarədir. Çünki onun fitrəti kamal axtarır, başqalarından daha kamil olmaq istəyir.

## *FİTRƏT VƏ KAMAL AXTARMAQ*

Şübhəsiz ki, insan, kamalın son nöqtəsinə varmaq istəyir və bu, Allaha yaxınlaşmaqla mümkündür. Bu səbəbdən də, bütün vasitə və amillərdən bəhrələnməyə çalışır. Lakin məhdud kamillik insanın son hədəfi deyildir. Çünki birincisi, daha yüksək kamal qarşısında solğun görsənir. İkincisi də, insan öz istəyinə çatdıqdan sonra doymuş olur. Bu səbəbdən də deyirlər: «Vüsal eşqin qəbridir». Yə᾽ni insan məhdudun hüsn və kamalına aşiq ola bilməz. Həqiqətdə, insan fitri olaraq mütləq kamal aşiqidir və Allahın sorağındadır. İnsanın dərdi ilahi dərddir və əgər qəflət

pərdələri gözünün önündən götürülsə, öz mə'şuqunu tapacaq və ibadətləri Əli (ə) kimi aşiqanə olacaqdır.

Bu cəhətdən də Allah-təala Qur'anda buyurur:

«Qəlblərə təskinlik verən Allahın zikridir»[1].

Ərəbcə mətndə «Allahın zikri» kəlməsinin öndə gətirilməsi inhisar əlamətidir; yə'ni yalnız Allahı yad etməklə qəlblər təskinlik tapır və insan iztirabdan, nigarançılıqdan qurtulur. Əgər bir nəfər malın, pulun, vəzifənin insana rahatlıq bəxş etdiyini düşünürsə, çox yanılır. Əlbəttə, Qur'an onların olmasını qadağan etmir, lakin deyir:

«Onlar insana asayiş və rahatlıq gətirmir»[2].

Deyildi ki, insan mütləq kamalın sorağındadır və bu yolda bütün vasitə və amillərdən bəhrələnməyə çalışır; mütləq kamala çatmağın amillərindən biri də, Allahla münacat və məscidlərin canlandırılmasıdır. Peyğəmbər (s) buyurur: «Xoş o kəslərin halına ki, qiyamət günündə qabaqcıl və bayraqdar olarlar. Onlar camaatın cənnətə girməsinə bələdçilik edər və başqaları cənnətə daxil olmaq üçün arxalarınca yollanarlar. Bu insanlar səhərin ilk vaxtında və digər vaxtlarda başqalarından daha tez məscidə yollanardılar. («Səhərin» öndə gətirilməsi buna görədir ki, ibadət üçün ən yaxşı vaxt səhər və axşam çağıdır.)

Diqqət edilməlidir ki, insan ruhunun xüsusiyyətlərindən biri, başqalarının xeyir işdə qədəm götürdüyünü gördüyü zaman onun da həmin işə təşviq olunmasıdır. Həqiqətdə, psixologiya elmində «nümunə seçmə» məsələsi köklü şəkildə tərbiyənin ən yaxşı üsulu olaraq tanınmışdır. Həqiqətdə, insanın rəftarına ən çox tə'sir edən xarici amil ülgü və nümunə qəbul etməkdir. Bir nəfər əgər xeyir bir işdə qabağa düşüb ilk addımı atarsa, həmin işə başqalarının diqqətini də cəlb edəcəkdir və nəticədə, başqaları da həmin işə üz tutacaqlar. Bu işdə yeniyetmələr daha çox diqqətlidirlər.

---

1 «Rə'd» surəsi, ayə 28.

2 «Kamil insan», Şəhid Mürtəza Mütəhhəri, səh. 94-96.

İnsan kamilləşdikcə başqalarına daha çox örnək olmaq istəyir və bu hisslərini xeyir işlər görməklə biruzə verir; nəticədə başqaları da təşviq olunurlar.

Təbiidir ki, bir nəfər camaat arasında bir işə başlayanda, başqaları çox rahat onun ardınca gedirlər. Məsələn, bir məktəbdə zöhr namazı vaxtı bir neçə nəfər tələsik məscidə yollananda, onların əməli başqalarını da məscidə getməyə təşviq edir. Lakin bu işdə qabağa düşən olmasa, namaz vaxtı məsciddə olmaları gərəkdiyi halda, camaat bu məsələyə diqqətsizlik edir və ya diqqət etsə də, çox da səʾy göstərmir. Bu məsələ «nümunə seçmə» kimi tanınan həmin ruhi, psixoloji həqiqətin göstəricisidir.

Əgər insan riyaya mürtəkib olmamaq üçün hər hansı bir işi gizli görürsə, onun bu əməli bəyənilən və yaxşı iş hesab olunur. Lakin bir nəfər savab bir işi başqalarının təşviq olunması niyyəti ilə aşkarda görərsə, onun bu işi nəinki pis sayılmaz, əksinə çox yerində görülmüş və dəyərli iş hesab olunar. Çünki onun bu işi görməkdə məqsədi, özünü göstərmək deyil, başqalarını da həmin işə cəlb etmək qəsdi ilədir. Bu barədə Allah-təala buyurur:

«Onlara nəsib etdiyimiz hər şeydən, gizlində və aşkarda fəqirlərə bağışlayardılar»[1].

Bəʾziləri deyiblər: «Sirli və gizli verilən sədəqə, riyadan uzaq olmaq, lakin aşkar verilən sədəqə, digərlərinin təşviqi üçündür». Beləliklə, hər ikisinin öz hüsnü vardır. Riyadan uzaq olmaq üçün namazını xəlvətdə qılanın da əməli yaxşıdır, başqalarını təşviq etmək üçün namazını məsciddə aşkar qılanın da. Əlavə olaraq, xalis niyyətlə məscidə getməkdə başqalarından qabağa düşüb onların təşviqinə səbəb olan kəsin savabı iki qatdır və qiyamət günündə də başqalarının bayraqdarı olar. Çünki başqalarının ayağını məscidə açan, onun əməli oldu.

Rəhmətlik Ayətullahül-üzma Mərʾəşi Nəcəfi hər səhər azandan qabaq Hərəmə (Qum şəhərində yerləşən xanım həzrəti Məʾsumənin (s.ə) ziyarətgahı) getməyi özünə adət etmişdi. Hövzədə oxuduğum illərin əvvəlində, mədrəsədə sakin

---

[1] «Rəʾd» surəsi, ayə 22.

olduğumuz vaxtlardan hərdən səhərlər tələbə dostlarımla Hərəmə getmək bizlərə də nəsib olardı. Bə᾽zən qar da yağardı və təəccüb içində görərdik ki, Ayətullah Mər᾽əşi Nəcəfi Hərəmin qapıları açılmamışdan, əbasını başına çəkmiş və qapı arxasında oturub, qapının açılmasını gözləyir. Bu onun özünəməxsus bariz xüsusiyyətlərindən biri idi. Belə bir rəftar nə dərəcədə başqalarının təşviqinə səbəb olur? Tələbələr görəndə ki, bir nəfər mərceyi-təqlid Hərəmin qapıları açılmamış gəlib qapı arxasında oturur, bu iş onları da səhərin ilk vaxtı Hərəmə gəlməyə təşviq edirdi. İndi ki, məscidə getməkdə öndə olmağın əhəmiyyətinə işarə edildi, məsciddə hazır olmağın əhəmiyyətinə dair iki rəvayət xatırlatmaq yerinə düşər:

Rəsuləllah (s) buyurur: «(Bilin ki,) məscidlərin öz munisləri var ki, mələklər onlarla oturub-durarlar. Əgər (üzürlü səbəbə görə) məscidə gələ bilməsələr, onlara baş çəkərlər və bir şeyə ehtiyacları olsa, kömək edərlər»[1].

Başqa bir rəvayətdə buyurur: «Namazın vaxtını gözləmək xatirinə məsciddə oturmaq ibadətdir» və həmçinin buyurur: «Allah-təala sözü Qur᾽an, evi məscid olan kəsə cənnətdə iki ev tikər»[2].

## BƏ᾽Zİ TƏKLİFLƏRİN MƏQAM VƏ DƏRƏCƏLƏRİ

Hədisin davamında Peyğəmbər (s) buyurur:

«Ey Əbuzər! Namaz dinin sütunudur və dildə Allah üçün yad edilən hər bir şey daha böyükdür. Sədəqə vermək günahları yuyub aparır və xalqa faydası olan danışıq sədəqədən böyükdür. Oruc atəşin qarşısında qoruyucu zireh kimidir və dili qorumaq ondan daha böyükdür. Cihad şərafət və izzətdir və dillə edilən cihad şərafət baxımından daha böyükdür».

## 1. NAMAZIN MƏQAMI VƏ DƏRƏCƏLƏRİ

Peyğəmbər (s) buyurur: «Namaz dinin sütunudur və onsuz din yerə çökər. Lakin onu xatırladıb deyilən hər bir şey, namazın başqa əməllərindən daha mühüm və böyükdür. Çünki namazın

1 «Müstədrəkül-vəsail», cild 1, səh. 358.

2 Həmən mənbə.

zikrləri mö'min bəndənin Allah qarşısında bəndəçiliyi və itaətinin cilvəsidir və həmçinin, Allahın məqamı və nəhayətsiz rəhməti həmin zikrlərlə tanıtdırılır.

Namazın dinin sütunu olaraq tanıtdırılmasının əsas səbəbi, onun insan şəxsiyyətinin mə'nəvi cəhətdən formalaşmasında oynadığı mühüm roludur. Həqiqətdə, namaz insanın imanına təcəssüm və mə'nəvi varlığına kamal bəxş edir. Bu cəhətinə görə də dini maarifdə, Qur'an ayələrində, mə'sumların rəvayətlərində bu məsələyə xüsusi əhəmiyyət verilmişdir.

Rəvayətlərin birində Peyğəmbər (s) buyurur: «Allahı tanıdıqdan sonra vaciblər arasında ən üstün əhəmiyyətə malik olanı namazdır. Qiyamət günü insandan soruşulacaq ilk sual namaz barəsindədir, əgər bu (namaz) qəbul olarsa, (insanın) digər əməlləri də qəbul olunacaqdır, əgər rədd edilərsə, digər əməlləri də qəbul olunmayacaqdır»[1].

Səcdə edənin məqamı ilə əlaqədar Əli (ə) buyurur: «Namaz qılan şəxs onu əhatə etmiş ilahi rəhməti dərk edə bilsəydi, heç vaxt səcdədən baş qaldırmazdı»[2].

Namazın nəfsin təharətində, qəlbin və ruhun paklaşmasında oynadığı rolu barədə Rəsuləllah (s) buyurur: «Əgər hər birinizin evindən çay axsaydı və sizlər gündə beş dəfə o çayda yuyunsaydınız, bədəninizdə çirk qalardımı?» Səhabə deyir: «Yox». Peyğəmbər (s) buyurur: «Namazın da məsəli, axar çayın məsəli kimidir. Bir adam namaz qılarsa, onun günahları iki namaz arasındakı vaxt ərzində bağışlanmış olar»[3].

## *2. ORUCUN MƏQAM VƏ DƏRƏCƏLƏRİ*

Peyğəmbər (s) orucu, atəşdən qorunan zirehə bənzədir. Çünki oruc insanın tərəqqi etməsi üçün bir vəsilə və şeytanın qarşısına çəkilmiş bir hasardır. İnsan daim onun mə'nəvi və ruhani şəxsiyyətinə təhlükə törədən nəfsi-əmmarəyə sahibdir. Buna görə də, Əli (ə) buyurur: «Mən sizə görə ən çox iki şeydən qorxuram: «Nəfsani istəklərinizin qulu olmanız və uzun-uzadı

---

1 «Təfsiri Əbul Futuh», cild 1, səh. 103.

2 «Ğürərül-hikəm», səh. 605.

3 «Vəsailüş-şiə», cild 3, səh. 7.

arzulara qapılmağınızdan; çünki həvəsinizə uymanız sizi haqdan saxlayır, uzun arzularınız isə axirəti unutmağınıza səbəb olur»[1].

Allah öz bəndələrini sevdiyindən, özlərinə etdiyi zülmü və Allahdan uzaqlaşmalarına səbəb olan səhvlərini düzəltmələri üçün onların ixtiyarında bir sıra imkanlar qoymuşdur. Belə imkanlardan biri də, oruc tutmaqdır. Oruc tutmaqla insan nəfsini çirkin əməllərin tə՚sirindən yaranmış zülmətdən təmizləyir və müsibətlər qarşısında səbirli, çətinliklər qarşısında dözümlü olur.

Orucun insan mə՚nəviyyatına olan müsbət tə՚sirindən əlavə, bə՚zi aylarda və günlərdə oruc tutmağın xüsusi savabı rəvayətlərdə qeyd edilmişdir. O cümlədən, övliyaullahlar və böyük alimlər Şə`ban və Rəcəb aylarında oruc tutmağın əhəmiyyətini xüsusi vurğulayırlar.

## *3. CİHADIN MƏQAM VƏ DƏRƏCƏLƏRİ*

Allah yolunda edilən cihad və mübarizə insana izzət və başıucalıq gətirir. Cihad xalqın və dinin mühafizəsi üçün həyati rola malikdir. Cihad və mübarizə yolu olmasaydı, din və məzhəbi inanclar çoxdan məhv olardı. Çünki dünyaya ağalıq etmək istəyən mənfəət sahibləri, öz tamahkar arzularına çatmaq üçün məkirli fikir və mübarizələrindən əl çəkən deyillər. Allah dostlarının cihadı, dinin düşmənlərin xətərlərindən amanda qalmasına səbəb oldu və biz bu gün həmin mübarizələrin səmərəsini dadmaqdayıq. Bu cəhətinə görə də, haqq yolu mücahidlərinin siması parlamaqdadır və onlar öz canfəşanlıq və fədakarlıqlarına görə, həmişə Allahın lütf və inayəti ilə üzləşirlər.

Allah-təala onlar barəsində buyurur:

«Korluq, xəstəlik, kasıblıq kimi üzürlü səbəb olmadan cihaddan yayınan şəxslərlə, malları və canları ilə cihad edən şəxslər heç vaxt bir ola bilməzlər. Özlərini kənara çəkənlərdən fərqli olaraq Allah, malları və canları ilə cihad edən mücahidlərə üstünlük bəxş etmişdir»[2].

---

[1] «Biharul-ənvar», cild 77, səh. 419.

[2] «Nisa» surəsi, ayə 95.

Peyğəmbərin (s) xüsusi olaraq vurğuladığı nöqtələrdən biri də budur ki, dilin görə biləcəyi işi, insan bədəninin heç bir üzvü görə bilmir və dilin insanın həyatındakı oynaya biləcəyi rol namaz, oruc və cihaddan daha üstündür; istər dillə bəyan edilən əmr be mə᾿ruf və nəhy əz münkər surətində olsun[1] – istərsə də digərlərinin tə᾿lim-tərbiyəsi qismində olsun[2] - hər iki halda dilin üstünlüyü cihaddan daha çoxdur. Həmçinin, anlatmağa çalışır ki, müstəhəb əməllər ancaq uzun-uzadı ibadətlərlə bitmir. Dilin də görə biləcəyi bir sıra asan müstəhəb işlər vardır ki, bunun üçün nə artıq pul xərcləmək, nə artıq zəhmət çəkmək, nə də çoxlu vaxt sərf etmək lazımdır.

Deməli, dilin qədrini bilmək və onu, insanın əməlini hədərə verə biləcək bəlalardan qorumaq lazımdır.

## *BEHİŞTDƏKİ DƏRƏCƏLƏR BAXIMINDAN MÖ᾿MİNLƏRİN FƏRQİ*

Peyğəmbər (s) behiştin dərəcə fərqləri ilə bağlı belə buyurur:

«Ey Əbuzər! Behiştin dərəcələri arasındakı fasilə, yerlə göy arasındakı fasilə kimidir. Behiştəki insan yuxarı baxar, bu anda gözləri önündə parlayan nur bərq vurar ki, az qalar onun gözlərini kor etsin. Soruşar: «Bu nə nurdur belə?». Ona deyərlər: «Bu, qardaşın filankəsin nurudur. O, (heyrət içində) deyər: «Biz hamımız dünyada Allah bəyənən işlər görərdik, bəs necə oldu ki, o, bizdən üstün oldu?». Ona deyərlər: «O, yaxşı işlər görməkdə səndən üstün idi». Bu anda onun ürəyinə riza yerləşdirilər ki, öz dərəcəsinə razı olsun».

Qəribə burasıdır ki, həmin cənnətdəki adama «Onun əməli (səndən) çox idi» demirlər. «Onun əməli daha yaxşı, daha üstün idi» deyirlər, yə᾿ni onun əməlinin keyfiyyəti daha üstün, namaz və ibadətdə Allaha olan diqqəti, ixlası daha artıq idi.

---

[1] Bildiyimiz kimi, rəvayətlərdə əmr be mə᾿ruf və nəhy əz münkər cihaddan daha üstün qiymətləndirilmişdir.

[2] (Belə ki, cahilin haqqa hidayəti hər cihaddan üstündür.)

Təbii olaraq, insan öz yoldaşlarının ondan qabaqda olduğunu görəndə həsrət çəkər. İnsan əgər dünyada başqalarından dala qalarsa, onlara gəlib çatmağına imkanı olur, lakin axirətdə belə fürsət və imkan olmur.

Buna görə də, axirətin həsrəti hər bir əzabdan daha ağırdır. Cənnət əhlində həsrət qəmi yeməyə zəminə olmasına baxmayaraq, Allah-təala onları həsrət dərdinə mübtəla etmir. Bu, bizlərə açılması çətin olan qapalı bir sirrdir.

Burada belə bir sual qarşıya çıxır ki, cənnət əhli öz dostlarının ondan üstün məqamda yerləşdiklərini görə-görə necə olur ki, həsrət çəkmir? Bununla bağlı «Barnabanın İncil»ində həzrət İsadan (ə) bir təmsili cavab olaraq nəql edirlər ki, buyurur: «Bu dünyada balaca boylu adam heç vaxt öz ölçüsündən uzun paltar geymək həvəsinə düşmür və eləcə də uzunboylu adam heç vaxt qısa paltar geyinmək həvəsinə düşməz». Bu təmsildən belə nəticəyə gəlmək olur ki, cənnətdə hər kəs öz həddinə razı olur. Öz məqamından artığına tamahı olmur. Həqiqətdə, qazandığı məqamı özünə layiq bilir. Görəndə ki, bir sıra adamların, məsələn peyğəmbərlərin məqamı ondan üstündür, həmin məqamı onlara layiq bilir və o məqamı özü üçün əyninə gen duracaq paltar kimi görür.

Cənnətlik insanlar ölümdən qabaq və bərzəx aləmində çirkinliklərdən nicat tapır və öz hədlərinə layiq kamala çatırlar. Bu cəhətinə görə, hər kəs öz şə᾽nində olan libasa bürünür və Allah onu, onda olanla razı salır və bundan sonra qəlbi təskinlik tapır.

## ON BİRİNCİ DƏRS

### *HÜZN VƏ QORXUNUN ƏHƏMİYYƏTİ VƏ ROLU (1)*

1. Hüznlə qorxu və günahdan uzaqlaşmaq;
2. Qorxunun insanın mə̓nəvi yüksəlişindəki rolu;
3. Hüzn və qorxunun fərqləri;
4. Dünya mö̓minin zindanı, kafirin cənnətidir;
5. Cəhənnəm barədə düşünmək mö̓minin pərişanlığının nişanəsidir.

## *HÜZN VƏ QORXUNUN ƏHƏMİYYƏT VƏ ROLU (1)*

Peyğəmbərin (s) nəsihətinin bu bölümü, qorxu və hüznlə əlaqədardır. Bu bölümün əvvəlki bəhslərlə əlaqəsində nəzərəçarpacaq cəhət ondadır ki, insan ömrünü həqiqi təkamül olan Allaha bəndəçilik yolunda sərf etməyi qərara alandan sonra bu yolda müvəffəqiyyətli hərəkəti üçün bir sıra vasitə və təcrübələrə ehtiyac duyur.

İnsanda iradə və qətiyyətin yaranması üçün xüsusi şəraitin və başlanğıcın mövcudluğu zəruridir (Emosiya və məhəbbət kimi, insan nəfsində təsəvvür, təsdiq və nəfsani halların mövcudluğu, onda iradəyə zəminə yaradır). Deməli, əgər həmin müqəddimələr hazır olarsa və ya hazır olmamışdan öncə onlardan düzgün istifadə olunarsa, insanın təkamülü yolundakı hərəkəti üçün münasib zəmin hazırlanmış hesab olunur.

Çox vaxt insan bir şeyi istəyir, lakin yalnız bu istəmək onda iradə hasil etmir. Lakin hərdən onda yaranmış bə̓zi hallar, onu qətiyyətli addım atmağa, hərəkətə vadar edir. Həqiqətdə, həmin hallar insan üçün dəyərli fürsətlər vücuda gətirir.

## *HÜZNLƏ QORXU VƏ GÜNAHDAN UZAQLAŞMAQ*

İnsanı hərəkətə vadar edən və günahdan uzaqlaşmasına güclü təkan verən nəfsani hallardan biri də, qorxu və hüzndür. Bu iki hal insanın özünə gəlməsi, vaxtı qənimət bilməsi, mə̓nasız və bihudə işlərdən çəkinməsinə layiqincə kömək göstərir. Əlbəttə, hər bir qorxu və hüzn bəyənilən deyil və insanda canlanmaya, hərəkətə səbəb olmur. İnsanın qəm-qüssəyə mübtəla olması və tərkidünyalığına səbəb olan hüzn qəbuledilməzdir. Belə hüzn nə ibadət və nə də iş üçün hal yaradır. Həmçinin, insanı ümidsizliyə gətirib çıxaran hüzn də rədd edilir. Hüzn və xofun bə̓zi halları nəinki insanı Allah yoluna vadar etmir, üstəlik onun yolunda maneəyə çevrilir. Misal üçün, dünya ilə bağlı yaranan hüznlər kimi. Bir miqdar pulunu itirir, ondan sonra elə hey deyinir, qüssələnir və daim narahatçılıq hissi keçirir ki, niyə o pul itdi; hətta namazda da itirdiyi pulu fikirləşir. Və ya dünyadakı vəzifəsini, maşınını itirə biləcəyi, onu işdən çıxaracaqları qorxusu vücudunu başdan ayağa bürüyür. Bu cür xof və hüznlər insanın Allaha tərəf hərəkət etməsinə maneçilik törədir.

Əlbəttə, bəʾzən dünya üçün yaranmış hüzn Allahla bağlı olur. Məsələn, insan ona üz vermiş dünyəvi bəlanı İlahi tərəfindən nazil olmuş bəla kimi qiymətləndirir. Təbiidir ki, bu cür xof və hüzn onun hərəkəti üçün başlanğıc olur. Ya da əlindən çıxmış neʾmətə görə qəmgin olduqdan sonra ayılaraq, dünyaya bel bağlamamağın zəruriliyini dərk edir.

Deməli, dünyəvi neʾmətin əldən çıxması və ya hansısa bəlaya düçar olmaq, bilavasitə insanı məʾnəvi təkamül səmtinə tərəf hərəkətə vadar edə bilər. Allah-təala Qur′ani-kərimdə buyurur:

«Biz xalqa peyğəmbərlər göndərəndə, onları çətinliklərə və sıxıntılara mübtəla edirik. Biz heç bir şəhərə, həmin şəhərin xalqını çətinliklərə mə′ruz qoymadan peyğəmbər göndərmədik, o vaxta qədər ki, tövbə edib Allah dərgahından bağışlanmaq dilədilər»[1].

Başqa bir ayədə belə buyurur: «Və biz səndən əvvəl də camaata peyğəmbərlər göndərdik (Allahın rəhmətinə layiq olmaları üçün). Allah dərgahında ağlayıb sızlasınlar deyə, onları bəla və müsibətlərə giriftar etdik»[2].

Allahın öz bəndələrini çətinliklərə mübtəla etməsi, onlara olan lütfü ilə əlaqədardır. Bununla Allah öz bəndələrini qəflət yuxusundan ayıldıb, haqqı qəbul etmək üçün daha artıq hazırlıqlı olmalarına kömək edir. Çünki nə qədər ki, insan dünya ləzzətlərindən sərxoş olub keyf sürməkdədir, haqqı və axirətlə bağlı şeyləri qəbul etməyə hazır olmur.

## *QORXU VƏ XOFUN İNSANIN MƏʾNƏVİ YÜKSƏLİŞİNDƏKİ ROLU*

Deyildiyi kimi, axirətlə bağlı insanda yaranmış qorxular, onun məʾnəvi yüksəlişinə səbəb olur. Allah-təala bu barədə buyurur:

«Allah dərgahında hazır olduğu zaman qorxub allahpərəst olan və nəfsani istəklərindən uzaqlaşan kəs bilsin ki, onun mənzili cənnət olacaqdır»[3].

---

1 «Əʾraf« surəsi, ayə 94.

2 «Ənʾam» surəsi, ayə 42.

3 «Naziat» surəsi, ayə 40-41.

Həzrət Əli (ə) təqvanın insanı günahdan saxlaması və Allahdan qorxmaq barəsində belə buyurur: «(Ey) Allah bəndələri! Təqva və Allah xofu, Allah dostlarını harama düşməkdən saxlayır və ürəklərində əzaba düçar olmaq qorxusu yaradır. Bu xof və təqva onlara gecələr namaz və münacat üçün oyaq qalmağa, şiddətli istidə oruc tutub susuzluğa dözməyə yardım edir»[1].

Başqa bir yerdə Allahdan qorxunu, Ona hüsnü-zənnin nişanəsi olaraq göstərir: «Allaha ən nikbin baxışlı insan, Ondan ən çox qorxandır»[2].

### *HÜZN VƏ XOFUN FƏRQİ*

Hüzn o vaxt yaranır ki, insan bir ne᾽məti əldən vermiş və ya ona bir ziyan dəymiş və bu hadisə onun pərişanlığına səbəb olmuş olsun. İnsanın bu halı onda baş vermiş keçmiş bir hadisə ilə bağlı olur. Məsələn, insan gördüyü nalayiq bir işin nəticələri ilə üzləşir; hardasa danışdığı pis bir söz onun rüsvayçılığına səbəb olur və nəticədə, qəmgin və pərişan olur. Və ya əlində olan sərmayədən qazanc götürə biləcəyi halda, pulu əldən verir. Hər halda, hüzn və qəmginlik insanda o vaxt baş verir ki, münasib fürsətləri əldən vermiş olsun və ya bir ne᾽məti itirsin, yaxud da hansısa müsibətlə üzləşsin.

Qorxu və xof, gələcəkdə baş verə biləcək hadisələrə görə yaranır; insan birdən başına bir iş gələcəyi, ya bəlaya, müsibətə düçar olacağı və ya da əlindən bir ne᾽mətin çığacağından qorxur. Həqiqətdə, hüzn və xof iki oxşar nəfsani xüsusiyyətlər olub, ancaq aid olduqları şeylər baxımından fərqlidir. Biri keçmişə aiddir, digəri gələcəyə. Bu aləmdə daimi təhlükə ehtimalı olduğu üçün insanda da qorxu hissi təbiidir. Çünki insan ziyana uğrayan və daimi olaraq təhlükələrlə üzləşə biləcək bir mövcuddur. Hər zaman sağlamlığının, həyat və təhlükəsizliyinin xətərə düşməyindən qorxur.

Mö᾽minlə qeyri-mö᾽minin fərqi bundadır ki, mö᾽min baş vermiş hadisələrə müstəqil nəzərlə yanaşmır, hər şeyi Allahdan bilir və bu cəhətinə görə də, Allahdan qorxur. Amma qeyri-

---

[1] «Nəhcül-bəlağə», Feyzül-islam, xütbə 113, səh. 353.

[2] Həmən mənbə, səh. 887.

mö᾽min Allahı – yə᾽ni o kəsi ki, səbəblər onun ixtiyarındadır – görmür və onun adi səbəblərə baxışı müstəqildir. Əlbəttə, mö᾽min Allahdan qorxduğu kimi də - çünki bütün səbəbləri onun ixtiyarında görür – ancaq Ona ümid bağlayır. Çünki Allahdan qeyrisinə vasitəçi kimi baxır. Hədislərin birində deyilir: «Bir kəs Allahdan qorxsa, Allah digərlərini onun qarşısında məğlub edər (digərlərinin qorxusunu onun canından çıxardar). Lakin insan Allahdan qorxmasa, Allah onu hər şeydən qorxudar»[1].

Mö᾽min anlayanda ki, bütün səbəblər Allahın əlindədir, artıq başqalarından qorxmağa səbəb görmür, çünki başqalarını müstəqil hesab etmir. Onun qorxusu ancaq Allahdandır. Çünki o, ancaq Allaha güvənir və Ondan qorxur. Günbəgün imanı artıb güclənir və nəticədə, Allah ona elə qüdrət bəxş edir ki, Allahdan başqa heç bir şeydən qorxmur və başqaları ondan qorxur, özlərini onun yanında zəif görürlər. O batil qarşısında əyilməzdir, öz vəzifəsini müəyyənləşdirdiyi zaman yerinə yetirir. Lakin Allahdan qorxmayan kəsdən heç kim qorxmur. O öz mövqeyini əldə saxlaya bilmək üçün qorxub barışıq edər və başqalarını özündən razı salmağa çalışar.

İnsan təbiəti belədir ki, başı eyş-işrətə qarışıb dünya ne᾽mətlərindən keyf çəkdikdə nə Allah yadına düşür, nə də mə᾽nəvi işlər. Bu cəhətinə görə də, Qur᾽anda məstanə şadlıq məzəmmət olunmuşdur:

«Əgər bir adama (uzun) sıxıntıdan, çətinlikdən sonra ne᾽mət əta etsək, məğrur və qafil olub deyər: «Çəkdiyim əziyyətlərin və zəhmətlərin bəhrəsi gəlib çatıb». Sonra kef çəkib şadlıq keçirməkdən, lovğalanmaqdan başı ayılmaz»[2].

Əli (ə) dünya ne᾽mətlərindən məstanə dərəcədə şadlanmağın məzəmməti barədə buyurur: «Sizə nə oldu ki, əlinizə bir balaca dünya malı çatanda şad olursunuz, lakin axirətdə çox şeydən məhrum olmağınız sizi qəmgin etmir?»[3].

---

1 «Biharul-ənvar», cild 69, səh. 406.

2 «Hud» surəsi, ayə 10.

3 «Nəhcül-bəlağə», xütbə 111, səh. 350.

Bu şadlıq və məstliyin qarşısında insanı Allaha bəndəliyə, itaətə hazırlayan hüzn və xof durur. Bu cəhətinə görə də, bu iki psixoloji və nəfsani hiss mədh edilmişdir.

Bə᾽zi rəvayətlərin məzmunundan belə anlaşılır ki, bir dəstə insanın arasında bir nəfər hüzünlü adam olarsa, Allah həmin dəstəni o bir nəfərə görə öz rəhmət dairəsinə salır. Peyğəmbər (s) və övliyaların də᾽vətini əsas o adamlar qəbul edir ki, ürəklərində Allah qorxusu var:

«Ey peyğəmbərimiz! Sən ancaq o adamları (qiyamət gününün ağır əzabları ilə) qorxuda bilərsən ki, Allahı görməmiş, Ondan qorxurlar və namaz qılandırlar»[1].

Allahdan qorxmayan adamlara peyğəmbərlərin sözü də tə᾽sir etmir və belə adamlar çətin tərbiyə olunurlar. Necə ki, Allah buyurur:

«Ey peyğəmbərimiz! İstəyirsən kafirləri Allah qorxusu ilə qorxut, istəyirsən qorxutma fərq etməz. Onlar iman gətirən deyildirlər»[2].

Allah qorxusunun məfhumu budur ki, insan, ona xətər, ziyan verə biləcək şeydən qorxur. Bəs bəndələrinə zərər vermək istəməyən Rəhman Allahdan qorxu nə üçündür? Qısa olaraq deyə bilərik ki, insanın qorxusu, həqiqətdə, ona yönəlmiş təhlükə və zərərə görədir; o, bundan əlavə həmin təhlükəni yarada biləcək kəsdən də qorxur. İnsanın öz düşmənindən qorxması onun verə biləcəyi işgəncəyə, əziyyətə görədir və düşməndən də, bu təhlükənin daşıyıcısı olduğu üçün qorxur.

Maddi tərəfdən insan inananda ki, aləmin ixtiyari, səbəblər zənciri Allahın əlindədir, onun Allahdan qorxusu, dünyəvi bəlalardan qorxması mə᾽nasında başa düşülür. Çünki o bilir ki, Allahın qəzəbinə gələcəyi təqdirdə, təbiət və maddi amillər də öz qəzəblərini ona qarşı yönəldəcəklər və nəticədə zəlzələ, sel və s. yerin və göyün bəlaları ilə üzləşəcəkdir; çünki təbiətin qəzəbi Allahın qəzəbindən doğur.

---

[1] «Fatir» surəsi, ayə 18.

[2] «Bəqərə» surəsi, ayə 6.

Hədisin bu bölümündə Peyğəmbərin (s) sözlərindən belə başa düşülür ki, nəzərdə tutulan hüzn və qorxu zəminəsi insanda ixtiyari müqəddimə və ya təfəkkürlə yaranan hüzn və qorxu olub, sonrakı mərhələdə insanı Allah yoluna və öz kamalına doğru hərəkətə vadar edir. Bundan başqa hüzn və qorxunu Peyğəmbər (s) rədd edir.

İnsanı özünə qərq edib iş-gücündən avara qoyan hüzn və qorxu bəyənilən deyil. Mütaliə etmək istəyəndə fikrini özünə məşğul edir, namaz qılanda da dünyəvi narahatçılıqlar fikrini Allahdan yayındırıb, özünə cəlb edir. Bu cür hüzn və qəm nəinki bəyənilmir, üstəlik insanın kamal yolunda durmuş maneə kimi pislənilir.

Bə᾽ziləri qorxaqdırlar; elə ki, dünyada onları balaca bir təhlükə gözləyir, qərarlarını, rahatlıqlarını o dəqiqə itirirlər. Bu cür qorxu hissi dəyərsiz və yersizdir. İnsanın mə᾽nəvi təkamülü ilə əlaqədar olan hüzn və xof dəyərlidir. Bu mətləblərlə, hüzn və xofun Allaha bəndəçiliklə əlaqəsi aydınlaşdırıldı.

## *DÜNYA MÖ᾽MİNİN ZİNDANI, KAFİRİN CƏNNƏTİDİR*

Peyğəmbər (s) hüzn və xofun zəminəsini yaratmaq və bu iki nəfsani hissin bəyənilən sifətlərini göstərmək üçün buyurur:

«Ey Əbuzər! Dünya mö᾽minin zindanı, kafirin cənnətidir. Heç bir mö᾽min axşamı qəmsiz (başa vurub) sübhə çıxmır».

Mö᾽min dünyanın ona zindan olduğunu anlayanda, dünya ləzzətləri ilə başını qatmaq fikrinə düşmür və dünya ne᾽mətlərindən umacağı, Allah yolunda addımlamağa gücü yetəcək qədərdir. Hər ne᾽mətdən istifadə etdikdən və hər ləzzətə çatdıqdan sonra Allaha şükrünü bildirir.

Bunun müqabilində dünya kafirin cənnətidir. Çünki o dünyada olduğu təqdirdə, öz ləzzətlərinin tə᾽mini üçün çalışa bilər. Onun üçün olan rahatlıq və kef də bu dünyadadır və etdiyi çirkin əməllərə görə, qiyamətdə ilahi əzabla üzləşəcəkdir. Allahın əzab və qəzəbi o qədər şiddətlidir ki, dünya özünün bütün problemləri və əzabları ilə onun üçün cənnətdir.

Məşhur bir əhvalatda deyilir: «İmam Həsən (ə) əynində gözəl paltar və ata süvar ikən, bir nəfər kasıb və xəstə yəhudi ona

yaxınlaşıb deyir: «Baban buyurub ki, dünya mö᾽minin zindanı, kafirin cənnətidir. İndi necə bilirsiniz, bu əzəmət və şövkətlə ata mindiyiniz halda, dünya sizin üçün cənnətdir, yoxsa mənim kimi xəstə və kasıb adam üçün? Bu kasıblıq və xəstəliklə dünya mənim üçün cənnət yox, cəhənnəmdir!». Həzrət (ə) buyurur: «Allahın sizlər üçün necə əzablar nəzərdə tutduğunu bilsəydin, onda anlayardın ki, dünya özünün bütün çətinlikləri ilə sənin üçün cənnətdir. Həmçinin, Allahın cənnətdə bizim üçün hansı məqamları nəzərdə tutduğunu görsəydin, onda anlayardın ki, bütün dünyanı bizə versələr belə, həmin məqamlarla müqayisədə dünya özünün bütün ne᾽mətləri ilə zindandan başqa bir şey deyil».

Dünya mö᾽minə zindan olandan sonra təbiidir ki, o, dünyada məhzun və qəmgin olacaqdır. Çünki zindan kef sürmək yeri deyil.

Bir məsələni də xatırladaq ki, bu rəvayətdə hüznün mədh edilməsi o demək deyil ki, hər bir hüzn tə᾽rifəlayiqdir və insan həmişə məhzun olması üçün sə᾽y etməlidir. Bu cür ümumi nəticə çıxarmaq düzgün deyil. Aydındır ki, bu kimi nəsihətlərdə zikr olunan nöqtələr, müəyyən şərtlərlə bağlıdır və dairəsi də məhduddur. Buna görə də tədqiqat aparıb, Allahın və mə᾽sumların söylədikləri haqda dərindən düşünməli, ümumi və əhatəli hökm dairəsinin hansı yerlərdə məhdudlaşdığını anlamaq lazımdır.

## *CƏHƏNNƏM BARƏDƏ DÜŞÜNMƏK MÖ᾽MİNİN PƏRİŞANLIQ AMİLİDİR*

Peyğəmbər (s) mö᾽minin məhzun olmasının səbəbi barədə buyurur:

«Düzdür ki, Allah insanın cəhənnəmə daxil olacağını xəbər vermişdir, lakin onun oradan hökmən çıxacağı barədə və᾽də verməyibdir. Belə olan halda mö᾽min niyə də qəmgin olmasın?!».

İnsanın, xüsusilə də mö᾽minin məhzun olmasına səbəb olan amillərdən biri də, Allahın bütün insanları cəhənnəmə daxil edəcəyi barəsindəki qəti və᾽dəsi barədə düşünməsidir. Bu cəhəti

nəzərə alaraq Rəsuləllah (s) bu nöqtəni xatırlatmaqla, hüznün yaranmasına zəmin hazırlayır. Allah-təala bu barədə buyurur:

«Sizlərdən hər biriniz (istisnasız olaraq) cəhənnəmə daxil olacaqsınız və bu Allahın qəti hökmüdür»[1].

Mö᾽min, Allahın buyuruğuna və Qur᾽anın qəti hökmünə əsaslanaraq yə᾽qin edir ki, cəhənnəmə daxil olacaqdır və bir kəs onun cəhənnəmdən çıxmasına zəmanət verməmişdir. Bəli, Allahın xüsusi lütf və inayətində olanlar və ilahi buyuruqlara əməl edənlər cəhənnəmdən xaric olacaqlar, lakin özünün o bu dəstədən olub-olmadığını bilmir. Bu düşüncə onun məhzun olmasına kifayət edir. O öz taleyinin necə olacağını bilmir. Bu cəhətinə görə də əylənib, fərəhlənməyin onun üçün elə bir mə᾽nası yoxdur. Bu düşüncə və qəm onu qəflətdən oyadır.

Bu şəkk və iztirab mö᾽mini özünə qaytarır və onu, aqibəti barəsində düşünməyə vadar edir. Bu düşüncələr onu məstlik və yersiz əyləncələrdən çəkindirir. Əlbəttə, dünyada insanın hüznlü olmasına səbəb olacaq digər amillər də mövcuddur. Məsələn, xəstəlik və müsibətlərə düçar olmaq kimi. Yaxud da insana zülm ediləndə, haqqı əlindən alınanda məhzun olur. Bu barədə Peyğəmbər (s) buyurur:

«İmanlı insan həyatın çətinlikləri, xəstəlikləri və xoşagəlməz halları ilə üzləşir, çətinliklər görür, lakin kimsə ona kömək etmir. Buna görə də Allahdan bağışlanmaq və savab diləyir»[2].

Hüznü yaradacaq amillər və səbəblər çoxdur. Lakin hər hüzn də mö᾽minin kamal yolunda müsbət rol oynamır. Çünki belə pərişanlığa başqaları da mübtəla olur. Lakin mö᾽mini kamal yolunda müsbət yönə istiqamətləndirə bilən hüzn bəyəniləndir və onun mə᾽nəvi təkamülündə rol oynayır.

Hədisin davamında Peyğəmbər (s) buyurur:

«Mö᾽min dünyadan qəmgin gedir, lakin elə ki, dünyadan qurtuldu, rahatlıqla mehriban Allahın kəramətinə sarı yollanır».

Deyildiyi kimi, mö᾽min dünyada olduğu təqdirdə çətinlik və narahatçılıqlarla üzbəüzdür və nəticədə, qəmgindir və ya öz

---

[1] «Məryəm» surəsi, ayə 71.

[2] Həmin mənbə.

aqibətini düşündükcə, keçmişdəki bə᾿zi naqis işlərini yada saldıqca məhzun olur. Elə ki, çətinlik və qəmlə dolu olan bu dünyadan əbədi dünyaya köçür, sıxıntılar və üzüntülər də başa çatır və önündə vəsfə gəlməyən qəmsiz, ağrı-acısız bir dünya açılır.

Rəsuləllah (s) nəsihətinin davamında buyurur:

«Ey Əbuzər! Allah-təalaya heç vaxt qəm-qüssə və kədər qədər ibadət edilməmişdir».

Canında hər zaman Allah qorxusu olan bəndənin, zəmanənin acıları və Allah xatirinə səbr edən bir kəsin Allaha bəndəçiliyi daha artıq olur.

Təbiidir ki, insan öz aqibəti və əməlləri üçün məhzun olanda, Allah dərgahında daha çox ağlayıb-sızlayır və nəticədə, qəlbini günahın qubar və pasından yuyub pak edir. Həmçinin, o əldə etdiyi ayıqlıqla, Allaha daha ləyaqətli ibadət edir və ibadətin qəbulolma şərtlərindən biri olan xalislik, onun üçün daha yaxşı hasil olur. Buna görə də, hüzn və qəmin özü ibadətdir. Çünki hüzn bəndənin diqqətini bəndəçilik məqamı və Allahın əzəmətinə yönəldir. Eləcə də, Allaha ibadətdə daha xalis olmağa vadar edir.

İndi ki, söhbət gəlib bu yerə yetişdi, ölüm ayağı və Rəhman Allahla görüş anında mö᾿minin keçirdiyi hal haqqında bir neçə rəvayət zikr etmək yerinə düşərdi. Rəvayətlərin birində deyilir: «Mö᾿min ölüm anında olarkən iki mələk ona belə deyir: «Ey Allahın vəlisi! Qəm yemə və qorxma, (gözlərin aydın!) səni cənnətlə müjdələyirəm, sevin və şadlan! Nə qəm, nə qorxu sənə yetər və nə də sən ona layiqsən! Allah belə istəmişdir ki, səni hər cür əzab və əziyyətdən xilas etsin, bağışlanma və əfv şərbətini sənə içirtsin. (Bil ki,) cəhənnəmin qapıları sənin üzünə bağlanmışdır və sən heç vaxt ora daxil olmayacaqsan»[1].

Əli (ə) buyurur: «Dostum və qardaşım Rəsuləllah (s) mənə buyurdu: «Allahın onu qəbul etməsi və onunla görüşməsindən şadlanmaq istəyən hər kəs bilsin ki, səni özünə dost və yar bilməlidir və Allahın ondan razı qalmasını, onunla görüşməsini istəyən hər kəs bilsin ki, oğlun Həsəni (ə) özünə dost və yar

---

[1] «Biharul-ənvar», cild 8, səh. 21, hədis 205.

bilməlidir. Allahla görüşmək və hər cür qorxudan uzaq olmaq istəyən kəs bilsin ki, oğlun Hüseyni (ə) özünə dost və yar bilməlidir»[1].

---

1 «Biharul-ənvar», cild 72, səh. 107, hədis 81.

## ON İKİNCİ DƏRS

### *HÜZN VƏ QORXUNUN ROLU VƏ ƏHƏMİYYƏTİ (2)*

1. Faydalı elm;
2. Cənnətdəki rahatlıq dünyadakı qorxunun bəhrəsidir;
3. Günahların bağışlanması Allahdan qorxmağın səmərəsidir;
4. Yaxşı əməllərə olan e҆timadın məzəmməti;
5. Hüzn və xofun mahiyyətinin araşdırılması və Allahdan qorxmağın mə҆nası;
6. Ziddiyyətli halların eyni zamanda baş verməsi.

## *HÜZN VƏ XOFUN ROLU VƏ ƏHƏMİYYƏTİ (2)*

Allah-təalanın bizə inayət etdiyi ən böyük ne᾿mət, İslam və Əhli-beytin (ə) vilayətidir. O pak sülalənin hidayət çırağı sayəsində və böyük alimlərimizin məşəqqətli zəhmətləri hesabına 14 əsr ərzində bizə böyük elm və mə᾿nəvi irs yetişmişdir. Bu böyük ne᾿mət qarşısında edə biləcəyimiz ən kiçik şükr, bu dəyərli irsi mütaliə edib araşdırmaq və ondan istifadə etməkdir.

Bizim cəhalət və xəbərsizlik zülmətindən mə᾿rifət və agahlıq nuruna üz tutmağımız Əhli-beytin vilayət çırağının sayəsində olmuş və yenə də olmaqdadır. «Came᾿e ziyarəti»ndə oxuduğumuz kimi: «Sizin vilayətiniz və rəhbərliyiniz sayəsində, Allah-təala dinin həqiqətlərini bizə öyrətdi və bizim dünya işlərimizdəki çürük və pərişan olan hər bir şeyi islah etdi»[1].

Peyğəmbərin (s) Əbuzərə verdiyi nurani nəsihətlər, onların hidayətlərinin aydın bir nümunəsidir və biz, dünya və axirət səadətinə nail ola bilməmiz üçün bu nəsihətlərdən bəhrələnməliyik. Çünki İslam və onun qanunları, insanın dünya və axirət səadəti və bütün maddi və mə᾿nəvi ehtiyaclarını tə᾿min edə biləcək ən kamil nüsxədir.

### *FAYDALI ELM*

«Ey Əbuzər! Bir adama verilən elm əgər onu ağlatmırsa, deməli, ona səmərəsiz elm verilmişdir. Çünki Allah Qur᾿anda alimləri belə tanıtdırır: «İslam peyğəmbərindən qabaq elm verilmiş kəslər, Qur᾿an oxunduğu zaman üzü üstə səcdəyə düşüb deyərlər: «Bizim Pərvərdigarımız pakdır və Onun və᾿dələri yerinə yetəcəkdir. Onlar üzüqoylu səcdəyə gedib ağlayarlar və ibadətə rəğbətləri daha da artar».

İslam dini kamil və yığcam bir məktəb olub, insanı kamilliyə səsləyir, onun ictimai, əxlaqi və s. sahələrdə tə`lim-tərbiyəsi ilə məşğul olur.

---

[1] «Məfatihul-cinan», səh. 109.

İnsanın kamilliyə çatması, onun bütün tərəqqisi ilə mümkün olur. İslam elmə, şər`i hökmlərə, ictihada dəyər verdiyi qədər, əxlaqi və mə᾽nəvi məsələlərə də dəyər verir; kamil insan elmi və fiqhi sahələrlə yanaşı, əxlaqi zəminlərdə də inkişaf edir.

Təəssüflər olsun ki, hərdən elmi məsələlərlə məşğuliyyət, diqqətimizi dəyəri elmi məsələlərdən heç də az olmayan əxlaqi məsələlərdən yayındırır. Bə᾽zən ictimai məsələlərlə məşğul olmaq, insanı əxlaqi və mə᾽nəvi məsələlərdən qafil edir. İnsan ictimai və siyasi məsələlərə elə qərq olur ki, özü və mə᾽nəvi ehtiyaclarının axtarışı ilə məşğul olmağa fürsət tapa bilmir. Məğrur olmamağımız və qəflətdə qalmamağımız üçün hərdən mə᾽nəvi və əxlaqi məsələlərə də diqqət yetirməyimiz lazımdır.

Hədisin bu bölümündə vurğulanan əsas nöqtə budur ki, Allah-təala bizə elm inayət etməklə yanaşı, əxlaqi məsələlərə də riayət etməyimizi istəyir. Çünki təkcə elmi zəmində tərəqqi ilə kifayətlənsək, özümüzdən qafil olub, qəflət və qürur kimi əxlaqi xəstəliklərə mübtəla ola bilərik.

Qur᾽ani-kərimdə bir sıra insani dəyərlər göstərilmişdir. Lakin təəssüflər olsun ki, həmin məsələlər bizim cəmiyyətimizdə unudulmuşdur. Düzdür ki, bə᾽zi şəxslər həmin məsələlərin bir qisminə diqqət yetirirlər, lakin bu o demək deyil ki, artıq həmin məsələlər ictimai səhnəyə çıxarılmışdır. Halbuki, Qur᾽an həmin xüsusiyyət və dəyərləri ləyaqətli bəndə və alimlərin sifəti olaraq tanıyır. Həmin sifətlərdən biri də, Allahdan qorxu və hüzn halıdır.

Bəlkə də, hüzn və qorxu xüsusiyyətlərinin üzərində dayanmaq mö᾽minin, xüsusilə də alimin şəxsiyyətinin tarazlaşdırılmasına xatirdir. Çünki elmin çox yüksək dərəcəsi vardır və təqvadan sonra ən ali insani dəyərdir. Elmi dərəcəyə nail olmuş insan təbii olaraq, ictimai izzət və ehtirama sahib olur və bunun özü insanda qürur və təkəbbür yaradır. Təbii olaraq alim, onun şəxsiyyətinə xələl gətirə biləcək çirkinliklərlə üzləşir.

Müqəddəs İslam şəriəti alimin qürur xəstəliyinə mübtəla olmasının qarşısını almaq və şəxsiyyətini tarazlaşdırmaq üçün ona Allah dərgahında xalis göz yaşı axıdıb, hər cür şərtdən, bağlılıqdan azad bəndəçiliyini izhar etməsini məsləhət görür və

bununla da – alimin ictimai mövqeyi hər nə qədər artsa belə – daxilində onun özünü kiçik və aciz hiss etməsinə kömək edir. Bu həmin o şeydir ki, imam Səccad (ə) Allahdan istəyirdi: «Pərvərdigara! Məhəmmədə (s) və onun Əhli-beytinə salam göndər və xalq arasında məni hər an başıuca və izzətli edən bəxşişlərinə yeni dərəcələr artırdıqca, həmin qədər də məni Öz yanında zəlil qərar ver və mənə zahirdə əta etdiyin hər izzət və şərafətin müqabilində, həmin qədər də daxilimdə zillət və həqarət qərar ver»[1].

Deyilənləri nəzərdə tutmaqla, Peyğəmbər (s) Əbuzərə buyurur: «Əgər sənə verilmiş elm səndə xalis ibadət halı, pak qəlbdən doğan göz yaşları yaratmırsa, bil ki, o elmin sənə faydası olmayacaqdır. Faydalı ola biləcək elm odur ki, insanın Allah qarşısında bəndəçiliyini paklayıb, xalisləşdirsin. Qur͗anın alimləri vəsf etdiyi kimi, onlara ilahi ayələr oxunduğu zaman, dayanmadan üzü üstə səcdəyə gedib, ağlayıb-sızlayırlar. Bu insanın Allah qarşısındakı xalis ibadətinin nişanəsidir. Ağlamağın zahiri rəftar hesab olunmasına baxmayaraq, daxildən və qəlbi çevrilişdən doğan bir haldır. Qəlb məhzun olmayınca və insan Allah qarşısında tam səmimiyyətlə durmayınca, onda ağlamaq halı da yaranmır.

Hədisin davamında Rəsuli-əkrəm (s) buyurur:

«Ey Əbuzər! Hər kəs (qüdrətli Allahın qorxusundan) ağlaya bilsə, qoy ağlasın və kim ağlaya bilməsə, heç olmasa özünü qəmgin edib, ağlamağa vadar etsin (zahirdə ağlasın). Çünki qəsavətlə dolu ürək, Allahdan uzaqdır; lakin onlar bu mə͗nanı dərk etmirlər».

Öncə söylədiyimiz kimi rəvayətlərdə, xüsusi olaraq da bu rəvayətdə tövsiyə edilən ağlamaq, axirət səadətindən məhrum qalmaq və günaha aludə olmaq qorxusundan olan ağlamaqdır və ya mə͗nəvi məhrumiyyətlər və imam Zamanın (ə) görüşündən məhrum olmaq üçün və bundan da üstün, Allahla görüşdən məhrum olmaq qorxusu ilə olan ağlamaqdır.

---

[1] «Məfatihul-cinan»; «Məkarimul-əxlaq» duası.

Allaha məhəbbəti olanlar və ilahi vilayəti dərk edənlər, Onun görüşündən məhrum qalmaq qorxusundan ağlayarlar. Necə ki, Əli (ə) Kumeyl duasında buyurur: «Ey Allahım və ağam, fərz edək ki, cəhənnəminin atəşinə səbr etdim, bəs Sənin fərağına necə dözəcəyəm?».

Ağlamağı gəlməyən adamlar heç olmasa hüzn yarada biləcək mövzuları özünə təlqin etmək və ya mə᾽nəvi məhrumiyyət və günahları barədə düşüncəyə dalmaqla, öz qəlblərini məhzun edə bilərlər. Əgər qəlb də məhzun olmazsa, ən azı qəmgin ifadə tərzi almağa çalışmaq lazımdır. Əgər insan özündə hüzn haləti yarada bilmirsə və həmişə məst və məğrur olursa, Allahın rəhmətindən uzaqda qalacaqdır. Əlbəttə, bu o demək deyil ki, hər ağlayıb göz yaşı tökən adam Allaha yaxındır; çünki yalandan riya edib göz yaşı axıdan münafiqlər də vardır. Bunun müqabilində də demək olmaz ki, məhzun olub ağlamayan şəxs, daşürəklidir və Allahdan uzaqdır.

## *CƏNNƏTDƏKİ RAHATLIQ DÜNYADAKI QORXUNUN BƏHRƏSİDİR*

«Ey Əbuzər! Allah-təala buyurur: «Mən öz bəndəm üçün iki qorxunu və eləcə də, iki asayişi bir yerdə vermirəm. Əgər o bu dünyada Məndən amandadırsa, o biri dünyada onu qorxudacağam; əgər bu dünyada məndən qorxub, çəkinərsə, qiyamət günündə onu amanda saxlayacağam».

Əgər bəndənin bu dünyada ilahi əzabdan qorxusu olsa, qiyamət qorxusundan, ilahi əzabdan amanda olacaqdır. Allahdan qorxmaq, ilahi əzabdan qorxmaq mə᾽nasınadır ki, bəndə ilahi təkliflərini layiqincə yerinə yetirmədikdə və ya əyər-əskikliyi olduqda ona düçar olur.

Deməli, dünyada Allahdan qorxan kəsin qiyamət günündə heç bir nigarançılığı olmayacaq, xatircəmlik və tam təhlükəsizlik hissi keçirəcəkdir. Necə ki, Allah-təala buyurur:

«Allah dərgahından qorxan, allahpərəst olan və nəfsani istəklərdən uzaq olan hər kəsin yeri cənnətdir»[1].

---

[1] «Naziat» surəsi, ayə 40-41.

Cənnətin Allah ne᾽mətlərindən bəhrələnmək yeri olduğu və oranın əhlinin qəmsiz-qorxusuz ömür sürmələri barədə Allah-təala buyurur:

«Yaxşı əməl sahiblərinə (əməlləri müqabilində) mükafat olaraq daha yaxşısını verərik və (onlar) qiyamətin qorxu-hürküsündən amanda qalarlar»[1].

Başqa bir yerdə isə belə buyurur:

«Allahın hökmünə təslim olub yaxşı işlər görənlərin əcri Allah yanındadır və onlar üçün nə qorxu olacaq, nə də qəm-qüssə»[2].

Qəlbində Allah xofu olmayan, əksinə olaraq dünyada qürur hissi ilə yaşayıb heç bir nigarançılıq və iztirab keçirməyən adam, qiyamətdə xof içində olub, ilahi əzaba giriftar olacaq və həmişəlik olaraq həmin əzabı dadacaqdır.

Allahın məkrindən qorxub çəkinməməyin nəticəsi, günaha aludə olmaqdır. Çünki insan özünü hər işdə azad hiss edəndə və qorxu, məs᾽uliyyət hissi daşımayanda günahdan da çəkinmir. Təbiidir ki, insanı günaha sürükləyən dünyadakı qürur hissinin olması, axirətdə ilahi əzab və təhlükələrlə nəticələnir. Bu barədə Allah-təala buyurur:

«(İlahi əzabdan çəkinməyib, qorxmayıb) tüğyan edən və dünya həyatına üstünlük verən adamın mənzili cəhənnəm olacaqdır»[3].

Peyğəmbərin (s) bu bölümdə açıqlamaq istədiyi məsələ budur ki, insan müəyyən işlər görməklə, qəlbində Allah xofu hasil edə bilər. İnsan Allah qorxusunun məqsədəuyğun olmasını və səadətə yol açdığını dərk edəndən sonra belə bir sualla qarşılaşır ki, həmin qorxunu özündə necə əmələ gətirsin? Cavabında deyə bilərik ki, bir sıra müqəddimələrə zəmin yaratmaq və bə᾽zi məsələlərə diqqət yetirməklə, bu hal insanda zühur edir. Hərdən insan bə᾽zi şeyləri bilir, lakin bildiklərinə diqqət yetirmədiyi üçün onun e᾽tiqadı və elmi süst və solğun olur. Həmin şəxs qafilliyə qapılır, nəticədə həmin bilik və e᾽tiqad öz lazımı tə᾽sirini göstərə bilmir. Lakin insan, xofu vücuda gətirən amillərə

---

[1] «Nəml» surəsi, ayə 89.

[2] «Bəqərə» surəsi, ayə 112.

[3] «Naziat» surəsi, ayə 37-38.

diqqət yetirəndə və diqqətini həmin qorxuda mərkəzləşdirməyə səʾy edəndə, bu hiss onda artmağa başlayır və rəftarına təʾsir göstərir.

Başqa bir nöqtə budur ki, insan elə bir mərhələyə yetişə bilər ki, eyni zamanda iki əks hissi – qəmi və şadlığı özündə yaşada bilər. Zəif insanlar eyni zamanda həm şad və həm də qəmli ola bilmirlər. Bir anda ya hüznlü olurlar, ya da şad. Nəfs güclü və kamil olanda, mümkündür ki, vahid anda bir cəhətdən sevincli olsun, digər cəhətdən məhzun; get-gedə nəfsin və ruhun təkamülü nəticəsində elə bir mərhələyə çatsın ki, sevinc və qəmin müxtəlif növlərini özündə cəm etsin.

Bildiyimiz kimi övliyalar xof və sevincin müxtəlif növlərini özlərində cəm edə bilmişlər. Həmin məqama çatmış insanlar, vahid anda müxtəlif nəfsani hal və xüsusiyyətlərə malik olur və eyni zamanda fərqli halların təʾsirlərini özlərində zahir etdirə bilirlər.

## *GÜNAHLARIN BAĞIŞLANMASI ALLAHDAN QORXMANIN SƏMƏRƏSİDİR*

Peyğəmbər (s) Allahdan qorxunun səmərəsi barəsində buyurur:

«Ey Əbuzər! Qiyamət günü möʾmin bəndənin günahları onun qarşısına qoyular. (Möʾmin bəndə) deyər: «Mən öz işimin aqibətinə görə həmişə qorxu içində idim». Nəticədə günahları bağışlanar».

Bura qədər Allahdan qorxmanın əhəmiyyəti ilə tanış olduq. Onun Allaha qovuşduran yolda insana etdi köməyin rolu böyükdür. Hədisin bu bəndində Rəsuləllah (s) Allahdan qorxmağın bəʾzi faydalarına işarə edərək, bizdə həmin hissi oyatmağa və ya gücləndirməyə çalışır:

«**Allahdan qorxmağın faydalarından biri, günahların bağışlanılmasıdır**». Ümumi olaraq hər hansı bir fərd günah etdiyi an iki hala malik ola bilər:

1. Günah anında onun aqibətindən qorxmayıb, yüksək əhval-ruhiyyə ilə və heç bir nigarançılıq hissi keçirmədən, həmin günahın ləzzətlərindən bəhrələnməyə çalışır. Bu hal insanın günaha sövq edilməsi, və nəticədə həmin işdə israrlı olması və sonda insanın qorxunc bir aqibətə sürüklənməsinə səbəb olur.

2. Günah anında Allah qorxusunu canında hiss edir və görəcəyi işin aqibətini düşünəndə, nigarançılıq hissi keçirir. Qəfil ölüb gedəcəyi və tövbə etməyə fürsəti qalmayacağını düşünür. Bu hiss, günah anında ondan alacağı ləzzətlərin zəifləməsi və sonda tövbə və günahlarının bağışlanmasına gətirib çıxarır.

Təbiidir ki, qiyamətdə insanların günahına baxılacaqdır və əgər bir kəs etdiyi günahı yuyub təmizləməyibdirsə, hətta tövbə belə etməyibdirsə - çünki tövbə etsə idi, bağışlanmış olardı – cəhənnəmə yollanacaqdır. Lakin Allah bəndəsi dünyada Allah qorxusu ilə yaşadığı üçün - «Pərvərdigara! Mən günah etdiyim zaman etdiyim işin nəticəsindən qorxurdum» - deyər və nəticədə günahı bağışlanar.

Deməli, insan öz günahı müqabilində Allahdan qorxub çəkinərsə, qiyamətdə bağışlanmağına ümidvar ola bilər.

Allah qorxusu günahların azalması və insanın ayılmasına səbəb olur. Bu hiss, yolunu azan insanı qəflətdən ayıldan, xəbərdar edən amillərdən biridir. Bu cəhətinə görədir ki, Allahdan qorxub-çəkinənlər Qur᾽ani-kərimdə mədh edilmiş və onlara Allahdan qorxduqları üçün mükafat və᾽d edilmişdir. Qur᾽an ayələrinə ümumi nəzər salmaqla bu nəticəyə gəlmək olar ki, xofun dərəcələri arasındakı fərq, insanın mə᾽rifət və kamal mərhələləri arasındakı fərqə bağlıdır; yə᾽ni yüksək kamal sahibləri – məs᾽um imamlar kimi – Allahdan qorxunun yüksək zirvəsində qərar tutmuşlar. Digərləri isə mə᾽rifətlərinə uyğun olaraq daha aşağı mərtəbədə yerləşirlər. Qur᾽an qorxu və xofu iki şeyə aid edir:

1. Allah məqamından qorxmaq;
2. İlahi əzabdan qorxmaq.

İbrahim surəsinin 14-cü ayəsində buyurulur:

«Biz siz peyğəmbərləri kafirlərin həlakından sonra onların ölkəsində əmin-amanlıqla sakin edirik. Bu əmin-amanlıq, qəlbində Allah qorxusu olan və ilahi əzab və᾽dəsindən qorxan kəslərə nəsib olur».

Bu ayədə həm Allahdan (olan) qorxu və həm də ilahi əzabdan olan qorxu qeyd edilmişdir.

Xofun ən yüksək mərhələsi Allah məqamından olan qorxudur. Əllamə Təbatəbai buyurur: «Allah qorxusu bə᾽zən ilahi əzabdan

qorxu mə᾽nasında olub, küfrə və günaha aid edilir. Bu mə᾽nada insanın ibadəti əzabdan qurtuluş kimi başa düşülür, yə᾽ni xalis Allaha görə olmur. Bu cür ibadət, verəcəyi cəzanın qorxusundan ağalarına bəndəçilik edən qulların ibadətidir. Bə᾽ziləri isə savab və mükafat tamahı ilə Allaha ibadət edirlər ki, bu növ ibadət «tacirlərin ibadəti» adını almışdır. Lakin «Rəbbin məqamı»ndan olan qorxu, ilahinin verəcəyi cəzadan olan qorxudan fərqli bir şeydir. Bu qorxu ilahinin əzəməti və böyüklüyü qarşısında zillət və kiçiklik hissinin dərkindən yaranan qorxudur.

Həqiqətdə, ibadət və bəndəçilik ilahi məqamdan qorxu səbəbi ilə olub, Allah qarşısında xalis və səmimi olmaq mə᾽nasındadır. Bu cür xalis və səmimi ibadət yalnız Allah üçündür; cəza qorxusu və mükafat tamahı ilə deyildir və həqiqi ibadət sayılır. Deməli, İlahinin məqamından qorxan şəxslər, Allah-təala qarşısında ən xalis və səmimi olan kəslərdir»[1].

## *YAXŞI ƏMƏLLƏRƏ OLAN E᾽TİMADIN MƏZƏMMƏTİ*

Peyğəmbər (s) öz yaxşı əməllərinə e᾽timad edib günah edən kəsin məzəmməti barəsində buyurur:

«Ey Əbuzər! Bir nəfər yaxşı iş görür və həmin işinə güvənərək, günaha batır və gördüyü yaxşı əməlin müqabilində günahını yüngül sayır. Belə adam Allahın yanına gedəndə, Allah ona qəzəbli olar. Lakin günaha batıb gördüyü işin aqibətindən qorxuda olan adam, qiyamətdə xatircəm olur».

Əməllərin qəbul olunub-olunmaması bir sıra şərtlərə bağlıdır ki, bəlkə də, insan həmin şərtlərin hamısını sayıb qurtara bilməsin. Buna görə də, heç kim öz əməllərinin qəbul olunmasına arxayın ola bilməz. Əməllərin qəbul olunmasına arxayınlıq, insanda qürur hissi yaradır. Hətta insanın özünü bə᾽zi kiçik günahlara da bulaşdırması mümkündür; belə ki, kiçik günahları etdiyi yaxşılıqlar müqabilində heç bir şey güman edə bilər. Daha xəbəri yoxdur ki, gördüyü yaxşı əməllərin qəbul olunmasına olan arxayınçılığı yersiz olub, qəbul olunmaya da bilər. İkincisi, kiçik günahlara edilən diqqətsizlik və onlar

---

[1] «Əl-Mizan», cild 19, səh. 122.

üzərindəki israrın özü böyük günahlardan sayılır. İnsan yaxşı əməllərini nəzərdə tutub özünü tam təhlükəsiz hiss etdikdə və öz ibadətlərinə arxalanaraq günahı kiçik sayıb ona bulaşmağı əhəmiyyətsiz bildikdə, Allahın qəzəbi ilə üzləşir.

Bu dəstənin müqabilində elələri də vardır ki, günaha batdıqları zaman qorxu içində olub, nigarançılıq hissi keçirirlər. Bu dəstə bə᾽zi ibadətlərində yetərincə sə᾽y etmədikləri halda, günahlarından qorxduqlarına görə, qiyamətdə Allahın əzabından amanda olarlar.

Peyğəmbərin (s) məqsədi Əbuzərin diqqətini qəlbi halətlərin əhəmiyyətinə yönəltməkdir. Yə᾽ni günahdan qorxub-çəkinmək insanda nə kimi müsbət tə᾽sirlər qoyur. hətta insan günaha batmış olsa belə, qəlb şəfqəti, keçirdiyi nigarançılıq və iztirab onun günahlarının bağışlanmasına səbəb olur. Bunun əksi olaraq, əgər çoxlu ibadət edib, kiçik günahları əhəmiyyətsiz saysa, kiminlə üz-üzə durduğunun fərqinə varmasa, Allahın qəzəbinə düçar olacaqdır.

Deməli, heç bir günahı kiçik saymamalıyıq, həmişə Allah xofunu, əzəmətini qəlbimizdə qoruyub saxlamalıyıq ki, məğrur olub şeytanın toruna düşməyək.

## *ŞEYTANDAN UZAQLAŞMAQDA GÜNAHA EDİLƏN DİQQƏTİN ROLU*

Deyilənlərdən daha yüksəyini Həzrət (s) sonrakı cümlədə buyurur:

«Ey Əbuzər! Elə Allah bəndəsi də var ki, etdiyi günaha görə behiştə gedir». Dedim: «Ey Allahın peyğəmbəri, atam-anam sənə qurban, bu necə olan işdir? Rəsuləllah buyurdu: «O, daim günahını gözləri qarşısına gətirib tövbə edir və Allaha pənah aparır. O vaxta qədər ki, sonda cənnətə daxil olur».

Hərdən bəndə bir günaha batır və onun nəticəsində nigarançılıq və iztirab içərisində olur. Həmin qorxu və nigarançılıq onun tövbə edib, Allaha pənah gətirməsinə səbəb olur; bununla da, yaxasını şeytanın cəngindən qurtarmış olur. Qəflətdən və nəfsani

istəklərdən nicat tapıb, bir daha günaha bulaşmır və nəticədə, behiştə daxil olur. Bəlkə də, həmin günah ondan baş verməsəydi, belə bir hal da yaranmayacaqdı.

Həzrətin (s) bu bəyanı insanı özündə Allah qorxusu hissini yaratmağa rəğbətləndirmək üçündür. İnsan günaha batdıqdan sonra onun günahlarının yuyulması və sonda Allaha üz tutub behiştə daxil edən belə bir qorxu hissi elə də dəyərsiz deyildir. Belə olan surətdə, onun ələ gətirilməsi üçün çalışmaq lazımdır.

## *HÜZN VƏ XOFUN MAHİYYƏTİNİN ARAŞDIRILMASI VƏ ALLAHDAN QORXUNUN MƏ᾽NASI*

Bu bölümə qədər olan bəhslər rəvayətlərdə keçən hüzn və xofa aid idi. İndi isə qarşıya çıxa biləcək bə᾽zi suallar və onlara verilən cavablar ətrafında söhbət açacağıq. Əlbəttə, bu sualların əxlaqi bəhslərə birbaşa aidiyyəti yoxdur.

Belə suallardan biri budur ki, hüzn halının olması yaxşıdır, yoxsa pis? Əgər yaxşıdırsa, niyə bəs Allah öz övliyalarının vəsfində buyurur:

«**Onlar üçün (qiyamətdə) nə bir qorxu vardır, nə də hüznlü olarlar**». Əgər pisdirsə, niyə Peyğəmbər (s) başqalarını bu iki xisləti özlərində daşımağa rəğbətləndirir və həmçinin buyurur: «Bu iki sifət günahların bağışlanmasına səbəb olur».

Cavabında belə demək olar: Xof və hüzn özü-özlüyündə, onların ikisinin də nəyə aid olduqlarını nəzərə almadan nə yaxşıdırlar, nə də pis. Əvvəl baxıb görməliyik ki, həmin xof və hüzn nədən yaranmışdır və nəyə görədir? Allahdan və Onun əzabından olan qorxu bəyənilir, çünki insanı daha çox Allaha ibadətə, itaətə və günahlardan çəkinməyə sövq etdirir; nəticədə, insana öz vəzifəsinə əməl etməsinə, səadət yolunu tapıb cənnətlik olmasına kömək edir. Bunun qarşısında dünyaya görə qorxub hüznlənmək pislənir və təqdir olunmazdır. Çünki dünyaya meyl göstərib, ona ürək bağlamaq bəyənilmir, xüsusilə də ondan qorxmaq.

Başqa bir sual budur ki, Allahdan qorxmaq nə deməkdir və nə mə᾽na daşıyır?

Cavabında deyirik: Allahdan qorxu – insanın özündən qorxması və mürtəkib olduğu əməllərə qayıdır; halbuki Allah-

təala rəhmət və mərhəmət mənbəyindən başqa bir şey deyil. Allahdan qorxmaq ona görədir ki, O, şiddətli əzaba düçar edəndir. İnsanın etdiyi hər bir yaxşı və pis əmələ göz yummur; hər bir şeyin haqq-hesabını çəkir.

Qeyd olunması zəruri olan nöqtələrdən biri də budur ki, ümumi bir bölgüdə Allahdan qorxunu üç təbəqəyə bölmək olar:

1. Cəhənnəmdə veriləcək ilahi əzabdan olan qorxu;

Bu təbəqəyə adi insanlar aiddir. Əksər insanlar cəhənnəm və ilahi əzabın qorxusundan öz vəzifələrinə əməl edib günahdan uzaq gəzərlər. Əlbəttə, bunu da deməliyik ki, bu mərtəbə mə᾽nəvi təkamülün ilkin pilləsində qərar tutmuş, təzə qədəm götürmüş insanlar üçün olduqca dəyərlidir. Bu qorxu tə᾽sirli olduğu surətdə və insanın günahdan uzaqlaşdığı təqdirdə, ilahi əzabdan qurtuluşa və səadətə səbəb olur.

2. Cənnət ne᾽mətlərinin itirilməsi üçün keçirilən qorxu;

Bə᾽ziləri cənnət ne᾽mətlərindən məhrum qalacaqları qorxusu ilə günaha mürtəkib olmur və öz vəzifələrinə əməl edirlər. Həqiqətdə, behiştin tamahı onları Allaha itaət edib, şeytandan uzaqlaşmağa vadar edir. Bu təbəqənin adamları öncəki təbəqənin adamlarından bir mərtəbə yüksəkdədirlər.

3. Allaha yaxın olmaq və Onunla görüşdən məhrum olmaq səbəbi ilə yaranan qorxu.

Bu qorxu ona görədir ki, insan bir növ Allahın ondan üz döndərməsindən, ona e᾽tinasız olmasından qorxur və Allahın ona göstərdiyi mehr-məhəbbətin əskilməsindən xoflanır. Sözsüz ki, bu mərtəbə öncəki mərtəbələrin ikisindən də yüksəkdədir və Allah dərgahının aşiqlərinə məxsusudur. Bunlar o kəslərdir ki, sə᾽yləri ancaq Allaha qovuşmaq üçündür. Onlar axirət savabı və əzaba diqqət yetirməzlər; həqiqətdə, elə şeyləri dərk edir və elə şeyləri arzulayırlar ki, dəyərləri olduqca yüksəkdir.

Bu təbəqənin daha aydın dərki üçün bir misal çəkmək yerinə düşərdi:

Belə fərz edin ki, biz imam və ya hər hansı möhtərəm bir şəxs tərəfindən qonaqlığa də᾽vət edilmişik. Hamı da bilir ki, belə bir qonaqlıqda onları yaxşı yeyib-içmək gözləyir. Mümkündür, bir sıra adamlar nigaran olsunlar ki, birdən gecikərlər və o naz-

neʾmət əldən çıxar. Bəʾziləri də ürəklərində deyirlər: «Bu gün bayramdır, yəʾqin ki, imam bizə hədiyyə də verər. Onların qorxusu budur ki, birdən gecikərlər, hədiyyə də əldən çıxar. Bu dəstənin səʾyi birinci dəstədən daha artıqdır. Bu dəstə üçün o qədər də mühüm deyil ki, qonaqlıqda ac qalacaqlar, yoxsa tox; əhəmiyyətli olan odur ki, imam tərəfindən hədiyyə almış olsunlar.

Üçüncü dəstə o adamlardır ki, ancaq imamın ziyarəti onlar üçün əhəmiyyət kəsb edir. İmamı yaxından görüb, ziyarət etməkdən başqa heç bir şey onlar üçün dəyərli deyil. Bu dəstəyə imamın onlara gözucu baxıb təbəssüm etməsi hər şeydən artıqdır.

İnsanların məʾrifət və səʾyləri əsasında bir-birinə olan dostluq və əlaqələrinin fərq və mərtəbəsini, eynilə onların Allahdan olan qorxuları arasında da görmək olar.

Rəvayətlərin birində imam Sadiq (ə) Allaha bəndəçiliklə əlaqədar olaraq bu üç mərtəbənin zikrində belə buyurur: «Bir dəstə insanlar qorxu üzündən Allaha ibadət edərlər. Bu dəstənin ibadəti qulların ibadətidir. Başqa bir dəstə savab və veriləcək hədiyyənin tamahı ilə Allaha ibadət edərlər. Bu da muzdurların ibadətidir. Başqa bir dəstə Allaha məhəbbət və bağlılıqları üzündən ibadət edərlər. Bu azad təbiətli insanlara aid olub, ibadətlərin ən üstünü sayılır»[1].

Allahdan qorxan adamın qorxusu hərdən cəhənnəmə görə olur. Belə ki, əgər cəhənnəm əzabı onun üstündən götürülsə, artıq heç bir nigarançılığı olmaz. Əlbəttə, bu mərtəbə küfr və imansızlıqla müqayisədə, olduqca dəyərli bir məqamdır. Bu, Allaha, qiyamət və qiyamət günü Allahın günahkar bəndələrə əzab verəcəyinə olan imanın nəticəsidir. Lakin özünü bu mərtəbəyə yetişdirmiş insanın məʾnəvi kamal yolunda göstərdiyi səʾyi olduqca azdır. Bu təbəqənin adamları ərbablarının verəcəyi işkəncənin qorxusundan onların əmrlərini yerinə yetirən qullar kimidirlər. Bəʾziləri Allahdan, behişt neʾmətləri əllərindən çıxacağı üçün qorxurlar. Hətta əzab olmasa belə, qorxurlar ki, Allahın

---

[1] «Biharul-ənvar», cild 70, səh. 236.

neˈmətlərindən məhrum olsunlar. Bu iki dəstənin qabağında elə dəstə də var ki, əgər cənnət və cəhənnəm olmasaydı belə, yenə də Allahın onlara olan məhəbbət və şəfqət nəzərində eˈtinasızlığa düçar ola biləcəklərini düşünəndə, canlarını qorxu bürüyür.

Qurˈanda Allahın kafirlərə eˈtinasızlığı, ən böyük ilahi əzablardan biri kimi qeyd edilir:

«Allah (qəzəblənib) onlarla danışmaz və qiyamət günündə onlara rəhmət baxışları ilə baxmaz»[1].

Dərk edən üçün eˈtinasızlıq hər əzabdan daha şiddətlidir. Əgər insan bir müddətdən sonra ata, dost və ya müəlliminin yanına gedib onlar tərəfindən eˈtinasızlıq, diqqətsizlik görərsə, bu dərd ona hər əzabdan daha ağır gələr.

Zehnimizdə belə bir sual da yarana bilər ki, bəs məˈsum imamlarımız (ə) nə üçün Allahdan qorxurdular? Onlar ki, məˈsum idilər, cənnətin və cəhənnəmin ixtiyarı, habelə ümmətin şəfaəti onların əlində idi. Belə bir məqamı daşıyan niyə Allahdan qorxmalıdır və bu qorxu onların məˈsumluq dərəcələri ilə necə uzlaşır?

Qısa cavab budur: İsmət, məˈsumluq günahı tərk edib haramdan uzaqlaşmaq məˈnasındadır. İsmət o demək deyil ki, «İlahi rizvan» da məˈsuma veriləcəkdir. Günah etməyən kəs, sözsüz ki, cəhənnəmə daxil olmayacaqdır, lakin haradan bilək ki, Allahın xüsusi diqqət və qayğısı da onunla olacaqdır. Allahın inayətindən, ilahi rizvandan məhrum qalmaq qorxusu, ilahi əzabın qorxusundan daha yüksəkdir.

Bu sualın həqiqi və müfəssəl cavabı bizim dərkimiz həddində deyil. Çünki biz Əhli-beytin məqamını dərk edə bilmərik. Necə də bilək ki, onlar hansı ruhiyyədə idilər, nə edirdilər və halları necə idi? Əlimizdə olan dəlillərə istinad edərək öz halımızla müqayisədə, qısa olaraq öz dərkimiz həddində onların ruhiyyələrini başa düşürük. Lakin işin həqiqəti bizə məˈlum deyil və onu olduğu kimi söyləməkdə acizik.

---

[1] «Ali-imran» surəsi, ayə 77.

## *ZİDDİYYƏTLİ HALLARIN EYNİ ZAMANDA BAŞ VERMƏSİ*

Əvvəlki mətləbləri nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, insanın ruhu kamilləşən zaman özündə ləzzət və qəm kimi müxtəlif əks hissləri eyni vaxtda daşıya bilər.

Bizim tutumumuz məhduddur və bir neçə halı öz kamal həddində özümüzdə cəmləyə bilmərik. Ona görə də, kədər və sevincin (ümumi) toplusu bizdə orta bir vəziyyəti icad edir. Lakin insan kamilləşəndə, özündə bir neçə mənşə və amilə nisbətdə iki və ya daha artıq təzadlı halları - özü də onların kamal həddində - yarada bilər.

Qorxu halı özünün xüsusi səbəbi ilə nəfsdə yaranır. Əgər amillər məcmusu birlikdə nəzərə alınsa, həmin amillərin tə᾽sir və əks-tə᾽siri nəticəsində, nəfsdə yeni halların baş qaldırması mümkündür. Amma hər amilə onun xüsusi mənşə və qaynağı olaraq yanaşsaq, onun nəticəsi də, təkcə həmin hal olacaqdır. Məsələn, əgər qorxunun mənşəyinə diqqət edilərsə, nəfsdə də ancaq qorxu halı yaranacaqdır, əgər əmniyyət və təhlükəsizlik mənşəyinə nəzər yönələrsə, nəfsdə də ancaq təhlükəsizlik və xatircəmlik halı baş qaldıracaqdır.

Nəfslərini gücləndirib öz hal və ruhiyyələrində yenilməz olan insanlar, ilahi əzab və ya ilahi rəhmətdən məhrum qalmaq imkanı haqqında düşünəndə, gözləri yaşla dolur və həmin anda diqqətləri Allahın rəhmət və məğfirətinə yönəlir və onlarda sevinc və şadlıq halı baş qaldırır. Yə᾽ni onlarda qorxu və təhlükəsizliyin amillərini nəzərə alaraq, bu iki halı eyni vaxtda özlərində yarada bilmək imkanı vardır.

Deyilənləri nəzərə alsaq, Peyğəmbər (s) və imamların (ə) hansı hallara malik olduqlarını təqribi də olsa, təxmin etmək olar. Belə ki, güclü nəfs sahibləri olan o böyük şəxsiyyətlər, vahid anda bütün ilahi sifətləri özlərində təcəlli etdirə bilərlər; Allahın rəhmətinə üz tutduqları zaman onlarda sevinc və ümid hissi baş qaldırır. Başqa bir tərəfdən də, ilahi əzab və cəzanın ağırlığına diqqət yetirəndə, onlarda qorxu hissi baş qaldırır. Lakin bu halların cismani (fiziki) zühuru yönündə insan bədəni o iki halı kamil olaraq özündə təcəlli etdirə bilmədiyi üçün onlardan güclü olanı daha çox təcəlli tapıb zahir olur; əgər qorxu üstünlük

tapırsa, göz yaşı süzülüb rəvan olur, yox əgər ümid və sevinc halı üstünlük qazanırsa, dodaqlarda təbəssüm yaranır. Əlbəttə, bu halların zühura yetməsi onların öz ixtiyarındadır.

Mə᾽sum imamlarımızın (ə) günah etmədikləri və bundan sonra da günah etməyəcəkləri və habelə Allahın cənnət və cəhənnəmi onların ixtiyarında qoyduğunu bildikləri halda, Allah əzabına diqqət yetirib özlərində ilahi xofu yaratmalarının səbəbi haqqında qısa da olsa, cavab verdik. İndi isə başqa bir cavaba keçirik.

İnsanda mövcud olan hal və bacarıqlar toplusu, Allaha bəndəçilik yolunda sərf edilməlidir. İnsanın vücudu maddi və mə᾽nəvi ünsürlərin qarışığı olub, özündə müxtəlif halları büruzə verir; onun mayasında (vücudunda) qorxu və acı da vardır, sevinc və ləzzət də. Allah insana bu halları Onun yolunda sərf etmək üçün vermişdir. Allah xatirinə gülüb-şadlanmalıdır, yə᾽ni onun şadlığı bir növ Allahla əlaqədar olmalıdır; özü ləzzət aldığı üçün deyil, Allahın lütfü ona şamil olduğu üçün şad olmalıdır.

Bə᾽zi rəvayətlərdə göstərilir ki, cənnətdə şiələr Peyğəmbər (s) və Əhli-beytin qonağı olacaqlar və onların süfrəsindən yemək yeyəcəklər. Lakin mə᾽sumların behişt ne᾽mətlərindən aldıqları ləzzətlə bizim aldığımız ləzzət eynidirmi? Mübarək ayədə göstərilir:

«Quş ətləri və iştahalar çəkən hər bir şey (cənnətdə) onlar üçündür»[1].

Görəsən, Peyğəmbərin (s) behişt quşlarının ətindən aldığı ləzzətlə bizim aldığımız ləzzət birdirmi? Əlbəttə, bu iki ləzzət arasında müqayisəolunmaz dərəcədə fərq vardır. Ləzzətin səbəbləri də fərqlidir. Peyğəmbər (s) ona görə ləzzət alır ki, Allahın ne᾽mətləri ilə mükafatlandırılmışdır. Hər halda ləzzət almağın dərəcələri insanın Allaha olan bağlılıq, eşq və mə᾽rifətinin ölçüsü ilə əlaqəlidir. Bu müqayisəni biz eyni ilə Peyğəmbər (s) və Əhli-beytin digər insanlarla müqayisədə Allahdan daşıdıqları qorxuları arasında da görə bilərik. Düzdür ki, onlar cəhənnəm atəşindən qorxurlar, lakin qorxuları ona

[1] «Vaqiə» surəsi, ayə 21.

görədir ki, cəhənnəmi Allahın qəzəbinin nişanəsi bilirlər. Əlamət olaraq bilirlər ki, məhbubları olan Allahın cəhənnəm və onun əhlinə məhəbbəti yoxdur. Allahın qəzəbi və fərağı onlar üçün dözülməzdir, bu səbəbdən də qorxu və nigarançılıq hissi keçirirlər.

# ON ÜÇÜNCÜ DƏRS

## *DÜNYANIN KİÇİKLİYİ VƏ AXİRƏTƏ DİQQƏTİN ƏHƏMİYYƏTİ*

1. Bacarıqlı və bacarıqsız insanın baxış və rəftarı arasındakı fərq;

2. Əmanətə vəfa və ruhi və qəlbi hazırlıq;

a) Əmanətdə vəfanın rolu;

b) İbadətdə ruhi və qəlbi hazırlığın rolu;

3. Allahın nəzərində dünyanın dəyərsizliyi.

## *BACARIQLI VƏ BACARIQSIZ İNSANIN BAXIŞ VƏ RƏFTARI ARASINDAKI FƏRQ*

Əvvəldə qeyd etdik ki, əgər insan günah edib sonra da etdiyi günaha görə nigaran olub dünya və axirəti üçün qorxu hissi keçirərsə, Allah onu bu nigarançılıq və iztirabına görə bağışlayacaqdır. Mümkündür, bə᾽ziləri səhvən belə güman etsinlər ki, əgər belə olarsa, onda hər kəs günah edib sonra da tövbə edər və bağışlanar. Bunun özü insanların daha çox günaha batması və əyri yola düşməsinə səbəb olar. Çünki günahkar şəxs hər etdiyi günahdan sonra Allahın onu bağışlayacağına ümid bəsləyər.

Bu cür səhv gümanın aradan qaldırılması üçün Peyğəmbər (s) buyurur: «Zəkalı və bacarıqlı insan o kəsdir ki, həmişə öz ömründən necə səmərəli istifadə etmək və saleh işlər görmək barədə düşünür. Nəfsani istəklərini ayaqları altına atır, qəflətə düçar olmamaq üçün heç vaxt ürəyinin və meylinin istəklərinə uymur.

Rəsuləllah (s) nəsihətinin davamında buyurur:

«Ey Əbuzər! Zirək və bacarıqlı adam o kəsdir ki, öz nəfsini ədəbləndirə bilsin və ölümdən sonrakı həyatı üçün sə᾽y etsin. Bacarıqsız adam o kəsdir ki, öz nəfsani istəklərinə boyun əyir və bu halda da, Allahdan öz arzularını diləyir».

İnsan əql və nəfsə sahib olan bir mövcuddur. Hərdən əql nəfsə qələbə çalır, hərdən də nəfs əqli üstələyir. Bu bölümdə hər iki hal təsvir olunmuşdur:

Hərdən nəfs zəifləyib sönür və öz istəklərini əqlə qəbul etdirə bilmir. Bu, nəfsin tərbiyəsi yolunda qədəm götürüb, daim ölümdən sonrakı həyat barəsində düşünən zəkalı insan haqqındadır. Bunun əksi olaraq, hərdən nəfs və nəfsani istəklər əqlə üstün gəlir, ona hakim kəsilir. Daha sonra insan nəfsani həvəslər qarşısında gücsüz olub, heyvani istəklər müqabilində müqavimət göstərə bilmir. Bu təfsir «Biharul-ənvar»ın bir nüsxəsində – «Nəfsi həşr olmuş kəs» fəslindədir. Bu nüsxəyə əsasən, cümlənin mə᾽nası belə olur: zirək o kəsdir ki, nəfsi zəifləmiş olsun. Lakin başqa bir nüsxədə «Nəfsini ədəbləndirən kəs» kimi göstərilmişdir. Bəlkə də, ikinci tə᾽bir - zirək o kəsdir

ki, nəfsini tərbiyə etmiş olsun – daha düzgündür. Başqa təˈbirlə desək, zirək o kəsdir ki, özünütərbiyə ilə məşğul olub, nəfsin xahiş və həvəslərinə meydan verməsin. Belə bir insan ağıllı surətdə düşünüb məhdud olan maddi aləmə göz yummaqla, baxışlarını sonsuz əbədiyyət üfüqlərinə yönəldə bilər; əməllərini qiyamət günü üçün tənzim edər. İslamın nəzərində belə bir düşüncə zirəklik olub, həmin insan da bacarıqlı sayılır. Çünki o, məqsəd haqqında düşünür və məhdud dünya əvəzinə, sonsuz aləm olan axirəti görür. Dünyanın keçici olan ləzzətləri ilə axirətin əbədi neˈmətlərini müqayisə edəndə, müdrikcəsinə üstünlüyü ikinciyə verir. Dardüşüncəlilər kiçicik ləzzət və süst amallardan başqa heç bir şey haqqında düşünmür və onları əbədi olan axirət ləzzətlərindən üstün bilirlər. Əqlin yüyənini öz nəfsinin həvəslərinə tapşırıb, özlərini qarın və şəhvətlərinin ixtiyarında qoyaraq xar edirlər. Əmirəl-möˊmininin (ə) sözləri ilə desək, «Hərdən əql nəfsin istəkləri qarşısında əsir olub, onun itaətinə keçir». Belə insan nəfsani həvəslərinə itaət edir və arzusu da budur ki, cənnətdə Allah övliyaları ilə bir yerdə otursun.

## *ƏMANƏTƏ VƏFA*

## *QƏLBİ VƏ RUHİ HAZIRLIQ*

Bundan öncə iki xüsusiyyət - xof və hüzn haqqında bəhs edildi. İnsan bu iki sifətə yiyələndikdən sonra istər-istəməz ruhi və qəlbi hazırlıq halı meydana çıxır ki, bu da öz növbəsində bəyənilən və tələb olunan sifətlərdəndir. Lakin Peyğəmbər (s) bəˈzi məˈnəvi halların insanın əlindən çıxa bilməsi ehtimalını nəzərdə tutaraq buyurur:

«Ey Əbuzər! Bu ümmətin əlindən çıxacaq, itirəcəyi iki sifət - əmanətə vəfa və ruhi və qəlbi hazırlıq olacaqdır. İş o yerə çatacaqdır ki, qəlbən qorxan bir nəfər belə tapılmayacaqdır».

Bu bəyanda Həzrət (s) iki mühüm əxlaqi sifətə işarə edir. Onlardan biri sağlam ictimai əlaqələrin qurulmasında əsaslı rol oynayan, ictimai və əxlaqi bir xüsusiyyət olan əmanətə vəfadarlıqdır ki, onsuz sağlam cəmiyyətin təşkili qeyri-mümkündür. Çünki ictimai əlaqələrin əsası qarşılıqlı eˈtimada əsaslanır.

Rəsuləllah (s) bu bölümdə ondan sonra ümmətin yaxşı sifətlərinin əldən çıxacağını bildirir.

İslam ümməti tərbiyə olunmuş cəmiyyət kimi digər ümmətlərə nisbətdə iki böyük üstünlüyə malik idi. Bu imtiyazın birincisi, öz aralarında olan ictimai və həmçinin, digər millətlərlə olan əlaqələrə aid idi. İkinci imtiyaz ümmətin fərdi şəxsiyyətinin formalaşmasındakı rolu idi. Bu ümmət həm mə̓nəvi və fərdi şəxsiyyət baxımından yetkin idi, həm də ictimai baxımdan. Bu sifətlər Allah-təala tərəfindən mütəmadi olaraq Peyğəmbərin (s) vasitəsilə e̓mal olunan tərbiyənin tə̓siri nəticəsində yaranmışdır. İslam ümməti Rəsuləllah (s) kimi kamil bir bağbanın əli ilə suvarılıb yaşıllaşan, bəhrəsi könül oxşayan bir bağa çevrilmişdi. İndi əgər bu bağa xəstəlik düşərsə, yəqin ki, xəstəliyin əlamətləri onda zahir olacaq və get-gedə pozulub sıradan çıxacaqdır. İctimai və fərdi xüsusiyyətləri baxımdan misilsiz olan İslam ümməti, Peyğəmbərin (s) vəfatından sonra xəstəliyə düçar oldu və yaşıllıq xəzana döndü. İslam millətinin canına düşən ilk dərd onların ürəklərinin bərkiməsi oldu. Yumşaqlıq və səmimiyyət qəlblərdən silindi, hətta Haqq-təalanın qarşısında belə boyun əymədilər. Onların hər biri ayrılıqda daşürəkli insanlara çevrildilər və haqqın sözü ürəklərində tə̓sir qoya bilmədi. Halbuki, ilahi kəlam qarşısında ürəkləri yumşalıb göz yaşı axıtmalı idilər.

İkinci bəla onların ictimai əlaqələrində üzə çıxdı. Vəfalılıq və işlərində düzgünlük zəiflədi və əmanətə xəyanət etdilər. Bu, cəmiyyətdə səslənən həyəcan siqnalı idi. Fərdi və ictimai olan bu iki bəla hər hansı cəmiyyədə özünə yer taparsa, həmin fərd və cəmiyyət süquta məhkumdur. Bu dəyərlər ancaq İslama və müsəlmanlara məxsus deyildir. İslamın zühurundan əvvəl də hamı başa düşürdü ki, sədaqət, əmanətə vəfa yaxşı xüsusiyyət, xalqın malına xəyanət etmək isə şərəfsiz bir işdir.

### *a) ƏMANƏTƏ VƏFANIN ROLU*

Ərəblər, bəlkə də bütün dünya xalqları arasında Peyğəmbərin (s) müvəffəqiyyətinin ən böyük amili, onun əmanətdar və sadiq adam olması idi. Peyğəmbərlikdən əvvəl xalq onu e`timadlı, doğru-düzgün adam kimi tanıyırdı və ona «Məhəmməd Əmin»

deyirdilər. Peyğəmbərin (s) bu xüsusiyyəti xalqın ona meyl göstərməsinə səbəb olurdu. Çünki əmin olmağın lazımlı şərtlərindən biri, sözündə doğru-düzgün olmaqdır. Başqasının malına xəyanət edən adam, doğru danışa bilməz. Əksər insanlar onun peyğəmbərlik iddiasını qəbul edirdilər, çünki bilirdilər ki, o heç vaxt yalan danışmayıb.

Əvvəldə deyildiyi kimi, əmanətə vəfa kimi bir dəyər ağılla dərk edilir. Əgər peyğəmbərlik və də᾽vət olmasaydı belə, xalq onun əmanətdə vəfalı olmağını dərk edəcəkdi. Amma İslam dini əqlin bu hökmünü təsdiq edib buyurur:

«Allah sizə əmr edib buyurur ki, (aldığınız) əmanəti öz sahiblərinə qaytarasınız»[1].

Əmənatə vəfa həyatın zəruriyyətlərindəndir. Xalq əgər öz davranışlarında ona riayət etməsə, həyat sistemi bir-birinə dəyər və artıq kimsəyə e᾽timad olunmaz. Çünki ictimai həyatın bünövrəsi və əsası, insanların qarşılıqlı e᾽timadına əsaslanır. Əmanət, danışıqda düzgünlük və sədaqət, əmanət isə rəftarda düzgün əməl tələb edir. Onun dəyəri müstəqil əqli ölçülərdəndir və dəlilə, sübuta ehtiyacı yoxdur. İslamın bu yöndəki sifarişləri tərbiyəvi xarakter daşıyır. Əqlin dərk etdiyi şeyi şəriət tə᾽yin edib, həmin yöndə tapşırıq verir.

Əmanətə vəfa, təkcə kimlərinsə şəxsi malının qorunub-saxlanılması deyil və həmçinin, ümumxalq malının mühafizəsinə də şamil olur. O cümlədən xiyaban, torpaq, su, yaşıllıq və İslam ölkəsinə aid olan hər bir ümumxalq malı əmanət sayılır. Ümumxalq malının qorunması daha lazımlıdır. Çünki bir şəxsin malına xəyanət edən kəs, ancaq həmin şəxsə borclu qalır. Lakin ümumi əmlak və beytül-mala xəyanət edərsə, bütün müsəlmanlara xəyanət etmiş olur. Dövlət maşınında sürücü işləyən şəxs əliəyri adam olarsa, diqqətsizlik edib idarə etdiyi maşına xəsarət yetirdikdə, bütün xalqa xəyanət etmişdir. Əgər ümumi dövlət malı şəxsi işlər üçün sərf edilərsə, beytül-mala xəyanət edilmişdir.

---

[1] «Nisa» surəsi, ayə 58.

Qur᾽ani-kərim İslam cəmiyyətini əmanətdar və əhdinə vəfalı bir cəmiyyət kimi təqdim edir:

«Mö᾽minlər o kəslərdir ki, götürdükləri əmanəti geri qaytarar, öz əhdlərinə vəfa edərlər»[1].

Başqa bir yerdə buyurur: «Aldığınız əmanəti öz sahibinə qaytarın».

Əmanət barəsində göstərilmiş tapşırıqlar ona görədir ki, əgər qarşılıqlı e᾽timadın, əhd-vəfanın şərtləri cəmiyyətdən silinərsə, camaat bir-birinə xəyanət edər və biri digərinin hüququnu ayaqlar altına atar. Nəticədə, dayağı qarşılıqlı e᾽timad olan cəmiyyətin sütunları çökər ki, bu da insani dəyərlərin unudulmasının başlanğıcıdır.

## b) RUHİ VƏ QƏLBİ HAZIRLIĞIN ROLU

Qəlbən səmimi olub, vicdanları oyaq insanlar əgər Allah qarşısında da səmimiyyət izhar etsələr, cəmiyyətdə baş verən hadisələrə qarşı biganə ola bilməzlər. Belə insanlar peyğəmbərlərin də᾽vətini can-başla qəbul edərlər. Onlara qorxulu xəbər veriləndə, cəhənnəmi yad edəndə canlarına lərzə düşər və əgər onlara xoş xəbərli müjdə verilsə, sevinib şad olarlar. Bir kəsə zülm edildiyini görəndə, narahat olarlar və gözləri yaşla dolar və ya bir kəsin öz haqqına çatdığını görəndə sevinərlər. Ürəkləri yumşaq, qəlbən səmimi olan bu cür insanlar haqqın qarşısında təslim və sinələri haqqın qəbulu üçün həmişə açıq olar. Bu insanların müqabilində ürəkləri daşlaşmış adamlar, haqla üzləşdikləri və ətraflarında baş verən hadisələrlə qarşılaşdıqları zaman biganə və laqeyiddirlər. Çünki qəlbləri həqiqətin qəbulu üçün hazır deyildir. Təbii olaraq peyğəmbərlərin də də᾽vətini qəbul etmir və haqq qarşısında təkəbbürlülük edirlər. Onlar ancaq özlərini düşünür və öz heyvani istəklərinin dərdini çəkirlər.

Qur᾽an əhli-kitabdan iki dəstəni misal göstərir: birinci dəstə yəhudilərdir ki, İslamın və mö᾽minlərin ən qatı düşmənləri idilər:

---

[1] «Mu᾽minin» surəsi, ayə 8.

«Sonra sizin ürəkləriniz o qədər bərkidi ki, daş kimi, hətta ondan da bərk oldu. Halbuki, bə᾽zi daşlardan bulaqlar axır»[1].

Bə᾽zi daşların yarıqlarından su axır, lakin yəhudilərin ürəyi o qədər bərk olur ki, heç vaxt ürəkləri kövrəlib, gözlərindən yaş axmır. Bu qövmün mö᾽minlərlə həmişə düşmənçiliyi olmuşdur. Bu dəstənin müqabilində Qur᾽an, ikinci dəstəni mö᾽minlərin dostu olub onlarla mehriban davranan əhli-kitabı belə tanıtdırır:

«Əhli kitabdan mö᾽minlərə ən mehriban olanı o kəslərdir ki, deyirlər biz nəsraniyik. Nəsranilərin müsəlmanlarla dostluğu ona görədir ki, onlardan bə᾽ziləri alim və zahiddirlər. Onlar Allahın hökmü qarşısında dikbaşlıq edib, təkəbbürlülük göstərmirlər»[2].

Bu ayənin ardınca Allah-təala buyurur:

«Peyğəmbərə (s) bir ayə nazil olduğu zaman onlar həmin ayəni eşitdikdə, gözlərindən yaş axar. Çünki onun haqq olduğunu bilirdilər».

Haqq qarşısında ürəklərinin yumşaqlığı onların iman gətirməsinə səbəb oldu. Çünki qəlbləri haqqın üzünə açıq idi. Bunların müqabilində daşürəkli yəhudilər iman gətirmirdilər. Tarixdə görürük ki, bir çox hallarda məsihilər İslamı qəbul etmiş və xalis mö᾽minlərdən olmuşlar, lakin yəhudilərdən çox azı İslamı qəbul edirdilər.

Peyğəmbər (s) buyurur: «Elə bir gün gəlib çatacaq ki, ruhən və qəlbən hazır olan xaşe` bir adam tapılmayacaq, təvazö`karlıq və ürəyiyumşaqlıq mə᾽nasız olacaqdır».

Özlərini islamşünas adlandıran bə᾽zi tədqiqatçılar iddia edirlər ki, İslamda insanın özünü sındırması bəyənilmir. Hətta Allahın qarşısında da insan qürurunu sındırmamalıdır. Ürəyin kövrəlməsi, göz yaşının axıdılması, təvazö`karlıq belə, insanlar üçün dəyər hesab edilmir. Halbuki, Qur᾽an mö᾽minləri təvazö`kar olaraq tanıtdırır. Alimlərdən birinin yanında Qur᾽an oxunduğu zaman ağladığı üçün haqq yoldan çıxmaqda müttəhəm etmişdilər. Belə xəyal edirmişlər ki, ancaq əzadarlıqda, yasda

---

1 «Bəqərə» surəsi, ayə 74.

2 «Maidə» surəsi, ayə 82.

ağlamaq olar, Qur᾽an oxunduğu zaman ağlamağı bid᾽ət bilirmişlər. Bu əməl o qədər unudulub tərk edilmişdi ki, əgər kimsə Qur᾽an oxuyanda ağlasaydı, həmin adamı dindən çıxmaqda günahlandırırdılar.

Ruhi və qəlbi hazırlıq qəlbdə baş qaldıran təvazö`karlıq, saf səmimiyyətdən doğan zillət hissidir. Onun reaksiyası insanın cismində və çöhrəsində zahir olur. Rəhmətlik Rağib İsfahani bu kəlmənin təfsirində belə deyir: «Xüşu` sözü zəiflik və acizlik hiss etmək mə᾽nasındadır. Daha çox insanın cismində zahir olan hissi əlamətlər barəsində işlədilir».

Misal olaraq ruhi və qəlbi hazırlıq mə`nasını daşıyan «xüşu`» kəlməsinin Qur᾽anda işlədildiyi yerlərə işarə edirik:

1. Danışıqda «**(Qiyamətdə) Rəhman Allahın yanında səslər xaşe᾽olarlar**»[1].

2. Gözlərdə: «**(Qiyamət günü kafirlər qorxudan) xaşe᾽ və zəlil olaraq baxışlarını aşağı dikərək qəbirdən baş qaldıracaqlar**»[2].

3. Çöhrədə: «**(Qiyamətdə) bir dəstənin üzü xaşe olacaqdır**»[3].

4. Səcdədə: «**Onlar gözüyaşlı alınlarını səcdəyə qoyub, daimi olaraq (Allah tərəfindən) qorxularına və xüşularına (yeni dərəcələr) artırarlar**»[4].

5. Namaz və duada: «**Beləliklə, mö᾽minlər nicat tapdılar. O kəslər ki, namazlarında xaşe᾽ və təvazö`kar olarlar**»[5].

6. Qəlbdə: «**Görəsən, mö᾽minlərin ürəklərinin Allahı yad etməklə xaşe᾽ olmalarının vaxtı çatmamışdırmı?**»[6].

Bu ayələrin hər biri haqqında ayrıca bəhs etmək münasib vaxt tələb edir ki, hələlik buna imkanımız yoxdur. Qısa olaraq aydınlaşdı ki, xaşe᾽ - qürur və təkəbbür hissi olmadan, insanın

---

[1] «Taha» surəsi, ayə 109.

[2] «Qəmər» surəsi, ayə 7.

[3] «Ğaşiyə» surəsi, ayə 2.

[4] «İsra» surəsi, ayə 109.

[5] «Mu᾽minun» surəsi, ayə 1-2.

[6] «Hədid» surəsi, ayə 16.

vücudunda zahir olan bəndəçilik əlamətidir. Xüşu` libasına bürünmüş insan, vücudundakı təkəbbür və xudbinlik ruhunu öldürür. Xudbinlik və təkəbbür insanı Allah qarşısında təvazö`kar və səmimi olmaqdan saxlayır. Şübhəsiz ki, təkəbbürlülərin bariz nümunəsi şeytandır. Qur᾽an onun barəsində buyurur:

«**Bütün mələklər (Adəmin qarşısında) səcdə etdilər. (Yalnız) Şeytan səcdədən boyun qaçırıb, imtina etdi**»[1].

Əli (ə) ayənin izahında buyurur: «Şeytan xudbinliyə və təkəbbürə düçar oldu və öz yaradılışında özünü Adəmdən üstün tutdu. Atəşdən xəlq edildiyi üçün təəssüb göstərib açıqcasına Allahın fərmanına boyun əymədi. Deməli, Allahın düşməni olan Şeytan, təəssübkeş və lovğaların rəhbəri olaraq, təkəbbürün əsasını qoydu. Allahla əzəmət və böyüklük libasını (ki, yalnız Allaha məxsusdur) ələ keçirmək üçün davaya qalxdı. İzzət və qürur libasını geyinib, zillət və kiçiklik libasını bir kənara atdı»[2].

Davamında buyurur: «Belə isə, Allahla şeytan arasında olan bu əhvalatdan ibrət götürün. Şeytan bu hərəkəti ilə neçə illik zəhmətini və ibadətini zay etdi. Allaha altı min il ibadət etməsinə baxmayaraq (mə᾽lum deyil, bu illər dünya illəri hesabı ilədir, ya axirət), təkəbbür etdiyi üçün bir anda bütün zəhməti hədərə getdi. Belə olan halda, şeytandan sonra təkəbbür göstərməklə kimsə Allahın əzabından amanda qala biləcəkmi? Allah-təala heç vaxt belə bir bəndəni cənnətə buraxmayacaqdır. Çünki həmin günaha görə özünün (günah edənə qədər) ən sadiq bəndələrindən birini (şeytanı) cənnətdən xaric etmişdir. Bilin ki, Allahın hökmü yer əhli üçün də, göy əhli üçün də birdir».

Bunu da xatırlatmaq lazımdır ki, insanlar arasında səmimiyyətin itməsinin, ürəklərin qəsavət bağlamalarının, xəyanətin meydana çıxmasının mənşə və səbəbi, onların dünyaya olan həddsiz bağlılıqlarıdır. Dünyaya bağlılıq insandan xüşu` və təvazö`karlıq hisslərini alıb aparır. İnsanın xəyanətə əl atması, harama bulaşması dünyaya bağlandıqdan sonra meydana çıxır. Deməli, xüşu` halını qoruyub saxlamaq üçün dünyaya ürək

---

[1] «Hicr» surəsi, ayə 30-31.

[2] «Nəhcül-bəlağə», xütbə 234, səh. 776.

bağlamaqdan, Onu həyatın əsas qayəsi olaraq hədəf seçməkdən çəkinmək lazımdır.

Ətrafımıza nəzər salsaq görəcəyik ki, get-gedə cəmiyyət öz milli və əxlaqi dəyərlərini itirməkdədir. Cəmiyyətdə əxlaqsızlıq, ictimai fəsad baş alıb gedir. Bu kimi işlərin səbəbini maddiyyata uymaqda axtarmalıyıq. Bu bağlılıq və ya meyillilik istənilən günaha zəmin yaratmış olur. Bir insan günaha batdığı üçün kədərlənmir, lakin azacıq pulu əlindən çıxdıqda, maddi problemlə üzləşdikdə qəm dəryasına batır. Həmçinin, qorxur ki, birdən ondan vergi alarlar. Bu halın qarşıya çıxması dünyaya həddindən artıq qapılmağın nəticəsidir. Əgər bir nəfər ürəyini axirətə bağlamış olsa, hər bir şeydən axirəti üçün bəhrələnməyi bacaracaqdır. Əgər pullu olsa, o pulu öz axirəti yolunda xərcələyəcəkdir. Əgər kasıb olsa, səbri ilə Allahın razılığına boyun əyməklə, öz axirəti üçün bəhrə götürəcəkdir. Pulu olsa, Allah yolunda infaq etməklə, pulu olmasa da, başqa bir yolla ehtiyacı olanlara kömək edəcəkdir.

İnsanın dünyaya məhəbbəti artdıqca, bacardığı qədər mübah işlərdən istifadə etməyə çalışacaq. Əgər bu onu qane etməsə, şübhəli işlərə meyl göstərib, bir yolla şəriətin hökmlərindən kömək almağa çalışıb, gördüyü işə haqq qazandırmağa başlayacaq. Bu gün riyanın bir növünə əl atacaq, sabah qəti və yəqin bilinən harama qurşanacaq. İş o yerə gəlib çatacaq ki, artıq hər bir günahı, hətta kəbirə olsa belə, görməkdən çəkinməyəcək. Təbiidir ki, belə adamın ürəyi bərkiyib, xüşu` halını itirəcəkdir. Elə ki, dünya hərisliyi ürəyində baş qaldırdı, xalqın malına xəyanət edəcək, ondan şəxsi mənafeyi üçün faydalanmağa çalışacaqdır. Deməli, qəlbin qəsavət bağlamasının amili günaha, heyvani ləzzətlərə aludə olub, dünyəvi işlərə qapılmaqdır. İndi bu dərdin müalicəsi üçün onun köklərini axtarmaq lazımdır. Diqqət yetirmək lazımdır ki, bu, ağacın qurumasına nə səbəb olmuşdur? Hansı zəhərli maddə ilə suvarılmışdır ki, bu günə qalıbdır? İnsan vücudunun ağacını xəstəliklərdən qorumaq üçün onu sağlam maddələrlə qidalandırmaq lazımdır. Həmçinin, onun heyvani istəklərə uymasının qarşısı alınmalıdır, çünki bu vəziyyətin davamı ürəyin bərkiyib, qəsavət bağlamasına gətirib

çıxarır. Ürəyi basmış qəsavətin kökünü kəsmək üçün onu vücuda gətirən xəstəlikləri insana tanıtdırmıq lazımdır.

Bildiyimiz kimi, insanın Allahdan və mə᾿nəviyyatdan ayrılmasına bais olan bütün xəstəliklərin mənşəyi dünyadır. Qur᾿ani-kərim müxtəlif bəyanlarla, insanı dünyadan qorxutmağa çalışır.

Bə᾿zən «Nəhcül-bəlağə»nin bir xütbəsində dəfələrlə dünyanın məzəmmətindən söhbət açılır və Əli (ə) öz səhabəsini dünyadan qorxmağa çağırır. Çünki Həzrət (ə) bütün dərdlərin kökünün dünya məhəbbətində olduğunu bilirdi. Belə ki, dünya məhəbbəti qəlbdə olduqca, insan üçün heç bir kamal və fəzilət uzun müddətli qalmayacaqdır.

Mümkündür, bir nəfər uzun müddət zəhmət çəkib mə᾿nəvi dərəcələr əldə etmiş olsun, lakin bir damla öldürücü zəhərlə hər şeyi əldən verə bilər. Bu cəhətinə görə də Qur᾿an, Peyğəmbər (s) və Əhli-beyt (ə) müxtəlif yollarla xalqa dünyadan uzaq olmağı xatırladırdılar. Əlbəttə, dünyadan qorxmaq işdən-gücdən əl çəkmək, elmi, sənəti bir qırağa qoymaq mə᾿nasında deyildir. Əslində onun mə᾿nası dünyanın zahirinə qapılıb qalmaq, nəfsani istəklərə uymaqdır. Qısaca desək, dünyadan qorxmaq, dünya həyatının əsas hədəfi və amalı olaraq yox, onu axirətə çatdıran bir vasitə kimi başa düşməkdədir.

Belə olan halda, insanın bütün sə᾿yləri, hətta mal-dövlət toplaması da, özünə axirət rəngini alır. Çünki axirət və dünya istəyi insanın niyyət və hədəfinə bağlıdır. Məsələn, kişinin evlənməkdə məqsədi ancaq öz şəhvətini tə᾿min etməkdirsə, bu dünya istəyidir. O ancaq heyvani şəhvətini razı salmaq haqqında düşünür, bəlkə də, onun üçün elə də bir fərqi yoxdur ki, halal yolla istəyinə qovuşsun, ya haram. Amma bə᾿zən evlənməkdə məqsəd, Allahın əmrinə itaət üçündür. Çünki ailə qurmağı Allah ona buyurmuşdur, yoxsa heç vaxt bu işi görməzdi. Hətta əgər bu işdə çoxlu ləzzət olsaydı belə, yenə də ona meyl göstərməzdi. Amma Allah xatirinə o bu işə boyun əyir; hətta onu yüzlərlə problem əhatə etmiş olsa belə. Əgər bu gün qərb dünyasında ailə təməlinin köklərində sarsılmanın şahidi oluruqsa, bu ona görədir ki, onlar ancaq ləzzət almaq haqqında düşünürlər. Onların qeyri-

qanuni yolla cinsi ehtiyaclarını ödəmələri, evlilikdən daha rahat və asan başa gəlir. Ona görə də, özlərini ailə qurmaqla zəhmətə salmaq istəmirlər. Görəndə ki, evlənməklə yanaşı, təbii olaraq həyat çətinliklərinə qatlaşmalı, ailə yükünü də çəkməlidirlər, evlənməkdən vaz keçirlər. Lakin İslam cəmiyyəti bu cür deyil.

İslami dəyərlərin hakim olduğu bir cəmiyyətdə fərd ailə həyatının problemlərinə dözümlü olur. Ailə həyatının özünəməxsus şirinliyini daddığı kimi, acılarına da şərik olur. Çünki Allahın istəyi belədir. Əlbəttə, Allah da öz lütfü ilə bu işdə bə᾽zi ləzzətlər qərar vermişdir. (Ər-arvad və ata-ana duyğuları özlüyündə fitri və təbii ləzzətlərə malikdir). Amma bununla belə, bu müştərək həyatın problemləri də vardır. Deməli, əgər bir kəs Allah xatirinə dünya ləzzətlərindən istifadə edərsə, nəinki o xoşagəlməz bir iş görməmişdir, əksinə onun bu işi dünya ilə yanaşı, axirətini də tə᾽min etmiş olur. Dünya istəyi o vaxt olur ki, üstünlüyü ləzzətlərə vermiş olsun.

## *ALLAHIN NƏZƏRİNDƏ DÜNYANIN DƏYƏRSİZLİYİ VƏ KİÇİKLİYİ*

Dünyanın məzəmməti və puçluğu barədə Peyğəmbər (s) sonrakı cümlədə buyurur:

«Ey Əbuzər! And olsun o Allaha ki, Məhəmmədin canı onun əlindədir, əgər dünyanın Allah yanında milçəyin qanadı qədər dəyəri olmuş olsaydı, kafirə bir damla su belə verməzdi».

Dünya məhəbbəti elə bir bəladır ki, az-çox hamımız bu dərdə mübtəlayıq. Əgər indi ona mübtəla olmasaq da, mümkündür, gələcəkdə mübtəla olaq. Yaxşı olardı ki, Həzrətin (s) bu bəyanına daha diqqətlə yanaşaq və ondan öz nəfsimizin tərbiyəsi üçün faydalanmağa çalışaq.

Bizim üçün dəyər me᾽yarı heyvani ləzzətlərdir. Ona görə də, daha çox xoşumuza gələn hər bir şeyə daha artıq dəyər veririk və bu bizim istəyimizin göstəricisidir. Lakin İslam dəyər üçün başqa bir me᾽yar təqdim edir və o, Allahın istəklərini öz istəklərindən daha üstün tutmaqdır. Yə᾽ni dəyərli olan işlər bizim nəfsimizin meyl etdiyi şeylər deyil, mehriban Rəbbimizin tə`yin etdiyi məsələlərdir.

Peyğəmbər (s) and içir ki, dünya bütün cah-cəlalı və ömürlərin yolunda hədər getdiyi, neçə-neçə canları qurban etdiyi ləzzətləri ilə milçəyin qanadı qədər dəyərli olsaydı, Allah onun bir qurtum suyunu belə kafirlərə içirtməzdi. Əgər dəryaların, okeanların Allah üçün dəyəri olsaydı, kafirə ondan bəhrələnməyə imkan verməzdi, ancaq övliyaların ondan faydalanmasına imkan yaradardı.[1]

Müsəlman və kafirin dünya ne᾽mətlərindən bərabər olaraq bəhrələnməkləri, elə dünyanın həqiqətdə, zati olaraq dəyərə malik olmadığının göstəricisidir. Dünya bu baxımdan imtahan vasitəsidir.

Allah-təala Qur᾽anda buyurur:

«Həqiqətən, mal-dövlətiniz və oğul-uşağınız sizin üçün ancaq bir sınaq vasitəsidir. Ən böyük mükafat [cənnət] isə Allah dərgahındadır!»[2].

Başqa bir yerdə buyurur:

«[Bə᾽zi adamların fəxr etdiyi] mal-dövlət, oğul-uşaq [oğullar] bu dünyanın bər-bəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də [Allahın mərhəmətinə] ümid e᾽tibarilə daha xeyirlidir!»[3].

Başqa bir ayədə dünyanın fani olması və Allah yanında əbədi qalacaq şeylər barədə buyurur:

«Sizdə olan [dünya malı] tükənər, Allah dərgahında olan [axirət ne᾽mətləri] isə əbədidir. [Allah yolunda] əziyyətlərə dözənləri etdikləri yaxşı əməllərin müqabilində mükafatlandıracağıq»[4].

İnsan belə təsəvvür edir ki, dünya ne᾽mətlərinin dəyəri vardır və kim onlardan daha çox istifadə edirsə, daha çox dəyərə malik olur. Qur᾽an yanlış olan bu düşüncə tərzi barədə buyurur:

«İnsana gəldikdə, nə zaman Rəbbin onu imtahana çəkib ehtiram etsə və ona bir ne᾽mət versə, o, «Rəbbim mənə ehtiram göstərdi!»-

---

[1] (Əlbəttə, cümlədəki kafir sözü din düşməni olan, haqqa boyun əyməyən kafirə aiddir. Müstəz᾽əf kafirlərin hesabı başqadır).

[2] «Təğabun» surəsi, ayə 15.

[3] «Kəhf» surəsi, ayə 46.

[4] «Nəhl» surəsi, ayə 96.

deyər»[1], «Amma nə zaman Rəbbin onu imtahana çəkib ruzisini əskiltsə, «Rəbbim məni alçaltdı, mənə xor baxdı!», - deyər»[2].

Həqiqət budur ki, dünya sınaq vasitəsidir. İnsan istər mal-dövlət sahibi olsun və istərsə də ondan məhrum qalsın, hər iki halda sınaq meydanındadır. Nə dünyaya sahib olmaq böyüklük və kəramət sayılır, nə də kasıblıq başıaşağılıq gətirər. Dünya Allahın nəzərində dəyərsiz olduğu üçün kafiri ondan məhrum etmir. Bunun müqabilində, cənnət və onun ne᾽mətləri Allah yanında dəyərli hesab edilir. Məhz bu səbəbdən də, kafiri cənnətdən məhrum edir:

«Cəhənnəm əhli cənnət əhlinə müraciət edib, «Üstümüzə bir az su tökün və ya Allahın sizə verdiyi ruzilərdən bizə bir qədər ehsan edin!», - deyəcək. Onlar isə, «Doğrusu, Allah bunları kafirlərə haram buyurmuşdur!», - deyə cavab verəcəklər»[3].

Cənnət və onun ne᾽mətləri elə bir dəyərə malikdirlər ki, kafirlərin ondan istifadə etməyə ləyaqətləri çatmır. Həqiqətdə, əsl və həqiqi olan bu dəyər Allah övliyalarına məxsusdur. Bunun müqabilində dünyanın Allah üçün dəyəri yoxdur və bu səbəbdən də kafirlərin ondan istifadə etməsinə maneçilik törətmir. Çox vaxt kafirlər başqalarından daha artıq dünya ne᾽mətlərinə yiyələnirlər və dünya imkanlarından daha çox istifadə edirlər. Əlbəttə, nə qədər çox dünya ne᾽mətlərinə sahib olsalar, bir o qədər də əzabları artacaqdır. Çünki kafir onları tüğyan və qeyri-haqq yolda olan məqsədlər üçün sərf edir.

Maraqlı burasıdır ki, Peyğəmbər (s) dünyanın Allah yanında dəyərsiz olduğunu söyləyərkən and içir. Mə᾽lum olur ki, adi insanlar üçün bu həqiqətə inanmaq çətindir. Necə olur ki, dünya özünün bu qədər sərvətləri, imkanları və ləzzətləri ilə insanların istifadəsinə verilsin, lakin Allah yanında bir milçəyin qanadı qədər dəyərli olmasın?! Məsələ burasındadır ki, bizim həqiqətlər barədəki mə᾽lumatımız və bəsirətimiz azdır. Həyatımızın əsasını maddiyyatda görürük, dünyanı həyatımızın mehvəri qərar

---

[1] «Fəcr» surəsi, ayə 15.

[2] «Fəcr» surəsi, ayə 16.

[3] «Ə᾽raf» surəsi, ayə 50.

vermişik. Dünyanın Allah yanında, Qur᾽anın nəzərində dəyərsiz olduğundan xəbərimiz yoxdur. Bilmirik ki, dünyanın e᾽tibarı onun vasitə, sınaq olması həddindədir. Həqiqi dəyər insanın səadətinə səbəb olub, onu haqq rizvana qovuşduran yaxşı əməllərdir. Həqiqi dəyər insanın Allaha yaxınlaşmasına səbəb olan şeylərdədir. Bu həmin o hədəfdir ki, insanın yaradılışının əsas qayəsi olmuşdur. İnsandan da məhz öz yaradılış qayəsinə qovuşması üçün bütün imkanlardan, dünya vasitələrindən yararlanması istənilmişdir.

## ON DÖRDÜNCÜ DƏRS

### *AXİRƏT İSTƏYİNİN SİTAYİŞİ, DİNDƏ ZÖHD VƏ BƏSİRƏT, DÜNYA İSTƏYİNİN MƏZƏMMƏT OLUNMASI*

1. Axirət istəyinin sitayişi və imanın aliliyinin bəyanı;
2. Axirəti sevməyin lüzumu;
3. Allahın xeyirxahlığı, din haqqında agahlıq və dünyada zahidlik.

## *AXİRƏT İSTƏYİNİN SİTAYİŞİ, DİNDƏ ZÖHD VƏ BƏSİRƏT, DÜNYA İSTƏYİNİN MƏZƏMMƏT OLUNMASI*

Bu hədisin bə҆zi bölümləri dünyanın məzəmməti barəsində idi ki, ondan müəyyən hissələri söylədik. İndi onun başqa bir hissəsini bəyan edəcəyik.

Daha öncə söylədiyimiz kimi, dünyanın məzəmməti heç də dünya işlərindən əl çəkmək mə҆nasında başa düşülməməlidir. Dünya əsas hədəf deyildir deyəndə, bu heç də o demək deyil ki, insan ictimai fəaliyyətini bir kənara qoymalı və qazanc, sərvət dalınca getməməlidir. Dünyanın məzəmmətindəki məqsəd, ona ürək bağlamamaq, zahiri zinətlərini hədəfə çevirməməkdir. Həqiqətdə, insanın əməlinə istiqamət, yön verən onun niyyətidir. İnsanın niyyəti onun əməlini ləyaqətli də edə bilər, ləyaqətsiz də.

Qur҆an ayələri və rəvayətlərə əsasən, insanın axirət yolu bu dünyadan keçir və dünya axirətin əkin yeridir; burada əkdiyini axirətdə biçəcəkdir. Bunun üçün də dünyada çalışıb-vuruşmaq lazımdır. Əgər insanın dünyadakı fəaliyyətləri Allaha görə olsa, səadətə çatacaqdır, yox, əgər onun fəaliyyəti dünya və onun ləzzətləri üçün olsa, istər-istəməz günaha sürüklənəcəkdir ki, bu da onu cəhənnəmə və əbədi əzaba aparıb çıxaracaqdır.

## *DÜNYANIN LƏZZƏTİ VƏ İMANIN ALİLİYİNİN BƏYANI*

Allah övliyaları mö҆minlərin dünya və onun ləzzətlərinə uymaması üçün müxtəlif üsullarla öz xəstəsinin sağlamlığına çalışan təbiblər kimi, onları mə҆nəviyyatlarına zərərli olacaq şeylərdən pəhriz etməyə çağırırlar. Övliyalar həmişə sə҆y etmişlər ki, dünyanı mö҆minin nəzərində mənfur cilvələndirsinlər. Həmin baxışdan çıxış edərək, Həzrət (s) belə buyurur:

«Ey Əbuzər! Dünya və onun içində olan hər bir şey Allah rizasını qazanmaq üçün istifadə edilməzsə, lə҆nətə məhkumdur».

Hədisin məzmunundan belə anlaşılır ki, dünyada olan ne҆mətlərin lə҆nətlənməsi heç də torpaq, ağac və göyün lə҆nətlənməsi mə҆nasında deyildir. Çünki Allahın razılığının ələ gətirilməsi üçün vasitə olacaq hər bir şey nəinki lə҆nətə məhkum

deyil, əksinə təqdirəlayiqdir. Deməli ləʾnət, dünya neʾmətlərinin alçaq və rəzil məqsədlər uğrunda xidmətinə yönəlmişdir. Çünki dünyanın yaradılmasından məqsəd, insanın ondan məqsədyönlü faydalanıb, Allaha yaxınlaşması üçündür.

Dünya insanın ixtiyarına ona görə qoyulmuşdur ki, onun köməyi ilə Allaha çatsın. Belə olan halda, insan əgər dünyanı Allaha çatmaq üçün vasitə olaraq seçərsə, Allah rəhməti və şəfqəti daim onunla olacaqdır. Çünki o, hədəfini seçərək, həmin istiqamətdə də hərəkət edəcəkdir. Aqil insan heç vaxt hədəfindən qafil olmur, daim gözünü bu yola dikir. Əks halda, Allahın nəzəri insandan götürüləcəkdir. Çünki o, dünyanın yaradılış qayəsinə arxa çevirərək, səadət yolu əvəzinə, bədbəxtlik və peşmançılıq yolunu seçmişdir.

İmamların səhabələrindən biri qazancının və sərvətinin günü-gündən artıb genişləndiyini müşayiət edərək, narahatlıq hissi keçirməyə başlayır. İmam onunla görüşüb soruşur: «Niyə bikefsən?». Deyir: «Ağa, sərvətim getdikcə artmağa başlayır, dünyaya giriftar olmuşam». İmam soruşur: «Niyə dünya malının arxasınca düşürsən, dünya malını yığmaqda məqsədin nədir?». Səhabə cavabında deyir: «Özümün və uşaqlarımın başqasına möhtac olmaması üçün və bir də möʾmin qardaşlara kömək məqsədi ilə bu işi görürəm». Həzrət deyir: «Bu dünyaya bağlanmaq deyil, axirət istəməyindir, nigaran olmağına dəyməz. Sən dünya ləzzətlərinə ürək bağladığın və dünyanı dünya üçün istədiyin zaman nigaran olmalısan».

«Allah yanında heç bir şey dünya qədər mənfur deyildir. Onu yaratdı, sonra ondan üz döndərdi və rəhmət baxışlarını ondan kəsdi; qiyamətə kimi də ona nəzər yetirməyəcəkdir».

Böyük alimlər, xüsusi olaraq imam Xomeyni (r.ə.) bu kəlamın məzmununu öz əxlaq kitablarında çox açıqlamış və bu məsələni xüsusi vurğulamışdır.

Şəksiz, Allah-təala bütün yaratdıqlarını sevir. Məxluqatın hər biri ilahi adların (Əsmayi-ilahi) və ilahi sifətlərin təʾsirindən vücuda gəlmişdir (Məxluqatın hər biri canlı əsər olaraq, İlahi sifətlərin maddi aləmdəki təzahürünün məhsuludur).

Dünya və onun neʾmətləri ilahi isim və sifətlərin məzhəri olduqları üçün Allahın qiyamətə qədər onlara diqqəti və inayəti

də davam edəcəkdir. Allah dünyanın Onun mülahizəsi olmadan müstəqil baxılmasına nəzər yetirmir. İndi belə bir sual qarşıya çıxır ki, bu dünyada Allahın inayəti və nəzəri hansı şeylərə aid olur? Bu nöqtənin bəyanında Həzrət (s) buyurur:

«Heç bir şey imanlı olmaq və haramdan çəkinmək qədər seviləcək deyildir».

Allah yanında ən çox sevimli olan şey ilk növbədə iman, sonra isə təqva və günahların tərk edilməsidir. Bu rəvayətdən anlamaq olur ki, günahların tərki vacib əməllərin əncamından daha mühümdür. Deyə bilərik ki, vacibata əməl edilməsi imanın dərəcələrindən sayılır, çünki iman həm qəlbi, həm də bədən üzvləri vasitəsi ilə həyata keçirilən zahiri əməllərə şamil olur.

Belə olan halda, əgər dünyada olan şeylər imana çatmaq, günahlardan uzaqlaşmaq üçün vasitə rolunu oynayarsa, həmin şeylər Allah yanında sevimli olacaqdır. Buna görə də, Allah əksər dünya işlərinə əmr etmişdir; çünki onların vasitəsilə insan təqva və iman sahibi olub, Allah dərgahına yaxınlaşır.

İmam Sadiq (ə) Peyğəmbərdən (s) nəql edərək buyurur:

«İbadətin onda doqquzu ticarətdə çalışmaqdadır»[1] (ticarətdə və alış-verişdədir)».

Başqa bir rəvayətdə imam Sadiq (ə) buyurur:

«Evlənən şəxs dininin yarısını qorumuş olur, o biri yarısını da, təqvalı olmaqla ələ gətirməlidir»[2].

Buna oxşar başqa bir hədisdə Peyğəmbər (s) buyurur:

«Heç bir (təməl) Allah yanında ailə qurmaq qədər sevimli və əziz olmamışdır»[3].

Şübhəsiz ki, bütün bunlar dünya işlərinə aiddir. Lakin onlar bəndəçilik yolunda vasitə seçildiyi üçün Allah yanında əziz tutulur.

## *AXİRƏTİ SEVMƏYİN LÜZUMU*

«Ey Əbuzər! Allah Təbarək və Təala qardaşım İsaya (ə) vəhy etdi: «Ey İsa (ə), dünyaya məhəbbət yetirmə, çünki mən onu sevmirəm. Axirəti sev, çünki dönəcəyiniz məkan oradır».

Peyğəmbər (s) Allahın İsaya (ə) vəhy etdiyini nəql edir:

---

1 «Biharul-ənvar», cild 85, səh. 319, hədis 2.

2 «Biharul-ənvar», cild 103, səh. 219, hədis 2.

3 «Biharul-ənvar», cild 103, səh. 222, hədis 40.

«Mən dünyanı sevmirəm, sən də dünyanı sevmə».

Təbiidir ki, Peyğəmbər (s) də dünyanın düşmənidir. Çünki məˈsumların (ə) bir kəslə və ya bir şeylə dostluq və düşmənçiliklərinin meˈyarı, Allahın dostluğu və düşmənçiliyi ilədir. Təbiidir ki, dünya ilə münasibətlərində möˈminlərin öz mövqelərini müəyyənləşdirilməsinə nümunə olacaq şəxs, məˈsumlar və onların həyat yoludur.

Əli (ə) Peyğəmbərin (s) dünyaya baxışı haqqında buyurur:

«Rəsuli-əkrəm dünyanı kiçik sayardı… Qəlbən dünyadan üz döndərmiş və dünyəvi arzuları öz nəfsindən uzaqlaşdırmışdı. Dünyanın zinətindən əlvan libas istəməməsi və ya orada qalmağı arzu etməməsi üçün dünyanın zinətini öz gözləri ilə görməməyə çalışardı»[1].

Bu vəziyyətlə yanaşı, Peyğəmbərə (s) bütün maddi neˈmətlərdən istifadə etmək ixtiyarı verilmişdi. Peyğəmbərin (s) özünün buyurduğu kimi, bütün dünyanın xəzinələrini ona təqdim etdilər, amma o qəbul etmədi:

«Ey Əbuzər! Cəbrayıl (ə) dünyanın xəzinələrini ağ və qara qatıra yükləyib mənim yanıma gətirdi və dedi: «Ey Məhəmməd! Bunlar dünyanın xəzinələridir və onlardan istifadə etməyin, sənin Allah yanında olan dərəcəni heç də azaltmır».

Peyğəmbərin (s) bu cür «Cəbrayıl (ə) ağ və qara qatıra (və ya ata) minərək dünyanın xəzinələri ilə bərabər mənim yanıma gəldi» buyurması, bəlkə də, dünyanın ləzzət və acı, xeyir və şər məkanı olmasına edilən bir eyhamdır.

Dünyada elə bir şəxs tapılmaz ki, yalnız çətinlik və acılıq görmüş olsun və eləcə də elə adam ola bilməz ki, həyatda ancaq ləzzət dadmış və heç vaxt ağrı-acı ilə üzləşməmiş olsun. Həqiqətdə, hər ağrı-acının yanında bir ləzzət də vardır və hər ləzzətin kənarında da bir acılıq durmuşdur. Hər iki hal insanın imtahanı üçündür:

«Hər kəs (hər bir canlı) ölümü dadacaqdır. (Dözüb-dözməyəcəyinizi, şükr edəcəyinizi, yaxud nankor olacağınızı) yoxlamaq məqsədilə, Biz sizi xeyir və şərlə (sağlamlıq, var-dövlət, cah-cəlal və xəstəlik, yoxsulluq və ehtiyacla) sınağa çəkərik. Və siz

---

[1] «Nəhcül-bəlağə», xütbə 108, səh. 336.

(qiyamət günü əməllərinizin əvəzini almaq üçün) ancaq Bizim hüzurumuza qaytarılacaqsınız»[1].

Maraqlı olan başqa bir nöqtə, Cəbrayılın (ə) Həzrətə (s) buyurduğudur: «Dünyanın bütün xəzinələrindən istifadə etsən də, sənin axirətdəki payından heç bir şey azalmayacaq».

Maddi ləzzətlərin insana yetirə biləcəyi zərərlərdən biri də budur ki, onlardan nə qədər çox istifadə edilərsə, ehtimalı vardır ki, insan daha çox axirət bəhrələrindən məhrum olsun. Lakin peyğəmbərlər və övliyalar bu cür deyildirlər. Ona görə də, Cəbrayıl (ə) deyir: «Sənin dünya xəzinələrindən bəhrələnməyinin müqabilində, axirət payından heç nə əskildilməyəcək».

Peyğəmbər (s) Cəbrayılın (ə) cavabında buyurur:

«Dostum Cəbrayıl, mənim onlara ehtiyacım yoxdur. Doyduğum zaman Allaha şükr edirəm, acdığım zaman Ondan istəyirəm».

Mö᾿min bir şəxs üçün ən yaxşı hacət budur ki, bir tərəfdən Allahın ne᾿mətlərindən bəhrələnməklə Ona şükr etsin, başqa bir tərəfdən Allaha ehtiyaclı olduğunu hiss etsin və həmişə əlləri Onun dərgahına uzansın. Çünki insan ikiyönlü bir varlıqdır; həm Allahın ne᾿mətlərindən istifadə edərək Ona şükr etməlidir ki, bu şükr və diqqət, onun səadətinə səbəb olacaq. Həm də həmişə ehtiyaclı olduğunu hiss etməlidir ki, məğrurlaşıb qafil olmasın, özünü başqalarından üstün görməsin. Peyğəmbər (s) buyurur:

«Mənim gözlərim daim Allahın əllərinə dikilməlidir; ne᾿məti ondan istəməliyəm və mənə əta etdiyi ne᾿mətlərin müqabilində şükr etməliyəm».

## *ALLAHIN XEYİRXAHLIĞI VƏ DİN HAQQINDA AGAHLIQ*

Hədisin davamında Peyğəmbəri-əkrəm (s) buyurur:

«Ey Əbuzər! Allah bir kəsin xeyrini istədiyi zaman onu dində bilikli, dünyada isə zahid edir və öz eyiblərini ona başa salır».

Allah bir kəsə yaxşılıq etmək istədiyi zaman ona üç şey verir:

1. Dini bilik;
2. Zahidlik və dünya ləzzətlərinə e᾿tinasızlıq;
3. Eyiblərinə olan agahlıq.

---

[1] «Ənbiya» surəsi, ayə 35.

Bu üç xislət müqabilində insan üçün ən pis şey, dində cahil olmaq, dünya sevgisi və xudpəsəndlik və başqasında eyib axtarmaqdır.

Öncəki və sonra deyiləcək mətləbləri nəzərə alaraq, diqqət yetiriləsi əsas cümlə «Zahidlik və dünya ləzzətlərinə e᾿tinasızlıq»dır. Çünki söhbət dünyanın məqam və mənzilətindən gedir. Deməli, əgər bir kəs hiss etsə ki, dünyaya rəğbəti yoxdur və ondan ancaq lazım olacaq ehtiyaclarını ödəmək üçün istifadə edir və ilahi vəzifəsinə əməl etmək üçün dünya işlərinə baş qoşur, bilsin ki, Allah onun yaxşılığını istəyir. Həqiqətdə, Allah hamının xeyrini istəyir, amma özünün təşri᾿i iradəsinə əsaslanaraq, təklifləri hamıya vacib etmişdir, hamıya haramdan çəkinməyi buyurmuşdur. İxtiyar sahibi olan insan əgər doğru yolu seçərsə - baxmayaraq ki, bu seçimin özündə də doğru yolun seçilməsi, müqəddimədə Allahın tovfiqi və inayəti ilədir - və bəndəlik yolunu tutub Allahın sevdiklərini sevib, onun dostları ilə dost olarsa, atdığı hər addım Allah üçün olarsa, Allahın xüsusi təkvini iradəsi belə tələb edir ki, həmin adamı müvəffəqiyyətə qovuşdursun:

«Mö᾿min olub axirəti istəyən və onun uğrunda çalışanların zəhməti (Allah dərgahında) qəbul olunar»[1].

Allahın heç kimlə düşmənçiliyi yoxdur və səbəbsiz olaraq heç kəsi cəhənnəmə aparmır. Əgər kimsə özünün yanlış seçimi ilə küfr və üsyan yolunu seçərsə, Allahın təkvini iradəsi belə tələb edəcək ki, həmin adam zəlalətə uğrasın və xeyir iş görməyə nail olmasın:

«Hər kəs fani dünyanı istəsə, dilədiyimiz şəxsə istədiyimiz ne᾿məti orada tezliklə verər, sonra isə (axirətdə) ona cəhənnəmi məskən edərik. O, cəhənnəmə qınanmış və (Allahın mərhəmətindən) qovulmuş bir vəziyyətdə daxil olar!»[2]. Deməli, Allah bir kəsin xeyrini istədiyi zaman üç şeydə onu müvvəffəq edir:

Elm qazanmaq imkanını ona inayət edir, bunun müqabilində Allah bir kəsin xeyrini istəmədikdə, onu elm qazancından məhrum edir. Rəvayətdə göstərildiyi kimi: «Allah bir bəndəsini

---

1 «İsra» surəsi, ayə 19.

2 «İsra» surəsi, ayə 18.

özündən uzaqlaşdırmaq istədiyi zaman, onu elm və təhsildən ayırır»[1].

Allaha şükr etməliyik ki, bu qədər bəndələri arasında bizlərə dini elmlərə yiyələnmək tovfiqini inayət etmişdir. Bizə nəsib olmuş bu iftixarın qədrini bilməliyik. Çünki Allahın inayətinin səbəbilə kamal yoluna qədəm qoymağımızın ilk pilləsi hazırlanmışdır.

Rəvayətlərin birində deyilir: «Bütün kamal üç şeydə xülasə olur: dini elmələrə vaqif olmaq; həyat işlərinin nizama salınıb proqramlaşdırılması; çətinliklər qarşısında səbirli olmaq»[2].

Allahın ikinci inayəti, dünyaya rəğbət göstərməmək və onun zahiri gözəlliyinə könül verməməkdir. Təəssüflər olsun ki, bizim əksəriyyətimizdə bu xislətlər yoxdur. Az-çox dünya ləzzətlərinə ürək bağlamışıq. İnsan öz şə᾽ni və ehtiyaclarının həddindən artığına meyl göstərərsə, - daha yaxşı maşın, daha gözəl ev, daha artıq geyim tələbində olarsa - dünyaya bağlanmışdır və cənnət ne᾽mətlərindən məhrum olacaqdır. Necə ki, Qur᾽an buyurur:

«Biz bu axirət yurdunu yer üzündə təkəbbürlük etməyənlərə və fitnə-fəsad törətməyənlərə qismət edirik. Gözəl aqibət, ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərindir!»[3].

Bu ayənin təfsirində belə bir rəvayətə işarə edilir ki, insan, hətta ayaqqabısının bağının başqalarının ayaqqabısının bağından yaxşı olmasını istəyərsə, bu istək onun dünya məhəbbətindən, təkəbbüründən xəbər verir[4].

Bu onu göstərir ki, insan sə᾽y edərək, hətta bir ayaqqabı bağı qədərincə olsa belə, dünyaya bənd olmamalıdır. Ürək həmişə Allah və axirət istəyi ilə döyünməlidir, ayaqqabı bağı, ev, maşın üçün yox. Ürək Allah nurunun nazil olduğu yerdir:

«Mö᾽minin ürəyi Rəhmanın ərşidir»[5].

Ürək Allahdan nə qədər üzülüşüb dünya ilə məşğul olarsa, bir o qədər də mə᾽nəvi kamaldan məhrum olacaqdır.

---

[1] «Biharul-ənvar», cild 1, səh. 196.

[2] «Biharul-ənvar», cild 78, səh. 152

[3] «Qəsəs» surəsi, ayə 83.

[4] «Əl-Mizan», cild, 16, səh. 85.

[5] «Biharul-ənvar», cild 58, səh. 39.

Əli (ə) «Nəhcül-bəlağə»də peyğəmbərlərin dünyaya baxışı barədə buyurur: «Rəsuləllahın yolunu tutmaq sənə kifayət edər. Dünyanın məzəmməti və eyibləri, onun rüsvayçılıqları və pislikləri sənə doğru yolu tutmağa dəlil və bələdçidir; əgər başqa bir peyğəmbərin yolunu tutmaq istəsən, Allahın həmsöhbəti olmuş Musanın (ə) yolunu tut. O deyərdi:

«Ey Rəbbim: «Mən, Sənin mənə nazil edəcəyin hər hansı bir xeyrə möhtacam!»[1].

Allaha and olsun ki, Musa (ə) Allahdan (ac qarnını doyuracaq) bir tikə çörəkdən başqa bir şey istəmirdi. Çünki yerdə bitən otları yeməkdən o qədər arıqlayıb incəlmişdi ki, qarnının nazik dərisindən otların yaşıllığı görsənirdi. Əgər üçüncü başqa bir peyğəmbərin yolunu getmək istəsən, Davudun (ə) yolu ilə get ki, «Məzamir və Zəbura» sahib idi. Davud (ə) cənnət əhlinin xanəndəsidir. Öz əlləri ilə xurma lifindən zənbil toxuyar və dostlarına belə deyərdi: «Sizlərdən hansı biriniz bunları satmaqda mənə kömək edə bilər?» Zənbillərin qazancından əldə etdiyi pulun ancaq bir tikə arpa çörəyinə yetəcək qədərini özünə götürərdi.

İsanı (ə) de ki, yatmaq istədikdə balış olaraq başının altına bir daş qoyardı. Libası cod kətandan idi və yediyi bir tikə quru yavanlıq olardı. Gecələr çırağı ayın nuru idi. Qışda sığınacağı günəşin döydüyü yer olardı (evi yox idi). Süfrəsinin ən ləziz meyvəsi çöldə bitən otlar idi. Nə arvadı var idi ki, onu fitnəyə salsın, nə də uşağı var idi qəminə qalsın. Nə var-dövləti var idi ki, onu Allahdan yayındırsın, nə tamahı var idi ki, onun oduna yansın. Miniyi ayaqları, xidmətçisi əlləri idi»[2].

Görəsən, Allahın peyğəmbərlərlə düşmənçiliyi var idi ki, onları dünya ləzzətlərindən məhrum edirdi? Yoxsa bu çətinliklər onların təkamül vasitələri və Allaha olan məhəbbətlərinin nişanəsi idi?

Xatırladılması zəruri olan başqa bir məsələ budur ki, yuxarıda söylənilənlərdən elə anlaşılmasın ki, tərkidünya olub bir kənara çəkilmək lazımdır; halal qazancın arxasınca düşməməliyik və ya

---

[1] «Qəsəs» surəsi, ayə 24.

[2] «Nəhcül-bəlağə», xütbə 159, səh. 508.

İslamın və müsəlmanların izzətini qorumaq üçün faydalı fəaliyyət göstərməməliyik. Söhbət dünyaya qapılıb qalmamaqdan, onun çəngində əsir olmamaqdan gedir.

Əgər dünyanın bütün xəzinələri və sərvətləri bir kəsin əlində olub, ona könül verməmək şərtilə bütün ləzzətlərindən istifadə etsə, özünə heç bir zərər toxunmayacaqdır. Necə ki, bütün dünya padşahlığına sahib olan Davud oğlu Süleyman ixtiyarında saysız-hesabsız ne᾿mətlərin olmasına baxmayaraq, heç birinə ürək bağlamadı. Bu ne᾿mətlər onun peyğəmbərliyinə və vilayətinə xələl gətirmədi. Özü arpa çörəyi yeyərdi, amma bütün sərvətini və qüdrətini dinin izzətinin ucalmasında istifadə edərdi. Əgər Səbanın şahzadəsi ilə döyüşür və ya onu müharibə ilə qorxudurdusa, ilahi hökumətin genişlənməsi üçün edirdi. Məqsədi, şirki yer üzündən silmək idi.

Mə`sumların zahidanə həyatları barəsində qeyd olunmuş mütəvatir hədislərin məcmusu, bizdə onların çətin həyat sürdüklərinə, dünya və eyş-nuş əhli olmadıqlarına dair fikirlərə şəkk yeri qoymur. Özləri dünyadan çəkindikləri kimi, xalqı da dünyadan çəkinməyə sövq edirdilər. Onların yaşayış tərzləri barədə heç bir şəkk-şübhə yoxdur. Allaha ibadət, gecə yarı və ya sübh tezdən oyanmaq, dua və münacat, o həzrətlərin bariz xüsusiyyətlərindəndir. Dost, düşmən, sünni, şiə bu həqiqətləri e᾿tiraf edib, bu barədə kitablar yazmışlar. Xalqı dünyadan çəkindirmək, maddi ləzzətlərə qarşı onlarda ikrah yaratmaq imamlarımızın tərbiyə üsulları idi. Hər zaman xalqı başqalarına yük olmasın deyə, halal qazanca, işləməyə sövq edirdilər. Bu, həqiqətdə, dünya və Allahın razılığını bir araya gətirmək mə᾿nasında olub, adi camaatın görə bilməyəcəyi bir işdir. İslamın ilk çağlarından bu günümüzə qədər dünyanın məzəmməti və ya qazancın tə᾿riflənməsi barədə söylənilmiş rəvayətlərdən səhv nəticələr çıxarılırdı.

Dünya məzəmmət edildiyi zaman düşünürdülər ki, artıq dünyanı bir kənara qoymaq lazımdır və gedib mağaraların birində yaşayıb ağac yarpaqlarından paltar düzəltməlidirlər. Başqa bir tərəfdən görəndə ki, bə᾿zi rəvayətlərdə qazanc,

fəaliyyətlər tə᾿riflənir, fikirləşirdilər ki, bütün şeyləri maddi həyata qurban vermək lazımdır!

Əhli-beyt məktəbinin yetişdirmələri qazanc və dünya ləzzətlərindən bəhrələnməyin axirət istəyi ilə ziddiyyət təşkil etmədiyini bilirdilər. Ziddiyyət dünya və axirət məhəbbəti arasındadır. Çünki bu ikisinin bir arada olması mümkün deyil. İnsanın həm Allahı, həm də Onun bəyənmədiyi şeyi sevməsi mümkün olan bir şey deyil. Allahın razılığını qazanmaq və axirətə çatmaq üçün vasitə olacaq dünya, nifrət yaratmır. Ürəyin nə qədər dünyaya məhəbbət yetirdiyini və ya ondan hansı fasilədə qərar tutduğunu tə᾿yin etmək üçün insanın zahiri əməlləri me᾿yar ola bilməz. Me᾿yar insanın niyyətidir. Düzdür ki, hərdən niyyət əməldə özünü göstərir. Məsələn, bir nəfər dünyaya bağlı olmadığını iddia edir, lakin əməldə dünya üçün haramdan belə çəkinmir. Aydındır ki, belə adamın niyyəti, dünya istəyidir.

Deməli, iş iddia ilə bitmir, ürəyə, niyyətə baxılmalıdır. Sufilərdən bə᾿ziləri şe᾿r dilində dünyaya rəğbətsiz, e᾿tinasız olduqlarını izhar edirlər, lakin əməldə bir quruş pullarından belə keçməzlər.

## ON BEŞİNCİ DƏRS

### *HİKMƏT VƏ BƏSİRƏT PEYĞƏMBƏRİN (S) HƏYAT YOLUNUN BİR HİSSƏSİDİR*

1. Hikmət və bəsirət zöhdün məhsuludur;
2. Zahid insanın nişanələri;
3. Uzun arzular və fəaliyyətdən yayınmaq, təqva və təvəkkülün zəifləməsinə dair bir nişanədir;
4. Peyğəmbərin (s) həyat yolunun bir hissəsi.

## *HİKMƏT VƏ BƏSİRƏT PEYĞƏMBƏRİN HƏYAT YOLUNUN BİR HİSSƏSİDİR*

Peyğəmbəri-əkrəm (s) müxtəlif üsullarla dünyanın qəbahət və təmayülünü xatırladır, eyni zamanda zöhdün məziyyətlərindən və dünyaya rəğbətsizlikdən də söhbət açır. Peyğəmbərin (s), bütün insanlarının anlaya bilməsi üçün tərbiyəvi məsələləri müxtəlif metodlarla xüsusi bir zəmində açıqlaması, mö՚cüzəyə oxşar bir işdir. Mətləblər elə rəngarəng seçilib, müxtəlif tərbiyəvi və əxlaqi qəliblərə elə tökülmüşdür ki, hər kəs öz səliqəsinə uyğun olaraq ondan bəhrələnə və ruhunda tə՚sir qoya biləcək tərbiyəvi azuqənin ən münasibini seçə bilər. Həzrətin (s) tərbiyədə seçdiyi üsullardan biri zöhdü tə՚rifləyib, insanları ona sövq etdirmək, həmçinin, zöhdün nəticəsində insanda zühur edən bir sıra mə՚nəvi keyfiyyətlərə diqqəti yönəltmək olmuşdur.

## *HİKMƏT VƏ BƏSİRƏT ZÖHDÜN MƏHSULUDUR*

«Ey Əbuzər! Elə bir bəndə tapılmaz ki, dünyada zahid olsun, amma Allah hikməti onun qəlbinə salmasın. Zahid olan hər kəsin dilini Allah hikmətlə açar və onu dünyanın eyib, dərd və dərmanlarından agah edər; (nəhayətdə) onu səhih və salamat (şəkildə) cənnətə aparar».

Bu bölümdə Həzrətin (s) tə՚kidi, zöhdün və dünyaya e՚tinasızlığın insan qəlbinin hikməti qəbul etməsi üçün yetkin vəziyyətə gətirilməsindədir. Bu andan e՚tibarən insan həqiqətləri dərk edir. Lakin qəlblərini dünyaya bağlamış insanlar həqiqəti dərk etməkdə acizdirlər. Çünki «حب الشىء يعمي و يصم» dünya məhəbbəti insanı qəflət yuxusuna daldırır. Bunun əksinə olaraq, dünyaya rəğbət göstərməyən kəslər həqiqətləri dərk edirlər, çünki dünyanın fövqündədirlər; dünyanı axirətlə müqayisə etdikdə, ən üstününü – axirəti seçirlər.

Zöhd, rəğbətsiz olmaq mə՚nasındadır. Necə ki, Yusifin (ə) qardaşları barəsində deyilmişdir:

«...(qardaşları) Yusifi dəyər-dəyməzə satdılar, çünki ona rəğbətsiz idilər»[1].

---

[1] «Yusif» surəsi, ayə 20.

Dünyada zahidlik, dünyaya rəğbətsiz olmaq deməkdir. Əgər bir nəfərin mal-dövləti varsa, böyük maddi imkanlara malikdirsə və bununla yanaşı həm də zahid həyat sürmək istəyirsə, həmişə bu fikirdə olacaq ki, sərvətini Allah yolunda necə xərcləsin. Belə adamın dünya malı toplamağa həvəsi olmayacaq. Həzrət Süleyman (ə) kimi şəxslər o boyda var-dövlət və səltənətlərlə elə bir hala malik idilər ki, dünyada bir tikə arpa çörəyinə belə qane olardılar.

«Allah hikməti qəlblərində sabit edər» cümləsinin izahında bir neçə nöqtəni xatırlatmaq zəruridir:

1. Dünyaya rəğbətsizliklə ilahi maarifin dərki arasında sıx əlaqə mövcuddur. Yə`ni elə bir insan ola bilməz ki, o həm ürəyini dünyaya bağlasın, həm də ilahi biliklərdə elm dəryası olsun.

2. Dünyaya rəğbətsizliyin məhsulu olan hikmət, insanın elm və mə`rifətini sabit bir hala gətirir və e`tiqadda süstləşmənin qarşısını alır. İnsan, mümkündür, müəyyən bir mə`rifətə yetişib bir həqiqəti dərk etsin, lakin onun mə`rifəti süst olacaqdır, çünki yəqinə çatmayıbdır.

Yəqin dərəcəsinə çatmayan insanın qəlbində mə`rifət kök atıb bərkiməz. E`tiqadın əsaslarında əqidənin əsil olmasından əlavə, dini biliklərin səviyyə və möhkəmliyi də xüsusi dəyərə malikdir. Həmin cəhətinə görə də, ötəri və keçici olan imanlar nəinki heç nəyə yaramırlar, üstəlik mənfi hallara gətirib çıxarırlar. Bu halın məzəmmətini Qur`anın əksər ayələrində müşahidə etmək olar:

«Gəmiyə minib yola düşəndə, (imanı zəif olanlar) haqq dininə könül verərək, Allaha yalvarırlar. (Amma) elə ki, (Allahın inayəti ilə) nicat tapıb quruya çıxırlar, Ona şərik qoşmağa başlayırlar»[1].

3. Elə ki, hikmət qəlbdə yerləşdi, ürəkdə qapanıb qalmır, onun tə`siri özünü dildə, əməldə də zahir edir.

Qəlbində hikmətin qərar tutduğu şəxsin danışığı hikmətli olacaq və qəlbində qaynar bulaq kimi qaynayıb dilinə axacaqdır. Belə şəxs bihudə danışıqlardan pəhriz edib, Loğman həkim kimi elə həkimanə moizə edəcək ki, hər kəlməsi eşidənlərin qəlbini oxşayacaqdır. Bəli, dil ürəyin keçid yoludur, başqa tə`birlə desək, insan qəlbinin çeşməsi dilin gözündən qaynayıb üzə çıxır. Çünki kuzədən tökülən

---

[1] «Ənkəbut» surəsi, ayə 65.

onun içindəki olacaqdır. Ürək çeşməsinin yolu təkcə dildən ötüb keçmir, eləcə də insanın digər rəftarları da üzə çıxır.

Dünyaya rəğbətsizliyin insana qoyduğu tə᾽sirlərdən biri də, dünyanın eyiblərini ona aşkar etməsidir. Yə᾽ni, insan dünyanın nöqsanlarını, pisliklərini, nöqsanlarını o zaman görə bilər ki, özünü onun buxovlarından azad etmiş olsun.

Könlünü dünyaya vermiş insanlardan öz mə᾽şuqlarının (dünyanın) eyibini müşahidə etməsini gözləmək olmaz. Çünki dünya məhəbbəti insanın onun eyiblərini görməkdə gözlərini kor, nöqsanlarını eşitməkdə qulaqlarını kar edir. Əksinə, onun çirkinliklərini gözəl görür və dünyaya ifrat təmayülün tə᾽sirindən yaranmış nalayiq rəftarı ona gözəl görsənir. Bu mə᾽na müxtəlif tə᾽birlərlə Qur᾽anda bəyan edilmişdir:

«Axirətə inanmayan kəslərə gördükləri işi bərbəzəkli göstərdik, çaşqınlıq içində vurnuxur onlar»[1], «…Tutduğunuz işi nəfsiniz sizə bərbəzəkli göstərdi…»[2], «…Tutduqları işləri şeytan onlara bərbəzəkli göstərdi…»[3].

Müxtəlif tə᾽birlərlə söylənilmiş bu ayələr onu göstərir ki, dünyaya vurğunluq dünya və dünyəvi işləri insanın nəzərində gözəl cilvələndirir. İnsanın dünyaya məhəbbəti artdıqca, onun, hətta eyibləri də nəzərində gözəl görsənəcək, çünki aşiq mə᾽şuqun eyiblərini görə bilmir. Aydındır ki, belə insan dünyanın aldadıcı zahirini görür, onun batininin dərkində, onu yüksəkdən müşahidə etməkdə acizdir:

«Dünya həyatının zahirini üzdən bilərlər, axirətdən isə büsbütün xəbərsiz olarlar»[4].

Bu dəstənin müqabilində dünyaya e᾽tinasız olan insanlar, batini gözləri açıq olduqları üçün çirkinliklərini də görərlər. Bu dəstə, zəhərli ilanın ancaq gözəl zahirini və xətti-xalını görən birinci dəstədən fərqli olaraq, ilanın qorxulu dişini və ağzında gizlətdiyi öldürücü zəhərini də görürlər: «Dünyanın hekayəsi ilanın hekayəsinə oxşayır: Əlinlə onu sığallasan, sənə yumşaq və lətif

---

[1] «Nəml» surəsi, ayə 4.

[2] «Yusif» surəsi, ayə 18.

[3] «Nəml» surəsi, ayə 24.

[4] «Rum» surəsi, ayə 7.

görünər, lakin daxilində öldürücü zəhəri vardır. Aldanmış nadan ona tərəf gedər, ancaq uzaqgörən aqil ondan uzaq gəzər»[1].

Bəli, Allah adamlarının uzaqgörənlikləri və batini tanışlıqları, onları zahiri bər-bəzəklərin qarşısında aldanmaqdan qoruyur. Onların maddi üfüqləri aşan dərin baxışları, ancaq zahiri görən səthi baxışlılar arasında əsaslı fərqi tə᾿yin edən göstəricidir. Həzrət Əlinin (ə) tə᾿birilə: «Allahın dostları o kəslərdir ki, camaat dünyanın zahirinə baxanda, onlar onun batininə nəzər yetirərlər. Cammat onun bu günü haqqında düşünəndə, onlar dünyanın aqibəti haqqında fikirləşərlər. Ürəklərini öldürə biləcək qorxduqları şeyin özünü, qəlblərində öldürərlər. Tezliklə üzülüşəcəkləri şeyi bildikləri üçün onu indidən dünyada tərk edərlər»[2].

Hədisin davamında Peyğəmbər (s) buyurur:

«Ey Əbuzər! Qardaşının dünyada zahidlik etdiyini görsən, onun sözlərinə qulaq as, çünki ona hikmət əta ediləcək».

Bu söz Həzrətin (s) öndə buyurduğu «Hər kəs zahidlik edərsə, Allah hikməti onun qəlbində yerləşdirər» bəyanının davamıdır. Deməli, dünyaya rəğbətsiz olan insan hikmət qazanacaq və danışdığı zaman kəlamı hikmətli olacaqdır. Çünki dünyadan əl çəkən insanın sözü qəlbindən qaynaqlanır və sonda da qəlblərə tə`sir edir. Zahid insan öz əməli ilə sübut etmişdir ki, dediklərinə e᾿tiqad bəsləyir. Belə olan surətdə həmin şəxsdən ancaq hikmətli sözlər gözləmək olar. Bunun əksinə olaraq, dünyaya vurğun olub onun ləzzətləri içərisində məst olmuş insanın hikmətdən, mə᾿rifətdən bir payı olmaz. Dünyaya aludə olduğu üçün gözləri həqiqətləri görməkdən məhrumdur və nəticədə, onun danışığı faydasız və hikmətsizdir.

## *ZAHİD İNSANIN NİŞANƏLƏRİ*

Söz bu yerə gəlib çatanda Əbuzər zahidlərə məftun olur. Buna görə də zahidləri tanıyıb, onlarla dostluq əlaqələri yaradıb hikməti onlardan öyrənə bilməsi üçün Peyğəmbərdən (s) xahiş edir ki, zahidlərin ən yaxşısının nişanələrini ona söyləsin. Peyğəmbər (s) cavab olaraq zahidlərin beş xüsusiyyətlərini zikr etməklə, onların ən üstününü tanıdır:

---

1 «Nəhcül-bəlağə», Feyzul-islam, kəlam 115, səh. 1141.

2 «Nəhcül-bəlağə», kəlam 422, səh. 1287.

1. Zahidlərin ən yaxşılarının birinci xüsusiyyəti budur ki, qəbirləri və cəsədlərin çürüməsini heç vaxt yaddan çıxarmasın;

Dünyaya bağlı olan insanlar daim onun zahirinə və abadlıqlarına diqqət yetirir və özlərində olmayan şeylərin həsrətini çəkirlər. Lakin dünyaya əhəmiyyət verməyən kəslər, daim onun viranlıqlarına, qəbristanlıqlarına nəzər salarlar; çünki bunlar dünyanın faniliyinin, davamsızlığının nişanələridir. Zahid o kəsdir ki, viranələri, dünyanın faniliyini yaddan çıxarmasın. Bu o demək deyil ki, insan səhərdən axşama qədər qəbiristanda gəzib-dolansın. Mə᾽nası budur ki, arabir qəbirstanlığa baş çəksin. Həm ziyarət etsin, həm də ibrət götürsün.

Dünya əhli qəbiristanın yanından ötdükləri zaman çalışırlar ki, ona baxmasınlar. Ölüm, qəbir adını eşidəndə canlarına qorxu düşür. Qorxurlar ki, birdən qəbiristana baxmaqla eyş-işrətləri pozular. «Ölüm» sözü araya gələndə narahat olur və onu eyib bilirlər. Bunun əksinə olaraq, axirətə ürək bağlamış insanlar daim axirəti fikirləşər və ölümü unutmazlar.

2. Zahidlərin ən yaxşısının ikinci xüsusiyyəti onların dünya zinətlərini tərk etməsindədir;

Aydındır ki, insan həyatın davamı üçün zəruri olan ev, libas, zinət kimi dünya imkanlarından istifadə etməlidir. Bunların düzgün istifadəsi, insanın təkamülündə mühüm rol da oynaya bilər. Bu cəhətini nəzərə alaraq, müqəddəs şəriət nəinki insanların onlardan istifadəsinin qarşısını almır, hətta ona qarşı təşviq və sövq də edir:

«De ki, zinətləri Allahın Öz bəndələri üçün yaratdıq. Təmiz, pakizə ruziləri kim haram etmişdir? De ki, bunlar bu dünyada iman gətirənlərindir, qiyamət günündə də yalnız onlar üçündür…»[1].

Önəmli olan budur ki, bu imkanlardan, zinətlərdən zərurət həddində istifadə edilsin. Yerdə qalan artıq zinət və sərvətləri ehtiyacı olanlara bağışlamaq lazımdır. Əgər insan heç bir hədd-hüduda riayət etməyib zərurət xəttini aşarsa, nə qədər dünya ləzzətlərindən istifadə etsə, nə qədər həyatını zənginləşdirməyə çalışıb rəngarəng etsə belə, gündə evinin modelini bir şəkildə düzəltsə, çilçıraqlarını, pərdələrini əvəz etsə, ən son buraxılış maşına minsə, yenə də qane olmayacaqdır. Çünki insanın təbiəti

---

[1] «Ə᾽raf» surəsi, ayə 32.

dəyişkənliyə elə vurğundur ki, özünə heç bir sərhəd tanımır və gözü heç bir şeydən doymur. Aydındır ki, belə şəxs zahid deyil. Zahid, öz ehtiyacları həddində dünyadan bəhrə götürəndir. Ona kifayət edəcək qədər sığınacağa qane olur və yaraşıqlı binaya sahib olmaq, fikrindən belə keçmir. Maşına ehtiyacı olsa, ona ayağını yerdən götürəcək vasitə kimi baxır və gediş-gəlişinə köməklikdə zəruri bildiyi üçün alır. Daha maşının lüks olub-olmamasına, camaatın xoşuna gəlib-gəlməyəcəyinə diqqət yetirmir. Bu cümlədə Həzrətin (s) tə᾽kidi artıq zinətlərin tərk edilməsindədir, bundan qeyri surətdə zinətlərdən istifadə edilməsinin heç bir maneçiliyi yoxdur və onlar həyatın zərurətlərindən sayılır. Bu niyyətlə zinətlərin istifadəsi nəinki məzəmmətli deyil, əksinə bu barədə buyuruqlar da verilmişdir; o cümlədən kişinin öz həyat yoldaşına və həmçinin, qadının öz ərinə zinət olması, təmiz paltar geymək, saç-saqqalın səliqəyə salınması, ətirlənib daranması və sair kimi sifarişlərə hədislərdə tez-tez rast gəlinir.

Xüsusi olaraq da, mö᾽min insanın mövqeyi belə tələb edir ki, həm zahirini, həm də batinini təmiz saxlamalıdır. Bu cəhətinə görə də, İslam zahiri səliqə-sahmana xüsusi diqqət yetirir. İnsanın məscidə və ya başqa bir məclisə getdiyi zaman səliqəli geyinib, dostlarının könlünü açması üçün ətirlənməsinə dair göstərişlərə hədislərdə çox rast gəlinir. Yaxud da namaz qılanda ətir vurması buyurulur. Çünki ətir vurub namaz qılan şəxsin iki rükət qıldığı namazın savabı, yetmiş rükət adi namazın savabından daha çoxdur. Çəkiniləcək şey əqli cəhətdən hikməti və insanın təkamülündə rolu olmayan, dünya və ləzzətpərəstliyin nişanəsi olan artıq zinətlərdir.

«Məkarümül-əxlaq»da Peyğəmbərin (s) vəsfində deyilir: «Peyğəmbərin (s) adətlərindən biri aynaya baxmaq və saç-saqqalını daramaq idi. Bu işi çox vaxt suyun qarşısında durmaqla edərdi. Əhli-əyalından əlavə, dost-tanışının da görüşünə gedəndə özünə yaraşıq verər və buyurardı: «Allah sevir ki, bəndəsi müsəlman qardaşlarının görüşünə gedəndə, evdən çıxmazdan əvvəl özünə yaraşıq verib, üst-başına əl gəzdirsin»[1].

3. Zahidlərin ən üstününün üçüncü xüsusiyyəti budur ki, əbədi qalacaq şeyi fani olacaq şeydən üstün tutsun.

---

[1] «Əl-Mizan», cild 6, səh. 330.

Əgər zahid seçim qarşısında qalarsa, dünyanın keçici və fani ləzzətlərinə göz yumub, müdrikcəsinə cənnətin əbədi ne᾽mətlərinə üstünlük verir. Həmçinin, tutduğu yolun çətinliklərinə dözməyi, dünyanın keçici rahatlıqlarından daha üstün bilir. Çünki onun sərrast gözləri dünyanın gələcəyinə, aqibətinə dikilmişdir. Hərəkət zamanı nəzərində tutduğu ancaq son mənzildir və dünyanı ancaq keçid üçün körpü olaraq nəzərdə tutur:

«Axirət daha yaxşıdır, qalımlıdır»[1].

Dünyanın ən zahid adamının dördüncü və beşinci xüsusiyyəti, sabahı öz ömründən bilməyib, özünü ölülər sırasında hesab etməsindədir.

İnsan həmişə üzərinə düşən vəzifəsini yerinə yetirməyə sə᾽y göstərməli və heç vaxt fəaliyyətdən kənarda qalmamalıdır.

Bildiyimiz kimi, öz vəzifə yükünü çəkən insan heç vaxt rahatlıq və gün keçirmək fikrində ola bilməz. Çünki çalışqanlıqla tənbəllik bir yerə sığan şey deyil. Dünya əhli olan adam, həmişə rahatlıq və keyf vasitələrinin sorağındadır. Çalışmaq vaxtı gələndə, növbə gəlib dərsə, bəhsə, digər təkliflərin əncamına yetişəndə, rahatlıq ruhiyyəsi onu fəaliyyət göstərməyə qoymur; bir az fikirləşib işlərini sabaha saxlayır. Heç vaxt rahatlığına, asayişinə xələl gəlməsini istəmir. Həqiqətdə, insanın bu günün işlərini sabaha saxlaması ona görədir ki, insan özü üçün uzun-uzadı arzular qurub düzəldir və ümid edir ki, nə vaxtsa bu arzulara yetişəcək. Buna görə də, ümidlə bu günkü vəzifəsini tə᾽xirə salıb sabaha saxlayır. Təbiidir ki, o cür uzun-uzadı arzulara qovuşmağın özü də uzun ömür tələb edir. Bu cəhətinə görə də, dünyapərəst özünə həmişə uzun ömür istəyir və bu arzu ya onun bu günkü vəzifəsinin sonradan tə᾽xirə salınmasına səbəb olur, ya da nakamlığın qorxusundan onun iztirabına və düşkünlüyünə gətirib çıxarır.

Zahid insan bu gün öhdəsinə düşmüş vəzifəsini yerinə yetirir və dünyapərəst insanın əksinə olaraq, sabahı öz ömründən hesab etmir. Bunun üçün də, bu günün işini sabaha saxlamır. Çünki sabaha diri çıxacağına gümanı yoxdur. O, sabaha çıxacağına ümidvar olsa belə, inanır ki, o günün də öz vəzifəsi var.

---

[1] «Ə᾽la» surəsi, ayə 17.

## *UZUN-UZADI ARZULAR VƏ FƏALİYYƏTDƏN YAYINMAQ, TƏQVA VƏ TƏVƏKKÜLÜN ZƏİFLƏMƏSİNƏ BİR NİŞANƏDİR*

İşarə edildiyi kimi, əksər insanlar uzun-uzadı arzularla yaşayır, bu dünyada uzun müddət yaşayacaqlarına ümid edirlər. Düşüncələri, işləmək və çalışmaqları gələcək üçündür. Buna görə də, gələcəkdə olacaq işlərin nigarançılığını çəkirlər. Əgər birdən universitetə qəbul olmasalar, gələcəkdə əməlli-başlı bir iş, vəzifə tapıb-tapmayacaqları, ev-eşik sahibi olub-olmayacaqları barədə narahatdırlar.

Bilməliyik ki, bu düşüncələr təqva və təvəkkül ruhiyyəsinin olmaması üzündəndir, yoxsa Allaha təvəkkül edənin, onun inayətinə arxalananın gələcəkdə heç bir nigarançılığı yoxdur. Çünki Allahı hər şeyin maliki bilir. Görəsən, öz gələcəyi üçün nigaran olan kəs haradan bilir ki, gələcəyi var, ya yox?!

İslam və dini mə͗rifət insana bu gün boynuna düşən vəzifəsini yerinə yetirməyi hökm edir. Çünki mə͗lum deyildir ki, bir saat sonra varıq, ya yox.

Diqqət etməliyik ki, dünya və onun ləzzətlərinin nigarançılığını çəkmək məzəmmət edilmişdir. Bundan qeyri halda, insan bu günkü vəzifəsinə əməl edər və gələcəkdə ehtimal verdiyi vəzifələri üçün də proqram nəzərdə tutarsa, bu iş nəinki pis deyil, əksinə, insanın vəzifələrindən sayılır. Baxmayaraq ki, hər təklif və vəzifə xüsusi gün üçündür və öz vaxtında vacib olur. Bu gün namaz qılmaq vacibdir və sabahkı namaz üçün heç bir məs͗uliyyət daşımırıq. İndi əgər səhərə sağ çıxsaq, vacibdir ki, o günün namazını da qılaq. Eləcə də, digər vəzifə və təkliflərin hər biri özünəməxsus bir zamanda bizə vacib olur və o andan öncə, həmin vəzifə qarşısında məs͗uliyyət daşımırıq. Deməli, zahidin öz gələcəyindən nigaran olması, sabah başına bir iş gələcəyindən, dünyasının axırının necə olacağından qorxması yersizdir. Lakin yəqin şəkildə bilinən gələcəyə, axirətin son gününə görə nigaran olmağa dəyər. Çünki qiyamətin gələcəyi gündən qaçıb qurtulmaq olmaz. Axirətin əlindən çıxıb qaçmaq mümkün olsaydı, bə͗ziləri çox sevinərdilər, lakin o gün Allahın hökmü qətidir. Allah buyurur:

«Ey iman gətirənlər! Qorxun Allahdan. Hər kəs baxıb görsün sabahkı gününə özü üçün nə hazırlamışdır. Qorxun Allahdan. Tutduğunuz işlərdən xəbərdardır O»[1].

Rəsuləllah (s) hədisin davamında mal-dövlət toplamaqdan çəkinmək haqqında Allahın ona verdiyi göstərişə işarə edərək buyurur:

«Ey Əbuzər! Allah mənə mal-dövlət toplamağı vəhy etməyib, lakin vəhy edib ki, Allahın ne՚mətlərinin şükrü olaraq Ona «Həmd edim, Onu anım və səcdə edənlərdən olum! Və ölənə qədər Rəbbimə ibadət edim»[2].

Əgər sərvət toplamaq insanın kamal və səadətinə səbəb olan bir şey olsaydı, Allah Peyğəmbərə (s) mal-dövlət yığmağı tapşırardı. Lakin Allah-təalanın belə bir tapşırığı olmayıb. Əksinə, ona buyurur:

«Ölüm ayağına qədər Allaha təsbih deyib, ibadət və dua et».

Allaha ibadət və bəndəliyin müxtəlif göstəriciləri vardır: hərdən ibadət vacib və müstəhəb olan fərdi ibadətlərə aid olur və hərdən də, cəmiyyətə xidmət, elm öyrənib-öyrətmək, İslam mədəniyyətini yaymaq və nəhayətdə, insanın məs՚uliyyət daşıdığı hər bir şeyə şamil olur.

## *PEYĞƏMBƏRİN (S) HƏYAT YOLUNA BİR BAXIŞ*

Peyğəmbərin (s) yolunu özlərinə nümunəvi rəftar qaydası seçmiş insanlar çalışmalıdırlar ki, imkan daxilində davranışları o həzrətin rəftarına oxşasın. Bu cəhətinə görə də, Rəsuləllah (s) sonrakı bəyanında özünün bə`zi əxlaqi xüsusiyyətlərinə işarə edib buyurur:

«Ey Əbuzər! Mən cod libas geyinirəm, yerdə otururam, yeməkdən sonra barmaqlarımı yalayıram, yüyənsiz ulağa minirəm və başqasını da tərikimə alıram. Mənim tutduğum davranış qaydasından çıxan, məndən deyil».

Peyğəmbər (s) təkvində təsərrüf etmək qüdrətilə dünyanı öz ixtiyarına ala biləcəyi halda, onun imkanlarından ilkin zəruri ehtiyacları həddində istifadə edir. Daha əvvəl Peyğəmbər (s) buyurmuşdur:

---

1 «Həşr» surəsi, ayə 18.

2 «Hicr» surəsi, ayə 98-99.

«Cəbrayıl (ə) dünyanın xəzinələrini mənim ixtiyarımda qoydu. Amma mən qəbul etməyib, imtina etdim».

Bu bölümdə Rəsuləllah (s) özünün qənaətcil olduğunu, ictimai mövqeyini, sadə yaşayışını bəyan edir.

Peyğəmbərin (s) həyat yolu, yaradılmışların ən üstünü və vəhyin elçisi olması e͗tibarilə, həmişə müsəlman və qeyri-müsəlmanlar tərəfindən diqqət mərkəzində olmuşdur. Onun ictimai baxışları, rəftar və mə͗nəvi halını bütün təfərrüatı ilə öyrənməyə çalışmışlar. Bu səbəbdən, Peyğəmbərin (s) rəftarının xırdalıqları Əhli-beyt (ə), səhabə və digərlərinin dilindən nəql edilmişdir. Əlavə olaraq, Rəsuləllahın (s) özü də həyatının bə͗zi anlarını bəyan etmişdir. Bu bölümdə o Həzrət özünün həyat yolunun bə͗zi xüsusiyyətlərinə işarə edir və bununla, öz davamçılarına gediləcək yolun ən nümunəvi şəklini təqdim edir. Həzrət (s) buyurur:

«Mənim libasım cod parçadandır. Yumşaq parçadan tikilmiş libas geyinmirəm ki, rahat olam. Adi yerdə otururam, qiymətli, zər-zibalı xalılar üstündə əyləşmirəm».

Yemək yeyəndə Həzrət (s) əlləri ilə loğmanı götürər və əlavə olaraq, yeməkdən sonra barmaqlarını da yalayardı. Yüyənsiz-palansız ulağa minər və başqalarını da xahiş etdikdə, tərikinə alardı.

Bu bəyandan o Həzrətin (s) həddən artıq təvazö`kar və xalis bəndə olduğu üzə çıxır. Təəccüblü burasıdır ki, Həzrətin (s) yaşadığı mühitdə təkəbbürlük, əşrafiyyət öz həddini aşmışdı. Kimsə kimsəni bəyənmir, hər kəs digərinə yuxarıdan aşağı baxırdı. Peyğəmbər (s) isə yüyənsiz-palansız ulağa minməklə yanaşı, üstəlik başqasını da öz tərikinə alırdı.

Bunun müqabilində, onun davamçıları iddiasında olan bizlər belə düşünürük ki, yaxşı paltar geyək, yeməklərin ləzzətlisini yeyək. Bir sözlə, rahat və asudə həyat keçirək. Ürəyimiz istəyir ən son model maşını alaq və cürbəcür bəzəklərlə ona zinət verək.

Əlbəttə, bunu da qeyd etməliyik ki, hal-hazırkı dövranda camaatın o zamankı həyat tərzi ilə yaşamaları mümkün deyil. Çünki hər zamanın iqtisadi vəziyyəti və yaşayış səthi başqa zamanla fərq edir. Elmin və texnologiyanın inkişafı ilə yanaşı, xalqın həyat şəraiti də tərəqqi etmişdir. Zəruri olan şey, İslamın qaçılmaz üsul və qanunlarına riayət etməkdir. Hər zamana uyğun olaraq, insanların həyat və məişətində tələb olunan ehtiyaclar nəzərə alınmalıdır.

Lakin zamanın tə͗yin və zəruri etdiyi hədləri aşmaqdan - israfdan, artıqtamahlıqdan, təkəbbürdən pərhiz edilməlidir.

## ON ALTINCI DƏRS

### *MAL VƏ VƏZİFƏ HƏRİSLİYİNİN XƏTƏRİ, QƏNAƏT VƏ SADƏLİYİN SİTAYİŞİ*

1. Dünya hədəfdir, ya vasitə?
2. Məzəmmət olunmuş dünya;
3. Fəqir mö̓minlər cənnətin rahat yolçularıdır;
4. Qənaət və sadəliyin sitayişi və hərisliyin məzəmməti;
5. Dünyaya e̓tinasızlığın sitayişi.

## *DÜNYA HƏDƏFDİR, YA VASİTƏ?*

Qurʾan nöqteyi-nəzərindən əgər dünya olmasa, axirət də olmaz. Biz axirət dünyasını bu dünyadakı öz ixtiyarımızda olan əməllərimizlə yaradırıq. Bəʾzi rəvayətlərdə göstərildiyi kimi, dünya axirətin əkin yeridir. Deməli, dünya olmasa, heç kimsə cənnətə də getməyəcək, çünki cənnətin neʾmətləri dünya işlərinin mükafatıdır. Axirətin fəzilət və kəramətləri, insanın dünyadakı işlərinin, səʾylərinin məhsuludur. Deməli, dünya daha artıq dəyərə malikdir. Bu həqiqəti nəzərdə tutaraq belə bir sualla qarşılaşırıq ki, bəs niyə ravayətlərdə bu cür dəyərə malik olan dünya bu qədər məzəmmət edilir, haqqında pis danışılır?

Cavab olaraq deyirik: Dünya həyatı Allahın məxluqatı olması baxımından heç bir eyibə malik deyil. Dünyanın quruluşu və həyat sistemi, əslində ən dəqiq və ən münəzzəm, kamil və gözəl şəkildə xəlq edilmişdir. Buna görə də, əsas müəmmanı başqa yerdə axtarmalıyıq. Ayə və rəvayətlərə azacıq diqqət yetirəndə görəcəyik ki, eyib və irad insanın dünya ilə əlaqəsini necə qurmasında və rəftar tərzindədir. Çünki onun dünya ilə necə rəftar etməsi, gələcəkdə bu davranışın onun üçün zərərli ya zərərsiz, dəyərli ya dəyərsiz, yaxşı ya da pis olmasını təʾyin edir. İnsanın rəftarını, həyatın gələcəyini çıxmaq şərtilə, məcburiyyət və təzyiq nəticəsində yaranan bir sıra nadir şər və nöqsanlardan başqa, dünyaya daha nə irad və eyib tutmaq olar?

Əlavə olaraq, bu nöqsanlar dünyanın saysız-hesabsız kamalları və xeyirləri qarşısında müqayisəedilməzdir. Deməli, aydın olur ki, məzəmmət və irad insanın dünyaya baxış tərzində, dünya ilə münasibətini necə tənzim etməsindədir. Dünya ilə rabitəsini maddi baxışlar əsasında tənzimləyib, dünyanı hədəfinin əsas mehvəri hesab edən kəs, məzəmmət edilir. Belə insanlar güman edirlər ki, dünya həyatından başqa ayrı bir həyat yoxdur. Həqiqətdə, bu batil gümandır və dünyaya bu nəzərlə baxmaq böyük təhlükə olub, çoxlu sayda digər xətaların da insan əməlində zühur etməsinin əsas amili sayılır.

Bunun üçün də, dünyaya baxışımızı şəffaf etməliyik və anlamalıyıq ki, insan həyatı ancaq bu dünya ilə məhdudlaşmır, insanı qarşıda əbədi həyat gözləyir. İnsan dünyanı əsas məqsəd və son hədəf kimi yox, keçid və körpü olaraq hesab edərsə, kamala

çatması üçün bu yolda təbii olaraq, kifayət qədər mal-sərvət və digər lazım bilinən şeyləri özü üçün hazırlamalıdır. Belə olan surətdə yemək, geymək, ev, maşın, pul, sərvət, vəzifə əsas hədəf yox, kamal yolunun müqəddiməsi və vasitəsi hesab olunacaqdır. Lakin sadaladıqlarımız vasitə yox, əsas məqsəd kimi götürülərsə, bu halda insanın kamal yolunda, son hədəfə çatmasında maneə olacaqdır. Bu cəhətinə görə də, onlar məzəmmət edilmişdir.

## *FƏQİR MÖʾMİNLƏR CƏNNƏTİN RAHAT YOLÇULARIDIR*

Həzrət (s) mal və vəzifə hərisliyinin təhlükəsini anlatdıqdan sonra Əbuzər sual edir:

«Ey Allahın peyğəmbəri! Görəsən, Allahdan qorxanlar, təvazö`karlar, xalis iman sahibləri, daim Allahı zikr edənlər cənnətə getməkdə başqalarından öndəmi olacaqlar?».

Əbuzər mal və vəzifə hərislərinin fəlakətə sürükləndiklərini anlayandan sonra belə fikirləşir ki, yəqin Allahdan qorxanlar, təvazö`kar adamlar, cənnətin qabaqcılları olacaqlar. Lakin Həzrət (s) onun fikirlərini rədd edir və buyurur: «Müsəlmanların binəvaları öz qədəmlərini camaatın kürəklərinə qoyub cənnətə sarı yola düşərlər. O zaman cənnətin xəzinədarları deyərlər: «Öz yerlərinizi tutun ki, sizin haqq-hesabınıza baxılsın». Cavab verərlər: «Nəyə görə biz sorğu-suala tutulmalıyıq? Allaha and olsun, bizim hökumətimiz olmayıb ki, ona-buna da bir şey bağışlayaq və ədalətin icrasına qalxaq. Ehtiyaclarımızdan artıq bizə bir sərvət, dövlət verilməyib ki, kiməsə nəsə bağışlayaq, ya paxıllıq edib verməyək. Biz ömrümüzün sonunadək Allaha ibadət etdik və axırda da haqqın çağırışına «Ləbbeyk» dedik».

Təəccüblü olan burasıdır ki, dini tə`limlərdə təvazö`karlıq, təqva və daim Allah zikri ilə məşğul olmaq kimi dəyərlərə tövsiyə edilməsinə baxmayaraq, Peyğəmbər (s) təvazö`karları və zikr əhlini cənnətin qabaqcılları saymır və buyurur: «Cənnətin qabaqcılları, kasıbçılıqlarına baxmayaraq dinlərini qoruyub-saxlayanlar, çalışmaq, cihad və ya elmin təhsilindən peşman olmayanlardır. Onlar qədəmlərini camaatın kürəklərinə qoyub cənnətə daxil olacaqlar, sanki uçmaq istəyirlər. Onlara deyiləndə ki, dayanın sizin əməl dəftərinizə baxılsın, deyərlər: «Bizim vəzifəmiz, hökumətimiz olmayıb ki, camaatla da işimiz olsun və ədaləti icra edək. Pulumuz olmayıb ki, onu kiməsə verək və ya kimsədən gizlədək, əlimizdən

gələn iş Allaha bəndəlik etmək idi, bu işdə də əskikliyimiz olmayıb».

Bəli, onların sərvəti yox idi ki, israf edib cavabdeh olsunlar və ya kiməsə kömək etməkdə pullarını əsirgəsinlər. Buna görə də, onların əməllərinin sorğu-sualı uzun çəkmir. Çünki əgər mal-pulları olsaydı və onu da Allahın yolunda xərcləmiş olsaydılar, yenə də onların hesabını vermək uzun çəkməyəcəkdi.

Dünya haqqında deyilmiş məzəmmətləri və mal və vəzifə hərisliyinin insanın dininə vuracağı xətərləri nəzərə alanda, Peyğəmbərin (s) sözləri malı, pulu olmayan şəxslər və ya elmin təhsilində, cihadda iştirak etməkdə dünyadan bəhrələri olmayan kəslər üçün bir təsəllidir. Düzdür ki, insanın malı, dövləti olsa, ondan başqalarına infaq etmək, İslama xidmət məqsədilə istifadə edə bilər. Lakin elm öyrənməklə və ya cəbhədə vuruşmaqla mal toplamaq imkanından məhrum olub Allah yolunda bir şey xərcləmək imkanı olmayan şəxslərin məqam və dərəcələri, Allah yolunda malını, pulunu xərcləyənlərdən daha yuxarıdır. Çünki pulu, malı olan öz pulundan maya qoyur, lakin elm öyrənən və cəbhədə vuruşan öz varlığından, rahatlığından Allah yolunda sərf edir. Bu cür insanların əldə etdiyi dəyərlər, digərlərinkindən daha üstündür. Elə ki, müharibə qurtarır və insan cəbhədən əliboş evə dönür, görür ki, cəbhədə, cihadda olmayanlar, döyüşdən qaçanlar hamısı özlərinə mal-dövlət toplayıblar; imarət tikdiriblər, bağ-bostan salıblar, bir sözlə, rifah əldə ediblər. Mümkündür, şeytan onu vəsvəsə edərək desin ki, gördün, sən cəbhəyə getdin, əliboş qaldın, amma bax, camaat hara çatıbdır! Sən cəbhəyə getdin, vuruşdun, yaralandın, əlil oldun və indi də heç kim sənə əhəmiyyət, qiymət vermir. Amma başqaları vəzifə qazanıblar, mal-dövlət toplayıblar. Bu vəsvəsələr imanı zəif insanlara tə͗sir göstərib, onlarda peşmançılıq hissi yarada bilər.

Həmçinin, mümkündür dini elmlərin təhsili ilə məşğul olanlar vəsvəsə olunsunlar ki, necə də səhv etdik. Başqası universitetə getdi, dərsini qurtarıb münasib işə girdi və indi də pul qazanmaqla məşğuldur. Lakin mən biçarə otuz il dizimi yerə vurub dərs oxudum, axırda da bir tikə çörəyə möhtacam! Bu vəsvəsələr həmişə kasıb mö͗minlər üçün qarşıya çıxır. Buna görə də, Həzrət (s) öz kəlamı ilə onlara təskinlik və xatircəmlik verir ki, düzdür ki, dünya malı toplayanların karvanından geridə qalmısınız, lakin siz

başqalarının məhrum olduğu daha yüksək dəyərlərə maliksiniz. Qiyamətdə onlar sizin məqamınızın həsrətini çəkəcəklər.

Hədisin davamında buyurur:

«Ey Əbuzər! Dünya camaatın canını, ruhunu özünə məşğul edər. Allah Təbarək və Təala bizə bəxş etdiyi halal ne᾿mətlərin hesabını soruşar. O ki, qalmışdı haram ola».

Şübhəsiz, dünya malını qazanmaq üçün insan zəhmət çəkib canından, vaxtından keçməlidir. Alış-verişlə məşğul olanlar yaxşı bilirlər ki, hərdən insanın problemi o qədər olur ki, insanın gecə rahatlığını belə əlindən alır, həmişə başında alış-veriş, alacağı – verəcəyi, vergi və bu kimi məsələlər dolaşır. Hər halda, qazanc fikrində olan adam zəhmət çəkməlidir. İstər halal yolla olsun, istər də haram – pul qazanmaq, mal toplamaq çətindir. Təbiidir ki, bu cür insan ibadətə, düşünməyə vaxt tapmır. Macal tapıb Allah, qiyamət barəsində düşünə bilmir, duaya, münacata qalxa bilmir.

Dərin məhəbbətlə dünyaya ürək bağlayan insanlar, hətta ibadəti də dünya üçün vasitə olaraq seçirlər. Səhərdən axşama kimi başında dünya malı dolaşır, gecə namazına duranda da ancaq ruzi duası oxuyur, Allaha yalvarıb malının çoxalmasını istəyir. Bundan da artıq alçaqlıq, rüsvayçılıq nə ola bilər ki, Allahın ibadətini, zikrini də qarnı, malı üçün xidmətə yönəldir! Behiştə, ilahi rizvana yetişmək üçün ibadət etmək əvəzinə, onu artıq çörəyə, gözəl evə, bahalı maşına sahib olmaq üçün vasitə seçir. Bunun müqabilində dünya bəndlərindən azad olmuş insan üçün dünyanın varlığı ilə yoxluğu birdir. Onun üçün bir ovuc torpaqla qızılın heç bir təfavütü yoxdur. Əgər biz belə insanları tanımasaq da, həqiqət budur ki, bu cür insanlar bizim içərimizdə, bəlkə də, elə lap qonşuluğumuzda vardır. Elə adamlar var ki, onlar üçün bir yeşik zibillə bir bağlama pulun heç bir fərqi yoxdur. Onlar üçün dəyərli olan malın, pulun Allah yolunda sərf edilməsidir. Bəlkə də, insan öz gözləri ilə görməsə inanmaz, amma mən öz gözlərimlə gördüyüm üçün inanıram.

Təqribən qırx il bundan əvvəl samovar almaq üçün Tehran bazarına bir nəfər tacirin yanına getdim. Alış-verişdən sonra Qum şəhərinə getməliydim. Həmin tacirin cazibəsi məni elə tutdu ki, gün batana qədər onun yanında qaldım. Bu müddətdə mənə nəsihət edir və arada da göz yaşları yanağından süzülüb üzü aşağı ağ saqqalına hopurdu. O məndən soruşdu:

- «Hövzədə birinci hansı kitabı oxumağa başlayırsınız?
- «Əmsilənin şərhi»ni.
- Onun başlanğıcında nə yazılmışdır?
- Yazılıb ki, «elmin əvvəli Cabbar olan Allahı tanımaqdır.
- Öyrənə bildinmi ki, elmin əvvəli Allahı tanımaqdır?

O, söhbət edirdi və söhbət edə-edə də, yaş gözlərindən yağış kimi, dayanmadan süzülürdü. Bu vəziyyətdə şagirdləri alış-verişlə məşğul idilər və onun özü də e᾽tinasız halda pulları alıb, sandığa atırdı.

Günorta namazının vaxtı çatanda gözüyaşlı halda yerindən qalxıb məscidə getdi. Mən də namazımı qılıb nahar yeyəndən sonra təzədən onun dükanına yollandım. Gün batana qədər onun yanında qalıb nəsihətlərinə qulaq asdım.

Bəli, əgər dünya hərisliyi insanda olmasa, çamadanlarla pul onun üçün dəyərsiz olacaqdır. Belə adamın ürəyi başqa yerdədir. Amma ürəyini dünya məhəbbəti işğal etmiş insan namaz qılanda da ürəyi, xəyalı başqa yerdə olur və namaz qılmaqda hədəfi dünyadır. Dünya məhəbbəti ürəyin kürsüsündə oturanda, insan, hətta ürfan oxusa da, seyri-süluk yolu ilə tanış olsa da, fikrində olan bu olacaq ki, heç kimin yüksələ bilmədiyi bir yerə çatsın; bununla da başqalarından fərqli bir cəhəti olsun. Həqiqətdə o, Allaha bəndəçilik fikrində deyil. Hind yoqlarının ruhi məşğələlərlə, cismi və ruhi əziyyətlərə qatlaşmaqla əldə etdiyi bir sıra fövqəl᾽adə işlər kimi, onlar da ancaq başqalarının görə bilmədiyi bir para işlərə çatırlar.

İslam məktəbində tərbiyə olunmuş insanların düşündüyü şey yalnız xalis bəndəçilikdir. İslamın söylədiyi, insanın bütün sə᾽y və gördükləri Allah üçün olmalıdır. Hətta mal-dövlət yığması da Allah üçün olmalıdır. Necə ki, Əli (ə) öz zəhməti və xərci ilə xurma ağacı əkib bağ salar, quyu qazıb su çıxarar və bütün bunları Allah yolunda vəqf edərdi.

Deməli, sə᾽y edib dünyaya məhəbbətimizi azaltmalıyıq. Əlbəttə, adi insanların ixtiyarında nə qədər çox dünya malı qoysan, təbii olaraq, dünyaya daha çox bağlanırlar. Çünki dünya ne᾽mətləri artdıqca , get-gedə dadı insanın ürəyinə oturur və onun dünyaya daha artıq meyl etməsinə səbəb olur. Buna görə də sərvət, qazanc dalınca düşən adamların boynunda böyük məs᾽uliyyət vardır və qiyamətdə bir-bir gördükləri işlərdən sual ediləcək, istər yığdıqları malı halal yolla əldə etsinlər, istərsə də haram yolla.

Adi insanların əksinə olaraq, Allah övliyaları nə qədər sərvətə, dövlətə çatsalar, zərrə qədər də olsa dünyaya bağlanmırlar, ürəkləri həmişə özgə yerdədir. Əlbəttə, belə insanlar çox azdır. Tarix boyunca Süleyman (ə) kimi insanlar çox az olub. Süleyman (ə) ixtiyarında əzəmətli dövlət, tükənməz sərvət olmasına baxmayaraq, özü həmişə arpa çörəyi yeyərdi.

Peyğəmbərin (s) qiymətli buyuruğuna diqqət edərək, yaxşı olardı ki, insan pul, sərvət toplamaq fikrində olmasın. Allaha ibadət və bəndəçilik etməklə, özünü dünya çirkinliklərindən pak saxlasın. Əbuzər kimi ki, Əli (ə) onun vəsfində buyurur:

«Keçmişdə mənim bir din qardaşım var idi. Dünyanı nəzərində kiçik tutmağı, onu mənim gözümdə böyütdü».

## *QƏNAƏT VƏ SADƏLİYİN SİTAYİŞİ VƏ HƏRİSLİYİN MƏZƏMMƏTİ*

«Ey Əbuzər! Mən Allahdan istəmişəm ki, dostlarımın ruzisini ehtiyacları qədər qərar versin, amma düşmənlərimin mal və övladlarını çox etsin».

İşarə edildiyi kimi, ne᾽mətlərin çoxluğu əksər insanların dünyaya ürək bağlamalarına səbəb olur. Onların həddən artıq dünyaya bağlanmalarının qarşısını almaq üçün yaxşı olardı ki, öz ehtiyacları həddində imkanlara malik olub, dünya ne᾽mətlərindən ehtiyacları həddində bəhrə götürəydilər. Buna görə də, Peyğəmbər (s) öz dostlarına ürəyi yandığı üçün Allahdan ehtiyacları həddində onların ruzisini yetirməsini rica edirdi. Bundan artığı əgər onları israfa, əyri yollara aparıb çıxaracaqsa, olmaması daha yaxşıdır. Bunun əksinə olaraq, Allahdan düşmənlərinin malının, övladının artmasını xahiş edir. Həqiqətdə, Allah düşmənlərinin sərmayəsinə artım bəxş etmək ilahi bir qayda olub, «istidrac qanunu»dan götürülmüşdür. Yə᾽ni Allah-təala kafirlərə o qədər maddi ne᾽mət və dünyəvi imkanlardan istifadə fürsəti verər ki, onlar dünyaya qərq olduqları üçün küfr və üsyanları get-gedə artar və nəticədə də onlara veriləcək əzab daha şiddətli, daha artıq olar. Əlavə olaraq, bu yolla onların dünyəvi nigarançılıqları, narahatlıqları da artar. Allah düşmənləri üçün bu dünyada bundan da artıq əzab nə ola bilər ki, dünyanın gözqamaşdırıcı zinətləri arasında qərq olmaqla, Allahın tovfiq və inayəti onların üzərindən götürülür. Gündən-günə küfrün yeni

mərhələlərinə qədəm qoyur, quduraraq azğınlaşırlar. Bu barədə Allah-təala buyurur:

«Küfr edənlər onlara verdiyimiz möhləti heç də özləri üçün xeyirli sanmasınlar! Bizim onlara verdiyimiz möhlət ancaq günahlarını daha da artırmaları üçündür. Onlar zəliledici bir əzab görəcəklər!»[1].

Başqa bir yerdə buyurur:

«(Ya peyğəmbər!) Münafiqlərin nə malları, nə də oğul-uşağı səni təəccübləndirməsin. Allah yalnız münafiqlərə əzab vermək, kafir olduqları halda canlarını almaq istəyir»[2].

Allah, mö᾽minlərin gözlərini dünya sərvətinə dikməməsi və dünya əhlinin həsrətini çəkməməsi üçün buyurur:

«Kafirlərin bə᾽zi zümrələrinə verdiyimizə (fani dünya malına) rəğbət gözü ilə baxma (və ya gözünü dikmə, çünki bunların arxasınca küfr edənləri dəhşətli bir əzab gözləyir), onlar iman gətirmədiklərinə görə, kədərlənmə (yaxud onlara verdiyimiz sərvətə görə qəmgin olma, axirətdə səni daha böyük ne᾽mətlər gözləyir). Mö᾽minləri qanadın altına al (iman gətirənlərə qarşı təvazö`kar olub, yumşaq davran və onları himayə et»[3].

Əli (ə), ondan «xeyir»in mə᾽nası haqqında soruşana belə cavab verir: «Xeyir və yaxşılıq o demək deyil ki, malın və övladın artıb çoxalsın. Xeyir və yaxşılıq odur ki, sənin elmin artsın, səbrin və helmin qüvvət tapsın. Xalqın gözündə ibadətinlə yüksəlməyə çalış».

Əgər yaxşı rəftar etdinsə, (bunun üçün) Allahına şükr et, yox əgər, pis rəftar etdinsə, Allahdan bağışlanmağını dilə. Dünyada yaxşılıq iki kəsin xüsusiyyətidir:

1. Etdiyi günahı tövbə etməklə yuyan şəxs;
2. Yaxşı işlərdə qabağa düşən, öncül şəxs.

## *DÜNYAYA E᾽TİNASIZLIĞIN SİTAYİŞİ*

Hədisin davamında Peyğəmbər (s) buyurur:

«Ey Əbuzər! Xoş dünyada zahid olanların halına! Xoş axirətə ürək bağlayanların halına ki, Allahın yerini genişləndirir, torpağını özlərinə xalı və suyunu ətir qərar vermişlər. Batinlərini Allahın

---

[1] «Ali-imran» surəsi, ayə 178.

[2] «Tövbə» surəsi, ayə 55.

[3] «Hicr» surəsi, ayə 88.

kitabı ilə bəzəyib, zahirlərini duaları ilə örtmüşlər. Dünyadan qırılıb üz döndərmişlər».

Xoş o kəslərin halına ki, dünyaya rəğbətləri yoxdur və ancaq axirət barəsində düşünürlər. Çünki onlar dünya həqiqətlərini tanımış və həqiqi dəyərin harada olduğunu bilirlər. Onlar torpaq üzərində, yerdə oturmağa razı olarlar. Onlar üçün torpaqla qiymətli xalıların dəyəri birdir. Lakin dünyaya ürək bağlayan bizlər yerdə, torpaq üzərində oturmağı özümüzə sığışdırmırıq. Qorxuruq, birdən camaat bizə baxıb ağız büzər, biz də xəcalət çəkərik. Çalışıb özümüzdə bu ruhiyyəni yaratmalıyıq ki, torpaq üzərində oturmaqla, xalça üzərində oturmaq bizim üçün də bir olsun. Əgər bir gün bir nəfər fəqirin yanında təvazö`karcasına yerdə oturaraq onun ürəyini ələ almaq vəzifəsi öhdəmizə düşsə, utanıb xəcalət çəkməməliyik.

Zahidlər üçün özlərini qiymətli ətirlərlə ətirləndirmək heç də lazım deyil. Onlar üçün yerdə axan su ilə də özlərini paklayıb ətirləndirmək yetər. Onların Allahla rabitəsi o qədər güclüdür ki, Qur᾽an oxuduqları zaman Allahın onlarla danışdığını hiss edər və ya dua etdiklərində sanki Allahla həmsöhbət olarlar. İnsanların içindədirlər və üzləri onlara tərəfdir, ancaq ürəkləri başqa yerdədir. Dünyadan gördükləri bəhrə budur ki, onu arxada qoyarlar və kağız kimi büküb atarlar. Dünya keçici və fani olduğu üçün Allaha və əbədi qalacaq şeylərə nəzər salarlar.

Dəfələrlə deyilmişdir ki, tərbiyəvi xarakter daşıyan bu bəyanlar ona görə deyil ki, birdəfəlik dünya ne᾽mətlərini bir kənara qoyaq və ya bu mə᾽nada deyil ki, ixtiyarında dünya ne᾽mətləri olan insanlar pis adamlardır. Bütün bu bəyanlar ona görədir ki, dünyaya olan bağlılığımız azalsın və vəzifəmizin bizdən nəyi tələb etdiyinə diqqət edə bilək. Əgər vəzifəmiz yaxşı paltar geyməyi, yaxşı maşına minməyi və bu kimi şeyləri tələb edirsə, vəzifə və Allahın tələbi olduğu üçün həmin işi də görməliyik. Lakin bu ne᾽mətlərin sorağına öz istəyimizlə gedəcəyiksə, çox qorxulu bir yola qədəm qoymuş olarıq. İstər-istəməz Allahın razı olmadığı işlərə sürüklənərik. Çünki ürəyin istəyi ilə Allahın istəyi bir yerə sığmır. Ürəyin və həvayi-nəfsin yolu, Allahın yolundan ayrıdır və heç vaxt bir-birinə yaxınlaşmırlar:

«(Ya Peyğəmbər!) Nəfsini özünə tanrı edən və Allahın bilərəkdən (onu hələ yaratmamışdan öncə, gələcəkdə kafir olacağını bildiyi üçün) yoldan çıxartdığı, qulağını və qəlbini möhürlədiyi, gözünə də

pərdə çəkdiyi kimsəni gördünmü? Allahdan başqa kim onu doğru yola gətirə bilər? Məgər düşünüb ibrət almırsınız?»[1].

Deməli, bu bəyanlar dünya məhəbbətinin insanların qəlbində azalması üçündür. Torpaq üzərində əyləşməyin bəyənilməsi və qiymətli xalçaların, dekorun, cah-cəlallı həyatın fikrində olmamaq deyəndə, bu o demək deyil ki, özümüzü əzab-əziyyətə salaq və Allahın ne᾿mətlərindən bəhrələnməyək. Sufiliklə məşğul olan bir şəxs imam Sadiqə (ə) ərz etdi: «Bu xəz libası niyə geyinmisiniz? Məgər siz Əlinin (ə) övladı deyilsiniz?» Həzrət (ə) buyurdu: «Əlinin (ə) zamanında xalq kasıb dolanırdı, buna görə də, İmamın müsəlmanlara nisbətən daha sadə yaşaması lazım idi ki, xalq öz kasıbçılığından narahat olmasın. Lakin camaatın yaşayış səviyyəsi yuxarı qalxarsa, salehlərin bu ne᾿mətlərdən istifadə etməyə daha artıq ləyaqətləri çatar».

Şərait tələb edərsə, müsəlmanlar sənətdə inkişaf və həyat tərzində yeniliyin ardınca getməlidirlər. Tələb olunan yerdə müsəlman kafirlərdən gözəl geyinməli, ondan da yaxşı maşına minməlidir. Əgər müsəlmanlar zamanın ehtiyaclarından doğan, cəmiyyətlərinin tələb etdiyi, ehtiyacı olduğu sənayenin, texnologiyanın inkişafı, tərəqqisi haqqında düşünməsələr, əlacsız əllərini kafirlərə uzatmalıdırlar və bu, onların zillətinə, başıaşağı olmasına gətirib çıxaracaqdır.

İctimai baxımdan İslam cəmiyyəti əgər ən aşağı qənaət həddində yaşamaq istəsə, yalnız ibtidai sənət növündən istifadə etmək istəsə, ibtidai minik və silahla təchiz olunsa, bir sözlə, bu fikirlə sadə və qənaətcil cəmiyyətə sahib olmaq istəsə, yaradıcılığa və ixtiraya məhəl qoymasa, çox yəqin ki, kafirlərin əli altında olacaqdır. Belə cəmiyyət xar, zəlil və ona-buna ehtiyaclı olacaqdır. Allah-təala ilahi cəmiyyətin kafirlərin əlində əsir-yesir olmasını istəmir. Qur`ani-kərimdə bu barədə buyurulur:

«…Allah heç vaxt kafirlərə mö᾿minlərin əleyhinə olan bir yol göstərməz»[2].

İzzətli olan ancaq Odur və bu izzəti Rəsulu və mö᾿minlər üçün bilir:

---

1 «Casiyə» surəsi, ayə 23.

2 «Nisa» surəsi, ayə 141.

«…Halbuki şərəf-şan da, qüvvət və qələbə də yalnız Allaha, Onun Peyğəmbərinə (s) və mö᾽minlərə məxsusdur, lakin münafiqlər (bunu) bilməzlər»[1].

Sənətdə, texnologiyada geriliyin istismara, yad mədəniyyətlərin həmin ölkəyə təcavüzünə səbəb olduğunu nəzərə alaraq, İslam ümmətinin tərəqqisi üçün çalışmaq hər bir müsəlmanın ilahi vəzifəsidir. Bu vəzifədən heç bir bəhanə ilə boyun qaçırmaq olmaz. İslam Peyğəmbəri (s) və imamlarımız (ə) tərəfindən müsəlmanların elmə və sənətə yiyələnmələri barədə çoxsaylı buyuruqları da dediklərimizə şəhadət verir. Rəsuləllah (s) buyurur:

«Elmin ardınca gedin, hətta o, Çində də olsa».

Yə᾽ni İslam cəmiyyətinin ehtiyac duyduğu bütün elmləri öyrənin. Bu bölümün sonunda Həzrət (s) buyurur:

«Ey Əbuzər! Axirətin məhsulu yaxşı əməllər, dünyanın məhsulu isə mal və övladdır».

Axirət istəyən kəs saleh əməllərin ardınca getsin, dünyanı istəyən kəs mal-dövlət toplasın.

---

[1] «Munafiqun» surəsi, ayə 8.

# ON YEDDİNCİ DƏRS

## *AĞLAMAĞIN AXİRƏTƏ TƏ᾿SİRİ, MÖ᾿MİNİN QƏLBİNİN GENİŞLİYİ VƏ TƏQVALI OLMASI*

1. Axirət üçün ağlamağın təˈsiri;
2. Möˈminin qəlbinin genişliyi və onun nişanələri;
3. Təqvalı olmaq, riya və nifaqdan dönmək;
4. Niyyət və onun əməlin ölçüsündəki rolu.

## *AĞLAMAĞIN AXİRƏTƏ TƏ᾽SİRİ, MÖ᾽MİNİN QƏLBİNİN GENİŞLİYİ VƏ TƏQVALI OLMASI*

Peyğəmbəri-əkrəmin (s) öncəki bəhslərdə təhlil olunan ümdə nəsihətləri üç mehvər ətrafında dolanırdı:

1. Dünya məhəbbəti və ona bağlılıqdan pəhriz etmək;
2. Allahı zikr etməyə təşviq;
3. Xüzu`, xüşu` və Allah xofu ilə axıdılan göz yaşı.

Hədisin bu bölümündə Həzrət (s) yenidən Allah qorxusu ilə ağlamağın və ya Ona qovuşmaq şövqü ilə axıdılan göz yaşının əhəmiyyətindən bəhs edir. Həmçinin, axirətə diqqətli olmaq, dünyadan üzülüşmək, batini təmizlik və riyadan çəkinməyin əhəmiyyəti haqqında danışır.

## *AXİRƏT ÜÇÜN AĞLAMAĞIN TƏ᾽SİRİ*

«Ey Əbuzər! Pərvərdigar mənə xəbər verdi ki, and olsun izzət və cəlalıma, abidlər ağlamağın savabının nə olduğunu bilməyəcəklər. (Axirət üçün) göz yaşı axıdan kəsə, behiştin ən yüksək mərtəbəsində qəsr ucaldaram və heç kimi (onun bu mükafatına) şərik qoşmaram».

İşarə edildiyi kimi, Peyğəmbərin (s) tövsiyə etdiyi ağlamaq, Allah xofu və ya Onun vüsalının şövqü ilə olan ağlamaqdır. Düzdür ki, bu iki növ ağlamaq Allaha diqqətin yönəlməsində və insanın oyanışında həyati rola malikdir, lakin Allah vüsalının şövqü ilə olan ağlamaq daha üstün və dərin mə᾽rifətlə yanaşı olduğu üçün hər kəs ona nail ola bilmir. Ancaq kiçik bir dəstə, o cümlədən mə᾽sumlar (ə) bu mə᾽rifətə çatırlar.

Övliyaların və mə᾽sumların Allaha aşiqliyi və vurğunluğu, həmçinin, aşiq üçün öz mə᾽şuqundan ayrı düşüb fəraqda olmaqdan daha artıq bir dərd olmadığını nəzərə alaraq, imamlardan (ə) gəlib çatan dualara diqqət yetirdikdə bizə daha aydın olur ki, onlar fərağın dərdindən necə nalə çəkir və mə᾽şuqlarının vüsalının şövqündən necə yanırmışlar.

Həzrət Əli (ə) və həmçinin imam Səccaddan (ə) gəlib çatmış duaların özü, Əhli-beytin (ə) Allah dərgahına olan sonsuz eşqlərinə bir nümunədir. Bu dualara diqqət yetirdikdə, mə᾽sumlarımızın sahili görünməz mə᾽rifət dəryalarının kiçik bir hövzəsi bizlərə də

aydın olur. Bu elə bir mə'rifətdir ki, onun sayəsində pak imamlarımız bir an da olsa Allahı unudub qəflətə düşməmişlər. Allahı hər şeydən üstün, hər bir şeyi onun qüdrət əlində gördükləri üçün ancaq Ona aşiq idilər və daxillərində olan bu şeyda onların bütün rahatlıqlarını, qərarlarını, əllərindən almışdı. Onların dua və münacatları eşqlərin hansı zirvədə qanad çaldıqlarını açıq bəyan edir.

Əli (ə) Kumeyl duasında məhbubuna qovuşmaq üçün hansı şövqlə çırpındığını biruzə verir və bu sirrin üzərindən pərdə götürür. Onun fərağına səbir etməyi, Onun əzabına dözməkdən daha çətin görür və Allaha xitab edərək belə deyir: «Ey Allahım, Mövlam, Ağam! Deyək ki, Sənin əzabına səbir etdim, bəs fərağına necə dözəcəyəm?!».

Allahdan ayrı düşdüyü halda, hansı narahatlığı keçirəcəyinin bəyanının davamında deyir: «İzzət və cəlalına and olsun, ey Mövlam və Ağam! Əgər məni cəhənnəmə bu dilimlə (danışan halda) göndərsən, cəhənnəm əhli arasında nalə çəkib, fəryad qoparacağam, məhbubunu əlindən verənlər kimi sənin fərağının dərdindən ağlayıb, sızlayacağam».

İmam Səccad (ə) Əbu Həmzeyi Somalinin duasında buyurur: «Mən bu gün-sabah etməklə, uzun-uzadı arzulara qapılmaqla öz ömrümü hədər etdim. İndi elə yerə gəlib çatmışam ki, öz nəfsimi islah etməkdən tamamilə ümidimi üzmüşəm. Görəsən, məndən də bədbəxt, qarabəxt adam tapılarmı? Vay! Əgər mən bu halımla qəbrə yollanası olsam, neyləyəcəyəm? Qəbir evindən özümə heç bir şey hazırlamamışam, yaxşı, saleh əməllərimlə ora xalılar döşəmişəm. Niyə də ağlamayım?! Başıma nə gələcəyini bilmirəm, indi nəfsim məni aldadır, başımın üstündə məkr və hiylə küləkləri əsir, ölümün qanadları başımın üstə kölgə salmışdır».

Ağlamaq insan qəlbini rəzilət və əxlaqi küdurətlərdən təmizləməsinə görədir ki, Peyğəmbər (s) buyurur:

«Ağlamağa görə nəzərdə tutulan fəzilət və bəxşiş heç bir şey üçün nəzərdə tutulmayıbdır. Göz yaşı axıdanların çatdığı məqama başqaları, hətta ibadət etməklə belə çata bilmirlər».

Əbuzər ən zirək və uzaqgörən adam haqqında sual edir və Peyğəmbər (s) cavabında buyurur:

«Ən zirək adam o kəsdir ki, başqalarından daha öncə ölüm haqqında düşünsün və özünü hamıdan tez ölümə hazırlasın».

Yolunu müəyyənləşdirmiş insan zirək və gözüaçıq olarsa, həmişə diqqəti hədəfdə olacaqdır və sə᾽y edəcək ki, məqsədə daha tez çatsın. Tutduğu yolda hədəfindən qəflətə düşən şəxs, heyrətdə qalıb çaşqınlıq içində vurnuxacaq, məqsədə salamat çatmayacaqdır. Əsas məqsədin nə olduğunu bilən və dünyanın axirətə çatmaq üçün bir vasitə olduğunu dərk etmiş adamı maddi cazibələr aldada bilmir. Belə adam daim ölümü xatırlayır və özünü o gün üçün hazırlayır. Buna görə də, ölümü yetişdiyi zaman Allah dərgahına əlidolu gedir. Amma hədəflərini itirmiş insanlar axirətə azuqə toplaya bilmirlər və səfər ləvazimatı olmadan, uzun bir yola qədəm qoymaq olduqca qorxulu bir işdir.

## *MÖ᾽MİNİN QƏLBİNİN GENİŞLİYİ VƏ ONUN NİŞANƏLƏRİ*

Peyğəmbəri-əkrəm (s) hədisin davamında buyurur:

«Ey Əbuzər! Nur ürəyə daxil olanda, ürək açılıb genişlənir».

Başlanğıcda ürəklər qaranlıq olur. Allah öz nurunu mərhəmət etdiyi zaman ürəklər həmin nuru cəzb edirlər. Həmin nur ürəklərdə qərar tutduğu zaman ürəklərin tutumu artıb genişlənir. Mə᾽qulun məhsusa (dərk edilənin hiss edilənə) bənzədilməsi kimi ki, quru və boş su tuluğuna su tökdükdə, islanıb genişlənir və ya şarı üfürdükcə, həcmi artıb genişlənir. Ürək də ilahi nurla genişlənir və tutumu artır.[1]

Bəlkə də, Rəsuləllahın (s) demək istədiyi budur ki, ölümü çox yada salıb onun gəlişinə hazır olmaq, insanın qəlbinin çırağını işıqlı saxlayır və ölümü yada salmağın tə᾽sirindən insanın ruhunda nur icad olur ki, onun pak fitrətinin günahın zülmətinə bulaşmasının qarşısını alır. Həmin nurun tə᾽siri nəticəsindədir ki, - Həzrətin (s) tə᾽biri ilə desək - insanın qəlbi genişlənib, tutumu artır. Bu mə᾽nada ki, dünyanın dar və məhdud çərçivəsini aşıb genişliyə qovuşur, sonsuz və əbədi aləmə üz tutur.

Belə bir halın dərki Əbuzər üçün hissedilməz olduğu üçün - çünki bu iş hiss ediləsi bir şey deyil ki, hiss orqanları ilə ona yol tapasan -

---

[1] (Ürək dedikdə, sinədə yerləşən, sənubəri şəklində olan bədən üzvü nəzərdə tutulmur. Burada məqsəd onun mə᾽nəvi mahiyyətidir, ürək və qəlb imanın sığınacağıdır).

Peyğəmbərdən (s) qəlbin genişliyinin nişanələrini soruşur. Həzrət (s) cavabında bu halın üç nişanəsini göstərir:

1. Qəlbin genişlənməsinə dəlalət edən ilk əlamət, onun axirətə meyl salmasıdır;

Bu məʾnada ki, insan fani və keçici dünyaya göz yumub, əbədi axirətə göz diksin. Rəhmətlik Rağib İsfəhani «inabət» (**انابة**) sözünün məʾnası barədə verdiyi açıqlamada buyurur: «Allaha tərəf inabət, tövbə və saleh əməl vasitəsilə Ona tərəf qayıdış məʾnasındadır».

2. Qəlbin genişliyinin ikinci nişanəsi, aldadıcı dünyadan kənarlaşmaqdır.

Möʾmin diqqəti axirətin əbədi dünyasına yönəltdiyi zaman dar və maddi aləm onun ürəyini sıxmağa başlayır. Buna görə də, ürək tellərini dünyadan qırıb, bu aləmdən köçəcəyi günə hazırlaşır.[1]

«Darul-ğürur» (qürur sarayı) dünyanın Qurʾan və rəvayətlərdə zikr olunan adlarından biridir. «Ğürur», aldatmaq və kələk gəlmək məʾnasındadır. Dünyanın bər-bəzəyi insanı aldadıb özünə məftun etdiyi üçün ona «darul-ğürur» (qürur evi), yəʾni «aldadıcı məkan» deyirlər. Dünyanın aldadıcı olmasının izahında Əllamə Təbatəbai (r.ə.) buyururdu: «İnsanın fitri bir tələbi var. Yəʾni insan fitrətinin itirdiyi, ayrı düşdüyü bir şey var və insan daim ona çatmaq üçün çarpışır və çalışır. Onun əsas hədəfi Allaha qovuşmaqdır».

Başqa bir təʾbirlə desək, onun fitri axtarışı mütləq kamala çatmaqdır. Baxmayaraq ki, onun özü bundan xəbərsizdir, amma xəbəri olmadan mütləq kamala doğru hərəkətdədir. Bə`zən o, əsas hədəfini itirir və səhv olaraq dünyanı ali hədəf sanır. Həqiqətdə, dünyanın bər-bəzəyinə aldanıb onu özünün itirdiyi şey, itkisi güman edir. Yəʾni dünya özünü həqiqi tələb olunan itki və son hədəf kimi insana təqdim edir. Nəticədə insan uzun zəhmətdən sonra dünyaya çatır və görür ki, bu onun axtardığı şey deyilmiş və onun məʾnəvi ehtiyaclarını ödəmir.

---

[1] («Təcafi», dünya bəndlərindən qurtulmaq məʾnasındadır. Necə ki, namaz qılan şəxs namazdan durmaq istəyərkən yerdən üzlüşdüyü zaman, əl və ayaq barmaqları ilə yerə təkiyə verdiyi hala «təcafi» halı deyirlər).

Bu baxımdan dünyanı sü`ni əmziyə bənzətmək olar ki, uşaq acıb süd istədikdə, onu uşağa verirlər. Hər şeydən xəbərsiz uşaq da əmziyi ana döşü zənn edib, əmməyə başlayır və nəhayətdə hiss edir ki, boş əmzik onu doyurmur.

Bəli, dünya göz qarşısında canlanan ilğıma bənzəyir. İnsanın həqiqi tələbi, ilahi dərgahdan süzülən həyat suyudur ki, onun fitrətinə can verir. Baxmayaraq ki, dünya özünü həqiqi tələb kimi qələmə verir. Məsələn, hərdən özünü ev, maşın vasitəsilə cilvələndirir, hərdən də ləzzətlər və digər cazibələrlə nümayiş etdirir. Lakin bilmək lazımdır ki, dünya özünün bütün genişliyi, müxtəlif ləzzətlər və ne᾿mətləri ilə birgə mütləq kamal və Allah rizasına çatmaq üçün bir vasitədir.

Deyilənlərdən bu nəticəyə gəlmək olar ki, ürəyini zülmət basmış, qəlbində iman çırağı yanmayan kəs, dünyaya aldanır və onun zahiri gözəlliklərini həqiqi tələb olaraq görür. Lakin qəlbi Allah nuru ilə işıqlanmış insanın çöhrəsində zülmət pərdələri yırtılıb, qəflət qubarları təmizlənir və həqiqəti aydın görməyə başlayır. Belə adam səhv etmir, o ancaq axirətə ürək bağlayır və hətta bir an da olsa belə, dünyaya nəzər salması mümkün deyil. Çünki dünyanın ürək veriləcək yer olmadığını bilir.

3. Qəlb genişliyinin üçüncü nişanəsi hələ sağ ikən ölümə hazır olmaqdır.

Elə ki, insan dünyadan göz çəkib axirətə bağlandı, əbədi diyara köçmək və əsas hədəfə çatmaq üçün həmişə hazır olmalıdır. Dünya üçün yaradılmadığını və dünyanın əbədi həyata köçmək üçün keçid körpüsü olduğunu bilən adam, səbirsizliklə onu Allaha qovuşduracaq anın gəlib çatmasını gözləyir. Mümkün qədər tez bu körpünü keçib son məqsədə çatmaq istəyir.

Tələsmək və səbirsizlik halları bu dünyada da bizim qarşımıza çıxır. İnsan maşınla bir yerə getdiyi zaman, yol boyu oraya tez çatmasını arzu edir. Mindiyi maşın digər maşınlardan qabağa keçəndə sevinir ki, başqalarından tez gedib çatacaq. Hərçənd, bu bir uşaq həvəsidir, lakin onun mənşəyi vardır. Bilir ki, məqsədi başqa yerdir və onun yolda heç bir işi yoxdur, bununla belə çalışır ki, yolu tez başa vursun. Əlbəttə, məqsədə çatmaq üçün sə᾿y göstərmək əqli bir işdir.

Deməli, qəlbi ilahi nurla işıqlanmış və gözü həqiqətlərə açılmış bəndə, məqsədin haqqa varmaq və dünyanın ancaq vasitə olduğunu bilir. Buna görə də, əsas hədəfə çatmaq üçün bu vasitəni ona

xidmətə yönəldir. Öz məşuquna qovuşmaq anının şövqündən elə məsti-xumar olur ki, hətta dünyanı birdəfəlik unudur.

## *TƏQVALI OLMAQ, RİYA VƏ NİFAQDAN DÖNMƏK*

Peyğəmbəri-əkrəm (s) Əbuzərə riyadan çəkinməyi tövsiyə edərək buyurur:

«Ey Əbuzər! Allahdan qorx! Sənə hörmət etsinlər deyə, insanlara özünü yalandan Allahdan qorxmuş kimi göstərmə. Üzdə təqvalı olub, ürəyində günah iş fikirləşənlərdən olma».

Riyanın həqiqəti budur ki, insan zahirdə, özünü batində olduğundan yaxşı göstərməyə çalışır. Üzdə göstərdiyi batində olduğunun əksinədir. Rəvayətlərdən riya istilahi olaraq gizli şirk mə᾽nasında qəbul edilir və riyakarı «müşrik» adlandırırlar.

Allahın insana mərhəmət qıldığı geniş rəhmətlərdən biri də, onların eyiblərini örtməsi və günahlarını gizli saxlamasıdır. Buna görə də, Allahın məşhur adlarından biri, «Səttarəl-uyub»dur (eyibləri örtən). Doğrudan da, əgər insanların pislikləri faş olsaydı və bir-birinin eyiblərindən xəbərdar olsaydılar, yaşamaq onlar üçün cansıxıcı olardı. Bu səbəbdən də eyiblərin örtülü saxlanılması, Allah tərəfindən böyük ne᾽mət sayılır və onun şükrü vacibdir. Əli (ə) buyurur: «Bir-birinizin gizli eyiblərini bilsəydiniz, heç biriniz digərini torpağa basdırmazdı».

Allah mö᾽minlərin günahı üzərinə pərdə çəkdiyi kimi, başqalarına da günahlarını faş etməyə icazə vermir. Allah nə özü mö᾽minin abrını aparır, nə də icazə verir özü öz abrını aparsın. Buna görə də, mö᾽minin öz günahını başqasına deməyə haqqı yoxdur. Rəvayətlərin birində göstərilir ki, Allah mö᾽minə özünü zəlil edib alçaltmasına icazə vermir. Təbii ki, günahdan böyük alçaqlıq ola bilməz. Bu səbəbdən də, mö᾽min günaha batanda Allah onun üstünə pərdə çəkir və onun özünə də pərdəni qaldırmağa icazə vermir, ona tövbə etməyə fürsət verir.

Əlbəttə, bu ümumi bir qanun deyil, çünki hərdən Allah-təala öz hikmətinə əsaslanaraq, insanların tənbihi üçün onların bə᾽zi günahlarını faş edir. Bə᾽zi sirlərin üstünün açılması da, onların

tərbiyəsi üçün bir vasitədir. Yə᾿ni insana nə qədər xəbərdarlıq olursa, onu öz pis əməllərinə görə nə qədər qorxudursansa, tənbih olunmur. Belə olan halda onu tərbiyə etməyin ən yaxşı yollarından biri budur ki, günahının qarşısı alınsın deyə, azacıq abrını aparasan. Əlbəttə, bu təkvini bir iş olub, Allaha və Onun tədbirinə aiddir. Tərbiyə etmək bəhanəsilə kimsənin abrını aparmağa Allahdan başqa heç kimin haqqı yoxdur.

Buna görə də, İslam nəzəri ilə kimsənin öz və ya başqasının abrını aparmağa ixtiyarı yoxdur. Özünün və başqalarının eyibini örtülü saxlamaq bütün mö᾿minlərin vəzifəsidir.

Bə᾿zən günahı faş etmək, o günahı törətməkdən daha pisdir və adamın öz günahını ifşa etməsi fəsadı yaymağın bariz nümunələrindən hesab olunur:

«Mö᾿minlərin arasında (onları nüfuzdan, hörmətdən salmaq məqsədilə) pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli əzab gözləyir. (Hamının əməlini, yayılan şayiələrin, atılan böhtanların doğru olub-olmadığını) ancaq Allah bilir, siz bilməzsiniz!»[1].

Günahın ifşası kimi, riyakarlıq da alçaq və ləyaqətsiz bir işdir. Riyakarlıq odur ki, insan özünü həqiqətdə olduğundan yaxşı göstərməyə çalışır. Günah əhli olmasına baxmayaraq, özünü elə göstərir ki, guya insanların ən təqvalısı budur. Özünü Allah adamı, mö᾿min kimi qələmə verməklə camaatın ona ehtiram gözü ilə baxmasını istəyir.

Şəddad bin Övs və İbadə bin Samit nəql edirlər ki, həzrət Peyğəmbər (s) bu ayənin -«…Kim Rəbbi ilə qarşılaşacağına (qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracağına) ümid bəsləyirsə (yaxud qiyamətdən qorxursa), yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın!»[2] izahında buyurdu: «Özünü göstərmək və riyakarlıq xatirinə namaz qılıb, oruc tutan şəxs şirk etmişdir»[3].

---

1 «Nur» surəsi, ayə 19.

2 «Kəhf» surəsi, ayə 110.

3 «Biharul-ənvar», cild 84, səh. 248.

## *NİYYƏT VƏ ONUN ƏMƏLİN ÖLÇÜSÜNDƏKİ ROLU*

«Ey Əbuzər! Hər bir işi görəndə, hətta yeyəndə və yatanda belə, niyyətin olsun».

Tərbiyəvi baxımdan bu mətləbin xatırlanması, olduqca əhəmiyyətlidir. Əlavə olaraq, bu mətləb geniş bəhsə ehtiyacı olan mühüm elmi, fəlsəfi əsasa söykənir. İnsanın gördüyü hər bir işin dəyəri, hətta Allaha ibadəti onun niyyətinə bağlıdır. İki fərqli niyyətlə görülmüş bir işin dəyərləndirilməsi də fərqlidir. Bir kəs dostu tərəfindən qonaq çağırılır, əgər dostunun də`vətini qəbul edib onun evinə getsə, çox yaxşı və ləyaqətli bir iş görmüşdür. Lakin əgər bu getmək Allaha yaxınlaşmaq qəsdi ilə olmuş olsa, yə`ni Allahın, mö`minlərin bir-birinin də`vətini qəbul etməsini sevdiyini nəzərdə tutaraq dostunun evinə getsə, onun bu əməli ibadət hesab olunur və bu savab baxımından da, bu niyyətlə olan gedişi birincidən qat-qat üstündür. Və ya müstəhəb oruc tutubdur və dostu onu nahara də`vət edir. Allahı sevindirmək niyyəti ilə orucunu sındırıb də`vəti qəbul etsə, bu əməli ibadət sayılır və savabı da tutduğu müstəhəb orucdan daha çoxdur. Lakin əgər də`vəti yeməkdən xoşu gəldiyi üçün qəbul etsə, könlündən keçən yemək olduğu üçün orucunu sındırsa, bu əməlin heç bir savabı olmayacaqdır. Çünki əməli Allah xatirinə görmür. Deməli, həmin yemək yeməyin özü Allah xatirinə olsa, savab və mükafata layiq və insanın kamala yetməsində dəyərli rola malikdir. Belə olan təqdirdə, insan özünün bütün gündəlik işlərinə - yatmaqdan, yeməkdən, baxmaqdan, hətta zarafat etməkdən tutmuş namaz, oruc kimi əməllərə qədər - ibadət rəngi verə bilər. Bu o halda mümkündür ki, insan bu işləri Allah rizası üçün görmüş olsun.

Böyük şəxsiyyətlərdən bə`ziləri bir iş görmək istəyəndə əvvəl dayanıb fikirləşər, bu işdə niyyətlərinin Allaha görə olduğuna əmin olduqdan sonra həmin işi görərdilər. Yaxud onlardan bir sual edildikdə o dəqiqə cavab verməzdilər, azacıq fasilə verib qəlbi niyyətlərinə nəzər salar, niyyətlərini müəyyənləşdirib Allaha xatir etdikdən sonra cavab verərdilər. Bu məsələ onu göstərir ki, mö`min elə zirək və fərasətli ola bilər ki, ömrünün hər anından, hər dəqiqəsindən Allah rizasını qazanmaq üçün istifadə edə bilər.

Deməli, ən sadə və gündəlik işlərdə də düzgün niyyət etməklə insan həm ləzzət ala bilər, həm də ibadət etmiş olar. Həm dünya və

həm də axirət ləzzətləri əldə etmiş olar. Belə hallarda dünya ilə axirəti bir araya gətirmək mümkündür. Dünya və axirət o halda cəm olmur ki, aralarında təzad olmuş olsun; məsələn, haram və vacib kimi əməllər ki, heç bir vaxt bir araya sığmırlar. Lakin mübah işin əncamında ilahi niyyəti nəzərdə tutmuş olsa, həm dünyəvi ləzzəti əldə etmiş olacaq, həm də ona savab əta ediləcəkdir.

Əlbəttə, qürbət qəsdi və ilahi niyyətin müxtəlif dərəcələri vardır. O cümlədən, günahdan uzaqlaşmaq və Allahın istəkləri ilə müxalifət etməmək üçün qərara gəlmək o dərəcələrdən biridir.

Rəhmətlik Əllamə Təbatəbai nəql edir ki, həzrət Əli (ə) gecənin nafiləsini qılmaq üçün yuxudan oyananda, cismi gümrahlığı və ibadətə hazır olması üçün soyuq su ilə qüsl alardı.

Təbiidir ki, Əli (ə) kimi bir şəxsiyyət səhərdən axşama qədər ya müharibədə iştirak edirdi, ya da əkin əkib, yer belləyirdi. Əlavə olaraq beş yüz, ya min rükət namazdan sonra çox yorğun olur və gecə yarısı namaz qılmaq üçün qalxanda kifayət qədər gümrah olmurdu. Buna görə də, yorğunluğunu və əzginliyini dəʾf edə bilmək üçün qalxıb soyuq su ilə yuyunurdu. Bu, onun qüvvəsini və ruhiyyəsini artırırdı.

## ON SƏKKİZİNCİ DƏRS

## *ALLAHIN ƏZƏMƏT VƏ CƏLALININ* UCA TUTULMASI

1. İlahi zikr Qur᾿an və rəvayətlərdə;
2. Zikrin kəmiyyət və keyfiyyəti;
3. Dil və qəlblə olan zikrin bağlılığı;
4. Dillə olan zikrin iki faydası.

## *ALLAHIN ƏZƏMƏT VƏ CƏLALININ UCA TUTULMASI*

«Ey Əbuzər! Pərvərdigarın əzəmət və cəlalını ürəyində uca tut və Onu dilucu yad etmə; necə ki, cahil adamlar iti və donuzu görəndə deyirlər: «Allah öldürsün səni» [1]

## *İLAHİ ZİKR QURʼAN VƏ RƏVAYƏTLƏRDƏ*

Bu bölümün mövzusu Allahı yad etmək və Onun əzəmətinin uca tutulması barədədir. Qurʼani-kərim və rəvayətlərdə Allahı yad etməyə böyük əhəmiyyət verilmişdir. Bu əhəmiyyətə görədir ki, hədislərdə müfəssəl olaraq ilahi zikr, onun dünya və axirətə faydası, kəmiyyət və keyfiyyəti və s. kimi mövzular araşdırılıb təhlil edilmişdir. Həmçinin, dil və qəlblə olan zikr, onların hansının daha üstün olması və zikrin təklikdə və xəlvətdə deyilməsi daha yaxşıdır, yoxsa göz qabağında və cəmdə deyilməsi barəsində Əhli-beyt (ə) və din alimləri tərəfindən fikirlər söylənilmişdir.

Rəvayətlərdən birində imam Sadiq (ə) buyurur: «Hər hansı bir qövm məclisə toplaşdıqları zaman Allahı və bizi yad etməzlərsə, qiyamət günü həmin məclisin peşmançılığını çəkəcəklər».

Və həmçinin buyurur: «Bizi yad etmək də Allahı yad etmək deməkdir»[2].

Allahı zikr etməyin əhəmiyyətini nəzərə alaraq yenə də imam Sadiq (ə) buyurur: «Məclisdən qalxdığınız zaman bu ayəni oxuyun:

«Sənin yenilməz qüvvə sahibi və (mülkündə) hər şeyə qalib olan Rəbbin (müşriklərin) Ona aid etdikləri sifətlərdən tamamilə uzaqdır! Peyğəmbərlərə salam olsun! Aləmlərin Rəbbi olan Allaha da həmd olsun!»[3].

Bu səbəbdən Allahın zikri hər zaman insanın qəlbi və dilində olmalıdır. Bu zikrin xüsusi məkana, zamana, məclisə aidiyyəti yoxdur. Hədisi-qüdsidə deyilir: «Həzrət Musa (ə) Allaha-təalaya

---

[1] Yəni bə`ziləri e`tiqadları olmasa da, dilucu «Allah səni vurmuşdu», «Allah səni öldürsün», «Allah sənə kömək olsun» və ya bu kimi digər ifadələrlə Allah kəlməsini dilə gətirirlər. Məqsəd budur ki, «ey Əbuzər! O şəxslərdən olma ki, onlar heç bir e`tiqadi kökü olmadan və kəlmənin mə`nasına varmadan Allahı yad edirlər.

[2] «Biharul-ənvar», cild 72 (beyrut çapı), səh. 468.

[3] «Saffat» surəsi, ayə 180-182.

belə ərz etdi: «İlahi! Bə᾽zi yerlərdə və hallarda Sənin adını dilə gətirməyə, Sənin haqqında düşünməyə utanıram. Allah buyurdu: «Məni yad etmək hər yerdə bəyənilәndir».

Allahın zikrinə bu qədər tə᾽kid edilməsi, zikrin insanı əxlaqi rəzilətlərdən çəkindirməsi və onu çatdırmasında oynadığı roluna görədir. Çünki insan həmişə Allahı yad etmiş olsa, özünü hər zaman Allah dərgahında hazır görsə, Allahın razı olmadığı işlərə toxunmaz və nəfsini tüğyan etməyə qoymaz.

Şeytan və nəfsi-əmmarə tərəfindən baş verən bütün xətaların əsas səbəbi, insanın Allahı yad etməkdə qəflətə dalması və Onun verəcəyi əzabı yaddan çıxarmasıdır.

Haqdan qafil olmaq insan qəlbini qaraldır və nəticədə, şeytan və həvayi-nəfs insanı qələbə çalır. Bunun müqabilində haqqı yad etmək, insan qəlbinə səfa gətirir və onun ruhunun nəfsin əsarətindən azad olmasına, əxlaqi rəzalətlərdən silinib xalisləşməsinə səbəb olur. Belə olan surətdə bütün xəta və azğınlıqların mənşəyi olan dünya məftunluğu ürəkdən qovulub çıxarılır.

Rəvayətlərin birində Peyğəmbəri-əkrəm (s) buyurur: «(Bilin ki,) Allah yanında (görə biləcəyiniz) ən yaxşı işiniz, sizin dərəcənizi yüksəldən ən pakizə əməl və günəşin nur saçdığı ən yaxşı şey, Sübhan Allahı zikr etməyinizdir. Çünki Allah Özü xəbər verərək buyurur: «Mən, Məni yad edənin yoldaşıyam!»[1].

Başqa bir rəvayətdə imam Sadiq (ə) buyurur: «Əzəmət və cəlal sahibi olan Allah buyurur: «Bir adam mənim zikrimə məşğul olmaqla (vaxt tapıb) öz istəklərini məndən diləyə bilməsə, Mən ona, onun məndən diləyə biləcəyindən qat-qat üstün mükafat əta edərəm»[2].

Əzəmət və cəlal sahibi olan Allah İsaya (ə) buyururdu: «Ey İsa! Məni yad et ki, Mən də səni yad edim. Məni xalq arasında da yad et ki, Mən də səni insan toplusundan daha üstün bir toplumda (mələklər arasında) yad edim. Ey İsa! Ürəyini Mənim üçün mülayim et və tək-tənha olduğun vaxtlarda məni çox xatırla. Bil ki,

---

[1] «Uddətul-va᾽i», səh. 238.

[2] «Üsuli-Kafi», cild 4, səh. 261.

Mən, Mənə təvazö`kar olduğun zaman şad oluram. Bu iş üçün ürəyini həmişə diri (oyaq) saxla və ölü (süst) olma»[1].

Qur᾽anın, Allahın zikrinə olan tə᾽kidi o həddədir ki, Qur᾽anda insanın namaz qılmasındakı hədəfi, Allahı zikr etməsi bildirilir. İslamda namazın əhəmiyyət və yerini nəzərdə tutsaq, zikrin hansı əhəmiyyətə malik olduğu bizə daha aydın olar:

«…Mənə ibadət et və Məni anmaq üçün namaz qıl!»[2].

Bildiyimiz kimi, hədəf vasitədən daha mühümdür. Bu ayədən belə anlaşılır ki, Allahın zikri namazdan daha önəmlidir. Həqiqətdə, namaz Allah-təalanı anmaq üçün bir vasitədir. Söz burasındadır ki, namaz özündə bir sıra zikr və ayələri, xüsusi əməl və hərəkətləri əhatə etməsinə baxmayaraq, Allahın zikri üçün necə vasitə hesab edilir?

Bu müəmmanın izahında deyə bilərik ki, namaz özünün bir sıra xüsusi əməlləri və onda oxunan zikrləri ilə heç də zikr hesab olunmur. Zikr əslində qəlbi və ruhi diqqətə əsaslanır və insan ürəyinin Yaradanın zatı ilə olan rabitəsidir. Deməli, insan ona görə namaz qılır ki, Allahla özü arasında qəlbi bağlılıq və təmərküz əldə etsin. Buna görə də, namaz özlüyündə bir vasitədir və hədəf qəlbi əlaqənin yaradılmasıdır ki, şübhəsiz, namazın özündən daha şərəflidir.

## *ZİKRİN KƏMİYYƏT VƏ KEYFİYYƏTİ*

Qur᾽an və rəvayətlərdə açıqlanan məsələlərdən biri də, zikrin kəmiyyət və keyfiyyətidir. Qur᾽anda bə᾽zi ayələr zikrin çoxluğu və kəmiyyəti üzərində tə᾽kid edir; bu ayədə olduğu kimi:

«Ey iman gətirənlər! Allahı çox zikr edin!»[3]

(Bu ayədə tə᾽kid zikrin çoxluğu üzərindədir).

Bə᾽zi rəvayətlərdə deyilir ki, hər şey üçün müəyyən hədd tə᾽yin edilmişdir, hətta namazın özünün də müəyyən həddi var: Həddi-buluğa yetişmiş mükəlləfə gün ərzində beş vaxt, on yeddi rəkət namaz qılması vacib edilmişdir və müstəhəbdir ki, vacib namazların iki bərabəri qədər nafilə namazı qılsın. Və ya təklif yaşına çatmış hər bir müsəlmana maddi imkanı və qüdrəti olduğu surətdə,

---

1 Həmin mənbə, səh. 264.

2 «Taha» surəsi, ayə 14.

3 «Əhzab» surəsi, ayə 41.

ömründə bir dəfə Həcc ziyarətinə getməsi vacib edilmişdir. Lakin Allahı yad etməyin, zikrin həddi göstərilməyib. İnsan Allahı nə qədər çox ansa, nə qədər çox zikr etsə belə, yenə də azdır. Birinci dəstə ayə və rəvayətlərin müqabilində zikrin keyfiyyətinə işarə edən bir sıra ayə və rəvayətlər də mövcuddur. O cümlədən bu ayə:

«Həcc mərasimini tamamlayıb qurtardıqda, (keçmişdə) ata-babalarınızı yada saldığınız kimi, ondan da artıq və gözəl Allahı yad edin!…»[1].

Bu ayədə Allahı yad etmək barədə demir:

Allahı çox yad edin, deyir: «Allahı şiddətli yad edin». Deməli, burada zikrin kəmiyyəti açıqlanmır. Tə᾽kid olunan zikrin zəifliyi və şiddətidir və bunun, zikrin dillə deyilməsinə heç bir aidiyyəti yoxdur. Nəzərdə tutulmur ki, məsələn «La ilahə illəllah»ı intonasiya ilə tələffüz edək. Əsas məsələ qəlbin zikr əsnasında Allaha diqqət kəsilməyindəki şiddət və zəifliyindədir.

Rəhmətlik Əllamə Təbatəbai bu ayənin təfsirində buyurur: «Cahil ərəblərin belə bir adəti var idi ki, Həcc mərasimindən sonra Minada şe᾽r deyib, öz ata-babalarını mədh edərdilər. Lakin İslamdan sonra Allah bu işə son qoyulmasına və onun yerinə, Allahı yad edib zikrlə məşğul olmalarına göstəriş verir. Bu ayədə zikrin şiddəti vəsf edilir. Bu da onu göstərir ki, zikr miqdar baxımından arta bildiyi kimi, keyfiyyət baxımından da şiddətlənə bilər. Əlavə olaraq, zikrin dillə deyilməsi əsas götürülmür, həqiqətdə, zikr qəlbə aid olan bir işdir və qəlbi hazırlığı ilə əncam tapır»[2].

Çox vaxt bizlər zikr deyəndə, dillə söylənən sözləri nəzərdə tuturuq. Allahı yad etmək tapşırılanda, elə təsəvvür edirik ki, «əl-həmdulillah» deməklə, ya «təsbihati-ərbə᾽ə»ni söyləməklə zikr etmiş oluruq. Halbuki, bütün bu dillə söylənənlər zikrdən xəbər verir və həqiqətdə isə, rəvayətlərdə tə᾽kid olunan zikr, qəlbi və ruhi diqqətin Allaha yönəlməsidir. Yə᾽ni insan öz təklifini yerinə yetirdiyi zaman Allahı ansın və xatırlasın ki, Allah hüzurunu dərk etməklə öz vəzifəsini yerinə yetirmiş olur. Həmçinin, günahdan çəkindiyi zaman da Allahı yad etsin ki, Allah hüzurunu dərk etmək onun günahdan uzaqlaşmasına səbəb olsun.

---

[1] «Bəqərə» surəsi, ayə 200.

[2] «Əl-Mizan», cild 2, səh. 81.

Ləfzi zikrlə qəlbi zikrin bağlılığı, yəʾni söz və məʾna arasındakı əlaqə meyvənin qabığı və özəyi arasındakı bağlılığa bənzəyir. Həqiqətdə, ləfzi zikr qəlbi zikr üçün libas rolunu oynayır. Onun özəyi və bədəni qəlbi zikrdir. Deməli, ləfzi zikr qəlbin müqəddiməsidir və bu, diqqət edilməsi zəruri olan məsələlərdəndir. Buna görə də, rəvayətlərdə zikrin miqdarı və deyilmə tərzi aydınlaşdırılmışdır. Məsələn, namazdan sonra miqdarı və tərtibi müəyyən edilmiş zikrlər mövcuddur.

### *DİL VƏ QƏLBLƏ OLAN ZİKRİN BAĞLILIĞI*

Yaxşı olardı ki, dillə olan zikrin qəlbi diqqətlə əlaqəsi barədə daha artıq izah verilsin. Həmçinin, aydınlaşdırılsın ki, nə üçün zikr barəsində bir belə təʾkidlər, tapşırıqlar verilir, hətta zikrin namaz üçün hədəf olduğu göstərilir. Zikrin insanın həyatında, onun səadət və təkamülündə nə kimi əsaslı rolu vardır? Məgər zikr deməyənlərin, Allahla qəlbi bağlılıq yaratmayanların həyatda nələri əskikdir, zikri söyləsən nə olacaq, söyləməsən nə olacaq?

Söhbət etdiyimiz zaman bir kəlməni dilimizə gətirməmişdən öncə, həmin kəlmənin məʾnasını ürəyimizdən keçirir və zehnimizdə onun məʾnasını təsəvvür etmiş oluruq. Söhbət əsnasında məqsədimiz budur ki, həmin məʾnanı qarşı tərəfə çatdıraq. Adətən, biz ona görə danışırıq ki, başqalarına anlatmaq istədiyimiz nəzərimiz, məqsədimiz vardır. Düzdür ki, bəʾzən danışıqdan, söz söyləməkdən məqsəd, məʾnanın üzə çıxarılması deyil, nəzərdə tutulan xüsusi psixoloji vəziyyət və ya təlqin olur.

Psixoloqların bu işlə əlaqədar üzərində təʾkid etdikləri məsələlərdən biri də, təlqindir. Əlbəttə, bu işin qənaətbəxş olması üçün xüsusi kəlmələr və qayda-qanunlar nəzərdə tutulur. Məsələn deyilir: «Xəlvət bir yerdə oturun, müəyyən həddə qədər səsinizi ucaldın və neçə dəfə filan cümləni təkrar edin ki, bununla da sizin ruhunuza təʾsir göstərsin». Bunlar müstəsna hallardır, əksər hallarda insan söhbət edərkən, öncə söylədiyi sözün məʾnasını təsəvvür edir və sonra həmin məʾnanı münasib sözlərin, cümlənin qəlibində qarşı tərəfə çatdırır. Aqil insan heç

vaxt düşünmədən bir mə᾽nanı, məfhumu nəzərdə tutmadan öncə danışmaz, çünki hər bir söz, bir mə᾽nanın daşıyıcısıdır.

«Təsbihati-ərbə᾽ə» kimi dillə olan zikrləri söyləyərkən məqsəd, zehnimizdə nəzərdə tutulan mə᾽nanı heç də Allaha və ya mələklərə çatdırmaq, dialoq yaratmaq və söhbət etmək deyil, istədiyimiz həmin mə᾽nanın öz ruhumuzda tə᾽sir qoymasıdır. Deməli, tə᾽sir mə᾽nadan yaranır və sözün zahiri ancaq vasitə rolunu oynayır.

Biz «Allahu Əkbər» deyəndə və bu zikri müqəddəs əməl olaraq nəzərdə tutanda, hədəfimiz həmin zikrin mə᾽nasının insan ruhuna, onun səadətinə göstərə biləcəyi tə᾽siridir. Adi sözün və hərflərin mə᾽nası nəzərdə tutulmazsa, boğazdan çıxan səsdən başqa bir şey deyillər və heç bir tə᾽sir də bağışlamırlar. Bu cəhətinə görə də, zikr üçün mə᾽nası olan kəlam nəzərdə tutulur.

Nəticədə görürük ki, dillə olan zikri deməzdən əvvəl, insanda Allahı yad etmənin ən kiçik dərəcəsi, ən aşağı nüzul mərtəbəsi vücuda gəlir və bundan sonra Allahı yad etmənin ali mərtəbəsi yaranır. İnsan zikr deyəndə, ilk növbədə Allah yadına düşür; (Belə olmazsa, yə᾽ni ümumiyyətlə Allahdan qafil olarsa, zikr söyləmək məqamına da nail ola bilməz). İnsan zikr söyləyərkən nə qədər diqqətsiz olsa belə, zikrdən qabaq diqqəti Allaha yönəlir, sonra zikrə başlayır. Deməli, zikri söyləməzdən əvvəl bizdə Allahı anmanın müəyyən bir dərəcəsi olur.

## *DİLLƏ OLAN ZİKRİN İKİ FAYDASI*

Dillə olan zikrin ilk hədəf və faydası budur ki, insanın diqqətinin müqəddəs varlıqda təmərküzləşə bilməsi üçün insanda mövcud olan Allahı anmanın zəif dərəcəsini gücləndirir.

Başlanğıcda Allaha diqqəti qaranlıq və ya pərakəndədir, amma dillə olan zikri söyləməklə, xüsusilə namaz qılanda həmin diqqət təmərküz tapıb, güclənir və Allaha sarı istiqamət alır. Bu dillə olan zikr üçün təsvir oluna biləcək faydalardan biridir.

Dillə olan zikrin başqa bir faydası da budur ki, əgər ləfzi zikri söyləməklə zəif diqqət güclənmirsə, ən azı sabit qalır və tamamilə məhv olmur.

İnsanın daşıdığı hallar, o cümlədən Allahı yad etməsi daim dəyişkəndir və zavala uğramaq təhlükəsi ilə üzləşə bilər. Bu səbəbdən Allahı anmaq yadımızdan çıxmasın deyə, qəlbi və ruhi diqqətin davamlı olması üçün dillə olan zikrdən kömək almalıyıq. Beləliklə, zikr üçün iki hədəf və faydanı göstərmək olar və əlbəttə ki, birincinin faydası daha üstündür.

Hərdən də elə olur ki, zikri söyləmək adət halına keçir və yalnız dili tərpətməklə müəyyən sözləri tələffüz etməkdən başqa bir şey olmur. Necə ki, bə᾽zi adamlar bə᾽zi əməlləri və sözləri düşünmədən, adət etdikləri üçün edirlər. Belə adət halına keçmiş əməllərin icrasında insanlar o qədər də gördükləri işə diqqətli olmurlar. Bə᾽ziləri səhərdən axşama kimi əllərində təsbih çevirirlər, lakin bu adi adət halına keçmiş bir məşğuliyyətdir və heç bir faydası da yoxdur. Və ya bə᾽ziləri barmaqları ilə saqqallarına tumar çəkirlər və bu, adət halı aldığı üçün gördükləri işə o qədər də diqqət yetirmirlər. Dilin adət etdiyi işlər də, bə᾽zi uşaqların danışdıqları sözün mə᾽nasına diqqət yetirmədən əzbərlədikləri bir iki kəlməni adət olaraq elə hey söylədikləri kimidir.

Bizim əksəriyyətimiz də bə᾽zi dua və zikrləri adət etdiyimiz üçün oxuyuruq və azacıq da olsa, nə dediyimizin, nədən danışıldığının fərqinə varmırıq; buna görə də, qəlbimizdə heç bir tə᾽sir, dəyişiklik hiss etmirik.

Ola bilsin ki, əvvəldə bir işə diqqətlə başlayaq və hansısa zikri söyləyək. Məsələn, eşidirik ki, rəvayətlərin birində deyilir ki, həzrəti Zəhranın (ə) təsbihini və ya filan zikri söyləməyin nə qədər savabı vardır. Buna görə də, həmin təsbihi diqqətlə oxuyuruq. Lakin get-gedə diqqətimiz zəifləməyə başlayır. İş o yerə çatır ki, axırda sözlər adət halına keçdiyi üçün diqqət etmədən deyib keçirik. Əlbəttə «Allahu Əkbər», «La ilahə illəllah» kimi zikrlərin mə᾽nalarına diqqət etmədən də söyləmək puç və alçaq sözləri söyləməkdən daha yaxşıdır, lakin insanın ruhunda lazım olan tə᾽siri qoymayacaqdır.

Eləri də olub ki, Allaha heç e᾽tiqadları da olmayıb, lakin adət etdikləri üçün danışıq əsnasında tez-tez Allahın adını çəkir, Ona and içirdilər; çünki bu iş onların adət-ən᾽ənəsinə çevrilmişdir. Hətta əvvəllər öz kommunistlərimizdən bə᾽ziləri Allaha, dinə e᾽tiqadları olmamasına baxmayaraq, adət etdikləri üçün bir-birlərindən

ayrılanda «Allah amanında» deyib ayrılırdılar. Onlar bu sözləri söyləyərkən, heç də onun mə᾽nasına diqqət yetirmirdilər. Elə biz müsəlmanlar da çox vaxt Allahın adını adət üzündən dilimizə gətiririk və onun mə᾽nasına o qədər də fikir vermirik.

Cahil, eləcə də İslamın əvvəllərində təzə müsəlmanlığı qəbul etmiş ərəblər arasında Allahın adını çəkmək adi hal idi. Hətta ən adi işlərdə də Allahın adını çəkirdilər. Küçədə bir iti və ya donuzu görəndə, nifrət əlaməti olaraq deyirdilər: «Allah səni öldürsün». Bu sözü söyləyərkən, heç də Allahın adına fikir vermirdilər. Bu adi adət idi və onlar heç də bu işi qəlbdən, e᾽tiqad bəsləyərək görmürdülər. Aydındır ki, bu sözləri bu şəkildə söyləmək, insana heç bir tə᾽sir bağışlamır və Allahı anmaq hesab olunmur.

Bu hədisdə Peyğəmbəri-əkrəm (s) Əbuzərə tapşırır: «Allahı yad etmək istəyəndə öncə Onun əzəmət və cəlalını təsəvvüründə canlandır. Həmişə yadında olsun, Allah bütün varlıq dünyasının yaradıcısıdır və hər şey Onun qüdrət əlindədir. Allah özü nəhayətsiz əzəmət və cəlal sahibi olduğu kimi, Onun adı da bir o qədər əzəmətli və cəlallıdır. Bu səbəbdən, Onu diqqət və əzəmətlə yad et. Allahın adını qəlbi hazırlıq və səmimiyyətlə yad edə bilməyin üçün öncə Onun əzəməti sənin ruh və qəlbində özünə yer tapmalıdır. Elə olmasın ki, cahil adamlar kimi dediyinin fərqində olmadan, dilin adət etdiyi üçün Allahı yad edəsən. İnsanın ruhuna tə᾽sir edən, qəlbin rahatlıq tapması və namazın hədəfi olmasına və insanın mə᾽nəvi yüksəlişinə səbəb olan, onun puç, maddi baxışlardan əl çəkib, əbədi axirət dünyası və tükənməz ne᾽mətlərə baxışını yönəldən, insan və Allah arasında qırılmaz əlaqə yaradan zikr o zikrdir ki, mə᾽nasına diqqət edilsin və Allahın hüzurunu nəzərdə tutaraq dilə gətirilsin. Bu həmin o zikrdir ki, Allah onun vəsfində buyurur:

«Mö᾽minlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə (Onun heybət və əzəmətindən) ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunan zaman həmin ayələr onların imanlarını daha da artırar…»[1].

Yaxşı olar ki, sonda Həzrət Əlinin (ə) kəlamında Peyğəmbərin (s) bə᾽zi səhabələrinin zikrə hansı diqqətlə yanaşdıqlarına nəzər yetirək: «Mən Məhəmmədin (s) səhabələrini gördüm, lakin

---

[1] «Ənfal» surəsi, ayə 2.

sizlərdən heç birini onlar kimi görmürəm. Onlar səhər vaxtı üst-başları qubarlı, saçları dağınıq olardılar; çünki gecəni səhərə qədər səcdədə və namaz qılmaqda idilər. Hərdən alınlarını, hərdən də yanaqlarını torpağa qoyurdular. Qiyaməti yad edərkən, iztirabdan yanar köz kimi olardılar. Uzun səcdəyə qapılmaqdan alınları keçinin dizləri kimi döyənək olub, qabar bağlamışdı»[1].

[1] «Nəhcül-bəlağə», xütbə 96, səh. 286.

## ON DOQQUZUNCU DƏRS

### *ALLAHIN ƏZƏMƏTİ MƏLƏKLƏRİN NƏZƏRİNDƏ*

1. Qorxu və ümidin təkanverici rolu;
2. Qorxunun mahiyyəti;
3. İlahi qorxunun faydası və yeri;
4. Allah övliyalarında qorxunun məqamı;
5. İnsanın kamalı və haqq qarşısındakı acizliyi;
6. İlahi qorxu və günahdan dönmək;
7. Allah dostları və mələklərin qorxu məqamlarına baxışın rolu.

## *ALLAHIN ƏZƏMƏTİ MƏLƏKLƏRİN NƏZƏRİNDƏ*

«Ey Əbuzər! Allahın bir sıra mələkləri var ki, Onun qorxusundan qiyamətə qədər həmişə ayaqüstə durub, başlarını aşağı dikərlər. Bu vaxt hamısı deyərlər: «Sən pak və həmd olunmağa layiqsən. Biz Sənə layiqincə bəndəçilik edə bilmədik».

Bundan əvvəl zikr və Allahı yad etmək barədə söhbət açdıq. Deyildi ki, Allah-təala xalis və səmimi qəlblə, tam diqqət və agahlıqla anılmalıdır. Zikri dilin adəti üzrə, düşüncəsiz danışırmış kimi demək olmaz. Bu bölümdə insanın zikri diqqətlə və qəlbi ayıqlıqla deyə bilməsində hansı amillərin rol oynadığını araşdıracağıq. Bu cəhəti nəzərə alaraq, Peyğəmbər (s) zikr zamanı insanda ruhi və qəlbi hazırlıq və diqqətin yaranmasına tə᾽sir qoyan mühüm nöqtələrin təhlilini verir.

### *ÜMİD VƏ QORXUNUN TƏKANVERİCİ ROLU*

Təbii olaraq, insanı ixtiyari işlərə sövq etdirən şey ya mənfəət və xeyrə ümid bəsləməsi, ya da ziyana düşmək qorxusu olur. Əlbəttə, xeyir və ziyanın əhatə dairəsi çox genişdir. Bə᾽ziləri üçün mənfəət, elə həmin dünyəvi və maddi mənfəətlər hesab olunur və bə᾽ziləri də axirət ne᾽mətlərini həqiqi mənfəət bilirlər. Eləcə də bə᾽ziləri zərər dedikdə, maddi və dünyəvi zərərləri nəzərdə tutur, bə᾽ziləri də, axirət əzabını həqiqi zərər hesab edirlər. Bu iki dəstədən daha yuxarı olan Allah övliyaları, mənfəətlərini İlahi hüzurun dərki və Allahın feyz qapısından bəhrələnməkdə, təbii olaraq ziyanlarını da həmin ne᾽mətlərdən məhrum olmaqda görürlər. Onların qorxusu, ilahi feyzdən məhrum qalmaq qorxusudur və aydındır ki, bu qorxu dünya və axirət zərərindən çəkinənlərin qorxusundan daha şiddətlidir. Əlbəttə, bu işin həqiqəti bizlərə qapalı və dərkimizdən uzaqdır. İcmali olaraq ayə və rəvayətlərdən anlaşılır ki, belə bir xof da mövcuddur. Ümid edirik, Allah-təala Əhli-beytin nurani kəlmələrinin bərəkəti ilə bu mə᾽nanın dərkinin ləyaqətini bizlərə də inayət etsin.

Hər halda, ilahi xof və ya insanın özü tərəfindən ziyana uğraması ehtimalı ilə yaratdığı qorxu hissi - hansı ki, Allah tərəfindən aradan qaldırıla bilər - insanın Allaha qarşı həddən artıq diqqətli olmasına səbəb olur. Eləcə də, Allahın bəndəsinə əta etdiyi savab və mükafat meyli və ya Allah feyzinə qovuşmaq şövqü, insanın Allahla

bağlılığını möhkəmləndirən səbəblərdəndir. İnsanların fəaliyyətə vadar edilməsi və onların qəflətdən ayılmasında xofun təkanverici rolu daha çoxdur. Hər kəs bunu özündə də imtahan edə bilər. Eşidəndə ki, bizi amansız bir təhlükə gözləyir, bu anda həmin xətərin aradan qaldırılması üçün daha çox əl-ayağa düşürük, yoxsa hansısa mənfəətə, savaba ümid bəsləməklə? Bizim üçün xətərin sovuşması, mənfəətin cəlbindən daha önəmlidir. Bəlkə də, bu səbəbdən Qur᾽anda qorxuducu xəbərlər bəşarət və ümid xəbərlərindən daha çox yer almışdır; həmçinin, peyğəmbərlər «nəzir» (qorxudan) ünvanı ilə tanıtdırılmışdır. Bə᾽zi ayələrdə peyğəmbərlər həm «mübəşşir» (müjdə verən) və həm də «nəzir» (qorxudan) olaraq tanıtdırılır. Bu ayədə olduğu kimi:

«İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən (əzabla qorxudan) peyğəmbərlər göndərdi…»[1].

Qur᾽anda çox az hallarda Peyğəmbərin (s) ancaq bəşir və mübəşşir ünvanı ilə göstərilməsinə rast gəlinir. Onlar əksər hallarda nəzir adı ilə yad edilir:

«Cəhənnəm (kafirlərə olan) qeyzindən az qala parça-parça olsun. Hər hansı bir tayfa cəhənnəmə atıldıqca, onun gözətçiləri onlardan (məzəmmətlə), «Məgər sizə (sizi Allahın əzabı ilə) qorxudan bir peyğəmbər gəlməmişdimi?», - deyə soruşacaqlar»[2].

Peyğəmbərlərin qorxudan, çəkindirən olaraq göstərilməsi və bu məsələyə tə᾽kid edilməsi ona görədir ki, onların xalqa verdikləri qorxu xəbərləri yaxşı əməllərinin müqabilində və᾽d olunmuş müjdə və bəşarətdən daha artıq tə᾽sir göstərir.

İlahi xof, insana faydalı olan hallardan biridir. Xüsusilə, əgər sabit bir hala gələrsə, zikr olunduğu kimi, insana bəxş edə biləcəyi faydasından biri də, onun Allaha olan bağlılığının möhkəmlənməsi olacaqdır. Baxmayaraq ki, hazırkı yazıda bu məsələnin elmi tərəflərinə toxunmaq imkanı yoxdur, lakin məsələnin daha artıq dərki üçün Allah qorxusu barədə deyilmiş bə᾽zi rəvayətlər və həmçinin, ilahi xofun ruhda və qəlbdə daha dərin tə᾽sir qoymasını nəzərə alaraq, bə᾽zi məsələlərə işarə edəcəyik.

---

1 «Bəqərə» surəsi, ayə 213.

2 «Mülk» surəsi, ayə 8.

## *XOF VƏ XƏŞYƏTİN MAHİYYƏTİ*

Bəhs edilməsinə ehtiyac duyulan məsələlərdən biri də, xofun mahiyyəti məsələsidir. Yə᾿ni bilmək istəyirik ki, xof və qorxunun həqiqəti nədir, onun meydana çıxmasında nə kimi amillər rol oynayır və insana tə᾿siri nədən ibarətdir? Xof və xəşyət bir-birindən fərqli hallardırmı?

Bu suala daha çox lüğətşünaslıq elmi tərəfindən yanaşılır və yaxşı olardı ki, xof və qorxunun nə olduğunu, onlar arasındakı təfavütü araşdırmaq üçün ayə və rəvayətlərə müraciət edək. Rəvayətlərdə xof və xəşyət barəsində istifadə olunan mə᾿nalarına nəzər saldıqda, onlar arasında nəzərəçarpacaq elə bir fərq müşahidə etmirik və bə᾿zi yerlərdə bu iki kəlmə bir-birinin yerinə də işlədilmişdir. İnsan Allahın əzəmətini dərk və hiss edəndə, onda təvazö və səmimiyyət, xüşu` hissi əmələ gəlir, özündə olan kiçikliyi və zəifliyi aydın müşahidə edir. Allah-təala belə bir hissi insanın vücudunda qərar vermişdir. (Əlbəttə, bu hal və psixoloji əks-tə᾿sir təkcə insana şamil olmur, başqa canlılar da özlərindən güclü qarşısında həmin hissi keçirirlər). Adətən, bu halı «xəşyət» adlandırırlar və bə᾿zən də xof sözü xəşyət kəlməsinin yerinə işlədilir. İnsan qarşı tərəfin əzəmətini dərk etdiyi zaman, hətta onu bir xəbər təhdid etməsə belə, həmin məğlubiyyət və zəiflik hissini özündə hiss edir; sanki varlığını öz ixtiyarında görmür.

Adətən, xof sözü insanın üzləşdiyi ziyandan qorxu mə᾿nasında işlədilir. Təbii olaraq, Allah barəsində işlədilən xof, Allahın verəcəyi cəzadan qorxu mə᾿nasındadır ki, mümkündür, insanın pis əməllərinin qarşılıqlı məhsulu olsun.

Allahın övliyaları və bəndəçilik yoluna qədəm qoyub ali übudiyyət məqamına çatmış insanlarda xof hissi bə`zən ilahi əzəmətə olan diqqətin tə᾿sirindən yaranır və bə`zən də, ilahi feyzdən məhrum ola bilmək ehtimalını düşünərkən əmələ gəlir. Çünki Allahın görüşünə nail olmaq, Onun dərgahında hüzur tapmaq qəti və yüz faizlik bir iş deyil. Mümkündür, zavala uğrasın və ya heç baş tutmasın. Buna görə də bu ehtimalın dərki, Allah övliyalarının xofuna səbəb olur. Çünki Allahla görüşmək və haqqın hüzuruna getmək, ilahi mə᾿rifətə yol tapmış insanın ən böyük kamal və arzusudur. Onun üçün ən böyük ləzzət, Allah dərgahında özünü hazır görməsidir. Bu mərhələdən bir qədər aşağı dərəcəni biz

çox yaxşı dərk edirik ki, iman üçün Allahın razılığı nə qədər ləzzətvericidir. Aşiq öz məhbubunun onu sevdiyini, ondan razı olduğunu hiss edəndə, qorxur ki, birdən məhbubunun ona bəxş etdiyi bu sevgidən, ləzzətdən məhrum olar. Bu, məhəbbət məqamına çatmış şəxs üçün ən yüksək qorxu hissidir. Bundan aşağı mərtəbədə Allahın verəcəyi əzabdan yaranan qorxu hissi durur. Qur᾽anda əksər ayələr və həmçinin, bir çox rəvayətlər bu qəbildən olan qorxuya daha çox işarə etmişdir. Bu mərhələ bizim daha ali mərhələyə çatmağımızda vasitə rolunu oynayır. Çünki bizlərə ilahi mə᾽rifətin ali mərhələsinə çatmamış ilahi xofun orta halı, dünya və onun ləzzətlərinə e᾽tinasız olmağımız da kömək edir. Bunun özü günahdan çəkinməyin amillərindən biridir. Əlbəttə, bu dərəcəyə çatmağın özü də böyük nailiyyətdir. İnsanda onu günahdan çəkindirən, dünyapərəstlikdən saxlayan daxili amilin yaranması heç də az şey deyil.

İradəsiz kəslər üçün Allahdan qorxmaq dünya çətinliklərindən qorxmaq mə᾽nasındadır. Qorxurlar ki, birdən Allah onları xəstələndirər, nə isə xoşagəlməz bir hal qarşıya çıxar, hörmətləri əldən gedər və xalqın gözündən düşər və ya əzizlərindən birini itirərlər. (Allaha imanı olan kəslərin müsibətdən, narahatlıqlardan qorxusu da, bir növ ilahi qorxu yerindədir. Belə qorxu bəyənilir və peyğəmbərlərin əksər qorxu xəbərləri də bu qəbildəndir).

## *İLAHİ QORXUNUN FAYDASI VƏ YERİ*

Söhbətimiz ilahi xofun faydası barədədir. Məgər ilahi qorxunun nə dəyəri, faydası var ki, insana sə᾽y göstərib xof məqamına çatması və onun yollarını tanıması tapşırılmışdır? Həqiqət budur ki, insanların əksəriyyəti ilahi xofun faydasından xəbərsizdir. Düzdür ki, Qur᾽anda ilahi qorxu barəsində çoxlu sayda ayələrin nazil olduğunu bilirlər və həmçinin, Allahdan qorxan şəxsin tə᾽rifəlayiq olduğundan da xəbərləri vardır. Lakin Allah qorxusunun onlara nə kimi fayda verdiyindən xəbərsizdirlər. Söhbət peyğəmbərlərin, övliyaların, din böyüklərinin Allah qarşısında hansı qorxu hissi keçirdiklərindən gedəndə, təəccüblə gözlərini döyürlər ki, niyə insan bu qədər qorxu hissi keçirməlidir, bu qədər ağlayıb sızıldamalıdır ki, gözləri tutulsun, üzü saralsın?!

Həzrəti Yəhya (ə) peyğəmbərlər arasında daha çox Allahdan qorxması ilə məşhurdur. Rəvayət edirlər ki, Allah xofundan o qədər

ağlamışdı ki, gözlərində və üzündə izlər əmələ gəlmişdi. Hətta anası, göz yaşları yaranın üstünə süzülüb onu sızlatmasın deyə, yanaqlarının üstünə parça tikələri qoyurdu. İnsan bu əhvalatı eşidəndə təccüblənir ki, axı Allahın peyğəmbəri niyə bu qədər qorxmalıdır?! Əgər bizim aramızda bir nəfər bu hala düşsə, divanə deməsək də, deyəcəyik ki, halı qeyri-təbiidir, qeyri-adidir!

Qur᾽an ayələrinə ibrət gözü ilə baxsaq görəcəyik ki, xof, peyğəmbərlərin nəsihətlərindən bəhrələnməyin və səadətə çatmağın şərti kimi göstərilmişdir.

«Sən ancaq Qur᾽ana tabe olub, Rəhmandan (Onun əzabını) görmədiyin halda qorxan kimsəni qorxuda bilərsən. Beləsinə (axirətdə) bağışlanacağı və çox gözəl bir mükafata (cənnətə) nail olacağı ilə müjdə ver!»[1].

Bu ayədə Allah, Peyğəmbərə (s) ürəklərində Allah qorxusu olan, hələ də fitrətləri günah tozu ilə tamamilə çirklənməyən insanları haqqa də᾽vət etməyi xatırladır. Peyğəmbərin (s) də᾽vət və tə`limlərindən bəhrə götürənlər bu dəstədəndirlər. Çünki qəlblərində Allah qorxusu olmayanlara nəsihət də tə᾽sir etməz. Belə adamların ürəkləri qaralmış, bərkiyib daşa dönmüşdür. Ürəklərinə nur saçması üçün bir dəlik belə qalmamışdır. Başqa bir ayədə buyurulur:

«Amma kim (qiyamət günü) Rəbbinin hüzurunda durmaqdan qorxmuş və nəfsinə istəyini, şəhvəti qadağan etmişsə, həqiqətən, onun yurdu cənnətdir!»[2].

Aydındır ki, xof kəlməsi rəca və ümidin müqabilindədir və Allah-təala «Hər kəs Allahının məqamından qorxarsa» buyurur. Buyurmur ki: «Hər kəs Allahın məqamına ümid bəsləyərsə». Bu onu göstərir ki, ilahi xof nəfsin tüğyan etməsinin qarşısını alır və hidayət yolunda qədəm götürməyə səbəb olur. Allahın rəhmətinə ümid bəsləməyin bu həddə qədər tə᾽siri olmur. Başqa bir ayədə Allah iman əhlinin məqamını bəyan etdikdən sonra behişt və onun ne᾽mətlərinin Allahdan qorxan kəslərə nəsib olacağını bildirir:

«Onların öz Rəbbi yanındakı mükafatları, (ağacları) altından çaylar axan Ədn cənnətləridir. Onlar orada əbədi qalacaqlar. Allah

---

1 «Yasin» surəsi, ayə 11.

2 «Naziat» surəsi, ayə 40-41.

onlardan razıdır, onlar da Allahdan. Bu (ne᾽mətlər) Rəbbindən qorxanlar üçündür!»[1].

Başqa bir ayədə Rəbbin məqamı qarşısında olan xofu, vüqarı, saflıq və xalisliyi din alimlərinin bariz xüsusiyyətlərindən hesab edir:

«…Allahdan öz bəndələri içərisində ancaq alimlər qorxar…»[2]

Başqa bir yerdə Allah-təala müsəlmanları zalımlardan deyil, Özündən qorxmağa çağırır:

«…Siz onlardan deyil, Məndən qorxun ki, Mən də sizə olan ne᾽mətimi tamamlayım. Bəlkə də, siz haqq yolu tapasınız»[3].

Yenə də başqa bir yerdə buyurur:

«Sizi yalnız o Şeytan öz dostlarından (guya onların çox qüvvətli olmasıyla) qorxudub çəkindirir. Amma siz onlardan qorxmayın! Əgər mö᾽minsinizsə, Məndən qorxun!»[4].

## *ALLAH ÖVLİYALARI XOFUNUN MƏQAMI*

İlahi xofun dəyərli roluna və onun haqqında deyilmiş müsbət fikirlərə nəzər saldıqda, görürük ki, övliyalar ilk növbədə bu halı özlərində dirçəltməyə çalışırdılar. Peyğəmbəri-əkrəmin (s) və mə`sum imamların (ə) həyatını mütaliə edəndə, onların keçirdikləri çox qəribə hallarla rastlaşırıq. Əgər bu hallara bir iki rəvayətdə təsadüf edilsəydi, bəlkə də, Peyğəmbərin (s) və imamların (ə) belə hallar keçirmələrinin doğruluğuna şəkk edilərdi. Lakin bu barədə söz açan rəvayətlərin sayı bir-iki deyildir; onlar kifayət qədər olub, hamısı da mütəvatir hədislər sırasındadır. Belə ki, Həzrət Əlinin (ə) şəxsiyyətini zehnimizdə canlandırmaq istəsək, o Həzrətin (ə) zehnimizdə yer alan xüsusiyyətlərindən biri də, onun ağlamaqları, münacatları olacaqdır. O həzrətin (ə) şəxsiyyətini, onun Allahdan olan xofunu nəzərə almadan təsəvvür etmək imkansızdır. Həmçinin, imam Səccadı (ə) Allahdan xof halı olmadan təsəvvür etmək mümkün deyil. İmamın Əbu Həmzə Somali və digər münacatları o Həzrətin fövqəladə xofunun açıq nişanələridir ki, bizim üçün təsəvvüredilməzdir.

---

[1] «Bəyyinə» surəsi, ayə 8.

[2] «Fatir» surəsi, ayə 28.

[3] «Bəqərə» surəsi, ayə 150.

[4] «Ali-imran» surəsi, ayə 175.

Rəvayətlərdə göstərilir ki, Həzrət Əli (ə) dəstəmaz alarkən halı dəyişər və bütün vücudu titrəyərdi. Eləcə də, imam Həsən Müctəba (ə) haqqında göstərilir ki, məscidə yaxınlaşdığı zaman üzünün rəngi dəyişər və təkbir deyəndə, bədəni əsərdi. Həmçinin, digər mə᾽sumlarımız Allah qarşısında bu halı keçirərdilər.

Qəlbdə ilahi xofun qorunub-saxlanılmasına edilən sə᾽y və bu barədə göstərilmiş tapşırıqlar, din böyüklərinin rəftarlarında bu halın zühur etməsi, xofun insanın təkamülündə, tərbiyəsində, bəndəçilik və hidayət yoluna çata bilməsindəki dəyərli roluna görədir. Şübhəsiz ki, xofun dərəcələrinə görə onun tə᾽sir və faydası da müxtəlif olacaqdır. Öz halımıza nəzər salsaq, görəcəyik ki, ilahi xofun müəyyən həddi bizim də qəlbimizdə mövcuddur və dərəcəsindən asılı olaraq, hər birimizdə özünəməxsus tə᾽sir qoyur. Lakin mə᾽rifətin yüksək məqamına, kamala çatmış kəslərin halına nəzər saldıqda görürük ki, onların Allahdan qorxuları bir başqa cürdür. Təbiidir ki, bu halın onlara tə᾽siri və faydası da hallarına müvafiq olaraq dəyişkən olacaqdır.

Əlbəttə, ilahi xofun dərəcələri və bu dərəcələrə müvafiq hansı tə᾽siri qoyduğunu sözlə ifadə etmək çətin bir işdir. Bu mətləbə mümkün qədər aydınlıq gətirmək üçün belə bir misala diqqət yetirmək pis olmazdı. İnsan öz qarşısında hər hansı bir əzəmət sahibini gördükdə, özündə qəribə hal hiss edir. Onun tə᾽siri altında hiss edir ki, sanki varlığını əldən verir. Ona elə gəlir ki, özünü itirmişdir və artıq özünü görmür. Başqa tə᾽birlə desək, insan bir əzəməti hiss etdikdə, onun qarşısında əriyib, itir. Bu halda o, sanki günəşin qızmar şüaları altında əriyən kiçik bir buz parçası olur. Bu ərimək və özünü unutmaq, Allahın əzəmətinin dərkinin tə᾽sirindən yaranan halın xüsusiyyət və tə᾽siridir. Öncəki bəhslərdə, əxlaqi və irfani kitablarda bu barədə yazılan mətləblərə diqqət yetirdikdə aydın olur ki, insanın kamala çatması üçün Allah və onun nəhayətsiz əzəməti qarşısında belə bir hissi keçirməsi zəruri mərhələlərdən biridir. Ariflər bu mərhələni «fəna» məqamı (Allahda fani olmaq) adlandırırlar. Allahda fani olmuş insan, artıq özünü dərk etmir. Elə ki, «özü» aradan qalxdı və qarşısında Allahın əzəmətini gördü, nəticədə Allaha yaxınlaşmış olur və Allahla özü arasındakı bağlılığı daha yaxşı dərk edir. Ariflərin tə᾽birilə desək,

artıq anlamış olur ki, bağlılıqdan, Allaha aidiyyatdan başqa heç nə yoxdur.

Hərçənd, bu sözlər ürəyəyatımlı və maraqlıdır, lakin işin həqiqəti budur ki, çox az adam bu mərhələyə çatmışdır. Bizimlə bu mərhələ arasında olduqca böyük fasilə vardır. Elə düşünməməliyik ki, bir-iki söz öyrənməklə hər şey həll olacaq. Bizim problemimiz həqiqətləri yaşadığımız zaman həllini tapır və bu an, Allaha bəndəçilik edib Əhli-beytin (ə) izi ilə addımlamaq mümkün olur. Səʾy edib onların izi ilə getməli və onların hasil etdiyi qorxunu, xofu öz ürəyimizdə yerləşdirməliyik. Allaha yaxınlaşa bilmək üçün hər kəs öz qabiliyyət və isteʾdadı həddində qəlbində bu xofu yaşatmalıdır. Ali məqamlara diqqət yetirib onların vücudunu eʾtiraf etmək bizim üçün faydalıdır, bu şərtlə ki, məğrur olmayaq. Elə düşünməyək ki, biz də artıq o məqamlara çatmışıq.

## *İNSANIN KAMALI VƏ HAQQ QARŞISINDAKI ACİZLİYİ*

Deməli, insanın kamala çatması Allah qarşısında əriməsində, Allaha möhtac və bağlı olmasında, özü üçün heç bir müstəqillik görməməsindədir. İnsan özünü nə qədər möhtac və həqir görərsə, bir o qədər də Allaha yaxınlaşmış olar. Kamala çatmağın yolu budur ki, İlahi əzəməti dərk etdiyində, onda zillət və həqirlik hissi əmələ gəlsin. Bu, kamillik və bəndəçiliyin yüksək məqamının tələbində olanlar üçün ən yaxşı yoldur. Qorxu hissini xoşagəlməz hal bilən bizlərə, övliyaların bu haldan ləzzət aldıqlarını eşitmək qəribə gəlir. Övliyalar bu halı əldən verdikdə yenidən onu ələ gətirmək üçün çalışırlar. Bu qorxu və xof hissi onlar üçün o qədər ləzzətvericidir ki, heç vaxt bu hissin itməsini istəmirlər. Biz bu mərhələyə çatmadığımız üçün onu düzgün dərk edə bilmirik və insana hansı təʾsir bağışladığını da, sözlə söyləməkdə acizik. Lakin Allah övliyalarının həyat dastanlarını araşdırarkən, anlamaq olur ki, onlar güclü məhəbbət sahibi olub, məhbubları yolunda əzab, dərd çəkməkdən ləzzət alırmışlar. Onun fərağı üçün göz yaşı axıtmaqdan bir növ sevinc və rahatlıq hissi keçirirmişlər. Baxmayaraq ki, ağlamağın mənşəyi narahatlıq və qəmdir, lakin məhbuba xatir olduğu üçün onlara xoş gəlir. Buna görə də deyirik ki, ilahi xof Allah övliyaları üçün bəyənilləndir. Onlar ilahi əzəmət qarşısında əriməkdən, xoflanmaqdan narazı qalmırlar. Ən azı bunların sonsuz

ləzzətə çatmaqda müqəddimə olduğunu bilirlər. Buna görə də, Allah övliyaları ilahi qorxu və xofa əhəmiyyət verirdilər. Çünki onu nəfsin yüyənini əldə saxlamağın ən yaxşı amili sanırdılar. Qəlblərində bu xofu gəzdirməklə, xudbinlikdən qurtarıb özlərini Allaha möhtac görürdülər. Həmçinin, bu hal onların fəna məqamına çatmasında ən yaxşı vasitə idi. Yeri gəlmişkən, bir məsələni də xatırlatmaq pis olmazdı.

Bə͗zi adamlar bir-iki irfani termin, məsələn «məhv məqamı», «fəna fillah» öyrənəndən sonra elə bilirlər ki, artıq arif olmuş və harasa çatmışlar! Yaxşı olardı ki, bu kimi şəxslər özlərini bir məhək daşından keçirəydilər; yoxlayıb görəydilər ki, bunların qəlbində Allah qorxusu deyilən şey var, ya yox?! Görəsən, həyatlarında bircə dəfə də olsa, gecəni sübhə qədər Allah qorxusundan yatmayıb oyaq qalıblarmı? Heç indiyə kimi ağlamaqdan gözlərində iz əmələ gəlibdirmi? Dildə demək asandır, iddia etməklə insan bir yerə çatmır. Diqqət etməliyik ki, həzrət Yəhya kimi məqam sahibinin keçirdiyi halın bir zərrəsi bizdə varmı? Onun keçirdiyi halın hansını özümüzdə görə bilərik? Bir-iki söz öyrənib iddia etməklə adam arif olmur. Bu yol, olduqca uzun və çətin bir yoldur. Rəhmətlik Şeyx Məhəmməd Təqi Amuli çox böyük alim idi; o, deyirdi: «Bu yolu başa vurmaq, gözün kiprikləri ilə dağı qazmağa bənzəyir!».

İlahi mə͗rifətə çatmaq istəyən şəxs özünü çətinliklərə, məşəqqətlərə, yuxusuz gecələrə hazır etməlidir. Bu yolu, onun yolçuları getdiyi kimi getmək lazımdır. Baxıb görməliyik ki, həzrət Əli (ə) və həzrət Səccad (ə) bu yolu necə getmişlərsə, biz də o cür gedək.

## *İLAHİ XOF VƏ GÜNAHDAN DÖNMƏK*

Deyilənlərə əsasən belə mə͗lum olur ki, ilahi xofun tə͗siri nəticəsində böyük mə͗nəvi məqama çatmış şəxslərin dərk etdiyi ən yüksək mərtəbə, «fəna fillah» məqamıdır. Lakin adi insanlar üçün ilahi qorxunun yarada biləcəyi ən yüksək tə͗sir, onların günahdan uzaqlaşmalarıdır. İnsan o zaman günaha mürtəkib olur ki, hansısa mənfəti ələ gətirmək və ya xəyalında dolaşdığı bir ləzzətə çatmaq istəyir. Bu ləzzət istər həqiqi olsun, istər xəyali, istər şəhvətdən doğan ləzzət olsun və istərsə də vəzifəyə, şöhrətə çatmaq kimi; fərqi yoxdur, hamısı insanı günaha sövq etdirən batil istəklərdir. İnsanı, onun günaha sürüklənməsinə səbəb olan bu batil istəklərdən

saxlaya biləcək şey Allah qorxusudur. Baxıb görməlidir ki, günah onu hansı qaranlıq vadiyə sürükləyir, ona nə verir və ondan aldığı nədir?

Bilməlidir ki, günah onu axirətin əbədi ne͗mətlərindən məhrum edib, əbədi əzaba sürükləyir (ilahi xof nə qədər çox olarsa, insana qoyduğu tə͗siri də çox olacaqdır).

Rəvayətlərdə göstərilir ki, Allah qorxusunun yer tutduğu ürəkdə şöhrətpərəstlik olmaz. Yə͗ni Allahdan qorxan kəs şöhrətpərəst deyildir, ad-san dalınca düşüb, xalqın onu tə͗rifləməsini sevmir. Şöhrətpərəstlik insan üçün ən qorxulu bəladır. Bə͗zi rəvayətlərdə deyilir: «Mö͗minlər üçün ən böyük eyib və xətər mal, şöhrət həvəsidir». Şöhrət sevgisi, yə͗ni vəzifə, ağalıq həvəsində olmaqdır. Siddiqlərin qəlbindən xaric olan pis sifətlərin axırıncısı, vəzifə, şöhrət həvəsidir ki, əlacı Allahdan qorxmaqdadır.

Həqiqətən də, insan əgər ilahi əzəməti dərk etsə, Onun müqabilində öz həqirliyini, kiçikliyini görə bilsə, günahın onun dünyasına və axirətinə hansı zərərləri vurduğunu anlasa, vəzifə və şöhrət həvəsini başından çıxaracaqdır. Deməli, ilahi xofun bizdə qoyduğu ən böyük tə͗sir, bizi günahdan çəkindirməyindədir. Əlbəttə, mə͗rifətləri kamilləşmiş, qəlblərində Allah mə͗rifətinin yer aldığı kəslər üçün həmin məhəbbət onların Allahdan qeyrisinə göz yummalarına səbəb olur. Lakin bu sözün sahibləri vardır, biz Allah sevgisinin o dərəcəsinə yetişməmişik. Bizim görə biləcəyimiz yeganə iş, ilahi qorxunu ürəyimizdə gücləndirməyə sə͗y etməkdir. Bununla günaha batmaqdan qorunub, yavaş-yavaş ilahi məhəbbətə ürəyimizdə yer verməliyik ki, daha yüksək ilahi mə͗rifətə nail olaq.

## *ALLAH DOSTLARI VƏ MƏLƏKLƏRİNİN XOF MƏQAMINA BAXIŞININ ROLU*

İndi ki, söz ilahi xofdan və onun faydasından düşdü, belə bir sual yaranır ki, bizdə də ilahi qorxu hissinin əmələ gəlməsi üçün nə etməliyik? Bu mərhələyə çatmağın ən yaxşı yollarından biri, Allah yanında əziz olan kəslərin xof məqamına nəzər salmaqdır. Şübhəsiz, onların Allaha olan hədsiz xoflarına və keçirdiyi hallara diqqət yetirmək, qorxu məqamının kəsbində bizlərə kömək olacaq ən yaxşı üsullardan biridir. Bu kömək bizləri, onların tutduğu yola

təşviq etməkdən ibarətdir. Bu həmin o üsuldur ki, Peyğəmbəri-əkrəm (s) bu hədisdə ondan istifadə etmişdir.

Allaha əziz olan bəndələrin bir qismi də mələklərdir. Qur᾽ani-kərim zatları pak olan bu bəndələrin vəsfində buyurur:

«Göy gurultusu Onun şə᾽ninə tə᾽riflər deyir, mələklər də Allahın qorxusundan Onu öyüb mədh edirlər…»[1].

Söylədiyimiz kimi, ilahi əzəmətin dərki və ona diqqətli olmaq, Allah xofunun yaranmasına səbəb olur. Bu dərkin bariz nümunəsini, Allah dərgahına yaxın olan mələklərdə görürük. Göründüyü kimi, Peyğəmbər (s) bu rəvayətdə onlardan bir dəstəsinin halını canlandırmağa çalışır. Deyir:

«Mələklər o dərəcədə Allah yanında özlərini həqir və kiçik görürlər, qorxuları o həddədir ki, yarandıqları gündən qiyamətə qədər - ki, bəlkə də, neçə min və ya neçə milyon ilə qədər çəkir - ədəblə dayanıb başlarını aşağı dikirlər. Bəlkə də, qorxunun şiddətindəndir və ya Allahın sonsuz əzəmətinə olan diqqətdəndir ki, başlarını qaldırmağa cür᾽ət etmirlər»[2].

Mələklər pak olduqları halda Allahdan belə qorxurlarsa, ilahi əzəmət qarşısında başlarını qaldırmağa cür᾽ətləri çatmırsa, günahın içində itib-batıb, həvayi-nəfsin əsarətində zəncirlənmiş olan bizlər hansı üzlə, hansı cəsarətlə başımızı yuxarı tutmalıyıq. Mələklərin Allah qarşısında keçirdikləri halın kiçik oxşar nümunəsini biz özümüzdə də görə bilərik. Böyük bir şəxsiyyətlə qarşılaşdıqda danışmağa çətinlik çəkirik, dilimiz dolaşır, özümüzü itiririk. İxtiyarsız sakit dayanıb, başımızı aşağı dikirik. Mərhum imam Xomeynini (r.ə.) yaxından tanıyanlar, onun əzəmətli şəxsiyyətindən xəbərdar olanlar, görüş zamanı nə qədər özlərini toplasalar belə, imamdakı zəhmin və əzmin qüdrəti nəticəsində cəzb olunur, buz kimi əriyib itirdilər. Özlərini mə᾽rifət və qüdrətdən baş qaldıran

---

[1] «Rə᾽d» surəsi, ayə 13.

[2] Dini bilgilərdə göstərildiyinə görə, İsrafilin suru iki dəfə üfürüləcəkdir. Surun birinci səsində bütün canlılar öləcəklər. İkinci dəfə sur çalınanda böyük qiyamət günü yetişmiş olacaq və hamı diriləcəkdir. Bu rəvayətdən görünür ki, birinci üfürmədə mələklər ölməyəcəklər və bəlkə də, onlar heç vaxt ölmürlər. Əgər onlara ölüm nisbət verilmiş olsa, başqa mə᾽nada təsəvvür edilməlidir.

əzəmətli bir dağın qarşısında zərrə kimi görürdülər. Bu hələ Allah bəndələrindən birinin əzəmətidir!

Mələklər içərisində elələri var ki, hətta böyük peyğəmbərlər onların əzəmətini dərk edirdilər. Rəvayətlərdə deyilir: «Həzrəti Cəbrayıl (ə) ancaq bir-iki dəfə öz əsl surətində Peyğəmbərə (s) göründükdə Peyğəmbər (s) müşahidə edir ki, onun nuru şərqdən qərbə qədər bütün aləmi tutmuşdur».

İmam Baqir (ə) buyurur: «Günlərin bir günü Peyğəmbər (s) əyləşmişdi və Cəbrayıl (ə) da yanında idi. Birdən Cəbrayıl (ə) göyə nəzər salır və bu baxışdan göyün üzərində onun nuru yayılmağa başlayır, get-gedə rəngi daha da güclənir və nəhayət, zəfəran rənginə çalır. Sonra Cəbrayıl (ə) Peyğəmbərə (s) yaxınlaşır və Rəsuləllah (s) göyə baxır. Bu vaxt görür ki, Cəbrayılın (ə) nuru qərbdən şərqə qədər bütün aləmi tutub, yerə yaxınlaşır»[1].

Əlbəttə, Peyğəmbərin (s) məqamı və nuraniyyəti Cəbrayılın (ə) məqam və nurundan daha yüksəkdədir, lakin Cəbrayılın (ə) həqiqi məqamı, Peyğəmbərin (s) insani məqamı qarşısında cilvələndiyi üçün belə bir əzəməti dərk edir.

---

1 «Biharul-ənvar», cild 16, səh. 292.

## İYİRMİNCİ DƏRS

## *PEYĞƏMBƏRİN (S) CƏNNƏT VƏ CƏHƏNNƏM BARƏSİNDƏ BUYURDUQLARI*

1. Məxluqatın əzəməti haqqında düşünmək;

2. Qiyamətin vəsfedilməz əzəməti;

3. Peyğəmbərin (s) cəhənnəm əzabı barəsində söylədikləri;

4. Cəhənnəm qaynamağa başlayanda insanların və mələklərin keçirəcəkləri hal;

5. Cənnət - mö᾽minlərin ən ali mənzili.

## *PEYĞƏMBƏRİN (S) CƏNNƏT VƏ CƏHƏNNƏM BARƏSİNDƏ SÖYLƏDİKLƏRİ*

İlahi xof məqamına çatmağın bir sıra yolları vardır. Bu yollardan biri də, Allahdan qorxan kimsələr haqqında mə᾽lumat əldə etməkdir. Onları tanımaqla, insan xof halına, ilahi qorxu məqamına yiyələnə bilməsi üçün bu yolda onları ən yaxşı nümunə olaraq seçə bilər. Buna görə də, bu rəvayətdə Allah bəndələri içərisində ən üstün xof məqamına sahib mələklər göstərilmişdir. Biz keçmiş dərsdə bu barədə söhbət etdik.

## *MƏXLUQATIN ƏZƏMƏTİ HAQQINDA DÜŞÜNMƏK*

İlahi xofa nail olmağın yollarından biri də, Allahın məxluqatının əzəməti haqqında təfəkkür etməkdir.

Şübhəsiz ki, insanın Allahın yaratdıqlarının əzəməti haqqında düşünməsi, onun diqqətini Allahın sonsuz və nöqsansız hikmətinə yönəldir və öz gücsüzlüyünü, Allaha möhtac olmasını daha yaxşı dərk etməyə kömək edir. Belə olan surətdə kamala çatmaq yolunda əvvəldə olduğundan daha artıq sə᾽y edir və nəfsin istəklərinə uyub şeytana itaət etməkdən əl çəkir. Allahın əzəmətini, sonsuz qüdrətini tanımaqdan əlavə, Onun qarşısında müxalifət etməkdən qorxub çəkinir. Məxluqatın yaradılış əzəmətini tanıması və insanın diqqətinin Allahın əzəmətinə yönəlməsi məsələsinə Qur᾽anda və rəvayətlərdə də rast gəlinir. Qur᾽an ayələri və dini mətnlərə nəzər salsaq görəcəyik ki, Allah və övliyalar bu məsələ ətrafında düşünməyə ciddi tə᾽kid etmişlər. Öz nurani bəyanları ilə yaradılmışların tutumlarını, bağlılıqlarını, möhkəm qanuna söykəndiklərini, müxtəlifliklərini açıqlamışlar. Bununla, insanları öz ətraflarına nəzər salmağa, kiçik varlıqlardan tutmuş böyük mövcudata qədər, bütün yaradılmışlar və yaradılış haqqında düşünməyə vadar etmişlər.

Əli (ə) öz nurani bəyanında Allahın sonsuz qüdrəti və saysız ne᾽mətləri haqqında təfəkkür etməyi insanı doğru yola və Allah qorxusuna aparıb çıxaran vasitə bilir: «Və əgər camaat Allahın böyüklüyü və saysız ne᾽mətləri haqqında düşünsəydilər, doğru yola qayıdar və əzabın yandırıcı odundan qorxardılar. Lakin ürəklər xəstə, baxışlar eyiblidir. Məgər ən kiçik yaradılmış şeyə baxıb görmürlər ki, Yaradan onu necə əsaslı və möhkəm yaratmışdır?!

Necə qulaq və göz verib, necə sümüklə bərkitmiş və necə dəri ilə geyindirmişdir?!»[1].

Davamında buyurur: «Qarışqaya bir baxın! Baxın görün cüssəsi necə də kiçik və nazikdir, gözünü qıysan belə görmürsən, necə yaradıldığı haqqında düşünsən, (sirrini) bilmirsən. Öz yolunu necə də tapıb gedir, ruzisini tapmaqda necə də tələsir. Dən tapsa, aparıb yuvasında anbara yerləşdirir. Qışın ruzisini yayda toplayır və yuvasına daxil olduqda, gedib-gəldiyi yolu yadında saxlayır. Onu görəcək qədər ruzisi ona yetişir və ruzisi qəbul edilmişdir. Ne᾿mət verən onu unutmaz və mükafat verən onu məhrum etməz; hətta sərt quru daşlar üzərində məskən salsa belə»[2].

İmam Sadiq (ə) rəvayət edir ki, ətir satan Zeynəb, Peyğəmbəri-əkrəmin (s) evinə gəlir və Peyğəmbərdən (s) Allahın əzəməti barəsində sual edir. Peyğəmbər (s) cavabında bu aləmin digər aləmlərlə müqayisəsini söyləyir və həmçinin, birinin digərinə nisbətdə kiçikliyini bəyan edir. O cümlədən buyurur:

«Üstündə olduğumuz yer, altında və üstündə olanlarla birlikdə onu əhatə etmiş göyün müqabilində geniş biyabanda düşmüş üzük halqası kimidir. Eləcə də, bizim olduğumuz qalaktika ikinci göyə nisbətdə, biyabanda görünən üzük kimidir»[3].

Bu nisbət, hər aləmin özündən yuxarı aləmlə müqayisəsində mövcuddur və beləliklə, gedib çıxır yeddinci aləmə ki, o da öz növbəsində ərş və kürsü ilə müqayisədə heç bir şey hesab olunur.

Aləmin əzəməti haqqında düşünməyin, insanın Allahın əzəməti qarşısında öz kiçikliyini dərk etməsindəki tə᾿sirinə görədir ki, əxlaq alimləri tapşırmışlar: «Namaz qılarkən, diqqətinizin tam Allahda cəmləşməsini istəyirsinizsə, çalışın geniş açıqlığa, çöllüyə gedin. Çünki gözünüz işlədikcə görünən bir fəzada yaradılışın əzəmətli mexanizmi qarşısında öz kiçikliyinizi daha yaxşı dərk edəcəksiniz».

Təbiidir ki, insan qapalı və dar mühitdə olduğu zaman, aləm haqqında təsəvvürü də həmin məhdud mühitin tə᾿siri alında olacaqdır. Lakin geniş təbiətin qoynuna çıxsa, dağları, dənizləri müşahidə etsə, aləm haqqındakı təsəvvürü də istər-istəməz dəyişiləcəkdir. Hələ bu, Yer kürəsinin əzəmətinin göürüntüsüdür.

---

[1] «Nəhcül-bəlağə», xütbə 227, səh. 736.

[2] Həmin mənbə.

[3] «Biharul-ənvar», cild 60, səh. 83, 85.

İndi gör ki, yer göylə və birinci göy də digər göylərlə müqayisədə hansı əzəmətə malikdirlər.

Bu gün kosmik təhqiqatlar əsasında ulduzlar və qalaktikalar barədə əldə edilən mə'lumatlar insana yaradılış aləmini daha yaxşı dərk etməyə kömək edir. Təbiidir ki, insan əgər ibadətə başlamazdan əvvəl yaradılışın əzəməti haqqında bir qədər düşünsə, öz kiçikliyini daha yaxşı dərk edəcəkdir. Belə olan halda, Allaha doğru bir-iki addım daha artıq atacaqdır. Çünki Allaha yaxınlaşmağın yolu, Onun qarşısında öz kiçikliyini hiss etməkdədir.

## *QİYAMƏTİN VƏSFEDİLMƏZ ƏZƏMƏTİ*

Şübhəsiz ki, axirət aləmi, o cümlədən cənnət və cəhənnəm Allahın yaratdıqları içərisində ən əzəmətli yaradılmışlardandır. Cənnət və cəhənnəmi olduğu kimi dərk etmək bizə müyəssər deyil. Ayə və rəvayətlərdən əldə edilən mə'lumatlara əsasən, Allahın əzəməti dərkedilməz olduğu kimi, qiyamətin də əzəməti və dəhşəti dərkedilməzdir. Onu olduğu kimi təsəvvür etmək qeyri-mümkündür. Lakin Allahın əzəmətinin nişanəsi olan onun haqqında ayə və rəvayətlərdə işarə edilmiş mə'lumatlara diqqət yetirməklə, qiyamətin əzəməti qarşısında öz mövqeyimizi, kiçikliyimizi azacıq da olsa, dərk edə bilərik. Qiyamət səhnəsinə hakim olan dəhşət və qorxu barəsində Qur'an buyurur:

«Onu görəcəyiniz gün hər bir əmzikli qadın əmizdirdiyi uşağını unudar, hər bir hamilə qadın bari-həmlini (vaxtından əvvəl) yerə qoyar. İnsanları sərxoş görərsən, halbuki onlar sərxoş deyildirlər. Bu ancaq Allahın əzabının şiddətli olmasındandır!»[1].

Qiyamətin səhnəsi elə dəhşətli və qorxulu olacaqdır ki, insanın ağlını başından çıxaracaqdır; belə ki, özünü idarə etməyə gücü çatmayacaqdır. Ana öz əziz körpəsini - özü də südəmər körpəsini ki, bu yaşında anasına daha çox ehtiyac duyur - qorxunun şiddətindən unudub, öz hayına qalacaqdır. Əgər insan bu ayədə deyilənlərə, onun möhtəva və məfhumuna diqqət etsə, nə qədər təkanverici olduğunu görəcəkdir. Bu onun batil baxış və rəftarının dəyişilməsinə kömək edir, onu səadət yolunun qarşısını kəsən maneələrdən uzaqlaşmağa vadar edir.

---

[1] «Həcc» surəsi, ayə 2.

Təəssüflər olsun ki, biz ayələrin mə᾽nasına çox az diqqət edirik. Qur᾽anı ancaq üzdən oxuyub keçirik. Çalışdığımız budur ki, qiraətimiz yaxşı olsun, gözəl avazımız olsun, daha onun mə᾽nasına fikir vermirik. Öndə deyildiyi kimi, biz axirətin əzəmət və mahiyyətini dərk etməkdə acizik.

Qiyamət, cənnət və cəhənnəm haqqında olan təsəvvürümüz bu dünyada qazandığımız təsəvvür və hisslər əsasında formalaşır. Bizə cəhənnəmin yanar odundan danışanda, təsəvvürümüzə bu dünyada əlimizi odun üstünə tutarkən hiss etdiyimiz istiliyin dərdli əzabı gəlir. Cəhənnəmin yandırıcı atəşi haqqında təsəvvürümüz, bu dünyadakı atəşin yandırıcı olduğu həddədir. Və ya cənnətin ne᾽mətlərindən, ləzzətlərindən söz düşəndə, təsəvvürümüz bu dünyada dadıb-tanıdığımız ən yaxşı ne᾽mətlər üzərində cəmləşir və bundan artığı da yoxdur.

İnsan zehninin çərçivəsi və tutumu, onun xarici mühitdə gördüyü, daddığı və təcrübə etdiyi şeylərin həddində məhdudlaşır və özü də müqayisədən sonra onlar haqqında təsəvvür əldə edə bilir. İnsan görmədiyi, təcrübə etmədiyi şeyi təsəvvür edə bilmir. İnsanın zehni fəaliyyətinin məhdudiyyətini nəzərə alsaq, axirət aləminin xüsusiyyət və sifətlərinin bəyanı üçün onları, insanın bu dünyada dərk etdiyi təsəvvürlərin oxşar qəlibində bəyan etməkdən başqa çarəsi qalmır. Belə olmazsa, həmin xüsusiyyətləri heç vaxt dərk etmək olmaz. Buna görə də, həmin xüsusiyyətlərin dərkimizin üfüqündə otura bilməsi üçün mümkündür ki, milyon dəfələrlə tənəzzül etsin. Yə᾽ni bizim təsəvvürümüzün qəlibində yerləşə bilməsi, bizim dünyamızla oxşar bir hala gələ bilməsi üçün dəfələrlə kiçilmiş olsun. Əgər dərkimizin üfüqündən yuxarıda olarsa, bizə tə᾽sir etməyəcəkdir, çünki dərkedilməz olacaqdır. Deyilənləri nəzərdə tutaraq, Qur᾽anda və rəvayətlərdə sə᾽y edilmişdir ki, cənnət və cəhənnəmin əzəməti xalqın tanış olduğu nümunələrin qəlibində açıqlansın. Bu rəvayətdə də, Peyğəmbər (s) cənnət və cəhənnəmin əzəmətini bəyan edərkən, həmin üsulu seçmişdir.

## *PEYĞƏMBƏRİN CƏHƏNNƏM ƏZABI BARƏSİNDƏ BUYURDUQLARI*

Peyğəmbəri-əkrəm (s) cəhənnəm əzabının bə᾽zi nümunələrini Əbuzərə vəsf edərək buyurur ki, o əzabların ən kiçiyi əgər bu dünyada baş versə, dəhşətli faciə baş verər. Həmçinin, cənnət ne᾽mətlərinin bə᾽zi nümunələri haqqında danışır ki, bu dünyada insanın onlardan birini qəbul etməsi, torpaq əhli olan insanın gücü xaricindədir. Bunları söyləməkdə Peyğəmbərin (s) məqsədi, dünya və onun bər-bəzəklərinə məftun olmuş bizlərə, dünya ilə axirət aləmini müqayisə etməklə, dünyanın olduqca kiçik olduğunu göstərməkdir. Axirət aləmi özünün vəsfedilməz genişliyi və əzəməti ilə Allahın nişanələrindən biri və həmçinin, bütün varlıqlar Yaradanın bir iradəsi ilə varlıq donu geymiş olsalar da, hər biri özü-özlüyündə Allahın sonsuz qüdrət və əzəmətindən xəbər verir.

Peyğəmbər (s) buyurur:

«Qiyamətdə bir nəfər yetmiş peyğəmbərin əməlinə sahib olsa da, o gündə görəcəyi şeylərin şiddətindən əməllərini az hesab edəcəkdir».

Bizim ibadət və əməlimiz heç adi bir mö᾽mininki qədər də deyil, o ki, qalmışdı peyğəmbərin ibadəti və əməli qədər olsun. İndi düşün ki, yetmiş peyğəmbərin ibadəti və savab işləri nə qədər olar. Bunlar bir tərəfə, fərz edək ki, yetmiş peyğəmbərin əməlinə bərabər ləyaqətli bir iş gördük, lakin qiyamətdə o günün dəhşətini görəndə, həmin əməl gözümüzdə bir zərrəyə çevriləcəkdir. Qiyamət günü elə qorxulu və dəhşətlidir ki, Allahın inayət və rəhməti olmadan, heç yetmiş peyğəmbərin də əməli kara gəlmir! Bu səbəbdən də, həmişə gözümüzü Allahın inayət və rəhmətinə dikməliyik. Qəlbimizi Ona sarı yönəltməklə, gecənin xəlvətində ağlayıb sızlamaqla, dərdləşib oxşamaqla Onun geniş rəhmət qapılarını üzümüzə açıq saxlamalıyıq. Öz əməlimizə arxalanmamalıyıq, çünki bu arxayınlıq bizi bir yerə çatdırmayacaq.

Hədisin davamında Peyğəmbər (s) buyurur:

«Əgər cəhənnəmin bir qab çirkini, irinini bu dünyanın şərqində yerə töksələr, (onun istisindən, pis qoxusundan) qərbdə yaşayanların beyni qaynamağa başlayar».

Qur᾽anda cəhənnəm əhlinə veriləcək əzablardan söz açılır. Onlardan biri də, «ğislin»dir:

«Bu gün (qiyamət günü) bax burada onun yaxın bir dostu yoxdur. İrindən başqa bir yeməyi də yoxdur»[1].

«Ğislin» cəhənnəm əhlinin içəcəyi şərabdır. Qabı və paltarı yuduqdan sonra qalan çirkli su mə'nasındadır. Ğislin o qədər murdar və irinli içkidir ki, yuyulmuş əşyaların çirkini, bulaşığını ona ad qoymuşlar. Həqiqətdə isə ğislin, insanın pis əməllərindən süzülüb göllənmiş çirkinliklərdir. Bu su o qədər ürəkbulandırıcı, pisqoxulu və yandırıcıdır ki, dünyanın şərqinə bir qab ondan töksən, dünyanın qərbində olanların beyinləri qaynayar.

Bizim insan kəlləsinin qaynaması haqqında olan təsəvvürümüz bu həddədir ki, güclü atəşi bir nəfərin üzünə yaxınlaşdıranda, həmin hadisə baş verir. Yə'ni düşünürük ki, insanın başı o zaman qızıb dağılmağa başlayar ki, onu yanar odun üstünə tutasan və ya yaxın fasilədə güclü hərarəti olan odun yanında saxlayasan. Lakin həmin od nə qədər yandırıcı olsa belə, on metrlik fasilədən və ya ondan bir az da artıq fasilədən elə də ciddi bir tə'sir etməyəcəkdir. Amma qiyamətdə insanlar elə susayacaqlar ki, məcbur olub, həmin cismin suyunu içəcəklər.

Cəhənnəmin odu, axirət və qəbir evinin əzabı, dünyanın atəş və əzabları ilə müqayisə edilməzdir. Cəhənnəm atəşinin yanında bu dünyanın atəşi soyuq və sönükdür, ancaq dərini, üzdə olanı yandırır. Onu görəndə, buna dözmək insana asan gəlir, lakin cəhənnəmin odu xalisdir və hətta şüura malikdir. Bu səbəbdən, dünyadakı atəşlərin heç biri ruhu yandırmır, amma cəhənnəm odu cisimdən əlavə, insanın ruhunu və qəlbini də öz kamına çəkir. Şübhəsiz, cəhənnəmin odu və əzabı insanın dünyadakı pis əməllərinin nəticəsi və məhsuludur.

## *CƏHƏNNƏM QAYNAMAĞA BAŞLAYANDA İNSANLARIN VƏ MƏLƏKLƏRİN KEÇİRƏCƏKLƏRİ HAL*

Peyğəmbəri-əkrəm (s) sözünə davam edərək, cəhənnəmin necə cuşa gəlib qaynayacağı barədə belə buyurur:

«Cəhənnəm qəzəbindən coşub püskürməyə başlayanda, Allahın bütün mürsəl peyğəmbərləri və müqərrəb mələkləri diz çöküb deyərlər: «Pərvərdigara! Qurtar məni! Mənə nicat ver! Hətta

---

[1] Əl-haqqə-35,36.

İbrahim peyğəmbər (ə) oğlu İshaqı yaddan çıxarıb deyər: «Mən Sənin dostun İbrahiməm, məni yaddan çıxarma».

Allah Qur᾽anda buyurur:

«Bədbəxt olanlar od içərisində (cəhənnəmdə) qalacaqlar. Onları orada ah-fəryad gözləyir!»[1].

Əllamə Təbatəbai bu ayənin təfsirində buyurur: «Kəşşafda «zəfir» nəfəsin, havanın çölə verilməsi, «şəhiq» isə nəfəsin içəri alınması mə᾽nasında təfsir edilmişdir…Allah bununla deməy istəyir ki, cəhənnəm əhli nəfəslərini sinələrinə çəkərlər, sonra çölə verərlər və cəhənnəm atəşinin hərarətinin şiddəti və əzabın böyüklüyündən ah-nalə çəkib fəryad qopararlar»[2].

Yuxarıda verilən təfsirə əsasən belə mə᾽lum olur ki, insan nəfəs alıb verdiyi kimi, cəhənnəm də nəfəs alıb verir.

Cəhənnəm nəfəs alıb-verməklə, özünün yandırıcı hərarətini çölə buraxar. Bu hərarət bütün cəhənnəm əhlini bürüyüb əhatə edər, sonra cəhənnəm nəfəsini geri çəkməklə, şəhiqlə bütün cəhənnəm əhlini öz kamına çəkər. Peyğəmbər (s) buyurur: «Cəhənnəm coşub daşmağa başlayanda bütün insanlar, hətta böyük peyğəmbərlər və müqərrəb mələklər özlərini itirib qorxuya düşər, dizləri bükülüb yerə çökər və hamını unudub öz haylarına qalarlar. Hərəkət etməyə nə gücləri qalar, nə də düşünüb-daşınmağa macalları. Bu görə də, çarəsizlik və zillətlə dizlərini yerə qoyub, əllərini Allahın sonsuz rəhmətinə doğru uzadar və Ondan öz nicatlarını istəyərlər. Belə ki, həzrət İbrahim (ə) öz əziz övladı İshaqı yaddan çıxarıb deyər: «Sən məni öz dostun «İbrahim Xəlilullah»-deyə adlandırmışsan, məni unutma, dadıma yetiş! Məni bu dəhşətli, öldürücü əzabdan qurtar! Bu, Allahın qiyamət günü verəcəyi əzabların bir nümunəsidir. Həmin əzab əgər bu dünyada zühur etsə, dəhşətli və vəhşətli bir ölümlə bütün məxluqatı məhv edər».

Cəhənnəm və onun əzabları ilə daha artıq tanışlıq əldə etmək üçün yaxşı olardı ki, imam Sadiqdən (ə) təfsilatı ilə bir hədis zikr edək: «Cəbrayıl (ə) günlərin bir günü rəngi qaçmış, qəmgin halda Peyğəmbərin (s) yanına gəlir. Peyğəmbər (s) soruşur: «Ey Cəbrayıl, niyə qəmgin və narahatsan?». Ərz edir: «Ey Məhəmməd, niyə də olmayım ki? (Xəbərin olsun) bu gün cəhənnəmin dəmləri işə

---

[1] «Hud» surəsi, ayə 106.

[2] «əl-Mizan», cild 11, səh. 21.

salındı». Peyğəmbər (s) dedi: «Cəhənnəmin dəmi nədir?». Cəbrayıl dedi: «Belə isə xəbərin olsun ki, Allah-təala atəşə əmr etdi, sonra atəş min il alışıb yandı, nəhayət, qızarıb qırmızı oldu. Sonra yenə əmr etdi, bir daha min il yandı, nəhayət, rəngini dəyişib ağardı. Bundan sonra bir daha əmr etdi, atəş min il də yanılı qalıb, qara rəngə düşdü. O atəş qara və qaranlıqdır. Əgər cəhənnəm atəşinin bir halqası - ki, uzunluğu yetmiş ziradır - yerə düşsə, dünya onun hərarətindən əriyib suya dönər və əgər cəhənnəmin «zəri᾿» və «zəqqum»undan[1] bir damcısı bu dünyanın sularına düşsə, hamı onun üfunətindən həlak olar». Bunu eşidəndə, Peyğəmbər (s) ağladı və Cəbrayıl da (ə) ağlamağa başladı. Allah-təala onlara sarı bir mələk göndərdi və mələk ərz etdi: «Allah sizə salam göndərir və buyurur: «Mən sizi günaha düşüb, bunun üçün də əzaba düçar olmaqdan amanda saxladım»[2].

## *CƏNNƏT – MÖ᾿MİNLƏRİN ƏN ALİ MƏNZİLİ*

Şübhəsiz, cənnət və onun ne᾿mətləri də Allahın ən böyük yaratdıqlarından sayılır. Bu ne᾿mət Allahın bəndəlik yolunu keçənlərə, iman və saleh əməllərlə insanlıq mərhələsinin ən ali

---

[1] «Zəqqum» həddən artıq pis qoxulu, dadı acı və kiçik yarpaqlı bir bitkinin adıdır. Bu otun şirəsini çəkib insanın bədəninə sürtdükdə, həmin yer şişib suluq atır. Həmin ot biyabanın kənarında bitir və adı cəhənnəmdə olan zəqqumun adından götürülmüşdür. («Biharul-ənvar», cild 17, səh. 146) Zəqqum Qur᾿anda üç ayədə gəlmişdir. Hər üç ayədə cəhənnəmin dibində bitən ağac mə᾿nasında verilir. Onun meyvəsi şeytanların başlarıdır. (Ağac meyvələrinin şeytanın başına oxşadılması ona görədir ki, xalqın təsəvvüründə olduqca pis şəkildə təsvir olunur. Necə ki, bunun əksinə olaraq, mələklər ən gözəl surətdə təsvir edilirlər). Bunun üçün də onun meyvəsi həddən artıq pis qoxulu, xoşagəlməz və nifrət doğurar.

«Zəri᾿» də cəhənnəm əhlinin yeməklərindən biridir. Onu yeməklə nə doymaq olur, nə də kökəlmək. İbni Abbas Peyğəmbərdən (s) nəql edir: «Zəri᾿ cəhənnəmdə olan bir şeydir. Tikana bənzəyir, «səbir»dən (pis və acı bir meyvə) daha acı, murdardan daha pis qoxulu, atəşdən daha yandırıcıdır» («Qamus-Qur᾿an», cild 3 və 4, Maddə: Rə᾿s, zəqqum).

[2] «Qırx hədis», İmam Xomeyni, səh. 23 .

məqamına layiq görülənlərə və nəhayət, Allahın mələkut aləminə qədəm qoyanlara nəsib olur:

«(Ya Peyğəmbər!) İman gətirən və yaxşı işlər görən şəxslərə müjdə ver. Onlar üçün (ağacları) altından çaylar axan cənnətlər (bağlar) vardır. O cənnətlərin meyvələrindən bir ruzi yedikləri zaman, «Bu bizim əvvəlcə (dünya evində) yediyimiz ruzidir» deyəcəklər. Əslində isə, bu meyvələr dünya meyvələrinə zahirən bənzəyir. Onlardan ötrü orada hər cəhətdən pak olan zövcələr də var. Onlar (mö᾽minlər) orada əbədi qalacaqlar»[1].

Başqa bir ayədə Allah-təala buyurur:

«Allah mö᾽min kişi və qadınlara (ağacları) altından çaylar axan cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər və᾽d buyurmuşdur. Onlar orada əbədi qalacaqlar. Allahdan olan bir razılıq isə, (bunların hamısından) daha böyükdür. Bu, ən böyük qurtuluş və uğurdur!»[2].

Həqiqətdə, insan saleh əməllərin sayəsində cənnəti və onun ne᾽mətlərini qazanır. Buna görə də, insan Allaha bəndəlik yolunda nə qədər çox sə᾽y edər və kamal yolunun maneəsi olan nəfsin istəkləri ilə nə qədər çox mübarizə apararsa, qarşılıqlı olaraq daha artıq və üstün ne᾽mətlərə çatacaqdır. Bu, Qur᾽anda və rəvayətlərdə rast gəldiyimiz açıq həqiqətlərdir. İmam Sadiqdən (ə) nəql edilmişdir ki, Peyğəmbər (s) buyurdu: «Göylərə me᾽rac etdiyimdə, cənnətə daxil olub gördüm ki, mələklər imarət tikməklə məşğuldurlar; qızıl və gümüşdən olan kərpicləri bir-birinin üstünə qoyur və hərdən də dayanıb dururdular. Onlara dedim: «Niyə gah işləyir, gah da dayanıb durursunuz?» Dedilər: «Gözləyirik lazım olan avadanlıq gəlsin. Dedim: «Sizin istifadə etdiyiniz avadanlıq nədir?» Dedilər: «Mö᾽minlərin dilindən çıxan «Cübhanəllah», «Əlhəmdulillah», «La ilahə illəllah» və «Allahu Əkbər» zikri bizim avadanlıqlarımızdır. Mö᾽min bu zikri deməyə başlayan vaxt ərzində, biz də bu işə məşğul oluruq. Elə ki, zikri saxladılar, biz də dayanırıq»[3].

Peyğəmbər (s) cənnəti vəsf edərək belə anladır:

---

1 «Bəqərə» surəsi, ayə 25.

2 «Tövbə» surəsi, ayə 72.

3 «Biharul-ənvar», cild 8, səh. 123.

«Ey Əbuzər! Əgər cənnətin qadınlarından biri gecənin zülmətində göydə zahir olsa, nuru yerə on dörd gecəlik aydan daha çox işıq salar. Saçlarını oynatdıqda, zülfündən ətrafa yayılan ətrin iyi bütün yer əhlini bihuş edər. Cənnət əhlinin libaslarından birini bu dünyada açıb sərsələr, onu görən bihuş olar və ona baxmağa insan gözü tab gətirə bilməz».

Həzrətin (s) bu bölümdə dediklərindən belə anlaşılır ki, qiyamət günü insanın gözünün gücü, bu dünyada olduğundan daha güclü olacaqdır. İnsanlar bu dünyada o qədər zəifdirlər, dərrakələri, dözümləri o qədər azdır ki, əgər cənnətin libaslarından birini onlara göstərsələr, ona baxmağa taqətləri çatmayıb, bihuş olarlar. Halbuki, cənnət əhli üçün o libası geyinmək, ona baxmaq adi bir şeydir. Həqiqətdə, cənnətdə insanın qüdrəti, o cümlədən görmə, dərketmə qabiliyyəti həddən artıq çoxdur. Şüur və dərrakə sahibi olan insanın axirətdəki şüuru o həddə qədər yüksək olacaq ki, bəlkə də, dünyadakından milyon qat artıq olacaqdır. Orada hər şeyin həyatı var və həqiqətdə, həqiqi həyat oradadır.

Qiyamətin özünəməxsus fəzasında hər bir şey şüur və danışmaq qabiliyyətinə malikdir. Buna görə də, hətta ağac və daşlar belə danışacaqlar:

«Bu dünya həyatı oyun-oyuncaqdan, əyləncədən başqa bir şey deyildir. Axirət yurdu isə, şübhəsiz ki, əbədi həyatdır. Kaş biləydilər! (Əgər bilsəydilər, axirəti dünyaya dəyişməzdilər)»[1].

Təbiidir ki, hər şey həyata malik olarsa, hətta otlar, daşlar da danışarsa, insanlar da bu sırada olacaqlar və insanın bədən üzvləri ayrı-ayrılıqda dil açıb danışacaqdır. Bu cəhətinə görə cəhənnəmdə qulaqlar, gözlər, insanın dərisi onların gördükləri günahlara şəhadət verəcəklər. Onlar deyəcəklər:

Bizim əməllərimizə necə şəhadət verdiniz? Bədən üzvləri cavabında deyərlər: «…Hər şeyi dilə gətirən Allah bizi danışdırdı…»[2].

Rəvayətin bu bölümündə cəhənnəm əzabı və cənnət ne’mətləri haqqında deyilənlər dünya miqyasları ilə ölçüyəgəlməzdir. Necə ola bilər ki, «ğislin» kimi bir maye o qədər üfunətli və yandırıcı olsun ki, yerin şərqində onun tökülməyi ilə yerin qərbində yaşayanların beyinləri qaynasın. Əlbəttə, elə düşünməyək ki, belə bir hadisənin

---

1 «Ənkəbut» surəsi, ayə 64.

2 «Fussilət» surəsi, ayə 21.

olması imkansızdır. Allahın atom enerjisi kimi sıxılmış bir enerjini uranium kimi bə'zi elementlərin daxilində yerləşdirməsi, hələ indi bəşər aləminə mə'lumdur. Əgər bu ünsürdən çox az miqdarda enerji ayrılarsa, elə güclü partlayış baş verir ki, bir şəhəri dağıdıb, altını üstünə çevirir! Bu hələ bu dünyada mövcud olan ünsürlərdən birinin dağıdıcı qüvvəsidir. İndi gör, o aləmin ünsürlərinin qüdrəti hansı dərəcədədir?! Bəlkə də, milyon dəfələrlə bu aləmdə mövcud olan ünsürlərin gücündən daha artıqdır. Belə olan surətdə bu ünsürlərin dağıdıcı gücü də bizim təsəvvür edə biləcəyimizdən qat-qat artıq olacaqdır. Deyilənlər bizim öz mövqeyimizi, dərəcəmizi tanımağımız üçündür. Bilməliyik ki, şüur və dərrakəmizin imkanlarının məhdud olduğu bu dünya üçün yaradılmamışıq. Bir dünyada onun ləzzətləri məhdud olarsa, həmin yerdə bizim şüur və dərrakəmiz də məhdud olacaqdır. Bilməliyik ki, dünyada olan hər bir şey axirət üçün müqəddimədir və axirətdə olan şeylərin solğun, zəif görüntüsüdür. Dünyanın xoşluqları axirətin xoşluqları ilə müqayisəedilməzdir. Dünyada çəkdiyimiz müsibət və bəlalar da axirətin əzabları qarşısında bir şey deyildir.

Dünya əzablarının axirət əzabları ilə müqayisə edilməsi və həmçinin, dünya ləzzətləri ilə axirət ləzzətləri arasındakı təfavütün göstərilməsi və onlar arasındakı geniş fasilənin üzə çıxması bais olur ki, hər kəs öz zehni qabiliyyəti, iste'dadı həddində özünün və yaşadığı aləmin axirət aləmi ilə müqayisədə nə dərəcədə məhdud və kiçik olduğunu dərk etsin; həmçinin, Yaradanın bərabərində yaradılış sisteminin olduqca cılız olduğunu təsəvvür edə bilsin. Bu müqayisənin nəticələrindən biri də, insanın təkəbbürdən, xudbinlikdən uzaqlaşıb, haqq qarşısında təvazökar olmasıdır. Əgər dünyada bir ne'mətə çatsa, qürurlanmasın və əgər bir ne'mətdən məhrum olsa, mə'yus olub həsrətini çəkməsin. Çünki bütün dünya ne'mətləri cənnətin bir almasına belə dəyməz. Buna görə də, dünya ürək bağlanası yer deyildir. Çalışıb, Allah peyğəmbərləri və övliyalarının bələdçiliyi ilə Yaradanın və qiyamətin əzəmətini anlamalı və öz mövqeyimizi tanımaqla xudpəsəndlikdən, qürurdan uzaq olmalıyıq.

**BİRİNCİ CİLDİN SONU**

## Mündəricat


**PEYĞƏMBƏRİN (S) ƏBUZƏRƏ NƏSİHƏTLƏRİ __________ 3**

***BİRİNCİ DƏRS ____________________ 3***

**BƏNDƏLİK VƏ NİCAT YOLU __________ 4**

**İBADƏT VƏ ALLAH HÜZURUNUN DƏRKİ __________ 6**

**ALLAHA İBADƏT VƏ BƏNDƏLİK, MÖ'MİNLƏRİN YÜKSƏLİŞ VƏ TƏRƏQQİ VASİTƏSİDİR __________ 8**

**ALLAHA BƏNDƏÇİLİYİN MƏRHƏLƏLƏRİ__________ 10**

**a) ALLAHI TANIMAQ __________ 10**

**b) PEYĞƏMBƏRƏ (S) İMAN GƏTİRİB, ONUN NÜBÜVVƏTİNİ E'TİRAF ETMƏK__________ 11**

**v) PEYĞƏMBƏRİN (S) ƏHLİ-BEYTİNƏ MƏHƏBBƏT_____ 12**

**ƏHLİ-BEYTİN NUHUN (Ə) GƏMİSİ VƏ BƏNİ-İSRAİLİN HİTTƏ QAPISINA BƏNZƏDİLMƏSİ__________ 13**

***İKİNCİ DƏRS ____________________ 16***

**ALLAHIN NE'MƏTLƏRİNDƏN DÜZGÜN FAYDALANMAĞIN YOLLARI __________ 16**

**ALLAHIN NE'MƏTLƏRİNDƏN DÜZGÜN BƏHRƏLƏNMƏYİN YOLLARI __________ 18**

**SAĞLAMLIQ VƏ ASUDƏLİK, İNSANLARIN QAFİL OLDUĞU İKİ BÖYÜK NE'MƏTDİR__________ 18**

**CAVANLIQ- ÖMRÜN ŞƏN ÇAĞLARI__________ 21**

**SAĞLAMLIĞIN ƏHƏMİYYƏTİ __________ 23**

**DÜNYA HƏYATI İNSANIN SEÇİM, İNKİŞAF VƏ KAMALA ÇATMA YERİDİR __________ 25**

***ÜÇÜNCÜ DƏRS ____________________ 27***

**HƏYATIN DÜZGÜN DƏRKİ VƏ ÖMÜRDƏN SƏMƏRƏLİ İSTİFADƏ __________ 27**

**FÜRSƏTDƏN YERİNDƏ İSTİFADƏ VƏ UZUN-UZADI ARZULARIN TƏRK OLUNMASI __________ 29**

**SƏHLƏNKARLIĞIN MƏRHƏLƏLƏRİ ________________ 29**

**DÜNYADAN ÜZ ÇEVİRMƏK VƏ YERSİZ TƏFSİRLƏR___ 30**

**DÜNYADAN ÜZ ÇEVİRMƏK VƏ AXİRƏTİ ƏSAS TUTMAQ32**

**TƏKLİF VƏ VƏZİFƏLƏRİN VAXTINDA YERİNƏ YETİRİLMƏSİ ______________________________________ 34**

**ÖLÜMÜ DÜŞÜNMƏKLƏ UZUN-UZADI ARZULARA SON QOYMAQ ________________________________________ 35**

***DÜNYANIN VASİTƏÇİ ROLU _____________________ 35***

***DÖRDÜNCÜ DƏRS ______________________________ 39***

**PEYĞƏMBƏRİN (S) ƏLDƏ OLAN İMKANLARDAN LAYİQİNCƏ İSTİFADƏ ETMƏK BARƏSİNDƏ BUYURDUĞU TÖVSİYƏLƏR ______________________________________ 39**

**PEYĞƏMBƏRİN (S) ƏLDƏ OLAN İMKANLARDAN LAYİQİNCƏ İSTİFADƏ ETMƏK BARƏSİNDƏ BUYURDUĞU TÖVSİYƏSİ_________________________________________ 41**

***ÖLÜM HAQQINDA DÜŞÜNMƏYİN ROLU VƏ GÜNAHIN NƏTİCƏLƏRİ ______________________________________ 41***

***ÖMRÜN QƏDRİNİ BİLMƏYİN ƏHƏMİYYƏTİ________ 43***

***VƏZİFƏLƏRİN VAXTINDA YERİNƏ YETİRİLMƏSİ VƏ SABAHA ARXAYIN OLMAMAQ HAQQINDA _________ 44***

***BEŞİNCİ DƏRS __________________________________ 47***

**DÜNYƏVİ HƏDƏFLƏR XATİRİNƏ ELM ÖYRƏNMƏYİN PİSLƏNİLMƏSİ __________________________________ 47**

**ƏMƏLSİZ ELMİN NƏTİCƏLƏRİ VƏ BU YOLLA İCTİMAİ MÖVQE ƏLDƏ ETMƏK___________________________ 49**

***XALQI ALDATMAQ XATİRİNƏ ELM ÖYRƏNMƏYİN AQİBƏTİ ________________________________________ 51***

***BİLMƏDİYİNİ E'TİRAF ETMƏK ALİMLƏRİN ƏSAS XÜSUSİYYƏTLƏRİNDƏNDİR ____________________ 51***

***QİYAMƏTDƏ ALİMİN ƏN BÖYÜK PEŞMANÇILIĞI___ 53***

***HƏZRƏT ƏLİNİN (Ə) BƏYANINDA ALİMLƏRİN BÖLGÜSÜ ________________________________________ 55***

***ALTINCI DƏRS __________________________________ 56***

**ALLAH NE'MƏTLƏRİNİN ƏZƏMƏT VƏ GENİŞLİYİ_____ 56**

**VƏZİFƏLƏRƏ DİQQƏTLİ OLMAĞIN ZƏRURİLİYİ ____ 56**

**ALLAHIN ƏZƏMƏTLİ QANUNLARI VƏ NE᾽MƏTLƏRİNİN SONSUZLUĞU ________________________ 58**

***ÖMRÜN QISALIĞI VƏ İNSANDAN ƏBƏDİ QALACAQ YAXŞI VƏ PİS ƏMƏLLƏR ________________ 60***

***a) İNSANIN DÜNYADAKI RƏFTARLARININ QİYAMƏTDƏ TƏCƏSSÜMÜ ________________________ 61***

***b) QƏFİL ÖLÜM, İNSANIN QƏFLƏTDƏN OYANMASI ÜÇÜN MÜHÜM AMİLDİR _______________ 62***

***İNSANIN RUZİSİNİN ALLAH TƏRƏFİNDƏN TƏ'YİN OLUNMASI VƏ YAD ƏLLƏRDƏN QORUNMASI _____ 62***

***TÖVHİD-ƏF'ALİ VƏ ALLAHIN XEYİR MƏNŞƏYİ OLMASI ________________________________ 64***

***YEDDİNCİ DƏRS ________________________ 66***

**MÖ᾽MİNİN AYIQLIĞI ____________________ 66**

**ALİM VƏ ZAHİDLƏRLƏ HƏMSÖHBƏT OLMAQ; MÖ᾽MİN VƏ KAFİRLƏRİN NƏZƏRİNDƏ GÜNAH __________ 68**

***LƏYAQƏTLİ DOST SEÇMƏYİN LÜZUMU VƏ GÜNAHI BÖYÜK BİLMƏK ______________________ 69***

***QAFİL ALİMLƏ NADAN CAHİLİN TƏHLÜKƏSİ_____ 70***

***GÜNAHI YADA SALIB PEŞMANÇILIQ HİSSİ KEÇİRMƏK, ALLAH LÜTFÜNÜN NƏTİCƏSİDİR_____________ 73***

***GÜNAHIN KİÇİKLİYİNƏ YOX, İTAƏTİNDƏN ÇIXDIĞIN KƏSİN ƏZƏMƏTİNƏ DİQQƏTİN LÜZUMU _________ 74***

***SƏKKİZİNCİ DƏRS ______________________ 78***

**SÖZLƏ ƏMƏLİN BİRLİYİ VƏ DİLİN QORUNMASI _____ 78**

**SÖZ VƏ ƏMƏLDƏ SƏDAQƏT VƏ XƏYANƏT__________ 80**

***RUZİDƏN MƏHRUM OLMAQDA GÜNAHIN ROLU ___ 82***

***GÜNAH SƏBƏBLƏR HALQASINDA_______________ 85***

***DİLİN QORUNMASI VƏ BİHUDƏ İŞLƏRDƏN UZAQLAŞMAQ_____________________________ 87***

***DOQQUZUNCU DƏRS ____________________ 89***

**NAMAZIN DƏYƏR VƏ ƏHƏMİYYƏTİ_____________ 89**

**CƏNNƏT ƏHLİNİN DƏRƏCƏ FƏRQLƏRİ ___________ 89**

**PEYĞƏMBƏRİN (S) BƏ'Zİ NƏSİHƏTLƏRİNİN BÖLGÜSÜ 91**
***ABİD VƏ GECƏNİ İBADƏTDƏ KEÇİRƏNLƏRİN MƏQAMI _______ 92***
***CƏNNƏT DƏRƏCƏLƏRİNDƏN BƏHRƏLƏNMƏKDƏ CƏNNƏT ƏHLİNİN FƏRQLƏRİ _______ 93***
***PEYĞƏMBƏRİN (S) NAMAZA HƏDSİZ DƏRƏCƏDƏ BAĞLILIĞI _______ 96***
***NAMAZ XOŞBƏXTLİYİN AÇARIDIR _______ 97***
***İBADƏTİN DAVAMLILIĞININ SİRRİ, ONUN ŞİRİNLİYİNİN DƏRKİNDƏDİR _______ 99***

***ONUNCU DƏRS _______ 101***

**BEHİŞTİN QABAQCILLARI VƏ ONUN BƏ'Zİ TƏKLİFLƏRİNİN MƏQAM VƏ DƏRƏCƏLƏRİ _______ 101**

***BEHİŞTİN QABAQCILLARI _______ 103***
***FİTRƏT VƏ KAMAL AXTARMAQ _______ 103***
***BƏ'Zİ TƏKLİFLƏRİN MƏQAM VƏ DƏRƏCƏLƏRİ _______ 106***
***1. NAMAZIN MƏQAMI VƏ DƏRƏCƏLƏRİ _______ 106***
***2. ORUCUN MƏQAM VƏ DƏRƏCƏLƏRİ _______ 107***
***3. CİHADIN MƏQAM VƏ DƏRƏCƏLƏRİ _______ 108***
***BEHİŞTDƏKİ DƏRƏCƏLƏR BAXIMINDAN MÖ'MİNLƏRİN FƏRQİ _______ 109***

***ON BİRİNCİ DƏRS _______ 111***

**HÜZN VƏ QORXUNUN ƏHƏMİYYƏTİ VƏ ROLU (1) _______ 111**

***HÜZN VƏ QORXUNUN ƏHƏMİYYƏT VƏ ROLU (1) _______ 113***
***HÜZNLƏ QORXU VƏ GÜNAHDAN UZAQLAŞMAQ _______ 113***
***QORXU VƏ XOFUN İNSANIN MƏ'NƏVİ YÜKSƏLİŞİNDƏKİ ROLU _______ 114***
***HÜZN VƏ XOFUN FƏRQİ _______ 115***
***DÜNYA MÖ'MİNİN ZİNDANI, KAFİRİN CƏNNƏTİDİR118***
***CƏHƏNNƏM BARƏDƏ DÜŞÜNMƏK MÖ'MİNİN PƏRİŞANLIQ AMİLİDİR _______ 119***

***ON İKİNCİ DƏRS _______ 123***

**HÜZN VƏ QORXUNUN ROLU VƏ ƏHƏMİYYƏTİ (2) _______ 123**

***HÜZN VƏ XOFUN ROLU VƏ ƏHƏMİYYƏTİ (2) _______ 125***

*FAYDALI ELM* ____ *125*
*CƏNNƏTDƏKİ RAHATLIQ DÜNYADAKI QORXUNUN BƏHRƏSİDİR* ____ *128*
*GÜNAHLARIN BAĞIŞLANMASI ALLAHDAN QORXMANIN SƏMƏRƏSİDİR* ____ *130*
*YAXŞI ƏMƏLLƏRƏ OLAN E'TİMADIN MƏZƏMMƏTİ* *132*
*ŞEYTANDAN UZAQLAŞMAQDA GÜNAHA EDİLƏN DİQQƏTİN ROLU* ____ *133*
*HÜZN VƏ XOFUN MAHİYYƏTİNİN ARAŞDIRILMASI VƏ ALLAHDAN QORXUNUN MƏ'NASI* ____ *134*
*ZİDDİYYƏTLİ HALLARIN EYNİ ZAMANDA BAŞ VERMƏSİ* ____ *138*

*ON ÜÇÜNCÜ DƏRS* ____ *141*

**DÜNYANIN KİÇİKLİYİ VƏ AXİRƏTƏ DİQQƏTİN ƏHƏMİYYƏTİ** ____ **141**

**BACARIQLI VƏ BACARIQSIZ İNSANIN BAXIŞ VƏ RƏFTARI ARASINDAKI FƏRQ** ____ **143**
*ƏMANƏTƏ VƏFA* ____ *144*
*QƏLBİ VƏ RUHİ HAZIRLIQ* ____ *144*
*a) ƏMANƏTƏ VƏFANIN ROLU* ____ *145*
*b) RUHİ VƏ QƏLBİ HAZIRLIĞIN ROLU* ____ *147*
*ALLAHIN NƏZƏRİNDƏ DÜNYANIN DƏYƏRSİZLİYİ VƏ KİÇİKLİYİ* ____ *153*

*ON DÖRDÜNCÜ DƏRS* ____ *157*

**AXİRƏT İSTƏYİNİN SİTAYİŞİ, DİNDƏ ZÖHD VƏ BƏSİRƏT, DÜNYA İSTƏYİNİN MƏZƏMMƏT OLUNMASI** ____ **159**

**DÜNYANIN LƏZZƏTİ VƏ İMANIN ALİLİYİNİN BƏYANI** **159**

**AXİRƏTİ SEVMƏYİN LÜZUMU** ____ **161**

**ALLAHIN XEYİRXAHLIĞI VƏ DİN HAQQINDA AGAHLIQ** ____ **163**

*ON BEŞİNCİ DƏRS* ____ *169*

**HİKMƏT VƏ BƏSİRƏT PEYĞƏMBƏRİN (S) HƏYAT YOLUNUN BİR HİSSƏSİDİR** ____ **169**

HİKMƏT VƏ BƏSİRƏT PEYĞƏMBƏRİN HƏYAT YOLUNUN BİR HİSSƏSİDİR ____ 171

HİKMƏT VƏ BƏSİRƏT ZÖHDÜN MƏHSULUDUR ____ 171

ZAHİD İNSANIN NİŞANƏLƏRİ ____ 174

UZUN-UZADI ARZULAR VƏ FƏALİYYƏTDƏN YAYINMAQ, TƏQVA VƏ TƏVƏKKÜLÜN ZƏİFLƏMƏSİNƏ BİR NİŞANƏDİR ____ 178

PEYĞƏMBƏRİN (S) HƏYAT YOLUNA BİR BAXIŞ ____ 179

*ON ALTINCI DƏRS ____ 182*

MAL VƏ VƏZİFƏ HƏRİSLİYİNİN XƏTƏRİ, QƏNAƏT VƏ SADƏLİYİN SİTAYİŞİ ____ 182

DÜNYA HƏDƏFDİR, YA VASİTƏ? ____ 184

FƏQİR MÖ'MİNLƏR CƏNNƏTİN RAHAT YOLÇULARIDIR ____ 185

QƏNAƏT VƏ SADƏLİYİN SİTAYİŞİ VƏ HƏRİSLİYİN MƏZƏMMƏTİ ____ 189

DÜNYAYA E'TİNASIZLIĞIN SİTAYİŞİ ____ 190

*ON YEDDİNCİ DƏRS ____ 194*

AĞLAMAĞIN AXİRƏTƏ TƏ'SİRİ, MÖ'MİNİN QƏLBİNİN GENİŞLİYİ VƏ TƏQVALI OLMASI ____ 194

AĞLAMAĞIN AXİRƏTƏ TƏ'SİRİ, MÖ'MİNİN QƏLBİNİN GENİŞLİYİ VƏ TƏQVALI OLMASI ____ 196

AXİRƏT ÜÇÜN AĞLAMAĞIN TƏ'SİRİ ____ 196

MÖ'MİNİN QƏLBİNİN GENİŞLİYİ VƏ ONUN NİŞANƏLƏRİ ____ 198

TƏQVALI OLMAQ, RİYA VƏ NİFAQDAN DÖNMƏK ____ 201

NİYYƏT VƏ ONUN ƏMƏLİN ÖLÇÜSÜNDƏKİ ROLU ____ 203

*ON SƏKKİZİNCİ DƏRS ____ 205*

ALLAHIN ƏZƏMƏT VƏ CƏLALININ UCA TUTULMASI 205

ALLAHIN ƏZƏMƏT VƏ CƏLALININ UCA TUTULMASI 207

İLAHİ ZİKR QUR'AN VƏ RƏVAYƏTLƏRDƏ ____ 207

**ZİKRİN KƏMİYYƏT VƏ KEYFİYYƏTİ ________________ 209**

**DİL VƏ QƏLBLƏ OLAN ZİKRİN BAĞLILIĞI __________ 211**

**DİLLƏ OLAN ZİKRİN İKİ FAYDASI __________________ 212**

***ON DOQQUZUNCU DƏRS ___________________________ 216***

**ALLAHIN ƏZƏMƏTİ MƏLƏKLƏRİN NƏZƏRİNDƏ_____ 216**

**ALLAHIN ƏZƏMƏTİ MƏLƏKLƏRİN NƏZƏRİNDƏ_____ 218**

**ÜMİD VƏ QORXUNUN TƏKANVERİCİ ROLU _________ 218**

**XOF VƏ XƏŞYƏTİN MAHİYYƏTİ____________________ 220**

**İLAHİ QORXUNUN FAYDASI VƏ YERİ ________________ 221**

**ALLAH ÖVLİYALARI XOFUNUN MƏQAMI ____________ 223**

**İNSANIN KAMALI VƏ HAQQ QARŞISINDAKI ACİZLİYİ 225**

**İLAHİ XOF VƏ GÜNAHDAN DÖNMƏK________________ 226**

**ALLAH DOSTLARI VƏ MƏLƏKLƏRİNİN XOF MƏQAMINA BAXIŞININ ROLU ______________________________________ 227**

***İYİRMİNCİ DƏRS _________________________________ 230***

***PEYĞƏMBƏRİN (S) CƏNNƏT VƏ CƏHƏNNƏM BARƏSİNDƏ BUYURDUQLARI ______________________ 230***

**PEYĞƏMBƏRİN (S) CƏNNƏT VƏ CƏHƏNNƏM BARƏSİNDƏ SÖYLƏDİKLƏRİ ________________________________________ 232**

**MƏXLUQATIN ƏZƏMƏTİ HAQQINDA DÜŞÜNMƏK____ 232**

**QİYAMƏTİN VƏSFEDİLMƏZ ƏZƏMƏTİ ______________ 234**

**PEYĞƏMBƏRİN CƏHƏNNƏM ƏZABI BARƏSİNDƏ BUYURDUQLARI ______________________________________ 236**

**CƏHƏNNƏM QAYNAMAĞA BAŞLAYANDA İNSANLARIN VƏ MƏLƏKLƏRİN KEÇİRƏCƏKLƏRİ HAL ____________ 237**

**CƏNNƏT - MÖ’MİNLƏRİN ƏN ALİ MƏNZİLİ __________ 239**